"AZƏRİTTİFAQ"
AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

İSSN 2218-91-49

KOOPERASİYA

elmi-praktiki jurnal

№ 3 (38)-2015

“Kooperasiya” elmi-praktiki jurnal

Научно-практический журнал “Кооперация”

Scientific-practical journal “Cooperation”

Jurnal 2005-ci ilin yanvar ayından çıxır.
№ 3 (38) 2015

Təsisçi: Azərbaycan Kooperasiya Universiteti

Redaksiya heyəti:

i.e.d., prof. ELDAR QULİYEV **(baş redaktor)**
i.e.d., prof. BƏYALI ATAŞOV **(baş redaktorun müavini)**
akademik ZİYAD SƏMƏDZADƏ
i.e.d., prof. AMEA-nın müxbir üzvü ƏLİ NURİYEV
i.e.d., prof. ELDAR İBRAHİMOV
i.e.d., prof. İSA ALIYEV
f.r.e.d., prof. ABDULLA İSAYEV
i.e.d., prof. GƏNCƏLİ GƏNCİYEV
r.e.d., prof. ƏMİNAĞA SADIQOV
i.e.d., prof. AMİL MƏHƏRRƏMOV
c.e.d., prof. ZAHİD MƏMMƏDOV
i.e.d., prof. RƏSUL BALAYEV
i.e.d., prof. NAMİQ TAĞIYEV
i.e.n., dos. TAHİR ŞÜKÜROV
i.e.n., dos. ELSEVƏR KƏRİMOV **(məsul redaktor)**

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 15 mart 2005-ci il tarixdə №1250 ilə qeydə alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 6 iyul 2012-ci il tarixli (protokol №10-R) qərarı ilə İqtisadiyyat elmləri üzrə “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı”na daxil edilmişdir.

Redaksiyanın ünvanı:
AZ1106, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi 93
tel: 562-25-43, 562-74-24, faks: (+99412) 5614134
e.mail: mail@aku.edu.az
web:www.aku.edu.az

Materiallarımızdan istifadə olunarkən jurnala istinad etmək vacibdir.

Tirajı 300 ədəd

Texniki redaktor: Əhməd ZİYƏDDİNOĞLU
Kompüter və dizayn: Hacı İSMAYILOV

İSSN kodu 2218-91-49

MÜNDƏRİCAT

I BÖLMƏ
REGİONAL İQTİSADİYYAT VƏ XİDMƏT SAHƏLƏRİNİN İNKİŞAFI

Aygün Eldar qızı QULİYEVA
Regional inkişafda maliyyə amili.....5

Təranə QURBANOVA
Regional inkişaf strategiyası: klasterləşmə və innovativ idarəetmənin təkmilləşdirilməsi.....10

Səadət Aslan qızı HÜSEYNOVA, Aygün Rafiq qızı NAĞIYEVA,
Ülviyyə Elton qızı SƏDRƏDİNOVA, Vüsalə Elbrus qızı DUBUŞOVA
Yuxarı Qarabağ iqtisadi rayonunun ekoloji vəziyyətinin qiymətləndirilməsi.....14

Rəsmiyyə Sabir qızı ABDULLAYEVA, Vüsalə Yavər qızı NAĞIYEVA
Azərbaycanda qeyri-dövlət pensiya təminatının formalaşdırılması yolları.....21

Ülviyyə İbrahim qızı RZAYEVA
Aqrar sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin regional istiqamətləri.....27

Elçin Etibar oğlu ƏKBƏROV
Azərbaycanda turizm müəssisələrinin rəqabətqabiliyyətlilik kontekstində müasir
vəziyyəti və inkişaf potensialı.....32

Firiş Balış oğlu ŞƏKƏRƏLİYEV
Auditin ictimai-iqtisadi həyatdakı inkişafının müasir tələblər baxımından təhlili.....38

II BÖLMƏ
MÜASİR SƏNAYE SİYASƏTİ VƏ SƏNAYE SAHƏLƏRİNİN İNKİŞAFI

Ehtibar Əsgər oğlu İMAMVERDİYEV, Vəfa Nizami qızı QULİYEVA
Sənaye istehsalının diversifikasiyası strategiyası.....45

Саламиан Садра АМИРШАХРУХ
Совершенствование механизма управления инновационной деятельностью
иностранных и совместных предприятий в Азербайджане.....51

Vüsalə Hamlet qızı BƏKİROVA
Azərbaycanın neftqazçıxarma müəssisələrində xərclərin azaldılmasının sinerji effekti.....60

Ramil Çingiz oğlu ƏLİYEV
Elmtutumlu sənaye texnologiyaları və rəqabət qabiliyyətli istehsal sisteminin
təşəkkülünün nəzəri-metodoloji məsələləri.....66

Günay Oqtay qızı ƏLİYEVA
Sənaye innovasiyalarının investisiyalaşdırılması proseslərinin tənzimlənməsinin
konseptual aspektləri.....73

III BÖLMƏ
MALİYYƏ, BANK VƏ İNVESTİSİYA MƏSƏLƏSİ

Лала Тофик гызы НЕЙМАТОВА
Зарубежный опыт по управлению финансово-промышленными группами.....80

İntizar Mirzəli qızı QURBANOVA
Ali məktəblərə əlavə maliyyə vəsaitlərinin cəlb olunması yolları.....86

Yeganə Rəşid qızı KƏRİMOVA
Kommersiya banklarının maliyyə əməliyyatlarının nəticələrinin proqnozlaşdırılması
məsələsinin qoyuluşu.....92

İsmayıl Mikayıl oğlu HÜSEYNOV
Kommersiya banklarında uçot siyasəti, analitik və sintetik uçotun mahiyyəti 99

Pərviz Vidadi oğlu ZEYNALOV
Kommersiya banklarında tətbiq olunan kredit siyasətinin mahiyyəti
(nəzəri və praktiki aspektlər).....113

Firdovsi Damət oğlu BAĞIROV
İnvestisiya anlayışı və mahiyyəti.....120

IV BÖLMƏ
BAZAR: SAHİBKARLIQ FƏALİYYƏTİ

Günay Şadət qızı MUSAYEVA
İstehlak bazarının formalaşmasının nəzəri aspektləri.....127

Leyla Nizaməddin qızı HÜSEYNOVA
Əmək bazarının riyazi modelləşdirilməsi və proqnozlaşdırılması məsələsinin qoyuluşu.....135

Cavid Əjdər oğlu İSMAYILOV
Sahibkarlığın formalaşmasına və inkişafına təsir göstərən amillər.....141

Ramil Teyyub oğlu ƏLİYEV
İstehsal sahibkarlığının innovasiya təminatı.....149

Nəbi Həbib oğlu VƏLİYEV
Sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasında vergi amilindən istifadənin təkmilləşdirilməsi...155

V BÖLMƏ
KEYFİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ, İQTİSADİ İNTEQRASİYA VƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ

Vilayət Abbas oğlu ƏLİYEV
Ətin keyfiyyət səviyyəsinin qiymətləndirilməsi.....161

Müslimat Allahverdi qızı ALLAHVERDİYEVA
İnteqrasiya prosesləri şəraitində transmilli biznesin tənzimlənməsinin nəzəri-metodoloji əsasları.....166

İlqar Rauf oğlu SULTANLI
Ərzaq təhlükəsizliyi və ərzaq bazarının vəziyyətini şərtləndirən amillər.....174

I BÖLMƏ
REGİONAL İQTİSADİYYAT VƏ XİDMƏT SAHƏLƏRİNİN İNKİŞAFI

UOT 332.122

Aygün Eldar qızı QULİYEVA
iqtisad üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət Aqrar Universitetinin doktorantı

REGİONAL İNKİŞAFDA MALİYYƏ AMİLİ

Xülasə

Azərbaycanda həyata keçirilən regional siyasətin uğurlarında maliyyə resurslarından istifadənin mövcud sistemi həlledici rol oynayır. Bununla belə, həmin sistemin təkmilləşdirilməsi regional siyasətin uğurlarının daha böyük və davamlı olmasının mühüm şərti olaraq qalır. Məqalədə regionların inkişafın maliyyə - kredit təminatının aktual problemləri tədqiq olunmuş, maliyyə resurslarından istifadə səmərəliliyinin yüksəldilməsinə dair təkliflər irəli sürülmüşdür.

Açar sözlər: regional inkişaf, maliyyə-kredit təminatı, aqrar sahə, səmərəlilik.

Giriş

XXI əsrdə iqtisadi mərkəzəqaçma proseslərinin, ümumilikdə urbanizasiya proseslərinin sürətlənməsi, məhsuldar qüvvələrin ölkə daxilində yerləşməsi, regionların tarazlı inkişafına, habelə həmin inkişafın dəstəklənməsinin maliyyə məsələlərinə diqqəti artırmışdır. Postsovet ölkələrinin əksəriyyəti üçün xarakterik olan sürətli, bəzən arzuolunmaz yüksək həddə çatan urbanizasiya proseslərinin neqativ nəticələri özünü kifayət qədər əyani şəkildə göstərir. Bu və digər səbəblərdən, milli və qlobal miqyasda tarazlı, innovativ və dinamik regional inkişafın səmərəli maliyyə - kredit mexanizminin formalaşdırılması və inkişafının həm elmi-nəzəri, həm də təcrübi problemləri gündəlikdən düşmür. Belə ki, postsovet məkanı ölkələrində regional maliyyə siyasətinin prioritetləri müəyyənləşdirilir, onların reallaşdırılmasına proqram - məqsədli yanaşma tətbiq edilir. Azərbaycan Respublikasında bu sahədə qazanılan təcrübə, xüsusilə regional inkişafın dövlət proqramlarının maliyyələşdirilməsi təcrübəsi beynəlxalq ekspertlər tərəfindən müsbət qiymətləndirilir.

Regional inkişafı şərtləndirən amillər.

Səviyyəsindən asılı olmayaraq iqtisadi subyektlərin fəaliyyətinin səmərəliliyini şərtləndirən əsas ənənəvi amillərə torpaq, əmək, kapital, habelə sahibkarlıq və təşkilatlanma qabiliyyəti aid olunursa, regional səviyyədə həmin amillərlə kifayətlənmək üçün qeyd - şərtlər birmənalı müəyyənləşdirilməlidir. Empirik regional tədqiqatların başlanğıcında regional inkişaf templərindəki fərqləri aşkara çıxarmaq təhlilə cəlb olunan amillərə, gözlənildiyi kimi, ilk növbədə, təbii və əmək resurslarının kəmiyyəti və keyfiyyəti, kapital ehtiyatları və texnoloji inkişaf səviyyəsi aid edilirdi. Hazırda da belə yanaşmalara rast gəlinir.Aparılan nəzəri tədqiqatlar və təcrübi araşdırmalar sayəsində bir qədər sonra, regional inkişaf templərindəki fərqləri aşkara çıxarmaq üçün milli iqtisadiyyatın vəziyyətini şərtləndirən amillərlə yanaşı, məkan amillərinin nəzərə alınması zərurəti əsaslandırıldı. Əksər müəlliflər hesab edirdi ki, cəmiyyətin inkişafının məkan aspekti mürəkkəb proses olub, iqtisadiyyatda artım və struktur dəyişmələri ilə yanaşı, habelə əmək resurslarının geniş təkrar istehsalı və həyatın keyfiyyətinin yüksəldilməsi imkanlarının gerçəkləş-

dirilməsi məsələlərinə də aydınlıq gətirilməsini nəzərdə tutur. Regional artım nəzəriyyəsində mühüm metodoloji addım kimi qəbul edilən və əsasən H.Zibertin adı ilə əlaqələndirilən bu yanaşma, inkişafın məkan və kapital amillərinə diqqətin artması ilə müşayiət olundu. Sonrakı tədqiqatlar da belə bir fikri bir daha təsdiq etdi ki, bölüşdürücü xarakter daşıyan maliyyə təkrar istehsal anlayışı olmaqla, maliyyə münasibətləri həm milli, həm də regional səviyyədə istehsal münasibətlərinin,ümumilikdə iqtisadi fəallıq mühitinin mühüm tərkib hissəsidir. Müasir dövrdə aparılan tədqiqatlarda da kapital və məkan amillərinin birgə nəzərə alınmasının məhsuldar yanaşma olması barədə kifayət qədər inandırıcı dəlillərə rast gəlinir. "Regionun rəqabət qabiliyyətinə təsir edən əsas amillər aşağıdakılardır: təbii resurslar, yüksək ixtisaslı kadrlar, kapital, inkişaf etmiş infrastruktur, institusional inkişaf səviyyəsi və s." [1, s.21]

Araşdırmalar regional inkişafda önə çəkilən nəqliyyat amilinin rolunun, onun kapital, əmək, torpaq amillərindən asılılığının nəzərə alınması metodikasından, daha doğrusu onun mükəmməlliyi dərəcəsindən asılı olduğunu söyləməyə əsas verir. Məsafə amilinin kapital, əmək və torpaq amillərindən asılılığının nəzərə alınması metodikasının mükəmməlliyi, tətbiq edilən üsullardan və onların əhatə dairəsindən asılı olaraq müəyyənləşdirilə bilər. Deyək ki, məsafə (nəqliyyat) amilinin kapital, əmək və torpaq amillərindən asılılığının çoxamilli təhlili metodikasının mükəmməlliyi müvafiq üsulların tətbiqi nəticələrinin reallığa adekvatlıq səviyyəsi ilə dəyərləndirilə bilər. Təsərrüfatçılıq təcrübəsində istehsal funksiyalarının qurulması, məlum olduğu kimi, daha əlyetən yanaşmadır. Təbii ki, bu halda sözügedən amillərin regional iqtisadi artıma töhfəsi dəqiqləş - dirilməlidir. Belə bir fikirlə razılaşmaq olar ki, "həm Zibertin, həm də R.Solounun klassik modelində istehsalın ayrı-ayrı amillərinin bir-birini qarşılıqlı əvəzləməsi imkanı, yəni həmin amillərin aqraqat artıma töhfəsinin regionlar üzrə fərqləndirilməsi mümkünlüyü nəzərə alınmalıdır." [2, s.23]

Regionların tarazlı inkişafının maliyyə - kredit təminatı.

Regional artımın neoklassik nəzəriyyələrində kapitalın inkişaf etmiş rayonlardan, mənfəət normasının yüksək olduğu daha az inkişaf etmiş rayonlara axması qeyd olunur. İqtisadi reallıqda isə, vəziyyətin xeyli dərəcədə fərqli olduğu görünür. Əksər ölkələrdə həyata keçirilən regionların tarazlı sosial-iqtisadi inkişafı proqramları məhz həmin nəzəri müddəanın, özünü tam doğrultmadığını deyil, regional inkişafı şərtləndirən daha çox amilin təhlilə cəlb edilməsinin və əldə edilən nəticələrə əsaslanmağın məqsədəuyğun olduğunu göstərir. Tarazlı regional inkişafın prioritet olduğu müasir dövrdə regionların inkişafının maliyyə - kredit təminatı məsələləri xüsusi aktuallıq kəsb edir. Azərbaycanda bu aktuallıq regionların sosial - iqtisadi inkişafının sürətləndirilməsi üzrə davamlı proqramların həyata keçirilməsi şəraitində, regional fərqlərin azaldılması istiqamətində atılan uğurlu addımlarda maliyyənin artan rolu ilə əlaqədardır. Digər amil qismində, hüquqi və demokratik dövlət quruculuğu şəraitində idarəetmədə əksmərkəzləşmə meyillərinin güclənməsi qeyd olunmalıdır. Regional inkişafın maliyyə - kredit təminatı, ölkədə həyata keçirilən maliyyə siyasətindən bilavasitə asılıdır. Regional maliyyə siyasəti qanunvericilik əsasında dövlətin maliyyə ehtiyatlarının səfərbərliyə alınması, onların bölüşdürülməsi və istifadəsi, habelə regionun iqtisadi vəziyyətindən, burada həll edilən sosial - iqtisadi problemlərin xarakterindən asılı olaraq dövlətin həyata keçirdiyi tədbirlər kompleksidir. Regional maliyyə siyasətinin proritetlərinə, ilk növbədə, maliyyə risklərini azaldılması, regionun investisiya cəlbediciliyini yüksəldilməsi və onun maliyyə potensialının gücləndirilməsi aid edilir.

Regional maliyyənin əsas komponentlərindən biri də təsərrüfatçılıq subyektlərinin öz vəsaitləridir. Digər komponent müxtəlif qurumların sosial-mədəni və mənzil - kommunal obyektlərinin maliyyələşdirilməsinə yönəldilən maliyyə resurslarıdır. Regional maliyyənin daha bir komponenti büdcədənkənar ərazi fondlarıdır. Həmin fondlar əsasən aşağıdakı mənbələr hesabına formalaşır: müəssisələrin və vətəndaşların könüllü ianələri, borc vəsaitləri, mərkəzləşdirilmiş büdcədənkənar fondlardan daxilolmalar, xüsusi yığımlar (deyək ki, sığorta yığımları və) i.a.. Regional inkişafın maliyyə - kredit təminatının yaxşılaşdırılması imkanlarını aşkar etmək üçün müvafiq qabaqcıl

xarici təcrübənin araşdırılmasına, regional siyasətin reallaşdırılmasında tətbiq edilən maliyyə alətlərinin tətbiqi mühitinə münasibət bildirməyə ehtiyac vardır. "Dünya təcrübəsində regional siyasətin reallaşdırılmasında tətbiq edilən ən mühüm maliyyə alətləri aşağıdakılardır: struktur fondları (Avropa Birliyində fəal istifadə olunur), infrastrukturun inkişafı proqramları (Kanada), regional-bələdiyyə inkişafı fondları (Rusiya Federasiyası, Braziliya, Hindistan, Latviya da daxil olmaqla 50-dən artıq ölkə). Dövlətin himayəsi ilə xarici ölkələrdə yaradılan bu fondlar regionlarda infrastruktura, insan kapitalına, innovasiya imkanlarının gerçəkləşdirilməsi və ətraf mühitin vəziyyətinin yaxşılaşdırılmasına investisiyaları dəstəkləyir. Bu zaman maliyyələşdirmənin müxtəlif sxemləri tətbiq olunur: dövlət və regional hakimiyyət arasında bir neçə illik razılaşma (Fransa, Almaniya); qrantlar və birgə maliyyələşdirmə (Avropa Birliyi); dövlət - özəl tərəfdaşlığı (Rusiya)." [3]

Rusiya Federasiyasında regionların büdcə maliyyələşdirilməsində onların investisiya cəlbediciliyi reytinqi önə çəkilir. Odur ki, 2012-ci ildən başlayaraq regionların investisiya cəlbediciliyi reytinqini müəyyənləşdirmək üçün onların fəaliyyətinin kompleks qiymətləndirilməsinə, o cümlədən sahibkarlıq mühitinin xarakterizə edilməsi işinə başlanmışdır. Bu prosesdə beynəlxalq təşkilatların iştirakı təmin edilmişdir. Deyək ki, Dünya bankının "Rusiyada biznes - 2012" reytinq qrupunun Peterburq beynəlxalq iqtisadi forumundakı təqdimatı maraqla qarşılanmışdır.

Azərbaycanda regionlarının sosial - iqtisadi inkişafına dair Dövlət Proqramları çərçivəsində həyata keçirilən tədbirlərin maliyyələşdirilməsi mənbələri sırasında aparıcı mövqe dövlət büdcəsinə məxsusudur. 2003-cü ildən başlayaraq reallaşdırılan regional inkişaf proqramlarında bu mənbənin xüsusi çəkisində tədrici azalma müşahidə olunur. Buna səbəb digər mənbələrin, o cümlədən büdcədənkənar dövlət fondlarının (dövlət tərəfindən hüquqi şəxs qismində təsis edilmiş və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik məqsədli maliyyə fondlarının) imkanlarının genişlənməsi və mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların maliyyə durumunun yaxşılaşmasıdır. Eyni sözləri Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu və Azərbaycan Respublikası Prezidentinin 30 mart 2006-cı il tarixli Sərəncamı ilə yaradılmış "Azərbaycan İnvestisiya Şirkəti" ASC- barədə də demək olar. Ölkə regionlarının sosial - iqtisadi inkişafına dair Dövlət Proqramları çərçivəsində həyata keçirilən tədbirlər habelə, yerli və xarici sahibkarların vəsaitləri, beynəlxalq təşkilatların və xarici dövlətlərin maliyyə vəsaitləri, qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

Respublika regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları çərçivəsində həyata keçirilən tədbirlərin icrasında ölkənin bank sisteminin iştirak dairəsi tədricən genişlənməkdədir. Bu baxımdan, əsas məqsədi neft gəlirlərinin qeyri - neft bölməsinə optimal trasformasiyası, əhalinin və regionların bank xidmətlərinə çıxış imkanlarının artırılması olan inkişaf strategiyasının həyata keçirilməsi sayəsində ciddi uğurlar əldə edilmişdir. Belə ki, elektron bankçılığın inkişafı, müştərilərə ən mütərəqqi bank məhsulları, habelə,avtomatlaşdırılmış bank köşkləri, mobil -bank və s. kimi müasir texnoloji vasitələr təklif etməklə, bank sisteminin regional şəbəkəsi genişləndirilir. Eyni zamanda, 100-ə yaxın bank olmayan kredit təşkilatının ahəngdar fəaliyyətini təmin etməklə, bankların göstərdiyi xidmətlərin çeşidi zənginləşdirilir, pərakəndə bank xidmətləri şəbəkəsinin sürətli inkişafı baş verir. Regionlarda bank xidmətlərinə çıxış imkanlarının artırılması üçün "Azərpoçt" MMC-nin yenidən qurularaq,onun 1200-dən çox regional poçt filial və şöbələrinə yerlərdə maliyyə xidmətlərinin göstərilməsi üçün müvafiq lisenziya verilməsi də diqqətəlayiq hadisədir.

Aqrar regionlarda sosial-iqtisadi inkişafın maliyyə - kredit təminatı, kənd təsərrüfatı istehsalının məkan pərakəndəliyi amilini nəzərə almalıdır. Odur ki, həmin regionların kreditləşdirilməsində iştirak edən qurumlar tərkib müxtəlifliyii ilə diqqəti cəlb edir.

Regional inkişafın kredit təminatında Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu əhəmiyyətli rol oynayır. Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) vəsaitləri hesabına Müsabiqə Komissiyası tərəfindən seçilmiş müvəkkil banklar vasitəsilə sahibkarlıq subyektlərinə

güzəştli kreditlər verilir. "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi Qaydaları"na uyğun olaraq Dövlət Proqramlarında iqtisadiyyatın bu və ya digər sahəsinin inkişafı ilə bağlı nəzərdə tutulan konkret layihələrin Fondun vəsaiti hesabına həyata keçirilməsi məqsədilə Fondun Müşahidə Şurasının müəyyən etdiyi qaydada sahibkarlıq subyektləri arasında müsabiqə keçirilə bilər.

Regionların sosial - iqtisadi inkişafının yüksələn tempi, daha ciddi iqtisadi layihələrin icrası üçün əlverişli mühitin formalaşması kimi amillər nəzərə alınaraq Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 oktyabr tarixli "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi mexanizminin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi Qaydaları"na əlavə və dəyişikliklər edilərək güzəştli kreditin yuxarı həddi və müddəti ciddi surətdə artırılmışdır. Fondun vəsaitləri hesabına regionlarda kənd təsərrüfatı, sənaye, istehsal təyinatlı tikinti, xidmət və digər sahələrdə kiçik və orta sahibkarlığın inkişafı dəstəklənir. Aqrar sahə diqqət mərkəzində olmaqla, burada aşağıdakı fəaliyyət növləri kreditləşdirilir:

- bitkiçilikdə - modern istixana komplekslərinin, intensiv üzümçülük, bağçılıq və tingçilik, iri taxılçılıq və toxumçuluq təsərrüfatlarının yaradılması;
- heyvandarlıqda - ətlik və südlük istiqamətli cins iri buynuzlu heyvandarlıq komplekslərinin, modern quşçuluq təsərrüfatlarının yaradılması;
- aqroemalda - müasir çörək və un məmulatları istehsalı müəssisələrinin, modern üzüm, meyvə və tərəvəz emalı müəssisələri şəbəkəsinin genişləndirilməsi;
- xidmət sahələrində - ərzaq və qeyri - ərzaq məhsullarının saxlanması, daşınması və satışı üzrə loqistik mərkəzlərin təşkili və s.

Milli və regional səviyyədə sosial - iqtisadi inkişafın maliyyə təminatında ekoloji vergi mexanizminin rolu, müvafiq hüquqi - normativ bazanın vəziyyəti və təşəkkülü meyillərindən asılıdır. İnkişaf etmiş ölkələrin, xüsusilə Qərbi Avropa ölkələrinin təcrübəsi göstərir ki, yerli əhəmiyyətli ekoloji vergilər və cərimələr regional maliyyələşmənin ciddi mənbəyi ola bilər. Digər tərəfdən, ekoloji təmiz istehsal və digər fəaliyyət növü ilə məşğul olan regional müəssisələr üçün güzəştli və imtiyazlı rejimin yaradılması regionda ətraf mühiti qoruma fəaliyyətini stimullaşdırmaqla, həyatın keyfiyyətinə mühüm müsbət təsir göstərir.

Nəticə

Regionların dayanıqlı, daha dəqiq desək sosial - iqtisadi - ekoloji baxımdan tarazlı inkişafı milli iqtisadiyyatın dinamik inkişafının başlıca şərtlərindəndir. Konkret halda regionun dayanıqlı inkişafı dedikdə, məlum ərazidə bütün fəaliyyət növlərinin mümkün inteqrasiyası şəraitində gələcək nəsillərə problem yaratmayan inkişaf xətti nəzərdə tutulur. İntensiv inkişafın təbiətdən istifadə müstəvisində törətdiyi fəsadların aradan qaldırılması, intensivləşmədən imtinanı və ekstensiv inkişafa keçidi nəzərdə tutmur.

Bir məsələ üzərində dayanmaq, zənnimizcə,məqsədəuyğundur. Regionların dayanıqlı inkişafının təminatı baxımından perspektivli sayılan istiqamət həm təsərrüfatçılıqda, həm də onun maliyyə - kredit təminatında hərtərəfli əsaslandırılmış kreativ yanaşmalara üstünlük verilməsidir. Həmin yanaşmaların innovasiyalı inkişaf proqramları çərçivəsində reallaşdırılması üzrə qabaqcıl xarici təcrübənin öyrənilməsinə diqqət artırılmalıdır. Məsələ ondadır ki, respublikamızda maliyyə innovasiyalarının tətbiqi imkanları az öyrənilmişdir. Analoji inkişaf səviyyəsində olan və ya onu azacıq qabaqlayan ölkələrlə müqayisədə reallaşmamış böyük potensial, əslində dinamik inkişaf edən ölkəmizdə maliyyə innovasiyalarının tətbiqi imkanların genişliyinə dəlalət edir. Artıq sınaqdan çıxmış innovasiyalı maliyyə alətləri və vasitələrinin tətbiqi, məlum olduğu kimi alternativ axtarışı xərclərini azaldır. Deyək ki, postsovet məkanı ölkələri üçün maliyyə innovasiyaları sayılan törəmə qiymətli kağızlardan geniş istifadə inkişaf etmiş ölkələr üçün demək olar ki, ənənəvi ma-

liyyə alətlərinə çevrilmişdir.

Digər maliyyə innovasiyalarının tətbiqi aspektlərinə də diqqət artırılmalıdır. Maliyyə innovasiyası kimi aktivlərin sekyüritiləşdirilməsi məsələsi nisbətən az şərh olunduğuna görə, onun üzərində bir qədər dayanmaq məqsədəuyğundur. Aktivlərin sekyüritiləşdirilməsi ilkin yanaşmada qeyri - bazar borclarının və ya nağd pul axınlarının kapital bazarında sərbəst dövr edən qiymətli kağızlara çevrilməsi kimi təqdim olunur. Bu məqsədlə debitor borclarının müəyyən növü elə rəsmiləşdirilir ki, qiymətli kağızların alıcıları öz vəsaitlərinin qaytarılmasını həmin konkret öhdəliklər hesabına təmin edə bilsinlər. Borclar müxtəlif ola bilər və təcrübədə onların daha böyük məbləğdə olanı istehlak və ipoteka kreditləridir. Fəal surətdə yeni investisiyalar cəlb etmək üçün birjada səhmlərin ilkin açıq yerləşdirilməsi (Initial Public Offering - İPO) ölkəmizdə yaxın gələcək üçün perspektivli maliyyə innovasiyası sayıla bilər.

ƏDƏBİYYAT

1. Региональная экономика. М.: РЭУ им. Г.В.Плеханова, 2010, 376 с.
2. Кузнецова О.В. Экономическое развитие регионов: теоретическое и практическое аспекты государственного регулирования. Москва, Эдиториал УРСС, 2002, 309 с.
3. Абралиев О.А. Экономические аспекты регионального развития Республики Казахстан// Международной заочной научно-практической конференции “Экономика: теория и практика управления” (Россия, г. Новосибирск, 20 ноября 2012 г.). sibac.info/index.php/5068-2012).

Айгюн Эльдар гызы Гулиева
д.ф.э., докторант АГАУ

Финансовый фактор в региональном развитии

Резюме

В осуществлении сбалансированной региональной политики, проводимой в Азербайджане, ключевую роль играет система рационального использования финансовых ресурсов. Наряду с этим, совершенствование этой системы остается важным условием для более успешной реализации региональной политики. В статье исследованы актуальные проблемы финансово-кредитного обеспечения регионального развития, даны предложения по повышению эффективности использования финансовых ресурсов.

Ключевые слова: региональное развитие, кредитно - финансовое обеспечение, аграрный сектор, эффективность.

Aygun Eldar Guliyeva
PhD in economics,
PhD in Azerbaijan State Agrarian University

Financial factor in regional development

Summary

The financial recourses in the success of regional policy implemented in Azerbaijan keeps the important place. Besides it, the improvement of the same system stays as the important condition of being greater and sustainable of regional policy successes. The actual problems of financial and credit ensuring of regional development are investigated; offers about increase of efficiency of usage financial recourses are given in this article.

Key words: regional development, financial and credit provision, agrarian sector, efficiency.

UOT 332.122

i.f.d., Təranə QURBANOVA
Azərbaycan Respublikası Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası,
"Dövlət idarəetməsi və menecment"
kafedrasının müəllimi

REGİONAL İNKİŞAF STRATEGİYASI: KLASTERLƏŞMƏ VƏ İNNOVATİV İDARƏETMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Xülasə

İqtisadiyyatın yenidən qurulması, yüksək inkişafının təmin edilməsi istiqamətində regional siyasət olduqca məqsədyönlü və vacib məsələdir. Məqalədə regional inkişaf strategiyasının əsas istiqamətlərindən və regional inkişaf istiqamətində innovasiyaların idarə edilməsi məsələlərindən danışılır. Regionlarda biznes-inkubatorların və klasterləşmənin əhəmiyyətindən bəhs edilir.

Açar sözlər: regional inkişaf strategiyası, innovasiyalar, biznes-inkubator, klasterləşmə.

Giriş

Regional inkişaf strategiyası ölkədə aparılan sosial-iqtisadi inkişaf siyasətinin mühüm tərkib hissələrindən biridir və bütövlükdə həmin siyasətin yerinə yetirilməsinə xidmət edir. Sosial-iqtisadi inkişaf siyasətinin başqa tərkib hissələrindən fərqli olaraq, regional inkişaf strategiyasının özünəməxsus xüsusiyyətləri var. Regional inkişaf strategiyası mürəkkəb və kompleks xarakter daşıyır. Regional strategiyanın həyata keçirilməsində mütləq hər regionun özünəməxsus coğrafi şəraiti və həmin regionun əhalisinin tarixən məşğul olduğu sahə nəzərə alınmalıdır.

Regionlarda sosial-iqtisadi inkişafın mahiyyəti. Regionlarda sosial-iqtisadi inkişafın digər zəruri cəhəti onunla səciyyələnir ki, regiondaxili mövcud təbii resurslar bilavasitə ixracata təsir etməklə, regiona gətirilən valyutanı artırır. Məhz təbii resurslar, yeraltı sərvətlərin kəşfiyyatı, istehsalı əməktutumlu və kapitaltutumlu sahə kimi regiona investisiya gətirilməsinə imkan yaradır. Bu baxımdan hər bir dövlətin iqtisadi qüdrətinin güclənməsi istiqamətində ölkə təsərrüfatının ərazi təşkili, regionların daxili imkanlarından və mövcud potensialından səmərəli istifadə etməklə modernləşmə, innovativ inkişafın idarə edilməsi həlledici amildir. [3, s. 112, 119]

Klasterləşmə regional inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi. Müasir inkişaf mərhələsində regional sosial-iqtisadi inkişaf iqtisadi rayonların əmək ehtiyatlarından, istehsalın maddi ünsürlərindən, müxtəlif təbii ehtiyatlardan, iqlim şəraitindən, maliyyə imkanlarından, xarici investisiya və elmi-texniki potensialdan, ən əsası dövlətin dəstəyindən səmərəli istifadə edilməsi ilə müxtəlif təsərrüfatçılıq formalarının inkişafına nail olmaqla səciyyələnir.

Regional inkişaf strategiyasının əsas istiqamətlərindən biri də regionlararası fərqlərin aradan qaldırılmasıdır. Bu da ilk növbədə regionların klasterləşməsi məsələsini ön plana çəkir. Klasterlər müəyyən coğrafi ərazidə yerləşən, eyni sferada biri digərinin fəaliyyətini tamamlayan və qarşılıqlı əlaqədə işləyən işgüzar müəssisə və ya təşkilatlardan ibarətdir. Başqa sözlə, klaster birgə səylərlə çalışan, bir-birini tamamlayan əmtəələr istehsal edən və satan müəssisələrin sahə və coğrafi təmərküzləşməsini ifadə edir.

Klasterlər həm də biri digərini tamamlayan məhsullar da istehsal edir. Bununla da bir sahə üzrə istehsal digər sahənin də istehsalının genişlənməsinə zəmin yaradır. Ümumiyyətlə, klasterlər nəzəriyyəsinin mahiyyəti təkcə insan fəaliyyətinin məkan aspektinin tədqiqi ilə tamamlanmır, burada insanlarla yanaşı coğrafi mühit arasındakı qarşılıqlı münasibətlərin formalaşması, regionlararası fərqlərin aradan qaldırılması məsələsi də araşdırılır.

Regional səviyyədə klasterlərin tətbiqi ölkənin müxtəlif coğrafi ərazilərinin iqtisadi və sosial inkişaf səviyyələrinin bərabərləşdirilməsinə və ucqar rayonların iqtisadi, mədəni geriliklərinin aradan qaldırılmasına kömək edir, ictimai istehsalın təşkilində beynəlxalq əmək bölgüsünün nəzərə alınması işində əhəmiyyətə malikdir, bölgələrdə rəqabətin intensivliyini yüksəldir və yeni iqtisadi fəaliyyət sahəsinin formalaşması üçün imkanlar açır, o cümlədən xarici investisiyaların birbaşa cəlb edilməsi işinə də təkan verir.

Klasterləri sənaye qrupu da adlandırırlar. Bu qrup fəaliyyətlərinin eyniliyi və qarşılıqlı şəkildə biri digərini tamamlamaqla səciyyələnən, müəyyən sferada fəaliyyət göstərən, coğrafi cəhətdən yaxınlıqda yerləşən, qarşılıqlı əlaqədə olan müəssisələrdən ibarətdir. Klasterlərin coğrafi miqyasları bir şəhərin, əyalətin sərhədlərini aşaraq, hətta bir neçə qonşu ölkənin hüdudlarını da əhatə edə bilir.

Klasterlər sağlam rəqabətə şərait yaradır. Belə ki, əsas şirkətin törəmələri olan və eyni istehsal üzrə müxtəlif coğrafi məkanlarda fəaliyyət göstərən müəssisələr arasında, həmçinin müxtəlif ölkələrin həmsərhəd regionlarında fəaliyyət göstərən klaster müəssisələr arasında da güclü rəqabət yaranır.

Klasterlərin daxilində qarşılıqlı münasibətlərin qurulmasında önəmli rol oynayan prinsiplərdən biri də klasterdaxili çevik və birgə marketinq siyasətinin aparılmasıdır. Qarşılıqlı əlaqədə olan firma və sahələrin əlbir şəkildə tövsiyələr verməsi, təşəbbüslər göstərməsi, ticarət sərgilərinin təşkili, reklam işinin aparılması satış marketinqini formalaşdırır. Birgə marketinq regionun müəyyən iqtisadi sahələrdə nüfuzunu yüksəldir, istehlakçıların sayını artırır.

Klasterlərin təşkili işi üzrə proqram sənəddə əsasən az inkişaf etmiş regionlar əhatə olunmalıdır. Ölkə regionlarında klasterlərin təşkili xüsusiyyətlərinə aşağıdakı amilləri aid etmək olar:

- klasterlərin təşkili üçün normativ-hüquqi bazanın yaradılması və klasterlərin inkişaf etdiyi ölkələrin təcrübəsinin tətbiqi;
- klasterlərin yerləşdirilməsinin optimallığının təmin edilməsi. Yəni əsas meyar olaraq, klasterlərin hansı regionlarda formalaşdırılmasının gələcək davamlılıq üçün daha möhkəm zəmin yaradacağının müəyyənləşdirilməsi;
- klasterlərin qonşu regionlarla və qonşu dövlətlərin həmsərhəd regionları ilə iqtisadi münasibətlərinin stimullaşdırılması istiqamətində dövlətin tənzimlənmə tədbirləri - gömrük rüsumlarına güzəştlərin tətbiqi, kreditlərin ayrılması və s.;
- ucqar regionlarda, sərhədyanı bölgələrdə kənd təsərrüfatının müxtəlif sahələri, turizm, tarixi cəhətdən formalaşmış müxtəlif xalq tətbiqi sənəti üzrə sahibkarlıq fəaliyyətinin klasterləşməsinin stimullaşdırılması;
- ucqar regionlarda müəssisələrin yaradılması və istehsalın təkmilləşdirilməsi işində innovasiyaların tətbiq edilməsi.

Regionlarda klasterlərin təşkili rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən kiçik və orta həcmli qeyri-neft sənaye müəssisələrinin yaradılmasında, respublikanın müxtəlif yeyinti və digər sənaye məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsində mühüm əhəmiyyətə malikdir. Bundan əlavə, müasir texnologiyaların tətbiqinə əsaslanan investisiya layihələrinin reallaşdırılması regionların investisiya cəlbediciliyinin artırılmasına, digər sahələrin inkişafının stimullaşdırılmasına, eləcədə iqtisadiyyatın strukturunun təkmilləşdirilməsinə şərait yaradır. Bununla da, regionlarda sosial-iqtisadi inkişafa, əhalinin məşğulluğunun təmin edilməsinə, sahibkarlara dövlət qayğısı göstərməklə yerli məhsullar istehsalının genişləndirilməsinə nail olmaq mümkündür.

Göstərilən amillərdən bir daha aydın olur ki, klasterləşmə regionlararası fərqlərin yumşaldılmasında, ölkənin regionları arasında, həm də digər qonşu ölkələrin həmsərhəd regionları ilə marketinq münasibətlərinin qurulmasında, satışın həcminin və satış kanallarının, ümumilikdə ticarət əlaqələrinin genişlənməsində əhəmiyyətə malikdir. [1, s. 67-69]

Müəssisələrin səmərəliliyinin artırılmasında biznes-inkubatorların rolu.

Elmtutumlu texnologiyaların mənimsənməsində, innovasiya məhsullarının istehsal həcminin və ixracın artırılmasında müvəffəqiyyətlər əldə edilən sənaye ölkələrinin təcrübəsi, dövlət siyasətinin prioritet istiqamətləri sırasında innovasiya sahəsində strategiyaları seçmək imkanı verir.İnnovasiya strategiyasının yaradılmasının əsasını məhsulun yaşayış dövrü nəzəriyyəsi, müəssisənin bazar mövqeyi və onunla həyata keçirilən elmi-texniki siyasət təşkil edir. [2, s. 67]

Şübhəsiz ki, bu gün regionlarda keyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsalı innovasiyaların tətbiq edilməsini aktuallaşdırır. İnnovasiya imkanlarının gerçəkləşdirilməsi və genişləndirilməsi rəqabətədavamlı istehsalın təkmilləşdirilməsinin əsas şərtlərindən biridir.

Hazırda dünyanın bir çox ölkələrində sahibkarlığın dəstəklənməsi məqsədilə səmərəli təşkilati-idarəetmə mexanizmləri – biznes-inkubatorlar tətbiq edilir. Biznes-inkubatorlar ilk dəfə Böyük Britaniyada yaranmışdır. Onlar kiçik və orta sahibkarlığı dəstəkləyən metod kimi o qədər uğurlu oldu ki, 1999-cu ildə ABŞ-da 2000-ə qədər biznes-inkubator fəaliyyət göstərirdi, hal-hazırda isə onların sayı 4000-dən artıqdır.

Hətta keçid iqtisadiyyatı ölkələrində də biznes-inkubatorların sayı artmaqdadır. Hal-hazırda Rusiya Federasiyasında 60, Çex Respublikasında 20, Polşada 35 biznes-inkubator fəaliyyət göstərməkdədir. Rusiya Federasiyasının statistik göstəricilərinə nəzər salsaq, görərik ki, bir biznes-inkubatorun 63 kiçik sahibkara dəstək olması nəticəsində bir il ərzində 200 daimi və 250 müvəqqəti iş yerləri açıldı. İnkubasiya prosesindən keçən sahibkarların uğursuzluq səviyyəsi 10,4% aşağı düşmüşdür ki, bu da 10 sahibkardan 9-nun yaranmış çətinliklərə baxmayaraq, fəaliyyətini uğurla davam etdirməsi deməkdir.

Göründüyü kimi, biznes-inkubatorlar dünya təcrübəsində tətbiq olunan təşkilati-idarəetmə mexanizmidir və Azərbaycanın bugünkü intensiv iqtisadi inkişafında, müəssisələrin və yeni sahibkar cəmiyyətinin yarandığı bir vaxtda biznes-inkubatorların təşəkkülü dövlət əhəmiyyətli bir işə çevrilmişdir. Məhz bu nəzərə alınaraq, Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində artıq biznes inkubator fəaliyyətə başlayıb. Xaçmazda biznes-inkubatorun yaradılmasını sahibkarlığın inkişafına göstərilən növbəti dəstək kimi qiymətləndirmək olar. Biznes-inkubator gənclərin sahibkarlıq fəaliyyətinə cəlb edilməsinə, onların innovativ potensialının və təşəbbüskarlığının dəstəklənməsinə, məşğulluğun artırılmasına, eləcə də iqtisadi rayonun inkişafına da kömək edəcəkdir.

Ümumilikdə, biznes-inkubatorda ilkin olaraq 20 gənc turizm, istehsal, kənd təsərrüfatı və xidmət sahələrində sahibkar kimi hazırlanacaq. Biznes-inkubatorun fəaliyyəti üçün Quba-Xaçmaz Regional İnkişaf Mərkəzinin 2 mərtəbəsində 500 kvadratmetrə yaxın sahə ayrılıb və müasir tələblərə cavab verən ofis avadanlıqları ilə təchiz olunub. Burada gənclərə sahibkarlıq fəaliyyətinə başlamaq üçün nəzəri və praktik məlumatlar veriləcək, biznesin planlaşdırılması və idarə edilməsi, investisiya layihələrinin və biznes planların hazırlanması, marketinq araşdırmalarının aparılması, sərgilərin təşkili, potensial biznes tərəfdaşlarla əlaqələrin qurulması və digər məsləhət xidmətləri göstərilir. [1, s. 67-70]

Biznes-inkubator Bakı Biznes Tədris Mərkəzi tərəfindən hazırlanmış müvafiq tədris plan və proqramları, eləcə də zəruri metodiki vəsaitlərlə təmin olunub. Şübhəsiz ki, gələcəkdə biznes-inkubatorda yerli mütəxəssislərlə yanaşı xarici ekspertlərin cəlb olunması, fəaliyyəti də öz müsbət nəticəsini verər. Bundan başqa, biznes-inkubator iştirakçılarının fəaliyyət göstərdikləri sahələr üzrə gələcəkdə xarici ölkələrin müəssisələrində ixtisasartırma keçməsi onlarla biznes əlaqəsi qurmalarına köməklik göstərər. Bu baxımdan biznes-inkubatorların ölkənin digər iqtisadi rayonlarında da yaradılması məqsədəuyğundur.

Nəticə

Regional inkişaf strategiyası ölkənin iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi qiymətləndirilir. Regional səviyyədə yeni idarəetmə mexanizmlərinin tətbiqi ixracyönümlü

və rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsində, marketinq fəaliyyətinin təkmilləşdirilməsində, innovasiyaların tətbiqində və idarə edilməsində xüsusi əhəmiyyətə malikdirlər.

ƏDƏBİYYAT

1. Dövlət və bələdiyyə idarəçiliyi. Dərslik, ADİU-nun nəşriyyatı, 2011, 440 s.
2. Qarayev N. İnnovasiya menecmenti. Bakı: “Elm və təhsil”, 2011, 224 s.
3. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı, “Elm”, 2007, 427 s.

д.ф.э. Тарана Курбанова

Стратегия регионального развития: кластеризация и инновационный совершенствование управления

Резюме

Региональная политика в направлении обеспечения перестройки экономики, ее высокого развития – целенаправленная и важная задача.В статье указывается, что региональная политика в нашей республике направлена в целом на повышение социально-экономического развития, повышения уровня предпринимательства. Основными направлениями статье в регионального развития и стратегии регионального развития, вопросы управления инновациями.

Ключевые слова: региональная стратегия развития, инновации, бизнес-инкубатор, кластеризации.

Tarana Gurbanova
PhD in economics

Regional Development Strategy: clustering and innovative improving governance

Summary

It is important to realize a regional policy towards rebuilding economy and ensuring high development. The Article notes that the regional policy does not focus on only agrarian sector, but also rising of infrastructure, entrepreneurship and social- economic development in total.

Key words: regional development strategy, innovation, business incubator, clustering.

UOT 332.122

Səadət Aslan qızı HÜSEYNOVA
k.f.d., AKU-nun "Ekologiya və coğrafiya" kafedrasının baş müəllimi;
Aygün Rafiq qızı NAĞIYEVA
MAKA Eİ-nın aparıcı elmi işçisi;
Ülviyyə Elton qızı SƏDRƏDİNOVA
MAKA Eİ-nın böyük elmi işçisi;
Vüsalə Elbrus qızı DUBUŞOVA
MAKA Eİ-nın elmi işçisi

YUXARI QARABAĞ İQTİSADİ RAYONUNUN EKOLOJİ VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Məqalə Yuxarı Qarabağ iqtisadi rayonunda müasir ekoloji vəziyyətin təhlilinə həsr olunmuşdur. Tədqiqat rayonunun mövcud ekoloji problemləri və onların mümkün həlli yolları sahəsində aparılan tədqiqatlar iki mərhələyə bölünmüşdür: işğaldan əvvəl və işğal dövrünə aid elmi-statistik məlumatlar və araşdırmaların nəticələri. Yuxarı Qarabağ iqtisadi rayonu ərazilərinin müasir ekoloji vəziyyəti torpaq örtüyü, su hövzələri və atmosferin fon göstəriciləri ilə çirklənmənin vəsfi və miqdari xarakteristikasına aid parametr və göstəricilərin müqayisəli təhlilinin nəticələrinə əsasən qiymətləndirilmişdir.

Açar sözlər: Yuxarı Qarabağ, ekoloji atlas, eroziya, çirklənmə, ekoloji risk, ekoloji böhran, rekreasiya, qrunt suları, ekoloji potensial.

Giriş

Yuxarı Qarabağ iqtisadi rayonuna aid olan Ağdam, Tərtər, Füzuli rayonlarının qismən, Xocavənd, Şuşa, Cəbrayıl, Əsgəran, Xankəndi rayonlarının isə tamamilə erməni işğalı altında olması bu ərazilərin müasir ekoloji vəziyyəti haqqında birbaşa, dəqiq və etibarlı məlumatların əldə edilməsini imkansız etmişdir. Məlumatsızlıq şəraitində ekoloji qiymətləndirmə aparmaq çətindir. Dolayısı yolla alınmış məlumatlar (beynəlxalq ekoloji qurumların hesabatları, yaxın ərazilərdə yaşayan sakinlərin müşahidələri, aerokosmik tədqiqatlar və s.) əsasında isə bəzi mülahizələr söyləmək mümkündür.

Yuxarı Qarabağ iqtisadi rayonunun müasir ekoloji vəziyyətinin qiymətləndirilməsi üçün ərazinin mövcud ekoloji problemləri və onların mümkün həlli yolları sahəsində aparılan tədqiqatları iki mərhələyə bölmək məqsədəuyğundur:

- işğaldan əvvəlki dövrə aid tədqiqatların nəticələri və statistik məlumatlar;
- ərazinin işğal altında olduğu dövrə aid araşdırmaların nəticələri və elmi məlumat.

Yuxarı Qarabağ iqtisadi rayonunun ümumi ekoloji vəziyyətinin ilkin qiymətləndirilməsi torpaq örtüyünün, su şəbəkəsinin, atmosferin vəziyyətinin fon göstəriciləri ilə bu ekosistemlərin çirklənməsinin vəsfi və miqdari xarakteristikasını ifadə edən parametrlərin müqayisəli təhlilinin nəticəsinə əsaslanmışdır.

Yuxarı Qarabağ iqtisadi rayonunun müasir eko-coğrafi xarakteristikası. Tədqiqat obyekti kimi seçilmiş Yuxarı Qarabağ iqtisadi rayonunun Xocalı, Xankəndi, Şuşa ərazilərində landşaftın ekoloji potensialı nisbi yüksək, əhali üçün təbii həyat şəraiti nisbi əlverişlidir. Tərtərdə ekoloji potensial aşağı, Ağdam, Xocavənd, Füzuli rayonlarında ekoloji potensial orta, əhali üçün təbii həyat şəraiti şərti əlverişlidir. Landşaftın ekoloji potensialı baxımından Tərtər, Ağdam, Xocavənd, Füzuli rayonları ekoloji cəhətdən qismən gərgin rayonlara aiddir.

Yuxarı Qarabağ ərazilərinin torpaqları əsasən şorlaşmamış torpaqlardır. Tərtər, Ağdam və Xocalı rayonu ərazilərinin torpaqlarının bir hissəsi subasar allüvial-çəmən torpaqlarına, Xocavənd, Cəbrayıl rayonunun torpaqları tünd və adi dağ - şabalıdı, Füzuli, Xankəndi ərazisinin torpaqları isə tünd və adi dağ boz-qəhvəyi torpaqlara aiddir. Tərtər, Ağdam, Xankəndi ərazilərində çəmən torpaqları, Xocalı, Xocavənd, Füzuli, Cəbrayıl rayonları ərazisində isə şabalıdı torpaqlar üstünlük təşkil edir. [1, s. 59] Torpaqların ekoloji-coğrafi parametrləri aşağıdakı cədvəldə verilmişdir (cədvəl 1).

Cədvəl 1

Yuxarı Qarabağ torpaqlarının ekoloji-coğrafi parametrləri

Ekoloji- coğrafi parametrlər		Torpaqlar	
		Şabalıdı	Çəmən
H		300-500	100
Y		300-450	250
T		3800-4400	4400
BİP		1,8-2,20	0,8-2,0
Md		0,2-0,25	0,10-0,15
Humus, %		3,0	1,7
pH		7,5-8,2	7-4-8,6
S		48	40
Qr	g	0,80	0,36
	a.g	0,9	0,91
	o.g	1,00	1,00
	y.g	0,89	0,89
	q	-	0,6
E	e.u	1,00	-
	z.e	0,06	-
	o.e	0,4	-
	g.e	0,2	-
Ş	ş	1,0	1,0
	z.ş	0,9	0,86
	o.ş	0,64	0,6
	ş.ş	0,56	0,55

H – dəniz səviyyəsindən hündürlük
y – yağıntıların orta illik miqdarı, mm
T – ∑T°>10°C-dən yuxarı fəal temperaturların orta illik cəmi
BİP – bioiqlim potensialı
Md – rütubətlənmə indeksi
S – aqreqatların suya davamlılığı, % (0,25 mm-lik qranulometrik tərkib)
Qr – qranulometrik tərkib
g – gilli
a.g – ağır gillicəli
o.g – orta gillicəli
y.g – yüngül gillicəli
q – qumsal
E – eroziyaya uğramış, %
e.u – eroziyaya uğramış
z.e – zəif eroziya
o.e – orta eroziya
g.e – güclü eroziya
Ş – şorlaşma dərəcəsi, %
ş – şorlaşma dərəcəsi
z.ş – zəif şorlaşmış
o.ş – orta şorlaşmış
ş.ş – şiddətli şorlaşmış

Yuxarı Qarabağ ərazisi Respublikanın bəzi sahələri kimi qismən su və külək eroziyasına məruz qalmışdır. Belə ki, Xankəndi ərazisinin torpaqları güclü su eroziyasına, Xocalı, Xocavənd, Tərtər, Şuşa, Cəbrayıl, Füzuli torpaqları isə orta dərəcəli su və külək eroziyasına uğramışdır.

Tərtər, Ağdam ərazilərində torpaqların 2-15%-i, Xocavənd, Xocalı, Xankəndi, Füzuli, Şuşa ərazilərində isə 50-75%-i eroziyaya uğramışdir ki, uyğun olaraq birincilərin eroziya dərəcəsi “az təhlükəli”, ikincilərinki isə “çox təhlükəli” kimi qiymətləndirilir.

Tədqiqat rayonunda hidrosferin əsas komponentləri yerüstü təbii və süni su hövzələri, qrunt sularıdır. Rayonun çay şəbəkəsinə Tərtərçay, Qarqarçay, Köndələnçay, Xaçınçay daxildir. Füzuli rayonu ərazisindən keçən Araz çayını da bu şəbəkəyə aid etmək olar. Yuxarı Qarabağ iqtisadi rayonunda çay şəbəkəsinin sıxlığı 0,1-0,9 km/km^2 arasında dəyişir. Yüksək sıxlıq Xankəndi, Şuşa əraziləri (0,8-0,9 km/km^2), daha aşağı sıxlıq isə Tərtər, Füzuli, Cəbrayıl əraziləri (0,1-0,3 km/km^2) üçün xarakterikdir. Mühitin ekoloji vəziyyətinin mühüm göstəricilərindən biri su hövzələrinin çirklənməsidir. Tədqiqat rayonunun çayları Kür və Araz çayı hövzəsinə daxil olduğu üçün onların

biogen komponentlər və qeyri-üzvi mənşəli çirkləndiricilərlə çirklənməsi Kürün məcmu çirklənməsində müəyyən rol oynayır. Əsas çirkləndiricilər üzrə 1987-1989-cu illərə aid məlumatlar aşağıdaki cədvəldə verilmişdir. [2, s. 173-178]

Cədvəl 2

Yuxarı Qarabağ iqtisadi rayonu ərazisi çaylarında biogen komponentlər və qeyri-üzvi mənşəli çirkləndiricilərin maksimal kəmiyyət göstəriciləri

Su nümunəsi götürülən çayın adı			YVQH*	Qarabağ düzənliyi		Araz çayı və onun hövzəsi		
				Tərtər çay	Qarqarçay	Araz çayı	Araz çayı	Köndələnçay
Su götürülən məntəqənin adı				Kəlbəcər şəhəri	Xankəndi şəhəri	Xudafərin körpüsü	Saatlı şəhəri	Qırmızı Bazar qəsəbəsi
mq/l	azot	ammonium	0,1-5	0,07	0,09	0,03	0,13	0,05
		nitritlər	0,01-40	0,015	0,027	0,03	0,034	0,016
		nitratlar		1,11	5,37	1,3	2,9	0,62
		ümumi		1,19	5,45	1,34	2,94	0,68
	fosfor	mineral	0,001-0,1	0,089	0,082	0,036	0,087	0,072
		ümumi		0,237	0,16	0,119	0,189	0,123
	dəmir		0,5	0,46	0,23	0,09	0,35	0,23
	silisium		10-300	7,4	7,2	6,1	10,1	8,8
	mis		0,1-1	12	9	10	22	7
	sink		1-5	6	12	7	15	4
	alüminium		0,1-4	14,5	10	7,8	10,8	10
	manqan		1-10	9	6,6	8,2	10	4,2
	titan		0,1	5,3	11,8	7,6	6,5	11,8
	bismut		0,1-0,5	–	3,3	4,3	–	–
	civə		$5•10^{-3}$-$5•10^{-4}$	–	–	–	–	–

* – yol verilən qatılıq həddi

Əldə olan məlumatların təhlili nəticəsində Yuxarı Qarabağ iqtisadi rayonunun çaylarında ağır metalların (Cu, Mn, Ti, Bi) qatılığının YVQH-dən dəfələrlə çox olduğu aşkara çıxarılmışdır. Biogen elementlərin (N, P) qatılığı YVQH çərçivəsindədir ki, bu da əsasən dağ çaylarının axın sürətinin, uyğun olaraq özünütəmizləmə qabiliyyətinin yüksək olması ilə izah edilə bilər. Qeyd edilən çaylarda sink, alüminium elementlərinin birləşmələrinin qatılığının YVQH-dən dəfələrlə böyük olmasının (~10-140) səbəbini texnogen çirklənmə ilə yanaşı təbii çirklənmənin mövcudluğu ilə əlaqələndirmək olar. Belə ki, sink və alüminium metallarının qeyri-üzvi duzlarının suda həll olunma qabiliyyətinin yüksək olması çay yataqlarını təşkil edən süxurların aşınması nəticəsində ayrılan birləşmələrin suda həll olaraq qeyd edilən metalların qatılığının yüksəlməsinə imkan yaradır.

Ümumiyyətlə, turşu ədədi 5-dən kiçik olan təbii su obyektləri turşulaşmış (asidifikasiyaya uğramış) hövzələr kimi qiymətləndirilir. Bir hissəsi tədqiqat ərazisinə düşən və Füzuli rayonu ərazisində Mil-Muğan su anbarını qidalandıran Araz çayının sularının turşu ədədinin qiyməti xeyli aşağıya düşmüş, yəni çay güclü asidifikasiyaya məruz qalmışdır. Yaranmış gərgin ekoloji vəziyyətin əsas səbəblərindən biri Ermənistan ərazisindən Araza qovuşan Gedəriçay, Vorotan və Axuryan çaylarının güclü zəhərlənməsidir. Bu çayların sularında turşu ədədinin qiyməti azalaraq pH~2,4 çatmış, suda həll olmuş oksigenin miqdarı isə sıfıra yaxınlaşmışdır. Çay sahilləri boyunca bitki örtüyünün tamamilə məhv olduğu müşahidə edilmişdir.

Orta illik su balansı Arazdan 20 dəfə az olan Oxçuçay Araza qarışdıqdan sonra bu çayın suyunda mikroflora 65-80% azalmışdır. [2, s. 172-180]

Süni su hövzələri Yuxarı Qarabağ iqdisadi rayonunda əsasən su anbarları hesabına formalaş-

mışdır. Ümumiyyətlə, istər bütövlükdə, istərsə də lokal ərazidə su anbarlarının ekoloji-iqtisadi təsirlərini qiymətləndirmək mürəkkəb işdir. Su anbarları bir tərəfdən öz müsbət ekoloji-iqtisadi funksiyalarını yerinə yetirir, digər tərəfdən isə bir sıra mənfi ekoloji nəticələrə gətirib çıxarır.

Tədqiqat rayonu ərazisində 1952-2007-ci illər ərzində 8 su anbarı tikilmişdir ki, bunlar da iqtisadi rayonun və ətraf ərazilərin suvarma və energetika problemlərinin həllində mühüm rol oynayır. [1, s. 34]

Yuxarı Qarabağ iqtisadi rayonu ərazisində yerləşən su anbarlarının əsas fiziki-coğrafi parametrləri aşağıdaki cədvəldə verilmişdir.

Cədvəl 3

Yuxarı Qarabağ iqtisadi rayonu ərazisində yerləşən su anbarlarının əsas fiziki-coğrafi parametrləri

Su anbarlarının adı	Yerləşdiyi rayon	Qidalanma mənbəyi	Dəniz səviyyəsindən hündürlük	Həcmi			Sahəsi km^2	Yaranma dövrü
				tam min m^3	faydalı			
					min m^3	%		
Yuxarı Köndələnçay	Füzuli	Köndələnçay	–	2,1	1,6	76	4,2	1951
Köndələnçay	Füzuli	Köndələnçay	–	3,9	3,6	92	5,2	1963
Ağdam	Ağdam	Xaçınçay	–	1,6	1,4	88	50	1963
Xaçınçay	Ağdam	Xaçınçay	509,5	23,0	20,0	90	1,76	1964
Mil-Muğan (Araz)	Füzuli	Araz	–	12,0	–	–	4,5	1971
Madagiz	Tərtər	Tərtər	–	5,9	3	51	0,6	1975
Sərsəng	Tərtər	Tərtər	726	565	500	89	14,2	1976
Aşağı Köndələnçay	Füzuli	Köndələnçay	–	9,5	9,0	95	1,53	1980

Cədvəldən göründüyü kimi, bu anbarların faydalı həcmi 51-95% arasında dəyişir. Sərsəng, Xaçınçay su anbarları Kür çayının axın rejiminin tənzimlənməsində dolayı yolla iştirak edir və müəyyən əhəmiyyətə malikdir.

Su anbarlarının yaradılmasıYuxarı Qarabağ iqtisadi rayonu ərazisində həmin ərazilərdə həm yuxarı, həm də aşağı çay dərələrinin formasını bir neçə kilometr məsafədə dəyişmişdir. Su anbarlarında suyun səviyyəsinin istismar tərəddüdləri ərazi boyu çay dərələrində çoxlu sayda geniş dayaz-quraq zonaların meydana gəlməsinə gətirib çıxarmışdır ki, onların uzunluğu və sahəsi bəzi yerlərdə su anbarının özünün uzunluğu və sahəsindən 70% artıqdır. Bu zonada çöküntülərin toplanması, çay subasarlarının uzunluğunun artması, onların bataqlaşması prosesləri baş vermişdir.

Məlumdur ki, su anbarlarında çay gətirmələrinin təbii axını pozulur, nəticədə onların dib çöküntüləri şəklində toplanması baş verir və bu proses təkrar çirklənmə mənbələrinə çevrilir. Belə ki, Sərsəng və Madagiz su anbarlarında uzunmüddətli istifadə nəticəsində külli miqdarda dib çöküntüləri aşkar olunmuşdur. [2, s. 163-165]

Rayonun hidrosferinin üçüncü komponenti qrunt sularıdır.

Tədqiqat rayonuna aid olan Tərtər, Ağdam, Cəbrayıl rayonları ərazisində qrunt sularının yatma dərinliyi 5-10 m olmaqla, onların sporadik yayılmış olduğu Xankəndi, Xocavənd, Füzuli rayonu ərazilərinə nisbətən 2 dəfə azdır. [1, s.36]

1988-1991-ci illərdə Azərbaycan hökuməti tərəfindən döyüş bölgələrinə yaxın yerləşən ərazilərin iqtisadi inkişafına xüsusi diqqət yetirilməyə başlandı və dövlət səviyyəsində mühüm qərarlar qəbul edildi. Bu qərarlara müvafiq olaraq Yuxarı Qarabağ rayonunun şəhərləri inkişaf etdirilməyə və yeniləri yaradılmağa başlandı, istehsal və tikinti sahələri genişləndirildi, onların

inkişafının intensivliyi artırıldı.

Ümumiyyətlə, şəhərlər tarixindən, yerləşdiyi relyef və landşaftdan, sosial-iqtisadi inkişaf səviyyəsindən və s. amillərdən asılı olaraq bu və ya digər dərəcədə antropogen pressinq sahələri kimi qiymətləndirilir.

Funksional genetik tipinə görə Yuxarı Qarabağ iqtisadi rayonuna daxil olan şəhərlər, ümumiyyətlə, yüksək sosial-iqtisadi potensiala malik, aqro-, qida və emaledici sənaye sahələrinin üstünlük təşkil etdiyi inkişaf etmiş şəhərlər kimi qiymətləndirilmişdir. Şuşa şəhəri qeyd edilənlərlə bərabər, həm də rekreasiya əhəmiyyətinə malikdir.

Tədqiqat rayonunda şəhərlərin xüsusi çəkisinin və istehsalın inkişaf sürətinin artması ətraf mühitlə bağlı olan bəzi ekoloji problemlərin dərinləşməsinə və əhatə dairəsinin genişlənməsinə şərait yaratmış oldu. Məlum olduğu kimi, şəhər sərhədləri daxilində yerləşən sənaye, kənd təsərrüfatı, nəqliyyat, kommunal-yaşayış strukturlarının istifadəsi zamanı müxtəlif tullantılar yaranır ki, onlar da təbii mühitə təsir edən və onun ekoloji parametrlərinin pisləşməyə doğru dəyişməsinə imkan yaradan mühüm amillərdir. Tullantıların illik miqdarının ildən-ilə çoxalması ekoloji risk və böhran sahələrinin yaranmasına gətirib çıxarır. Belə ki, erməni işğalından əvvəlki dövrdə Ağdam ərazisində tikinti sahəsində tullantıların miqdarı 250-800 min ton, Tərtər, Xocavənd rayonlarında 100-250 min ton, Füzulidə 25-50 min ton, Xankəndində, Şuşada 500-1000 min tona çatmışdır.

Nəqliyyatın sıxlığı və intensiv hərəkəti nəticəsində yaşayış məntəqələrində və şose yolları boyunca avtonəqliyyat çirklənmələri digərləri ilə bərabər mühitin ekoloji tarazlığının pozulmasına səbəb olan əsas amillərdəndir. Yuxarı Qarabağ rayonlarında şose yolu boyunca nəqliyyat çirklənmələrinin miqdarı orta-aşağı kimi qiymətləndirilir.

İşğala qədərki dövrdə Yuxarı Qarabağın Ağdam rayonunda AÇİ-nin (atmosfer çirkləndiricilərinin indeksi) qiyməti 10-dan kiçik, Xankəndində isə 10-14 arasında dəyişmişdir. AÇİ adətən, tullantıların ən yüksək orta illik göstəricisi üzrə hesablanır. [3, s. 55]

İşğal dövrü ərzində (1991-ci ildən başlayaraq) Yuxarı Qarabağ iqtisadi rayonunun ekoloji vəziyyətinin qiymətləndirilməsi. 1991-ci ildən başlayan və indiyədək davam edən müharibə dövründə Yuxarı Qarabağın Ağdam, Cəbrayıl, Füzuli rayonlarında, eləcə də Şuşada və Xankəndində bütün tikililər, mədəniyyət və tarixi abidələr, qoruqlar, şirin və mineral su ehtiyatları, nadir bitki və heyvan nümunələri, ümumiyyətlə, yeraltı və yerüstü sərvətlərin hamısı talan olunub məhv edilmişdir.

İşğal olunmuş dağlıq ərazilərdə hərəkət edən ağır hərbi texnika, istifadə edilən və saxlanılan silah və sursat, basdırılmış minalar torpaq və bitki örtüyünə güclü zərər vurmuşdur. İşğal altında olan Yuxarı Qarabağ ərazilərinin torpaqları dövlət nəzarətindən kənarda qaldığı və təsərrüfat təyinatı üzrə istifadə edilmədiyi üçün gücdən düşmüş,ekoloji dəyərini itirərək "bedland"a çevrilmişdir. İşğal olunmuş ərazilərdə yerləşən suvarma kanallarının qarşısının kəsilməsi Azərbaycanın dağətəyi rayonlarının kənd təsərrüfatına ağır zərbə vurmaqda davam edir.

Bu ərazilərdə mövcud infrastrukturun məhv edilməsi, onların yerində hərbi təyinatlı yolların çəkilməsi, sursat və silah anbarlarının, səngərlərin tikilməsi relyef və landşaftın dəyişməsinə, texnogen landşaft tipinin artmasına şərait yaratmışdır.

Hal-hazırda Yuxarı Qarabağ ərazisində yüzdən çox müxtəlif faydalı qazıntı yatağı (qızıl, civə, mis, qurğuşun, sink, üzlük və mişar daşı, sement xammalı, müxtəlif növ tikinti daşları, soda istehsalı üçün xammal, pemza və vulkan külü, gil, qum-çınqıl, gips, anhidrid və gəc, perlit, obsidian, vermikulit, əlvan və bəzək daşları yataqları), onlarla mineral və şirin su mənbələri Azərbaycan dövlətinin nəzarətindən kənardadır.

İşğal olunmuş ərazilərdə yerləşən müxtəlif tikinti materialları və faydalı qazıntı yataqları vəhşicəsinə talan edildiyindən mühitin bütün keyfiyyət göstəricilərinin dəfələrlə pisləşməsi üçün şərait yaranmışdır. Ümumiyyətlə, bu ərazilərdə vandallar əsl ekosid siyasətini həyata keçirmişlər.

Bu proses indi də davam etməkdədir.

İlkin yanaşmada işğal dövrü ərzində Yuxarı Qarabağın ayrı-ayrı rayonları üzrə müasir ekoloji vəziyəti dəqiq və müfəssəl olmasa da aşağıdakı kimi qiymətləndirmək olar.

2002-2005-ci illər ərzində Füzuli rayonu ərazisində yerləşən Ərgünəş meşəsinin min hektara yaxın sahəsi yandırılaraq sıradan çıxarılmışdır. Yandırılmış ərazilərdə əsasən patogen mikroorqanizmlər və zərərverici həşəratlar çoxaldığına görə bu ərazilər bioloji çirklənmə mənbəyinə çevrilmişdir.

İşğal dövrü ərzində UNESKO-nun “Bəşəri irs” siyahısına daxil olan Azıx və Tağlar mağaraları yararsız hala salınmış, Qaraköpəktəpə, Meynətəpə və başqa tarixi abidələr yerlə-yeksan edilmişdir.

KİV-in məlumatına görə, Füzuli rayonunun işğal altında olan ərazisində xüsusi laboratoriya təşkil edilmişdir. Bu laboratoriyada yoluxucu xəstəliyə tutulmuş insanlardan, xüsusi ilə əsirlərdən götürülmüş orqan nümunələri üzərində təqdiqatlar aparıldıqdan sonra tullantılar ərazidən keçən çaylar vasitəsi ilə axıdılır və bioloji yoluxma mənbələri yaradır.

2003-2004-cü il tarixlərində Araz çayının Horadiz müşahidə məntəqəsindən götürülmüş su nümunələri Ətraf mühit üzrə milli monitorinq departamentinin laboratoriyasında analiz edilmiş, neft və neft məhsullarının miqdarının YVQH-dən 8, fenolların miqdarının isə 9 dəfə çox olduğu aşkar edilmişdir.

Cəbrayıl rayonunda 120-dək respublika və rayon əhəmiyyətli tarixi memarlıq abidəsi, geniş sahələri əhatə edən qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər, əhalinin uzun illər faydalandığı tikinti materialları mənbələri, özünün qeyri-adi flora və faunası ilə seçilən Diridağ ərazisi, mineral və şirin su mənbələri işğalçılar tərəfindən dağıdılmış və dövriyyədən çıxmışdır. İran İslam Respublikası ərazisindən aparılan müşahidələr Cəbrayıl rayonunun Arazın sol sahilində yerləşən kəndlərinin tamamilə dağıdıldığını və xəritədən silindiyini deməyə imkan verir.

Azərbaycan memarlığının əvəzedilməz incilərindən sayılan Araz çayı üzərində tikilmiş, biri 11, digəri 15 aşırımlı Xudafərin körpüləri müharibə dövrü ərzində xeyli dağıntıya məruz qalmışdır. [4, www.eco.gov.az]

Erməni işğalçılarının Azərbaycan təbiətinə vurduğu ziyanın miqdarı ilkin hesablamalara görə 23 milyard AZN-ə çatır ki, bunun da böyük qismi Yuxarı Qarabağ iqtisadi rayonunun işğal altında olan ərazilərinin payına düşür [5, www.trend.az].

Vurulmuş ziyanın mənəvi , estetik və sosial dəyərini isə hesablamaq mümkün deyil. Qeyri-qanuni qurum olan Dağlıq Qarabağ işğal olunmuş ərazilərdə ekoloji şəraitin qorunması haqqında beynəlxalq təşkilatlar qarşısında heç bir məsuliyyət daşımadığına görə bu ərazilərdə ekoloji mühit getdikcə daha da ağırlaşır.

Hesab edirik ki, işğaldan azad edildikdən sonra bu ərazilərin ekoloji mühitinin sağlamlaşdırılması üçün işğalçı tərəfdən böyük miqdarda təzminatın tələb edilməsi dövlətin prioritet məsələlərindən olmalıdır.

Nəticə

- Tədqiqat rayonunun ekoloji iqtisadi mühitinin əldə edilən parametrlərinin təhlili əsasında Agdam, Şuşa, Xankəndi, Xocalı ərazilərində ekoloji tarazlıq “zəif pozulmuş”, Tərtər, Xocavənd ərazilərində isə “qismən pozulmuş” kimi qiymətləndirilmişdir.

Yuxarı Qarabağ iqtisadi rayonu ərazilərinin bəzi sahələrində ekoloji tarazlığı qoruyub saxlamaq, bəzilərində isə onu bərpa etmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini tövsiyə etmək olar:

- meliorasiya işlərinin aparılması;
- eroziyanın qarşısının alınması üçün torpaqların şumlanması və yamacların terrastlaşdırılması;
- qarışıq meşə massivinin bərpası.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası, Ekoloji atlas. Bakı, 2009, s. 156.
2. Məmmədov Q.Ş, Xəlilov M.Y. Ekologiya və ətraf mühitin mühafizəsi. Bakı – 2005, s. 435.
3. Беспамятников Г.П., Кротов Ю.А. Справочник "Предельно допустимые концентрации химических веществ в окружающей среде". Ленинград, 1985, с. 528.
4. www.eco.gov.az
5. www.trend.az

Саадат Аслан гызы Гусейнова
к.х.н., ст. пред. АУК;
Айгюн Рафиг гызы Нагиева;
Ульвия Элтон гызы Садраддинова;
Вюсаля Элбрус гызы Дубушова

Оценка экологического состояния Верхне-Карабахского экономического района

Резюме

Статья посвящена анализу современного экологического состояния Верхне-Карабахского экономического района.

Исследования существующих экологических проблем и возможные пути их решения в изучаемом районе делятся на 2 этапа: научная и статистическая информация и результаты исследования охватывающие период до и после Карабахской войны.

Современное экологическое состояние территорий Верхне-Карабахского экономического района была оценена на основе сравнительного анализа фоновых показателей почвенного покрова, водных объектов, атмосферы и параметров относящихся к качественным и количественным характеристикам загрязнения.

Ключевые слова: Верхний Карабах, экологический атлас, эрозия, загрязнение, экологический риск, экологический кризис, рекреация, грунтовые воды, экологический потенциал.

Saadat Aslan Huseynova
PhD in chemistry, ACU;
Aygun Rafiq Nagiyeva;
Ulviyya Elton Sadraddinova;
Vusala Elbrus Dubushova

Value of the ecological situation of Upper Karabakh economic region

Summary

The article is dedicated to analyzing the modern ecological state in the territory of Upper Karabakh economic region. Ecological problems that exist at the region and investigations concerning their possible solutions are dividing into two classes: scientific-statistic information and investigations after and at the time of The Karabakh War. The ecological state of Upper Karabakh economic region is appraised by baseline indicators of land cover, water basin and atmosphere and quantity and quality analysis of pollution and comparative analyzing of available results.

Key words: Upper Karabakh, ecological atlas, erosion, contamination, ecological risk, ecological crisis, recreation, ground water, ecological potential.

UOT 330.567.214

i.f.d., dos. Rəsmiyyə Sabir qızı SABDULLAYEVA
AMEA-nın İqtisadiyyat İnstitutu,
i.f.d. Vüsalə Yavər qızı NAĞIYEVA
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA QEYRİ-DÖVLƏT PENSİYA TƏMİNATININ FORMALAŞDIRILMASI YOLLARI

Xülasə

Məqalə Azərbaycanda qeyri-dövlət pensiya təminatının formalaşdırılmasına həsr olunmuşdur. Məqalədə dünyada mövcud olan qeyri-dövlət pensiya sistemləri ("Təyin edilmiş ödəniş" və "Təyin edilmiş pay") haqqında məlumat verilmişdir. Məqalədə, həmçinin respublikamızda qeyri-dövlət pensiya təminatının formalaşdırılması yolları, qeyri-dövlət pensiya fondlarının fəaliyyət mexanizmi, onların vəsaitlərinin səmərəli istifadə olunması istiqamətləri də göstərilmişdir.

Açar sözlər: qeyri-dövlət pensiya təminatı, özəl fondlar, təyin edilmiş ödəniş, təyin edilmiş pay, həyat səviyyəsi.

Giriş

Dünya təcrübəsindən məlum olduğu kimi, pensiyaçıların həyat səviyyəsinin yüksəldilməsində dövlət pensiya təminatı ilə yanaşı, qeyri-dövlət pensiya təminatı da mühüm yer tutur. Lakin, təəssüflər olsun ki, son illərə kimi respublikamızda pensiya təminatı sistemində islahatlar biristiqamətli- yalnız dövlət pensiya təminatı sistemində aparılırdı. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 30 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı"nda qeyri-dövlət pensiya təminatının formalaşdırılması nəzərdə tutulsa da, hələ də bu proses reallaşmamışdır. Sevindirici haldır ki, ölkə Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının 7.3. maddəsində əhalinin etibarlı sosial müdafiəsinin təşkili məqsədi ilə ölkədə sığorta-pensiya sisteminin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin "2009–2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı" çərçivəsində davam etdiriləcəyi göstərilir. [1] Həyata keçirilən pensiya islahatlarının daha da dərinləşdirilməsi məqsədi ilə "2014–2020-ci illərdə Azərbaycanda pensiya təminatı sisteminin islahatı Konsepsiyası"nda da "könüllü sığortanın tətbiqinin layiqli pensiya məbləğinə şərait yaratdığı" qeyd olunmuşdur. Bu Konsepsiyanın Tədbirlər Planında 7.4.-də "qeyri-dövlət pensiya fondlarının yaradılmasını və fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın yaradılması" nəzərdə tutulmuşdur.

Qeyd olunanlar respublikamızda sığorta-pensiya sisteminin təkmilləşdirilməsinin zəruri olduğunu isbatlayır. Sığorta-pensiya sisteminin təkmilləşdirilməsi prosesində qeyri-dövlət pensiya təminatının yaradılması xüsusu əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, qeyri-dövlət pensiya təminatının formalaşdırılması pensiyaçıların həyat səviyyəsini yüksəltməklə yanaşı, ölkədə investisiya mühitinin yaxşılaşdırılmasına, qiymətli kağızlar bazarının inkişafına müsbət təsir göstərə bilər. Respublikamızda qeyri-dövlət pensiya təminatının formalaşdırılması yollarını araşdırmazdan əvvəl dünyadakı qeyri-dövlət pensiya sistemlərinə nəzər salaq.

Qeyri-dövlət pensiya sistemləri:

İlk qeyri-dövlət pensiya təminatı sisteminin 1800-cü ilin ortalarında Almaniyada yarandığı məlumdur. Belə ki, ilk qeyri-dövlət pensiya təminatı sistemi 1858-ci ildə alman şirkəti Krupp tərəfindən yaradılmış, sonradan ölkədəki Siemens və BASF şirkətlərində də formalaşdırılmışdır. Almaniyadan sonra Norveç, Fransa, İngiltərədə bu sistem tətbiq olunmuşdur. Hazırda bu sahədə

xüsusi yeri olan ABŞ-da qeyri-dövlət pensiya təminatı ilk dəfə 1875-ci ildə bir dəmiryol şirkəti tərəfindən yaradılmışdır.

Hər ölkədə müxtəlif formalarda tətbiq edilən qeyri-dövlət pensiya təminatının əsas fərqləndirici xüsusiyyəti hansı maliyyələşdirmə metodlarından istifadə olunmasıdır. Maliyyələşdirmə metodlarına görə qeyri-dövlət pensiya sistemləri 2 qrupa bölünür:

• pensiyaların əmək müddəti və ya maaş səviyyəsinə görə hesablandığı "Təyin edilmiş ödəniş" (Defined Benefit) sistemi;

• pensiyaların ödənilən pensiya-sığorta haqlarına görə hesablandığı "Təyin edilmiş haqq" (Defined Contribution) sistemi. [2]

Bu sistemlərin aşağıdakı əsas xüsusiyyətləri vardır:

1. Təyin edilmiş ödəniş sistemi. Bu sistemdə, pensiya dövründəki gəlir əvvəlcədən müəyyənləşdirilən bir düsturla hesablanılır. Yəni, işçilərin pensiyaya çıxdıqdan sonra alacağı pensiyalar əvvəlcədən müəyyən olunur. İnsanlara əmək həyatının son dövründə aldığı əmək haqqının müəyyən bir faizi, ya da əmək stajının hər ilinə uyğun olaraq müəyyən bir məbləğ əsas götürülərək pensiya hesablanır. Pensiya təminatının məqsədindən kənar istifadə olunmaması üçün ödənən pensiya-sığorta haqları və pensiyalar üçün aşağı-yuxarı limitlər tətbiq edilir.

Özəl şirkətlər vasitəsilə tətbiq edilən bu sistem, bir qayda olaraq işəgötürənlərin sponsorluğu vasitəsilə həyata keçirilir. Bəzən işəgötürən və işçilərin ortaq iştirak etdiyi hallar da mövcuddur.

İşəgötürənlər hər hansı pensiya proqramına daxil olduqda, qeyri-dövlət pensiya fondunun rəhbərliyinə işçiləri üçün nə qədər ödəniş etmək istədiklərini bildirirlər. Buna görə də, işəgötürənin ödəyəcəyi pensiya-sığorta haqları və işçilərin alacağı pensiya, işçinin yaşı, təzminat dərəcəsi, mövcud maaşı və xidmət edəcəyi illər baza kimi götürülür. Proqramın xərci müxtəlif aktuar hesablamalar ilə müəyyən edilir. Bu hesablamalarda inflyasiya riski də nəzərə alınır. Bir qayda olaraq işəgötürən razılaşma çərçivəsində işləyən üçün təyin olunmuş pensiya zəmanəti verir.

Bu proqramların idarə olunmasının mürəkkəb strukturu olsa da, işçilərin alacağı pensiya məbləğinin əvvəlcədən bəlli olması bu sistemin üstünlüyüdür. Bundan başqa, təyin edilmiş ödəniş sistemində müxtəlif vergi güzəştləri edilir. Digər tərəfdən, işəgötürənin işçiləri üçün ödədiyi pensiya-sığorta haqlarını əmək stajına görə artırması, ayrı-ayrı şəxslərin fondda yığılan vəsaitini müəyyən bir vaxtdan əvvəl götürə bilməməsi və ya işini dəyişdikdə fondda meydana gələn çatışmazlıqlar kimi hallar işləyənlərin əleyhinə olan vəziyyət də yarada bilər.

2. Təyin edilmiş pay sistemi. Bu sistemdə, başlanğıcda ödəniləcək xərclərin təyin edilməsi baş verirsə, təyin edilmiş ödəniş sisteminin əksinə olaraq, pensiya dövründə insanların alacağı pensiyalar əvvəlcədən müəyyənləşdirilmir. İşəgötürənin sponsorluğu ilə həyata keçirildiyi zaman, işəgötürən təyin edilmiş ödəniş sistemində olduğu kimi, öhdəsinə götürdüyü bir ödənişin həyata keçirilməsinə deyil, yalnız pensiya-sığorta haqlarına cavabdehdir. İşgötürənlərin sponsorluğu ilə yaradılan bu sistemdə fərdi pay, təyin edilmiş ödəniş sistemindən daha genişdir. [3]

Bu sistemdə üzvlərin sistemli şəkildə pensiya-sığorta haqlarını ödədiyi fərdi hesabları vardır. Belə hesablarda yığılan əmanət, ödəniş haqları ilə bir sırada fondun investisiya imkanlarına bağlıdır. Bu mənada, investisiya riski daha çox işçilərin üzərinə düşür. Bunu nəzərə alaraq, pensiya proqramı idarəçiləri (menecerləri) müxtəlifi risk imkanlarına uyğun olaraq fərqli portfel investisiyaları həyata keçirirlər. Buna görə də, eyni zaman müddətində, eyni pensiya-sığorta haqları ödəyən işçilərin pensiyaları fərqli olur.

Təyin edilmiş ödəniş sisteminə görə daha sadə olan təyin edilmiş pay sistemi son illərdə daha çox tətbiq edilməyə başlanılmışdır. Bu sistem maaşa əsaslanan bir proqramın gətirəcəyi öhdəlikləri istəməyən işəgötürənlər tərəfindən daha çox istifadə edilir. Həm də bu sistemdə işləyənlər iş yerini dəyişdirərkən həmin fonddakı vəsaitlərini çəkə bilirlər. Fərdi pensiya proqramlarında da təyin edilmiş pay sistemi geniş istifadə edilmir.

Respublikamızda qeyri-dövlət pensiya təminatnın formalaşdırılması

Bir çox ölkələrdən fərqli olaraq qeyri-dövlət pensiya təminatının ölkəmizdə sosial sığorta sisteminin əvəzləyicisi deyil, onun tamamlayıcısı funksiyasını yerinə yetirməsi daha məqsədəuyğun olardı. Bu sistemin köməyi ilə dövlətin üzərinə düşən sosial məsuliyyət yükünün azaldılmasıyla yanaşı, fərdlərə öz yığımlarını bazar şərtləri daxilində səmərəli dəyərləndirmək imkanı yaradacaqdır.

Yeni yaradılacaq təminatın əsas xüsusiyyətlərindən biri sistemə daxil olmaq və sistemdən ayrılmağın könüllülük və ya icbarilik prinsipi əsasında qurulmasıdır. İnkişaf etmiş ölkələrdə fərdi pensiya təminatının könüllülük prinsipi əsasında qurulmasına baxmayaraq, bir çox inkişaf etmiş ölkələrdə bu sistemə daxil olmaq icbaridir. Fikrimizcə, respublikamızda yaradılacaq qeyri-dövlət pensiya təminatında iştirakın könüllülük prinsipi əsasında olması indiki şəraitdə daha məqbuldur.

Qeyri-dövlət pensiya təminatını həyata keçirən təşkilatların müəyyənləşdirilməsi: Qeyd etmək lazımdır ki, qeyri-dövlət pensiya təşkilatları özəl mülkiyyətə əsaslanan qurumlardan təşkil olunmalı və burada sığorta fəaliyyəti ilə məşğul olan şirkətlərə xüsusilə üstünlük verilməlidir. Həyat sığortası və ya digər sığorta fəaliyyəti həyata keçirən şirkətlərə xüsusi lisenziyalar verməklə, bu prosesə cəlb etmək daha məqsədəuyğun olardı.

Qeyri-dövlət pensiya təminatı sistemində olmaq müddəti və pensiya yaşı: Qeyri-dövlət pensiya təminatı sistemində olmaq müddəti minimum 10 il müəyyənləşdirilməlidir. Digər tərəfdən bu 10 il müddətində şəxslər özəl pensiya şirkətlərini və şərtlərini dəyişə bilərlər. Pensiyaya çıxmaq yaşının 60 olması (istər qadınlar, istərsə də kişilər üçün) indiki şəraitdə daha məqsədəuyğundur.

İşləyən şəxslərin qeyri-dövlət pensiya sisteminə qoşulduğu zamana kimi, onun fərdi uçot hesabında müəyyən vəsait toplanmış olacaqdır. Deməli, şəxslərə qeyri-dövlət pensiya sisteminə keçməsi ilə əlaqədar onun fərdi hesabında yığılmış vəsaiti də yeni şirkətə keçirtmək imkanı yaradılmalıdır. Qeyri-dövlət pensiya şirkətinə aylıq ödəmələrin ölkə üzrə orta aylıq əmək haqqının 10.0%-dən az olmayaraq, əmək haqqına faizlə və ya standart ödəmələr şəklində həyata keçirilməsi yaxşı olardı. Qeyd edilən məbləğ işəgötürən tərəfindən iştirakçının qeyri-dövlət pensiya şirkətində adına açılmış hesaba ödənilməlidir. Bu məbləğdən artıq vəsait isə şəxsin öz təşəbbüsü ilə ödənilə bilər. Qeyd edilən məbləğin gəlir vergisindən azad edilməsi insanları qeyri-dövlət pensiya təminatından faydalanmağa sövq edəcəkdir.

Qeyri-dövlət pensiya şirkətləri və iri müəssisələr Qiymətli Kağızlar üzrə Dövlət Komitəsindən lisenziya alaraq fond yarada bilər. Həm pensiya şirkətlərinin, həm də pensiya fondlarının fəaliyyətinə Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin, Dövlət Sosial Müdafiə Fondunun iştirakı ilə yaradılmış Qeyri-dövlət Pensiya Təminatı Sisteminin Məsləhət Komitəsi nəzarət etməlidir.

Qeyri-dövlət pensiya vəsaitlərinin səmərəli istifadə yolları

Fikrimizcə, respublikamızda yaradılacaq pensiya fondlarının vəsaitlərinin yerləşdirilməsi vasitələri aşağıdakılar ola bilər:

1) Dövlət uzunmüddətli istiqrazları;
2) Dövlət qısamüddətli istiqrazları;
3) Azərbaycan Respublikası Mərkəzi Bankının notları;
4) Səhmlər;
5) Özəl və ya dövlət müəssisələrinin emissiya etdiyi istiqrazlar;
6) Daşınmaz əmlaka sahiblik;
7) Repo əməliyyatları;
8) Pul və valyuta bazarında əməliyyatlar;
9) Xarici ölkə qiymətli kağızlarının əldə edilməsi;
10) Xarici ölkədə daşınmaz əmlaka sahiblik;
11) Banklara kreditlər;

12) Banklarda depozit yerləşdirilməsi.

Vəsaitlərin hansı nisbətlərdə (proporsiyada) qeyd edilən alətlərdə yerləşdirilməsi əsas məsələlərdən biridir. Qeyd etmək lazımdır ki, pensiya investisiya fondlarının aktivləri müxtəlif faiz nisbətində yerləşdirilir ki, bu da risklərin səviyyəsinə görə müəyyənləşdirilir. Məsələn, Türkiyə qanunvericiliyinə görə pensiya şirkətləri ən azı 3 fond yaratmalıdırlar. [4] Bu fondlar gəlirlilik və eyni zamanda risk səviyyəsinə görə fərqlənirlər. Adətən fondlar yüksək, orta və aşağı riskli olaraq 3 qrupa bölünür. Yüksək riskli qrupa qiymətli kağızların yüksək risk qrupuna aid olan vasitələri (səhmlər, pul bazarında əməliyyatlar və s.) daxildir. Orta risk qrupunda həm yüksək risk qrupuna aid vasitələr, həm də dövlət istiqraz vərəqələri böyük paya malik olur. Aşağı risk qrupunda adətən risk səviyyəsi ən aşağı olan qiymətli kağızlar və digər aktivlər yerləşdirilir. Fondlar yaradıldıqdan sonra, pensiya müqavilələri üzrə iştirakçılar bu fondları seçməkdə müstəqildirlər. Hər bir iştirakçı öz vəsaitlərini, yuxarıda qeyd edildiyi kimi, yaradılmış fondlarda yerləşdirdikdən sonra istədiyi vaxt yenidən dəyişiklik etmək imkanına malikdir. Beləliklə, şirkətlər həm qiymətli kağızlarla əlaqədar, həm qiymətli metallar, həm də ixtisaslaşdırılmış fondlar da yarada bilərlər. İxtisaslaşdırılmış fondlar əsasən hər hansı bir sektora investisiyalar və ya hər hansı bir indeks üzrə formalaşdırılan fondlardır.

Respublikamızda isə qiymətli kağızlar bazarının inkişaf səviyyəsinin çox da yüksək olmaması bu sahədə fəaliyyətin təkmilləşdirilməsini tələb edir. Burada əsas məsələ, özəl şirkətlərin qiymətli kağızlar bazarı vasitəsilə sərmayələrini artırmaq imkanının qiymətləndirilməsi, istiqrazlar və səhmlər vasitəsilə əlavə mənbələrin əldə edilməsinə maraq göstərmələridir. Qeyd etmək lazımdır ki, qeyri-dövlət pensiya sisteminin qiymətli kağızlar bazarının inkişafına köməklik göstərəcəyi şübhəsizdir. Çünki pensiya şirkətləri topladıqları vəsaitlərin böyük hissəsini qiymətli kağızlar bazarında investisiyaya yönəltməlidirlər. Məlumat üçün bildirək ki, İİƏT-nin (OECD) 34 ölkədə apardığı hesablamalara görə pensiya fondlarının vəsaitlərinin ÜDM-ə nisbəti təxminən 35.5%, Türkiyə Respublikasında isə 3.8%-dir. [5, s. 28] Bəzi inkişaf etmiş ölkələrdə bu göstərici 100-130% arasında dəyişir.

İlk olaraq qeyri-dövlət pensiya şirkətlərində toplanmış vəsaitlərin dövlət qiymətli kağızlarında, özəl şirkətlərin və bankların emissiya etdiyi istiqrazların alınması ilə bərabər, banklararası kredit hərracında və depozit əməliyyatlarında istifadə olunmasını təşkil etmək məqsədəuyğun olardı. Çünki Banklararası kredit hərraclarında və depozit əməliyyatlarında faiz dərəcələri nisbətən yüksəkdir.

Ümumiyyətlə, respublikamızda qeyri - dövlət pensiya fondlarının portfel bölgüsünün aşağıdakı kimi olması məqsədəuyğundur. (Cədvəl 1)

Cədvəl 1.

Azərbaycanda qeyri-dövlət pensiya fondlarının portfel bölgüsü

	Ən az	**Ən çox**
Dövlət qiymətli kağızları və o cümlədən, MB qiymətli kağızları	30%	100%
Banklararası kredit bazarında əməliyyatlar		50%
Özəl şirkətlərin səhmləri və digər qiymətli kağızları		50%
Pul və valyuta bazarında əməliyyatlar, repo əməliyyatları		50%
Daşınmaz əmlakla əlaqədar investisiyalar		10%
Qızıl və digər qiymətli metallarla əməliyyatlar		20%
Digər əməliyyatlar		30%

Cədvəldən də göründüyü kimi, digər mühüm investisiya vasitələrindən biri də əmlak alınmasıyla bağlı aparılan əməliyyatlardır. Bu sahədə investisiya edilən vəsaitləri iki istiqamətə ayırmaq

olar: 1) Daxili bazarda əmlak üzrə alqı-satqı; 2) Xarici ölkələrdə əlverişli şərtlərlə əmlak sahibliyi və ya bu sahədə əməliyyatlar. Qeyri - dövlət pensiya fondlarının vəsaitlərinin 10%-nin bu vəsaitlərdə yerləşdirilməsi məqsədəuyğun olardı.

Nəticə və təkliflər

Beləliklə, istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə uğurla fəaliyyət göstərən qeyri-dövlət pensiya təminatı sisteminin respublikamızda da yaradılması hazırkı şəraitdə mühüm əhəmiyyət kəsb edir. Bu sistemin formalaşdırılması pensiyaçıların həyat səviyyəsini yüksəltməklə yanaşı, ölkədəki investisiya mühitinin, qiymətli kağızlar bazarının inkişafına öz müsbət təsirini göstərə bilər. Odur ki, respublikamızda qeyri-dövlət pensiya təminatının formalaşdırılması ilə bağlı aşağıdakıların həyata keçirilməsi məqsədəuyğundur:

- ilk növbədə bu sahədə qanunvericilik bazası formalaşdırılmalıdır. “Qeyri-dövlət pensiya təminatı haqqında”, “Qeyri-dövlət pensiya fondları haqqında” və s. qanunlar qəbul olunmalıdır;
- qeyri-dövlət pensiya təminatı ölkəmizdə sosial sığorta sisteminin əvəzləyicisi deyil, ona tamamlayıcı funksiyanı yerinə yetirməlidir;
- respublikamızda yaradılacaq qeyri-dövlət pensiya təminatı sistemində iştirak könüllülük prinsipi əsasında olmalıdır;
- qeyri-dövlət pensiya təşkilatları özəl mülkiyyətə əsaslanan qurumlardan təşkil olunmalı və burada sığorta fəaliyyəti ilə məşğul olan şirkətlərə üstünlük verilməlidir;
- həyat sığortası və digər sığorta fəaliyyəti həyata keçirən şirkətlər xüsusi lisenziyalar əsasında bu prosesə cəlb olunmalıdırlar;
- qeyri-dövlət pensiya təminatı sistemində qalmaq müddəti minimum 10 il müəyyənləşdirilməlidir;
- pensiyaya çıxmaq yaşı istər qadınlar, istərsə də kişilər üçün 60 olmalıdır;
- işləyən şəxslərin qeyri-dövlət pensiya təminatı sisteminə qoşulduğu zamana kimi fərdi hesablarında topladıqları vəsaitləri qeyri-dövlət pensiya şirkətlərinə keçirtmək imkanı yaradılmalıdır;
- ödənilən pensiya-sığorta haqları ölkə üzrə orta aylıq əmək haqqının 10%-dən az olmayaraq, əmək haqqına faizlə və ya standart ödəmələr şəklində həyata keçirilməlidir;
- qeyd edilən məbləğ gəlir vergisindən azad edilməlidir;
- həm şirkətin, həm də fondun fəaliyyəti Maliyyə Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin, Dövlət Sosial Müdafiə Fondunun iştirakı ilə yaradılmış Qeyri-dövlət Pensiya Təminatı Sisteminin Məsləhət Komitəsinin daimi nəzarəti altında olmalıdır.

ƏDƏBİYYAT

1. http://www.president.az/files/future_az.pdf
2. www.nikko-fi.co.jp
3. www.pensionfundsonline.co.uk
4. www.thepensionservice.gov
5. Survey of Investment Regulation of Pension Funds, OECD, 2010.

Р.С.Абдуллаева
д.ф.э., доц. ИЭ НАНА,
В.Я.Нагиева
д.ф.э., АУК

Пути формирования негосударственного пенсионного обеспечения в Азербайджане

Резюме

Статья посвящена формированию негосударственного пенсионного обеспечения в Азербайджане. Здесь дается информация о существующих сегодня в мире моделей негосударственного пенсионного обеспечения ("Назначенная доля" и "Назначенный взнос"). В статье, также показаны направления формирования в республике негосударственного пенсионного обеспечения, механизм деятельности негосударственных пенсионных фондов, пути эффективного использования средств данных фондов и т.д.

Ключевые слова: негосударственное пенсионное обеспечение, частные фонды, назначенный взнос, назначенная доля, уровень жизни.

R.S.Abdullayeva
PhD in economics EU of ANSA,
V.Y.Nagiyeva
PhD in economics ACU

Formation ways of the private pension provision in Azerbaijan

Summary

The article has been devoted to the formation of the private pension provision in Azerbaijan. İn the article information about private pension provision systems ("defined benefits, "defined contribution") has been given. The formation ways of the private pension provision, the activity mechanism of the private pension funds and the effective using of the incomes of the funds have been shown in our republic too.

Key words: private pension provision, private funds, defined benefit, defined contribution, living standards.

UOT 334.7

Ülviyyə İbrahim qızı RZAYEVA
Azərbaycan Dövlət Aqrar Universitetinin dissertantı

AQRAR SAHİBKARLIQ FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİNİN REGİONAL İSTİQAMƏTLƏRİ

Xülasə

Məqalədə regionların spesifik xüsusiyyətlərindən asılı olaraq dövlətin aqrar sahibkarlığı güzəştli kreditlər, subsidiyalar və digər vasitələrlə tənzimləməsi qeyd edilir. Aqrar sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin regional istiqamətləri ilə bağlı problemlər araşdırılır.

Açar sözlər: regionların inkişafı, dövlət dəstəyi, güzəştli kredit, özünütəminetmə səviyyəsi, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi, regional problemlər.

Giriş

Ölkə üzrə regionların iqtisadi inkişaf meyarına müvafiq olaraq regionların da inkişafının uzunmüddətli və qısamüddətli məqsədləri müəyyənləşdirilir. Regionların inkişafının uzunmüddətli məqsədləri ilk növbədə post-sənayeləşmə cəmiyyətinin təşəkkülü və inkişafına, ixtisaslı kadrların iş yerləri ilə təmin olunmasına, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə nail olmaqdan ibarətdir. Regionların inkişafının qısamüddətli məqsədləri iqtisadiyyatda böhranlı meyillərin aradan qaldırılması, növbəti illər və rüblər üzrə ümumi milli məhsulun konkret hədlərdə artımına nail olunması ilə sıx əlaqədardır.

Aqrar sahibkarlıq fəaliyyətinin iqtisadi göstəriciləri və tənzimlənməsinin reqional istiqamətləri

Regionların inkişafının uzunmüddətli məqsədləri ilə əlaqədar əldə olunan iqtisadi göstəriciləri araşdırarkən bir daha aydın olur ki, 2004-cü ilin fevralında regionların sosial-iqtisadi inkişafı birinci Dövlət Proqramı qəbul edilən gündən 11 il ərzində Azərbaycan dünya miqyasında iqtisadi və sosial baxımdan ən sürətlə inkişaf edən ölkə olmuşdur. Belə ki, 2004-cü ildən bu günə qədər ümumi daxili məhsulumuz 3,4 dəfə artmışdır. On bir il ərzində ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyulmuşdur. Valyuta ehtiyatlarımız 53 milyard dollara çatmışdır. [1. s.2]

Bu illər ərzində 1 milyon 360 min yeni iş yeri yaradılmışdır. Onlardan 1 milyonu daimi iş yeridir.

Davos Dünya İqtisadi Forumunun apardığı araşdırmaya əsasən, ölkəmiz iqtisadi sahədə rəqabətqabiliyyətliliyinə görə 38-ci yerə layiq görülmüşdür.

Ölkənin aqrar sahəsinin intensiv yolla inkişaf etdirilməsi siyasəti və dövlət tədbirləri, eləcə də bu sahədə sahibkarlığın inkişafı, müasir, innovativ texnologiyalara əsaslanan yüzlərlə müəssisələrin açılması öz nəticəsini vermiş, əksər məhsullardan idxalın azalmasına, özünütəminetmə səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur.

Son illərin araşdırmalarından o da məlum olur ki, regionlarda heyvandarlığa daxil olan sahələr – maldarlıq və qoyunçuluq ekstensiv yolla inkişaf etdirilir ki, bu da otlaqlarda heyvanların sıxlığına gətirib çıxarır. Belə hallara yol verilməsin deyə müəssisələrdən az məhsuldar mal-qara naxırın tərkibindən çıxarılır və əvəzində Avropa ölkələrindən gətirilmiş iribuynuzlu damazlıq heyvanlar lizinq yolu ilə fermerlərə satılmışdır.

Son on ildə ölkəyə gətirilmiş və 50 faiz güzəştlə lizinqə verilmiş iribuynuzlu damazlıq heyvanların 25 faizi, xırdabuynuzlu damazlıq heyvanların isə 67 faizi məhz 2014-cü ildə həyata keçirilmişdir.

Aqrar sektorun intensiv yolla inkişaf etdirilməsi siyasəti və göstərilən dövlət dəstəyi nəticəsində son illərdə 19 rayonda 40 quşçuluq təsərrüfatına, 13 rayonda 20 heyvandarlıq və 8 rayonda

südçülük komplekslərinə, 6 rayonda 7 ət kəsimi və emal müəssisəsinə 240 milyon manat güzəştli kredit verilməsi nəticəsində heyvandarlıq məhsulları istehsalı xeyli artmış və idxalın əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur. [1, s.3]

Bağçılığın və üzümçülüyün intensiv inkişaf etdirilməsi istiqamətində də güzəştli kreditlər verilmişdir. Belə ki, bağçılıq və üzümçülük üzrə ixtisaslaşmış 20 rayonda 33 intensiv bağçılıq və üzümçülük təsərrüfatlarına, həmçinin 9 rayonda 37 istixana kompleksinə və 11 rayonda 16 meyvə-tərəvəz emalı müəssisəsinə 171 milyon manat güzəştli kreditlər verilmişdir. [1, s.3]

Aqrar sahibkarlığın tənzimlənməsində regional xüsusiyyətlər, rayonların yerləşməsi xüsusiyyətləri, ərzaq təhlükəsizliyinin təminatına dair strateji əhəmiyyəti olan məhsullar istehsalı ilə məşğul olan sahibkarların fəaliyyəti ilk növbədə tənzimlənir. Sahibkarların fəaliyyəti qiymətləndirilir və müəyyən edildikdə ki, müəssisə kifayət qədər optimal həcmə malikdir və onun prioritet sahələrinin son 3-5 ildə rentabellik səviyyəsi 25-30 faiz təşkil edir, onda istehsalın genişləndirilməsi və təkrar istehsalı üçün kreditlər verilir.

Son on bir il ərzində milli ərzaq təhlükəsizliyinin təminatı möhkəmlənmiş, daxili istehsal hesabına əhalinin əsas ərzaq məhsulları ilə təminatı səviyyəsi iki dəfəyə qədər artmış, meyvə-tərəvəz və bir sıra digər məhsulların tələbatdan artıq istehsal edilməsi bu məhsullar üzrə ixrac potensialını artırmışdır.

2014-cü hesabat ilində kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 5,2 milyard manat təşkil etmiş, o cümlədən heyvandarlıq məhsulları istehsalı 2,8 milyard manat olmuşdur ki, bu da əvvəlki ilə nisbətən 3 faiz artım deməkdir. [1, s.3]

2014-cü hesabat ilində ölkənin kənd təsərrüfatı məhsulları üzrə ixracatının əsasını təşkil edən meyvə-tərəvəz məhsullarının ixrac həcmi qonşu dövlətlərdə siyasi və iqtisadi sabitlik şəraitinin pozulduğu bir vaxtda 291 milyon ABŞ dolları və ya əvvəlki illə müqayisədə 16,1 faiz çox olmuşdur. Bu dövr ərzində ölkəyə idxal olunan meyvə-tərəvəz məhsullarının həcmi isə 25,2 milyon ABŞ dolları və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 13,5 faiz az olmuş, o cümlədən natural ifadədə meyvə idxalının həcmi 32,7 faiz, tərəvəz və bostan məhsullarının idxalının həcmi 47,3 faiz azalmışdır. Bu iqtisadi göstəricilərdən bir daha görünür ki, ərzaq məhsullarına olan daxili bazar tələbatının ödənilməsində yerli istehsalın rolu əvvəlki illə müqayisədə xeyli artmışdır. [1, s.3]

Azərbaycanın kənd təsərrüfatında FAO-nun məlumatlarından fərqli olaraq mövcud mal-qaranın sayının artırılması hesabına deyil, süd istehsalının həcminin artırılması hesabına nail olmaqdır. Bu məqsədlə Avropa ölkələrindən yüksək məhsuldar südlük istiqamətində mal-qara alınmış və ölkəmizin Ağcabədi, İsmayıllı, Sabirabad, Beyləqan, İmişli, Göygöl və digər rayonlarında ən müasir avadanlıqlarla təchiz olunmuş komplekslərdə bəslənilir.

Son 11 il ərzində Sahibkarlara Kömək Milli Fondunun xətti ilə iki milyard dollar məbləğində güzəştli kreditlər verilmişdir. Bu kreditlər iqtisadiyyatın real sektoruna ayrılmışdır. Kreditlərin böyük əksəriyyəti kənd təsərrüfatı müəssisələrinə, qalan hissəsi isə sənaye müəssisələrinin yaradılmasına yönəldilmişdir. Kreditlərin verilməsi cari ildə və gələcəkdə də davam etdiriləcəkdir. Verilən kreditlər həqiqətən gözəl nəticələrə gətirib çıxarır və sahibkarlarda inamı artırır. Məhz bu dövlət dəstəyinin və sahibkarlarda yaranmış inamın nəticəsidir ki, ərzaq təhlükəsizliyi ilə bağlı qəbul edilmiş Dövlət Proqramındakı hədəflər müvəffəqiyyətlə yerinə yetirilir.

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2014-cü ilin sonuna mal əti üzrə özümüzü təminetmə səviyyəsi 87 faiz, qoyun əti-97 faiz, quş əti – 98 faiz, yumurta – 100 faiz, süd və süd məmulatları – 76 faiz, taxıl – 60 faiz, üzüm – 98 faiz, kartof – 90 faiz, bostan məhsulları – 100 faiz, tərəvəz – 102 faiz, meyvə və giləmeyvə - 120 faiz, şəkər və şəkərdən alınan məhsullar – 170 faiz olmuşdur. Şəkər tozu istehsalının maya dəyərində 64 faiz xam şəkər idxal olunur, 36 faiz dəyər isə Azərbaycanda formalaşır. Bitki yağları və marqarin – 77 faiz, kərə yağı – 52 faiz, makaron məmulatları – 58 faiz təşkil edir. [1, s.3]

Araşdırmalardan tam qətiyyətlə demək olar ki,Dövlət aqrar sahibkarlıq fəaliyyətini 58 rayonda tənzimləyir və seçilmiş istiqamətlərin strateji əhəmiyyəti qiymətləndirilir və Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən kreditlər verilir.

Bu barədə “APA – Ekonomiks”-ə Kənd Təsərrüfatı Nazirliyi heyvandarlıq məhsullarının istehsalı, emalı, damazlıq işi və otlaqlar şöbəsinin müdiri Çingiz Fərəcovun məlumatları maraqlıdır. Onun məlumatına əsasən Azərbaycanın süd və ətə böyük tələbatı var: “Keçən il adambaşına 30 kq ət istehsal olunub. Amma tibb elminin adambaşına istehlak norması 70 kq müəyyən edilib. Ət istehsalını bu istehlak normasına çatdırmaq ölkənin strateji vəzifəsidir. Bu strateji hədəflərə çatmaq üçün Azərbaycanın 15 iri südçülük kompleksi tikilib istifadəyə verilmişdir. Hazırda Qubada, Qəbələdə, Zaqatalada, Naxçıvan Muxtar Respublikasında, Abşeronda, Göygöl, Qazax, Xızı, Tovuz, Xaçmaz, Beyləqan, Sabirabad, Saatlı, İmişli, İsmayıllı, Bərdə, Gədəbəy və digər rayonlarda heyvandarlıq üzrə ətlik-südlük istiqamətində komplekslər fəaliyyət göstərir.” [2.www ling com]

Qəbələ heyvandarlıq-südçülük kompleksinin ümumi dəyəri 12,9 milyon manatdır. Bu kompleksin inşasında dövlətin güzəştli kreditlərindən istifadə olunmuşdur. İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən kompleksin inşasına 3 milyon manat güzəştli kredit ayrılmışdır. Müəssisə ilə tanışlıq zamanı məlumat aldıq ki, kompleks sağlam inəklər üçün fermalar, yem təsərrüfatı, avtopark və digər köməkçi sahələrdən ibarətdir. Müəssisə ABŞ-ın “Bou Matic” şirkətinin ferma avadanlığı, avtomatik yönləndirmə və yemləmə sistemləri, birdəfəyə 40 baş inək tutumlu “Paralel” tipli sağım avadanlığı, soyutma sistemləri və digər avadanlıqlarla təchiz edilmişdir. Hər bir gündəlik 25 litrdən çox südvermə qabiliyyətinə malik 500 baş “Holstein Friesion” cinsindən olan inək gətirilmişdir. Hazırda sağlam inəklərin sayı 660 başa çatdırılmış, onlardan 150 bala alınmışdır. Gələcəkdə kompleksdə sağmal inəklərin sayının min başa çatdırılması nəzərdə tutulur. Kompleksdə hər inəkdən bir ildə 8 min 500 litr, ümumi fermada isə gündəlik təqribən 15 ton süd sağımı proqnozlaşdırılır.Kompleksdə 95 nəfər çalışır.

Ölkə üzrə adambaşına illik süd və ət istehlakı normasını yerinə yetirmək üçün 3350,0 min ton süd və 665,0 min ton ət istehsal olunmalıdır. Bu vəzifəni müvəffəqiyyətlə yerinə yetirmək üçün ölkədə 12 iri südlük-kompleksi işə salınmışdır. Ağcabədi rayonunun Ağabəyli kəndindəki “Aqat – aqro” südlük maldarlıq kompleksi Avropada ən iri komplekslərdən biridir. İndi burada 3060 baş heyvan saxlanılır. Onun 1363 başı sağmal inəkdir. Kompleksdə hər inəkdən ildə orta hesabla 6000 kq-dan çox süd sağılır. Təsərrüfatda yeni innovasiyalardan və texnologiyalardan geniş istifadə olunur. İkinci laktasiyada holştinfriz cinsindən olan inəklər gündə 29-30 kq süd verirlər.

Süd istehsalını intensiv artırmaq üçün mal-qaranın cins tərkibi daim yaxşılaşdırılmalıdır.

Mal-qaranın cins tərkibi üç yolla yaxşılaşdırıla bilər: respublikaya cins mal-qara gətirməklə, heyvanların süni mayalanması metodu ilə və xalq seleksiyası yolu ilə.

Aqrar sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məqsədilə hər bir regionun təbii-iqlim və digər spesifik xüsusiyyətləri nəzərə alınaraq ərazilərdə bitkiçilik və heyvandarlıq inkişaf etdirilir.

Regionların inkişaf etdirilməsi istiqamətində görüləcək əlavə tədbirlər nəticəsində üçüncü qəbul edilmiş proqramın sonunda öz daxili istehsalımız nəticəsində nəinki özümüzü tam təmin edəcəyik, hətta bəzi məhsullar üzrə ixrac ölkəsinə çevriləcəyik. Bu baxımdan kənd təsərrüfatı məhsullarının istehsalı, daxili tələbatın ödənilməsi və ixracı üzrə bir sistem artıq hazırlanılır.

Azərbaycanda Taxtakörpü və Şəmkirçay su anbarlarının tikilməsi nəticəsində on minlərlə hektar torpaq sahələri dövriyyəyə buraxılmışdır. Uzun illərin təcrübəsi bunu deməyə əsas verir ki, suvarılan torpaqlardan daha yüksək məhsul götürülür. Dəmyə torpaqlar isə dağ və dağətəyi regionlarda təbiət tərəfindən suvarılır və əlavə olaraq həmin sahələrə çiləyici aqreqatlar quraşdırılır.

Aqrar sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin regional problemləri

Aqrar sahibkarlığın fəaliyyətinin tənzimlənməsi üzrə regional istiqamətlərdə aşağıdakı problemlərə yenidən baxılmalıdır:

∗ taxılla bağlı ölkədə toxuma olan tələbatın ödənilməsini təmin etmək məqsədilə taxıl toxumçuluğu dövlət müəssisələrində suvarma sistemləri, maddi-texniki təminat və istehsalın əsas fondla təchizatı təmin edilməlidir. Eyni zamanda dövlət taxıl fondunun yaradılması 2015-ci ilin sonunadək həll edilməlidir;

∗ kənd təsərrüfatı məhsulları istehsalçılarına 25 faizdən yüksək rentabelli işləyən sahibkarlara əməyin maddi stimullaşdırılması prinsipi tətbiq edilməli;

∗ mülkiyyətində olan torpaq sahələrindən istifadə etməyən torpaq sahibləri haqqında inzibati tədbirlər görülməli;

∗ aqrar sahibkarlığın şəffaflığının təmin edilməsi məqsədilə "Elektron kənd təsərrüfatı" yaradılmalı;

∗ regionların ixtisaslaşmasına uyğun taxılçılıq üzrə iri fermer təsərrüfatları yaradılmalı;

∗ aqrobiznesin fəaliyyəti genişləndirilməli;

∗ kəndlərdə emal sənayesi inkişaf etdirilməli;

∗ regionların ixtisaslaşmasına uyğun pambıqçılığın, tütünçülüyün, baramaçılığın, çayçılığın, üzümçülüyün əkin sahələri genişləndirilmə və sahələr intensiv inkişaf etdirilməli;

∗ regionlarda əmək ehtiyatlarından səmərəli istifadə edilməsinin təmin edilməsi üçün istehsalın əmək tutumu amilinə xüsusi fikir verilməli;

∗ aqrar bazar infrastrukturu inkişaf etdirilməli;

∗ regional istiqamətlər seçilərkən onların iqtisadi inkişaf səviyyəsinin müəyyənləşdirilməsində əhalinin hər nəfərinə düşən istehsal və istehlakın qiymətləndirilməsi ənənəvi göstəricilərindən (ümumi milli məhsul, ümumi daxili məhsul, xalis məhsul, əhalinin hər nəfərinə düşən real ümumi milli məhsul və xalis gəlir) istifadə edilməlidir.

Nəticə

Aqrar sahibkarlığın inkişaf etdirilməsi məqsədilə regional siyasət davam etdirilir, onun tənzimlənməsinə yönəldilən dövlət dəstəyi tədbirləri davamlı olaraq həyata keçirilir və bu məqsədlə dövlət büdcəsindən lazımi vəsait ayrılmışdır. Aqrar sahibkarlıq fəaliyyətinin tənzimlənməsi üzrə qeyd olunan bir sıra problemlərin həllinə diqqətin artırılması regionların inkişaf məqsədlərinə daha tez nail olmağa kömək edəcəkdir.

ƏDƏBİYYAT

1. Prezident İlham Əliyevin regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans.
2. w.w.w. linq com.
3. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. "Nurlan" nəşriyyat-poliqrafiya mərkəzi. Bakı, 2004, s. 503.

Улвия Ибрагим гызы Рзаева
Азербайджанский Государственный Аграрный Университет
диссертант

Региональные направлении регулирования аграрной предпринимательской деятельности

Резюме

В статье говорится что, в зависимости от спесифических особенностей региона республики государства регулирует деятельность аграрногопредпринимательства со своими лготнымикредитами, субсидиями и другими средствами.

Ключевые слова: развитие регионов, государственная поддержка, льготные кредиты, регулирование предпринимательской деятельности, региональные проблемы.

Ulviyya Ibrahim Rzayeva
Azerbaijan State Agricultural University
PhD student

Regional trends in the regulation of agricultural entrepreneurial activity

Summary

The article covers the issues on the state regulation of agricultural enterprises through preferential loans, subsidies and other incentives depending on the characteristics of specific regions. Some problems related with regional trends in the regulation of agricultural entrepreneurial activity are investigated.

Key words: regional development, government support, preferential loans, self-sufficiency level, the regulation of entrepreneurial activity, regional problems.

UOT 338.48

Elçin Etibar oğlu ƏKBƏROV
İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun doktorantı

AZƏRBAYCANDA TURİZM MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTLİLİK KONTEKSTİNDƏ MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAF POTENSİALI

Xülasə

Son zamanlar maliyyə, nəqliyyat, turizm, sığorta, təhsil, tibb və s. sahələrdən təşkil olunan xidmətlər sektoru iqtisadiyyatın ən perspektivli sektorlarından biri kimi inkişaf edir. Xidmətlər sektorunda ixtisaslaşmış müəssisə onun rəqibləri ilə müqayisədə üstünlüyü olduğu halda rəqabət mübarizəsində qalib gələ bilər. Azərbaycanın turizm müəssisələrinin cari vəziyyəti və rəqabətqabiliyyətliliyinin artırılması perspektivləri barədə təşkil olunmuş sorğuya əsaslanan mütəxəssis rəyləri bu məqalədə əks olunmuşdur.

Açar sözlər: turizm, rəqabətqabiliyyətlilik, rəqabət, Azərbaycan, iqtisadiyyat.

Giriş

Hazırda dünyada gedən qloballaşma və inteqrasiya prosesləri çərçivəsində turizm iqtisadiyyatın çox mühüm və eyni zamanda perspektivli bir sahəsinə çevrilmişdir. Bir çox ölkələr artıq turizm sektorunun potensialını istifadə etməklə, əlaqəli sahələrin inkişafını təmin etməyə nail ola bilməkdədirlər. Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanda iqtisadi sistem dəyişikliyi olmuş, ölçülüb-biçilmiş struktur siyasəti aparılmışdır. Bu siyasətin əsas istiqamətlərindən biri Azərbaycan iqtisadiyyatının eninə və dərininə inkişaf edən qloballaşma proseslərinə uyğunlaşdırılmasıdır. Bu isə Azərbaycan iqtisadiyyatının bütövlükdə və onun ayrı-ayrı sahələrinin rəqabət qabiliyyətinin günün tələblərinə uyğunlaşdırılmasını tələb edir.

Turizm məhsulu haqqında

Azərbaycan Respublikasında turizmin zəngin potensialından istifadənin artırılması, səmərəliliyin yüksəldilməsi ölkənin iqtisadi siyasətinin əsas istiqamətlərindəndir. Bunun üçün turizm sahəsində göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, qiymətlərin beynəlxalq-regional qiymətlərlə tarazlaşdırılması və hətta lazım gəldikdə daha çox turist cəlb etmək məqsədilə qiymətlərin aşağı salınması mühüm əhəmiyyət kəsb edir. Bu, turizm sektorunun rəqabət qabiliyyətinin artırılması yollarından biridir. Ölkəmizin hər bir iqtisadi rayonu, zonası, regionu üçün daha münasib və səmərəli turizm növünün, xidmətinin müəyyən edilməsi də olduqca vacibdir. Bu baxımdan turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin tədqiq edilməsi çox əhəmiyyətlidir.

Turizmdə rəqabətqabiliyyətliliyi tədqiq etməzdən əvvəl turizm məhsulu haqqında bəzi məqamlara diqqət yetirmək lazımdır. Turizm məhsulunu başqa mallardan fərqləndirən bəzi özünəməxsus xüsusiyyətlər vardır:

1. Turist turizm məhsulunu (otel, kurort, istirahət mərkəzi, tur-paket və s.) alarkən onu görmür və bu səbəbdən də onu qiymətləndirə bilmir. Qiyməti isə yalnız bu məhsuldan istifadə etdikdən sonra verə bilir. Lakin turist turizm məhsulunu alarkən bəzi məqamları, məsələn, xidmət göstərən turizm şirkətinin reytinqini, bu xidmətdən istifadə etmiş digər turistlərin fikirlərindən öyrənə bilər. Elmi-texniki tərəqqi nəticəsində artıq dünyadakı bir çox turizm obyektləri haqqında buradan istifadə etmiş turistlər mənfi və ya müsbət rəylərini elektron rejimdə müxtəlif saytlar (www.tripadvisor.com, www.booking.com) vasitəsilə bildirmək imkanı qazanmışlar. Bu da həmin obyektlərin potensial istifadəçiləri üçün əvəzolunmaz qiymətləndirmə imkanı deməkdir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2013-cü ildə Azərbaycanda 530 mehmanxana və mehmanxana tipli müəssisəyə qarşılıq www.booking.com saytında 134, www.tripadvisor.com saytında isə 153 mehmanxana və istirahət mərkəzi qeydiyyatdadır.

Müqayisə üçün qeyd edək ki, www.booking.com saytında təkcə Tbilisidən 473, Gürcüstandan 1041, Ermənistandan 324, Rusiyadan 4840, Türkiyədən 3785, Qazaxıstandan 323 mehmanxana və ya digər yerləşdirmə məntəqəsi, www.tripadvisor.com saytında Gürcüstandan 1140, Ermənistandan 135, Rusiyadan 8371, Türkiyədən 17501, Qazaxıstandan 423 mehmanxana və ya digər yerləşdirmə məntəqəsi qeydiyyatdadır.

Əlavə olaraq onu da nəzərə almaq lazımdır ki, eyni turizm obyekti eyni şərtlərlə təşkil olunmuş turist səyahətinə müxtəlif formalarda xidmət göstərə bilər ki, bu da buraya qrup halında gələn turistlərin yaşından, xarakterindən, fəsillərdən, işçi personalın əhval-ruhiyyəsindən və s. asılı olaraq dəyişilə bilər.

2. Turizm məhsulu bir-birilə kompleks şəkildə əlaqədər olmaqla zəncirvari prosesi xatırladır və müxtəlif müəssisələrin gərgin əməyi ilə yaranır. Ofisiant, ümumi xidmət, qidalanma, əyləncə və s. bu zəncirin halqalarına bənzətsək, bu halqalardan istənilən birinin zəif olmasının ümumi turizm məhsuluna necə mənfi təsir etdiyini təsəvvür etmək elə də çətin olmaz. Hər müəssisənin, təşkilatın özünəməxsus işə yanaşma tərzi, maraqları, üslubu turizm məhsulunun əmələ gəlməsini daha mürəkkəb edir və burada bilməyərəkdən səhv etmək ehtimalı ilə yanaşı, öz maraqlarının təmin olunmaması nəticəsində keyfiyyətsiz xidmət göstərmə ehtimalı da vardır.

3. Turizm təyinat məntəqəsi digər ticarət aparılan əmtəələrdən fərqli olaraq mürəkkəb bir işin öhdəsindən gələrək turistə təcrübə bəxş etməlidir. Bu təcrübənin verilməsində müxtəlif sahələri təmsil edən şəxslərin və müəssisələrin əməyinin birləşdirilməsi şərtdir. Burada otellər, restoranlar, istirahət mərkəzləri, hava yolları, tur operatorlar kimi turizm müəssisələri, əyləncə, idman, rekreasiya, mədəniyyəti özündə birləşdirən əlavə vasitələr, təyinat məntəqəsinin menecmentini həyata keçirən təşkilat və ya təşkilatlar, infrastruktur, kommunikasiya və nəqliyyat kimi ictimai sahələr və təyinat məntəqəsinin yerləşdiyi ərazidə yaşayan yerli sakinlər hamısı birlikdə turistə bu təcrübənin yaşadılmasında iştirak edirlər. Bu şəxslərin sayının çoxluğu təyinat məntəqəsinin idarə olunmasını və istənilən nəticənin əldə olunmasını çətin bir məsələyə çevirir. Üstəlik hər bir turistin özünəməxsus istək və tələblərinin də olduğunu nəzərə almaq lazımdır.

Sorğu nəticələri

Qeyd olunan məsələlər üzrə Azərbaycandakı son vəziyyəti dəyərləndirmək və turizmin rəqabətqabiliyyətliliyinin ölçülməsi, ümumi olaraq turizmin vəziyyətinin qiymətləndirilməsi məqsədilə müxtəlif sabit mənbələrdən alınmış məlumatların tədqiqi ilə bərabər, həm də aparıcı mütəxəssislərin yanaşmasının və turistlərin rəyinin öyrənilməsi üçün turizm obyektlərinin mütəxəssisləri və turistlər arasında sorğu keçirilmişdir. Sorgunun nəticələrinin bir qismi analiz olunaraq bu məqalədə əks olunmuşdur.

Mütəxəssislər arasındakı sorğunun nəticələrini əks etdirən yuxarıdakı cədvələ əsasən Azərbaycan yalnız “səyahətçilərin təhlükəsizliyi” və “turizm təyinat məntəqələrinin turist qəbul etmə limitinə yaxınlaşması” göstəricilərinə əsasən yüksək (“3” baldan yuxarı) rəqabətqabiliyyətliliyə malikdir. Qiymətləndirmədə “1” qiymətinin çox aşağı, “5” qiymətinin isə çox yuxarı rəqabətqabiliyyətliliyi göstərdiyini bir daha yada salaraq digər göstəricilərin analizinə diqqət yetirək:

“2” baldan aşağı göstəricilər:

1. turizm təyinat məntəqəsinin effektiv brendinqinin inkişafı;
2. yerli turizm bizneslərinin sahibkarlıq keyfiyyətləri;
3. turizmdəki işçilərin təhsil strukturu / profilləri;
4. turizm təyinat məntəqəsinin payçıların dəyərlərini əks etdirən görüşləri (Burada payçı dedikdə təsisçilər deyil, istehlakçılar, əhali və s. başa düşülməlidir);

Yuxarıdakı göstəricilər qeyd olunan bəndlər üzrə rəqabətqabiliyyətliliyin çox aşağı olduğunu və hələ xeyli inkişaf etdirilməli olduğunu göstərir.

“2-3” bal arasında olan göstəricilər:

1. yemək xidmət vasitələri;

Cədvəl 1

Aparılan sorğu nəticəsində mütəxəssis rəyləri



2. yerləşdirmə;
3. aeroportun effektivliyi / keyfiyyəti;
4. turizm təyinat məntəqəsi təcrübəsi üçün verilən pul qarşılığında alınan dəyər;
5. turizm məntəqəsinin əlçatan olması;
6. turizm təyinat məntəqəsi məhsulları barədə beynəlxalq məlumatlılıq;
7. turizm təyinat məntəqəsinin ümumi imici;
8. turizm təyinat məntəqəsi barədə beynəlxalq məlumatlılıq;
9. turizm xidmətlərinin göstərilməsindəki keyfiyyət;
10. menecerlərin bacarıqları;
11. marketinq;
12. yeni turizm məhsullarının inkişaf etdirilməsi və irəli çəkilməsi;
13. turizm / qonaq qəbul edən şirkətlərin effektivliyi;
14. gələcəyə dair görüşlər – vizyon;
15. turizm təyinat məntəqəsinin güclü və zəif cəhətlərinin, problemlərinin və çağırışlarının auditi;
16. rəqabət mühitinin dəyərləndirilməsi üçün analiz aparılması;
17. səyahətçilərin menecmenti: səyahətçilərin pozitiv və neqativ təsirlərinə nəzarət;
18. böhran menecmenti.

“2-3” bal arasında dəyişən yuxarıdakı göstəricilərin isə bərabər rəqabətqabiliyyətliliyə çatmasalar da yaxınlaşdıqları görünür və bu göstəricilər üzrə istiqamətlərdə işlər aparılarsa Azərbaycanın müqayisə olunan ölkələrlə bərabər rəqabətqabiliyyətliliyə çatması və hətta onları ötməsi də mümkündür.

Qrafik 1

Turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində çalışanların faiz nisbəti



Yuxarıdakı qrafikdə turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində çalışanların faiz nisbəti əks olunmuşdur. Bu sahədə işləyənlər 1.1% təşkil edir. Başqa sözlə, Azərbaycanda 2013-cü ildə hər 90 nəfərdən biri turizm sahəsində çalışmışdır. Qeyd edək ki, dünya üzrə hər 11 nəfərdən biri turizm sahəsində çalışır.

Azərbaycan iqtisadiyyatı “Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2013-2014” hesabatına əsasən,

rəqabət qabiliyyəti səviyyəsinə görə 39-cu, MDB-də 1-ci olmuş, ölkəmiz ilk dəfə dünyanın "yuxarı orta gəlirli" və "yüksək insan inkişaflı" ölkələr qrupuna daxil olmuşdur. Nüfuzlu reytinq agentliklərinin hamısı ("Fitch Ratings", "Standart & Poor's" və "Moody's") Azərbaycana investisiya kredit reytinqi vermiş və Azərbaycan Qafqaz ölkələri arasında investisiya reytinqinə malik yeganə ölkə olmuşdur.

Nəticə

Hazırda Azərbaycan iqtisadiyyatında, o cümlədən qeyri-neft sektorunda artım meyilləri davam edir. İqtisadi fəallığın hökumət tərəfindən dəstəklənməsi iqtisadiyyatın inkişaf dinamikasına müsbət təsir göstərir və makroiqtisadi sabitlik qorunur. Eyni zamanda yüksək iqtisadi inkişaf meyilləri iqtisadiyyatın qeyri-neft sektoruna böyük həcmdə investisiyaların yatırılmasına imkan vermişdir. İqtisadi və sosial tərəqqinin əsas keyfiyyət göstəricisi olan ümumi daxili məhsul (ÜDM) istehsalı 2013-cü ildə 57.7 milyard manata çatmışdır.

Qeyd etmək yerinə düşər ki, Dünya Səyahət və Turizm Şurasının məlumatlarına görə 2012-ci ildə Səyahət və Turizmin ÜDM-də payının artımına görə 20 ən böyük Səyahət və Turizm iqtisadiyyatı olan ölkədən sonra Qatar və Qırğızıstanla yanaşı Azərbaycan da ən sürətlə inkişaf edən iqtisadiyyatlardan olmuşdur.

ƏDƏBİYYAT

1. www.booking.com, www.tripadvisor.com Müraciət tarixi 02.12.2014.
2. United Nations World Tourism Organization. Tourism Highlights 2014 edition. (http://dtxtq4w60xqpw.cloudfront.net/sites/all/files/pdf/unwto_highlights14_en_hr_0.pdf)
3. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı" Dövlət Proqramı.
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi www.stat.gov.az
5. World Travel & Tourism Council. Economic Impact of Travel & Tourism 2013 Annual Update: Summary. London. 27.02.2013.
6. Dünya İqtisadi Forumu. Səyahət və Turizm Rəqabətqabiliyyətlilik Hesabatı 2013.
7. Балабанов И.Т., Балабанов А.И. Экономика туризма. Москва: Экономика и финансы. 2003, с. 15.

Элчин Этибар оглы Акперов
докторант Научно-Исследовательского
Института Экономических Реформ

Современное состояние и перспективы развития конкурентоспособности туристических компаний Азербайджана

Резюме

Сегодня сфера услуг, охватывающий финансы, транспорт, туризм, страховка, образование, медицина и т.п. развивается как один из самых перспективных отраслей экономики. Компания в сфере услуг может победить соперников в случае, когда имеется его преимущество над другими соперниками. В статье на основе проведенного опроса приведены мнения специалистов о современном состоянии и перспективах развития конкурентоспособности туристических компаний Азербайджана.

Ключевые слова: туризм, конкурентоспособность, конкуренция, Азербайджан, экономика.

Elchin Etibar Akbarov
PhD in economy student in Economic
Reforms Scientific-Research Institute

Current situation and perspectives for development of competitiveness of Azerbaijan’s tourism companies

Summary

Services sector which contains finance, transportation, tourism, insurance, education, medicine is developing as one of the most prospective sectors of economy in nowadays. The company specialized in services sector can win in competition fight with competitors in case of its advantage in comparison with it`s competitors. Opinions of specialists on current situation and perspectives for development of competitiveness of Azerbaijan’s tourism companies based on provided survey has been included in this paper.

Key words: tourism, competitiveness, competition, Azerbaijan, economy.

UOT 330.44

Firiş Balış oğlu ŞƏKƏRƏLİYEV
AMEA-nın İqtisadiyyat İnstitutunun dissertantı

AUDİTİN İCTİMAİ-İQTİSADİ HƏYATDAKI İNKİŞAFININ MÜASİR TƏLƏBLƏR BAXIMINDAN TƏHLİLİ

Xülasə

Məqalədə auditin ictimai-iqtisadi həyatda oynadığı rol müasir tələblər baxımından qiymətləndirilir. Həmçinin, auditin iqtisadi və sosial istiqamətli fəaliyyəti nəzəri və konseptual aspektlərdən təhlil olunur. Auditə müasir mahiyyət və məntiq baxımından yanaşma irəli sürülür.

Açar sözlər: audit, ictimai-iqtisadi inkişaf, nəzəri-konseptual baxışlar, elmi və intellektual fəaliyyət, idarəetmə sistemi.

Giriş

Müasir dünya iqtisadiyyatının güclənməsi, qlobal proseslərin dərinləşməsi cəmiyyət və dövlətin inkişaf həyatında da bir çox ziddiyyətli proseslərin baş verməsinə səbəb olur. Xüsusilə böhranlar, maddi və iqtisadi maraqların müxtəlif səviyyələrdə uzlaşmaması, ekoloji fəsadlar buna olan nümunələrdir. Təbii ki, bütün bu problemlərlə bağlı dünya ölkələri, beynəlxalq təşkilatlar əsaslandırılmış proqramlar, konsepsiyalar hazırlayaraq həyata keçirsə də, hələ gözlənilən səviyyədə müsbət meyillər baş vermir. Təcrübə göstərir ki, mövcud problemlərin yaranması və inkişafı əsasən maliyyə-iqtisadi amillərlə daha sıx bağlı olur və məhz bu baxımdan da onların mütəmadi olaraq təhlilinə, qiymətləndirilməsinə ehtiyac yaranır. Bu səbəbdəndir ki, artıq iqtisadi, maliyyə və ekoloji problemlərin qiymətləndirilməsində obyektiv, şəffaf və geniş informasiya təminatlı audit rəyinə zərurət yüksək olaraq qalmaqdadır. Auditin nəzəri və metodoloji əsaslarının tədqiqində daha çox bu xidmətin genişmiqyaslı ictimai-iqtisadi müstəvidəki fəaliyyətinə diqqətin son illərdə artırılması da məhz bu səbəbdəndir.

Auditin müasir tələblər baxımından mahiyyəti

Son dövrün təcrübə və tədqiqatları belə bir mühüm cəhəti əsaslandırmağa imkan verir ki, auditin mahiyyətinə olan baxışlarda bəzi fərqlilik mövcud olsa da, lakin ümumi mənada onlar sahənin müasir cəmiyyətdə, iqtisadi inkişaf proseslərində yüksək rolunu, mövqeyini daha aydın xarakterizə edir. Xüsusilə, auditin iqtisadi fəaliyyət və hadisələr haqqında obyektiv məlumat formalaşdırması prosesi kimi qiymətləndirilməsi bu xidmətin müasir bazar iqtisadiyyatının ayrılmaz tərkib hissəsi, vacib infrastruktur sahəsi olduğunu göstərməklə, qlobal iqtisadi proseslərin gedişində, informasiyalı cəmiyyət quruculuğunda onun da aparıcı lokomotivlərdən birinə çevrilməsini təsdiq etmiş olur.

Hər bir elm sahəsi ümumi qəbul olunmuş və əsaslandırılmış mahiyyət, anlayış yanaşması, baxışları üzərində qurulur. Tədqiqatlar göstərir ki, maliyyə-iqtisadiyyat sahəsində və leksikonumuzda zəruri və vacib termin, anlayış kimi öz əhəmiyyətini getdikcə genişləndirməkdə olan auditin də bu baxımdan konkret və dəqiq mahiyyət-anlayış aydınlaşdırılmasına zərurət artmaqdadır. Belə araşdırma auditin bir iqtisadiyyat, infrastruktur sahəsi kimi inkişafında, onun fəaliyyəti qarşısında mövcud olan problemlərin aradan qaldırılmasında öz təsirini göstərə bilər. [12, s. 35-36]

Həmçinin, müasir inkişaf meyilləri və auditin bu proseslərdə oynadığı fəal rol göstərir ki, mövcud hüquqi əsaslarda auditin cəmiyyət həyatı və iqtisadi inkişaf üçün əhəmiyyətinin daha geniş qiymətləndirilməsinə ehtiyac vardır. Məhz belə yanaşma aparılan tədqiqatlarda da öz aydın əksini tapmaqdadır: "Audit - geniş mənada cəmiyyətdə gedən iqtisadi-maliyyə proseslərini qiymətləndirərək, bu proseslər haqqında cəmiyyət üzvlərinə, maraqlı tərəflərə obyektiv və şəffaf informasiya çatdıran sivil bazar nəzarəti formasıdır". [12, s. 44]

Audit sosial-ictimai inkişaf proseslərində

Audit sisteminin ölkə iqtisadiyyatı və onun inkişafı üçün mühüm əhəmiyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin verdiyi qiymətdə daha aydın görünür: "Audit sisteminin beynəlxalq təcrübə və standartlar əsasında təkmilləşdirilməsi ölkə iqtisadiyyatında maliyyə şəffaflığını, büdcə vəsaitlərindən təyinatına uyğun istifadəni təmin etməklə, Azərbaycanın iqtisadi qüdrətinin möhkəmlənməsinə xidmət edir". [1]

Digər tərəfdən, ölkə başçısının auditin inkişafını daha geniş müstəvidə görməsi, iqtisadiyyatın beynəlxalq inteqrasiyaya qovuşmasında, maliyyə sisteminin möhkəmlənməsində və ictimai-iqtisadi təhlükəsizliyin möhkəmlənməsində onun əvəzsiz rol oynamasını əsaslandırması bu fəaliyyət sahəsinin yüksək dəyərini bir daha təsdiq edir. Prezident İlham Əliyevin: "Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və onun dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından daha geniş istifadə etmək zərurəti yaranır. Bunun üçün müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək çox vacibdir" kimi baxışları və mövqeyi bir daha auditin ictimai-iqtisadi inkişaf proseslərində nə kimi xüsusi əhəmiyyət kəsb etdiyini göstərir. [1]

Ali maliyyə-iqtisadi nəzarət sistemi kimi dövlət auditinin, Hesablama Palatasının təşklinə qanunvericilikdə Milli Məclisə hesabat verən, daimi fəaliyyət göstərən dövlət büdcə-maliyyə nəzarəti orqanı kimi yanaşma əks edilsə də, lakin onun funksional fəaliyyəti daha geniş və çoxcəhətli şəkildə təsbit olunur. [3]

Auditin funksional fəaliyyətinin ictimai və iqtisadi həyatdakı rolu və zəruriliyi nəzərə alınmaqla, onun fəaliyyət dairəsi qanunvericilikdə bu baxımdan verilir: "Hesablama Palatası dövlət büdcəsinin təsdiq edilməsinə və icrasına, dövlət əmlakının idarə edilməsinə, onun barəsində sərəncam verilməsinə, dövlət əmlakının özəlləşdirilməsindən əldə edilən vəsaitlərin dövlət büdcəsinə daxil olmasına, hüquqi şəxslərə və bələdiyyələrə dövlət büdcəsindən vəsaitlər ayrıldıqda həmin vəsaitlərin təyinatı üzrə istifadə edilməsinə nəzarəti həyata keçirir". [3]

Audit intellektual yönümlü fəaliyyətdə

Auditin iqtisadiyyatda və cəmiyyət həyatında oynadığı rolun böyüklüyü və əhəmiyyətliliyi bu fəaliyyət sahəsinə olan müasir nəzəri-konseptual yanaşmalarda daha aydın şəkildə görünməkdədir. Rusiya Elmlər Akademiyasının müxbir üzvü Andrey Qeym iqtisadiyyatın, fəaliyyət sahəsinin yeni inkişaf istiqaməti olan "elmi auditin" inkişaf zərurətini əsaslandırır. Alimin baxışlarından nəzərə çarpır ki, o, elmi auditin tətbiqində yeni yanaşma tərzinin olmasını zəruri hesab etsə də, lakin burada ümumi audit konsepsiyasından, prinsip və təşkil meyarlarından, auditin aparılma texnologiyasından istifadə edilməsini də məqsədəuyğun hesab edir. [15]

Auditin intellektual mülkiyyətin və fəaliyyətin formalaşmasında və inkişafında olan rolu və əhəmiyyəti istər nəzəri, istərsə də praktiki baxımdan səciyyələndirilməlidir. Belə ki, intellektual mülkiyyətin dəyərinin mənəvi baxımdan qiymətləndirilməsi çətin olsa da, lakin onun məhsulunun bazara çıxışı və müəyyən bir ölçü meyarına, imicə uyğun gəlməsi özündə xərcləri, bu xərclərin əsaslandırılmasını tələb edir. Məhz müasir intellektual mülkiyyətin mümkün bazar dəyərinin formalaşmasında və onun nəticələrinin səmərəliliyinin qiymətləndirilməsində audit öz konkret fəaliyyəti ilə çıxış edir. Çünki, intellektual mülkiyyət özü də mühasibat uçotunun bir obyekti hesab edilir, o, auditin bazar üçün əhəmiyyətlilik səviyyəsini əks etdirən verdiyi qiymət və rəyindən sonra istehlakçı üçün daha çox maraq kəsb edir. [5, s. 26] Beynəlxalq təcrübə göstərir ki, intellektual mülkiyyət auditin daha həssas və mürəkkəb tədqiqat obyekti olub, bazarda xüsusi ekspert rəyindən, dəyərləndirilməsindən sonra daha cəlbedici olur. [16]

Audit idarəetmə sisteminin əsas tərkib elementi kimi

İngilis iqtisadçı-auditoru R.Adams auditi idarəetmə sisteminin, əsasən də subyektin təsərrüfat

fəaliyyətində mühüm bir element, təsir vasitəsi hesab edir. Adamsın tədqiqatları belə bir nəticəni çıxarmağa imkan verir ki, audit yalnız mühasibat və uçot sisteminin təşkili və ona nəzarət aləti kimi götürülmür, o daha çox idarəetmə qərarlarının əsaslandırılması və fəaliyyətin müxtəlif dövrlərdəki nəticələrinin maliyyə, iqtisadi dayanıqlıq baxımdan müəyyənedici bir qüvvəsi kimi qəbul edilir. [6, s. 27] Belə yanaşma auditin müəssisənin fəaliyyətindəki mühüm rolunu göstərməklə, onun makroiqtisadi inkişafın sürətləndirilməsinə olan təsir imkanlarının dəyərini daha aydın əks etdirir.

Auditin iqtisadiyyat və təsərrüfat həyatında oynadığı belə mühüm və yaxın mövqeyi amerikalı alimlər E.A.Arens və C.K.Lobbek də ifadə edirlər. Onların qənaətinə və tədqiqatlarının nəticələrinə görə audit bir xidmət növü olaraq maliyyə-təsərrüfat fəaliyyətinin təşkilində, aparılmasında əsas rollardan birini oynamaqla yanaşı, həmçinin idarəetmə sisteminin və menecmentin fəaliyyətinin səmərəliliyinin artırılmasında, subyekt və bazar, maraqlı tərəflər üçün düzgün, şəffaf və neytral informasiya bazsının formalaşdırılmasında yaxından iştirak edir. [7, s.14] Zənnimizcə, mövcud yanaşma tərzi nəinki biznesin təşkili və idarəedilməsi baxımdan əhəmiyyətlidir, o eyni zamanda konkret zamanda və məkanda iqtisadi inkişaf proseslərinin təhlil edilib, qiymətləndirilməsi və nəticə qərarlarının qəbul olunması baxımından da vacib hesab edilməlidir.

V.D.Andreyevin auditor fəaliyyətinə yanaşması nisbətən fərqliliyi ilə nəzərə çarpır. Araşdırmalar göstərir ki, iqtisadçı "auditə, o cümlədən daxili auditə daha geniş mənada baxıb, onu idarəetmə sisteminin təşkili və tənzimləmə forması, vasitəsi kimi qiymətləndirir, idarəetmə funksiyası olaraq qəbul edir". [9, s. 30]

Müvafiq yaxın mövqedən həmçinin, O.V.Kovalyova və Y.P.Konstantinov da çıxış etməklə, auditin müxtəlif səviyyəli iqtisadi və təsərrüfat sahəsindəki fəaliyyətində ali idarəetmə orqanına xas mühüm cəhətləri yüksək dəyərləndirirlər". [13, c. 51]

Auditə olan belə mövqe yanaşması daxili və dövlət maliyyə nəzarəti, auditi ilə bağlı qanunvericilik sənədlərində də aydın şəkildə nəzərə çarpır. [3; 4] Zənnimizcə, digər yanaşmalar kimi auditə olan mövcud yanaşma da auditin yalnız iqtisadi və təsərrüfat fəaliyyətində bəzi baxışlardakı dar mövqeyini alt-üst edir. Çünki, XX əsrin ikinci yarısından başlayaraq auditin istər təsərrüfat fəaliyyətinin təşkili və tənzimləmə sahəsindəki təhlil-qiymətləndirici mövqeyi, istərsə də idarəetmə sistemindəki başlıca funksional fəaliyyəti artıq irəli sürülür.

Auditin biznes fəaliyyətinin təşkilində və səmərəliliyinin artırılmasında iştirakı

Auditin iqtisadi və biznes fəaliyyətində vacib və əvəzedilməz bir mövqeyi ondan ibarətdir ki, o, fəaliyyətin təşkilinə xidmət edir, mənfəətin əldə edilməsi ilə bağlı bütün prosesləri təhlil edərək qiymətləndirir və nəticə olaraq təsərrüfat həyatında mövcud problemlərin aradan qaldırılması ilə bağlı səmərəli və obyektiv rəy irəli sürür. Xüsusilə, mənfəət normasının dəyişkənliyi problemlərini üzə çıxarmaqla, onun yüksəldilməsi istiqamətində əsaslandırılmış təkliflər verir. Mövcud yanaşma artıq XX əsrin ikinci yarısından başlayaraq müasir dövrədək bazar münsaibətlərinin tənzimlənməsində və inkişafında xüsusilə vacib bir amil kimi qiymətləndirilməkdədir. Hər hansı sahibkarlıq fəaliyyətinin əsaslarını tədqiq etsək iki vacib istiqamət və məqsəd xüsusilə fərqlənəcəkdir: yüksək mənfəətin əldə edilməsi və şirkətə, firmaya olan inamın artımı. Bu baxışları inkişaf etmiş və inkişaf etməkdə olan bazar iqtisadiyyatı ölkələrinin firma və şirkətlərinin, transmilli şirkətlərin fəaliyyətinin hüquqi əsaslarını təşkil edən təsis sənədlərində, bazar etik davranış məcəllələrində aydın görmək mümkündür. Təcrübə göstərir ki, mənfəətliliyin artımında və bazar, fəaliyyət nüfuzunun qorunub saxlanmasında auditin fəaliyyəti genişdir, burada auditin peşəkar və əsaslandırılmış rəyi daha yüksək baxımdan qiymətləndirilməlidir. [10, c. 87; 11, c.17-25]

Zənnimizcə, auditor rəyi həqiqətən də bazarda olan sağlam və işgüzar mühitin qorunub saxlanmasında önəmli rol oynamaqla yanaşı, həm də bazar iqtisadiyyatlı ölkələrdə iqtisadi inkişafın fəallaşmasında, maraqlı tərəflərin bazardakı hərəkətinin istiqamətlənməsində (bisnesin qurulması, investisiya yatırımı, fond bazarının canlanması və s.) mühüm təsir vasitəsi hesab edilməlidir.

Auditor peşəsinin iqtisadiyyat və biznes üçün əhəmiyyətliliyi və zəruriliyi də cəmiyyətdə öz yüksək qiymətini almaqdadır. İqtisadi mənbələrdə auditor sənətinin, peşəsinin iqtisadi, ictimai mahiyyətinin qədim dövrdən gəldiyi irəli sürülməklə, onun bu sahədə verdyi faydaların zəruriliyi əsaslandırılır. Bu faydaların həm sağlam və səmərəli nəzarət sisteminin təşkili ilə, həm də iqtisadi fəaliyyətin inkişafı ilə bilavasitə bağlı olması göstərilir. [12, s.44; 14, s. 64]

Zənnimizcə, müasir auditor peşəsinə olan peşə-ixtisas tələblərinin yalnız maliyyə, mühasibat-uçotu, auditlə bağlı olmayıb, daha geniş müstəvidə (iqtisadiyyat, hüquq və s.) əhatə olunması bu baxımdan da irəli gəlir. [2]

Auditin biznesin və təsərrüfat fəaliyyətinin təşkili və inkişafında mühüm bir təsir vasitəsi kimi dəyərləndirilməsi və onun bu baxımdan funksional fəaliyyəti ölkə qanunvericiliyində də öz ifadəsini tapmaqdadır. Qanunvericilikdə auditin, əsasən də müstəqil auditin fəaliyyət istiqaməti bu şəkildə öz ifadəsini tapır: təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə-təsərrüfat fəaliyyəti sahəsində yoxlama, ekspertiza, təhlil aparmaq və yazılı rəy vermək, mühasibat uçotu qurmaq, hesabat göstəricilərinin dürüstlüyünü təsdiq etmək və auditorun peşə fəaliyyətinə (auditor təşkilatının nizamnamə məqsədlərinə) uyğun olaraq maliyyə-təsərrüfat münasibətləri sahəsində digər xidmətləri göstərmək auditor xidməti hesab edilir. Ölkə qanunvericiliyində auditorun biznes-təsərrüfat fəaliyyətinin təşkili və aparılması ilə bağlı verdiyi rəy bütün hüquqi və fiziki şəxslər, dövlət hakimiyyəti və idarəetmə orqanları, habelə məhkəmə orqanları üçün hüquqi əhəmiyyəti olan rəsmi sənəd hesab edilərək, qiymətləndirilir". [2]

Auditin ictimai-iqtisadi həyatda və biznes fəaliyyətində neytrallığı, obyektivliyi və şəffaflığı təmin etməsi ilə bağlı beynəlxalq təcrübədə olduğu kimi Azərbaycan qanunvericiliyində belə mühüm müddəa öz əksini tapır: "Yoxlanılan müəssisədə şəxsi əmlak mənafeyi, yoxlanılan müəssisənin rəhbərliyindən hər hansı şəxslə birbaşa qohumluq əlaqəsi, müəssisənin təsisçisi, mülkiyyətçisi və ya səhmdarı olduqda, müəssisədə bundan əvvəl öz peşə fəaliyyəti ilə bağlı xidmətlər göstərdikdə auditorlara həmin müəssisələrdə audit aparmaq qadağandır". [2]

Auditor fəaliyyətinin tənzimlənməsi üzrə nəzəri-metodoloji əsaslar hazırlayan "Audit üzrə beynəlxalq standartlar Komitəsi" (International Auditing and Assurance Standards Board) auditə yanaşmada onun iqtisadi və təsərrüfat fəaliyyətinin təşkili və tənzimlənməsindəki vacib rolunu əsaslandıraraq, bu fəaliyyətin əsas qiymətləndirici mövqeyini irəli sürür (əsasən də daxili audit üzrə). Lakin digər tərəfdən araşdırmalarımız göstərir ki, iqtisadi və təsərrüfat fəaliyyətinin təşkili və tənzimlənməsində audit əsas rollardan birini oynamaqla, eyni zamanda bu fəaliyyətlərin digər mərhələsi olan makroiqtisadi inkişaf proseslərinin təmin olunmasına xidmət etmiş olur. Belə ki, istehsal, bölgü, mübadilə və istehlak proseslərinin hər birində auditin mövcudluğu zərurətini və bu proseslərə təsir imkanlarını birbaşa və dolayı şəkildə hüquqi-normativ sənədlərdə və nəzəri-konseptual baxışlarda olan yanaşmalar aydın şəkildə göstərməkdədir.

Auditin əvvəldə qeyd etdiyimiz sahələrdəki fəaliyyətini və iştirak səviyyəsini E.A.Arens və C.K.Lobbek də öz tədqiqatlarının nəticəsi kimi əsaslandıraraq belə bir məntiqli fikri irəli sürürlər. Birincisi, iqtisadi və təsərrüfat fəaliyyətində audit müxtəlif şaxəli əməliyyatlar həyata keçirir (funksional, təşkilati, məqsədli). İkincisi, o, idarəetmə auditi kimi fəaliyyətini qurmaqla, daha çox idarəetmə sisteminin təşkili və tənzimlənməsinə xidmət edir. Üçüncüsü, audit sosial yönümlü fəaliyyət göstərməklə, bu yönümlü məsələlərin, problemlərin (kadr, bazarda reytinqin səviyyəsi, əmək və onun məhsuldarlığı və s.) təhlil edilib, qiymətləndirilməsində fəal rol oynayır. [7, c.14] Zənnimizcə, auditin təsərrüfat fəaliyyətində oynadığı rol kimi onun idarəetmə sisteminin təşkili və tənzimlənməsindəki rolu da mühüm və vacib bir baxımdan qiymətləndirilməlidir. Həmçinin, auditin iqtisadiyyatla yanaşı, sosial həyat üçün də önəmli fəaliyyəti hər zaman nəzərə alınmalıdır. Təcrübə göstərir ki, idarəetmə sisteminin qərarlarının əsaslandırılmasında, onun səmərəliliyinin artırılmasında auditin xidməti öz əvəzsizliyi ilə çıxış edir. Digər tərəfdən, müasir sosial sahələrdə (təhsil, elm və s.) auditin fəaliyyət imkanlarının artması üçün kifayət qədər şərait vardır.

Dünyada məşhur olan "Audit Montqomeri" kitabının müəlliflərinin tədqiqatlarının belə bir cəhəti daha çox diqqəti cəlb edir: "Bir sıra daxili nəzarət formalarının məzmunu və mahiyyəti İncildə öz əksini tapır. Bibliyada konkret olaraq əmlakın və mülkiyyətin qorunması ilə bağlı ikili yanaşma əks edilsə də, bu sahədə mötəbər, nüfuzlu və dürüst şəxslərin cəlb olunması, onlar arasında məsuliyyət və vəzifə bölgüsünün aparılması göstərilir". [8, c. 22-23] Qədim dövrün və müasir həyatın inkişaf tarixinə məntiqi faktlarla yanaşsaq, məhz belə mötəbər, peşəkar və məsuliyyətli şəxslərin daha çox auditorlardan ibarət olması üzə çıxır.

Auditin, auditorun xidmətlərinin həkimlik, keşişlik kimi xidmətlər ilə bağlılığında da kifayət qədər məntiqi və fəlsəfi açıqlamalar mövcuddur. Belə ki, iqtisadi, maliyyə-təsərrüfat fəaliyyətini bir canlı orqanizm kimi qəbul etsək, auditor onun təşkilinin, nəticələrinin diaqnostikasını keçirərək, qiymətləndirir, yaranmış problemlərin aradan qaldırılmasına, onun hüquqi istiqamətdən və cəmiyyət üçün qəbul edilmiş norma və xətdən uzaqlaşmasının qarşısının alınmasına xidmət edir. Belə oxşar baxışların müdafiəsi bir çox formalarda alimlər tərəfindən də ciddi şəkildə qəbul edilməkdədir.

Dövlət quruculuğu və onun hüquq-mühafizə sisteminin təşkilinin müxtəlif mərhələləri baxımından auditə yanaşmalar da xüsusilə diqqəti cəlb edir. Belə ki, polis, hüquq-nəzarət sözünün metaforik (mahiyyət, davamlı, proses ardıcıllığı) əsaslarına baxışlar onu göstərir ki, o da auditor kimi özgənin, cəmiyyətin (onun üzvünün) malik olduğu əmlakın, mülkiyyətin, maraqların qorunmasına və məqəsədəuyğun təşkilinə xidmət edir. Zənnimizcə, məhz auditin istər iqtisadi, istərsə də hüquqi fəaliyyətinin müxtəlif qanunvericilik aktlarında belə obrazlı şəkildə öz ifadəsini tapmasının mahiyyət açıqlamaları da bu baxımdan qaynaqlanır.

Qədim və orta əsrlərdən başlayaraq, müasir dövrə qədər tarixi inkişaf yolu keçən auditin mahiyyət-anlayış açıqlaması onun rolunun yalnız dar, müəssisə, təsərrüfat çərçivəsində yekunlaşmasına, nəzarətçi-təftişçi kimi baxışlarda qəbul edilməsinə imkan vermir. Bütün bu inkişaf prosesləri göstərir ki, audit ictimai-iqtisadi həyatın müxtəlif sahələrində səmərəli, müstəqil və öz prinsiplərinə (obyektiv, neytral, müstəqil) uyğun olmaqla, geniş tarixi yol keçmiş bir sahə kimi əhəmiyyət kəsb edir. [12, s. 31] Zənnimizcə, belə yanaşma həm tarixi inkişaf mərhələsi, həm də müasir dövrümüzün reallıqları baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə ki, auditin iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən ictimai-sosial həyatda məqsədəuyğun və səmərəli təşkili və fəaliyyəti özünü daha çox doğrultmaqdadır. Digər tərəfdən, bu baxışlar həm də ölkə rəhbərliyinin auditin iqtisadi inkişafın sürətlənməsində mühüm bir təsir vasitəsi olmasını göstərməsi ilə də sübut edilməkdədir.

Azərbaycanda gedən ictimai-iqtisadi inkişaf prosesləri auditin artıq ictimai müstəvidə də inkişafına yeni bir təkan verməklə, onun cəmiyyətdəki rolunu yüksəltməkdədir. Zənnimizcə, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasının müddəalarından irəli gələrək, belə bir fikir irəli sürmək olar ki, audit biznes-təsərrüfat fəaliyyətinin və iqtisadi inkişafın sürətlənməsində vacib bir fəaliyyət sahəsi olmaqla yanaşı, həm də ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində, cəmiyyətdə iqtisadi demokratiyanın genişləndirilməsinə rəvac verilməsində və vətəndaş cəmiyyəti təsisatları ilə əməkdaşlığın dərinləşdirilməsində, korporativ idarəetmədə müxtəlif tərəflərin maraqlarının maksimum qorunmasının təmin edilməsində də öz genişçalarlı xidmətləri ilə çıxış etməlidir.

Nəticə

İqtisadi və təsərrüfat fəaliyyətinin təşkili və tənzimlənməsində audit əsas rollardan birini oynamaqla, eyni zamanda bu fəaliyyətlərin digər mərhələsi olan makroiqtisadi inkişaf proseslərinin təmin olunmasına xidmət etmiş olur.

Auditin təssərüfat fəaliyyətində oynadığı rol kimi onun idarəetmə sisteminin təşkili və tənzimlənməsindəki rolu da mühüm və vacib bir baxımdan qiymətləndirilməlidir. Həmçinin auditin iq-

tisadiyyatla yanaşı, sosial həyat üçün də önəmli fəaliyyəti hər zaman nəzərə alınmalıdır. Müasir sosial və elmi-intellektual sahələrdə auditin fəaliyyət imkanlarının artması üçün kifayət qədər şərait vardır.

Tədqiqat və araşdırmalara görə belə nəticəyə gəlmək mümkündür ki, “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyasının həyata keçirilməsi auditin də bu mühüm quruculuq proseslərində daha fəal iştirakı üçün yeni-yeni fəaliyyət istiqamətləri açır, ölkə iqtisadiyyatının tarazlı və dayanıqlı inkişafının təmin edilməsində, şəffaflığın artırılmasında, vətəndaş cəmiyyətinin inkişaf etdirilməsində və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində həyata keçirilən tədbirlərin reallaşmasında bu xidmətin rolunun artırılmasını zəruriləşdirir.

ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası (2012-2020)”. Bakı, 2012.
2. “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 1994.
3. “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.
4. “Daxili audit haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2007.
5. “Azərbaycan milli audit standartları”. “Nağıl evi”. Bakı, 2004, s. 26.
6. Адамс Р. Основы аудита. М.: Аудит, ЮНИТИ, 1995.
7. Аренс А., Лоббек Дж. Аудит. М.: Финансы и статистика, 1995.
8. Аудит Монтгомери. Ф.Л. Дефлиз, Г.Р. Дженик, В.М. О'Рейлли, М.Б. Хирш. Издательство “Юнити”, 1997.
9. Андреев В.Д. Внутренний аудит. М.: Финансы и статистика, 2003.
10. Бычкова С.М. Доказательства в аудите. М.: Финансы и статистика, 1998.
11. С.М. Бычкова, Е.Ю. Итыгилова. Концепция полезности финансовой информации: современный взгляд и слияние на критерии аудита. (VII Мижнароднои науково-практичнои конференции.) К.: NNÜ “IAE”, 2013.
12. Yaşar Məmmədov. Azərbaycan Respublikasında auditor xidmətinin formalaşması və inkişaf perspektivləri. “Elm” nəşriyyatı. Bakı, 2006.
13. Ковалева О.В., Константинов Ю.П. Аудит. М.: Приор-издат, 2003.
14. Камышанов П.И. Учет и аудит. – М., 2008.
15. Газета.ру. “Странно требовать “научного аудита” только от институтов РАН”. 26.08.2013.
16. $ 8 cent-Emails, Fevral 25, 2014.

Фириш Балыш оглы Шакаралиев
диссертант ЭИ НАНА

Анализ развитие аудита в общественном - экономическом жизни по современным требованиям

Резюме

Статье оценивается роль аудита в общественном - экономическом жизни по современным требованиям. Анализируется научные и концептуальные взгляды на социальная и экономическая деятельность аудита. Показывается современный подход в аудита по сущности и логики.

Ключевые слова: аудит, общественная - экономическая развитие, научные - концептуальные взгляды, научная и интеллектуальное деятельность, организационная система.

Firish Balish Shakaraliyev
candidate for a degree EU of ANSA

Analysis of point of view modern demands of the audit role in social and economic life

Summary

Role played corresponding to the modern epoch in the article in the social and economic life audit is valued. Comparative analysis of the theoretical and conceptual looks being is carried out. Essence and is put forward from logical point of view open of modern audit.

Key words: audit, social and economic development, theoretical and conceptual looks, intellectual and scientific activities, management system.

II BÖLMƏ
MÜASİR SƏNAYE SİYASƏTİ VƏ SƏNAYE SAHƏLƏRİNİN İNKİŞAFI

UOT 338.45

Ehtibar Əsgər oğlu İMAMVERDİYEV
ADAU-nun dosenti, i.f.d;
Vəfa Nizami qızı QULİYEVA
GDU-nun baş müəllimi

SƏNAYE İSTEHSALININ DİVERSİFİKASİYASI STRATEGİYASI

Xülasə

Məqalədə diversifikasiya sənaye müəssisələrini onlar üçün yeni olan, ənənəvi istehsal sahələri ilə yanaşı çoxsahəli komplekslərə çevirən və iqtisadi cəhətdən daha üstün istehsal sahələrini müəyyənləşdirən strategiya kimi xarakterizə edilir. Eyni zamanda sənaye məhsulları istehsalının müxtəlif amillərin təsiri fonunda dəyişən iqtisadi amillərə kifayət qədər dinamik reaksiya göstərdiyi önə çəkilərək diversifikasiyasının elmi cəhətdən əsaslandırılmasına xüsusi diqqət yetirilir. Sonda araşdırmalar və təhlillərin fonunda ümumiləşdirmələr aparılaraq sənayedə istehsal diversifikasiyasının səmərəli nəticələrə gətirib çıxara biləcək əsas istiqamətləri müəyyənləşdirilir.

Açar sözlər: diversifikasiya, ixtisaslaşma, bazar konyunkturu, struktur dəyişiklikləri, iqtisadi səmərəlilik, tələbat, qiymət, mənfəət.

Giriş

Diversifikasiya sənayedə istehsalın təşkilinin əsas formalarından biri kimi iqtisadi cəhətdən daha səmərəli istehsal sahələrinin müəyyən edilməsi və inkişaf etdirilməsini nəzərdə tutan mühüm iqtisadi proses kimi özünü göstərir. Diversifikasiya eyni zamanda müəssisələrin onlar üçün yeni olan, ənənəvi istehsal sahələri ilə yanaşı çoxsahəli komplekslərə çevirən fəaliyyət sahələrini də xarakterizə edir. Bu zaman xüsusilə əsas istehsal ilə bağlı olmayan fəaliyyət sahələrinin yaradılmasına üstünlük verilməsi nəzərdə tutulur.

Diversifikasiyanın məzmunu və istiqamətləri

İqtisadi ədəbiyyatda diversifikasiyanın aşağıdakı istiqamətləri fərqləndirilir:

- konsentrik - mövcud olan texnologiya ilə və müəssisədə əvvəllər də istifadə edilən xammal və materiallar əsasında yeni növ məhsul istehsalını əks etdirir;
- şaquli - müəssisə əvvəllər kənardan aldığı məhsulu indi özü istehsal edir;
- üfuqi - mövcud texnologiyanı dəyişmək və ya yeni texnologiya hazırlamaqla yeni məhsul istehsalı həyata keçirilir;
- korporativ -yeni istehsal və idarəetmə münasibətləri əsasında daha təkmil məhsulun yaradılması və istehsalını xarakterizə edir.

Diversifikasiyanın qeyd edilən istiqamətləri iqtisadiyyatın bütün sferaları üçün xarakterik olsa da sənayenin xüsusiyyətləri baxımından istehsal diversifikasiyası daha fərqli mahiyyəti ilə səciyyələnir. Bu da onun əsas istiqamətləri və növlərini müəyyənləşdirərkən araşdırmaların aparılması zamanı yeni yanaşmalar tələb edir. O cümlədən, sənayedə həyata keçirildiyi sahə meyarı üzrə diversifikasiya üç formasının seçilməsini - istehsal, maliyyə və marketinq - tələb edir.

Əslində qloballaşma şəraitində diversifikasiya daha dərin məzmun daşımaqla müəssisənin məhz

istehsal, maliyyə və marketinq sahəsində əsas fəaliyyət növü kimi özünü büruzə verir.

İstehsal diversifikasiyası müəssisələrdə müxtəlif məhsulun alınmasını və ya çeşidinin genişləndirilməsini təmin edən istehsal növlərinin müxtəlifliyini xarakterizə edir. İqtisadi ədəbiyyatda istehsal diversifikasiyasının iki növü fərqləndirilir: konkret sahə və məhsul.

Sahə diversifikasiyası müəssisədə fəaliyyətdə olan və sənaye məhsulları istehsalının bütün mərhələlərində bir-biri ilə texnoloji baxımdan bağlı olan sahələrin artırılması, eləcə də başqalarından özünün son məhsulu, istifadə etdiyi istehsal vasitələri, texnologiyası ilə fərqlənən istehsal sahələrinin inkişaf etdirilməsi ilə fərqlənir. Məhsul diversifikasiyası üçün oxşar vəziyyət konkret məhsul növü üçün xarakterikdir.

Maliyyə diversifikasiyası maliyyə fəaliyyətinin müxtəlifliyi ilə xarakterizə olunur, bu mənada müəssisə tərəfindən müxtəlif növ uzunmüddətli və qısamüddətli maliyyə qoyuluşlarını həyata keçirməklə nail olmağın mümkünlüyü özünü əhəmiyyətli şəkildə göstərir.

Marketinq diversifikasiyası müəssisə tərəfindən əlverişli alqı-satqı sahələrinin yaradılması, satış kanallarının genişləndirilməsi, məhsulun bazara irəlilədilməsində çoxsaylı marketinq alətlərindən istifadə edilməsi, zəruri hallarda məhsul istehsalçılarına satışdan sonra əlverişli xidmət növlərinin təşkili ilə fəaliyyəti özündə ehtiva edir.

Dünya iqtisadi ədəbiyyatlarında da diversifikasiyaya müxtəlif aspektdən yanaşmalara rast gəlinir. Bəzi iqtisadçılar diversifikasiyanı müxtəlif müəssisələr tərəfindən istehsal edilən əmtəə çeşidinin dəyişdirilməsi və genişləndirilməsi kimi xarakterizə edir. [9, s.32] Diversifikasiyanın eyni vaxtda bir neçə bazara xidmət göstərən müəssisələr şəklində də izahına rast gəlinir. [8, s.112] Bəzi iqtisadçılar isə diversifikasiyaya istehsal və mübadilə sferasında risklərin azaldılması və maliyyə dayanıqlığının yüksəldilməsi strategiyası kimi baxır. [10, s.35]

Ümumilikdə diversifikasiyanın mahiyyətini ixtisaslaşma ilə əlaqəli proses olan, bazarın tələbatı nəzərə alınmaqla iqtisadi cəhətdən üstün istehsal sahələrinin müəyyənləşdirilməsinə xidmət edən strategiya kimi ümumiləşdirmək olar və təbii ki, bu strategiyanı müəyyənləşdirmədən istehsal və satışın nəticələrinin səmərəliliyindən danışmaq mümkün deyil.

Diversifikasiya və struktur dəyişiklikləri

Beləliklə, diversifikasiya mahiyyət etibarilə istehsalda struktur dəyişikliklərinin mühüm istiqamətlərindən biridir. Bu prosesdə istehsal sahələrinin və məhsulların spesifik xüsusiyyətlərinin də nəzərə alınması vacib şərtlərdən biri kimi özünü büruzə verir.

Diversifikasiya sənaye müəssisələrinin iqtisadi strategiyası kimi götürüldükdə iqtisadiyyatın ən mühüm sferalarından olan sənaye istehsalının strukturunda baş verən dəyişikliklər son nəticə olaraq daha səmərəli istehsal sahələrinin formalaşmasını şərtləndirir. Bu baxımdan müasir şəraitdə sənayenin diversifikasiyasında başlıca meyillər bazar konyunkturu hesab edilə bilər. [2] Çünki istehsalın nə dərəcədə səmərəli olması nəticə etibarilə bazarda reallaşır. Daha doğrusu, bazar konyunkturunda baş verən dəyişikliklərə müvafıq olaraq, sənaye məhsulları istehsalında istehsal istiqamətinin prioritetləri müəyyən edilməlidir.

Deməli, sənayedə diversifikasiya strategiyasının formalaşması əslində bu prosesin özünün əsaslandırılmasını tələb edir. Bu baxımdan sənaye məhsulları istehsalı ilə məşğul olan müəssisələrdə bazar konyunkturundan və onun tələbindən asılı olaraq diversifikasiya prosesinin iqtisadi əsaslandırılması, bu prosesdən irəli gələn məsələlərin - mövcud resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsi, istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi, iqtisadi cəhətdən daha üstün istehsal sahələrinin müəyyənləşdirilməsi və s. strategiyanın hazırlanmasının vacib şərtlərindəndir [1,s.10]. Bu, öz növbəsində təbii-iqtisadi şəraitdən səmərəli istifadə etməklə əmək resurslarından və istehsal vasitələrindən istifadənin səmərəliliyinin yüksəldilməsinə, əmək məhsuldarlığının yüksəldilməsinə, istehsalda istifadə edilən texnologiyaların davamlı olaraq təkmilləşdirilməsinə, istehsal təcrübəsinin yüksəlməsinə, bazar və sahələrarası inteqrasiya prosesinin dərinləşməsinə, bütövlükdə kənd təsərrüfatında dinamik inkişafa gətirib çıxara biləcək ən mühüm strategiya kimi

istehsal strukturunun təkmilləşməsinə xidmət edir.

Sənayedə struktur dəyişikliklərinə gətirib çıxaran diversifikasiya prosesinin həyata keçirilməsində tələbatın yerli istehsal hesabına ödənilməsi imkanlarının yaxşılaşdırılması əsas məsələlərdəndir. Bu baxımdan diversifikasiya ilə bilavasitə bağlı olan sənaye istehsalının ixtisaslaşmasının bazar konyunkturuna uyğunlaşdırılması, prioritet sahələrin inkişaf etdirilməsi üçün bazar infrastrukturunun yaradılması və regional mübadilə sisteminin müasir tələblərə uyğunlaşdırılması xüsusilə vacibdir.

Araşdırmalar göstərir ki, diversifikasiya və ixtisaslaşma arasında asılılıq mövcuddur.

İstehsal sahələrinin strukturundakı dəyişikliklər əksər hallarda kortəbii şəkildə baş verir, belə kortəbiilik-pərakəndə qərarların qəbulu müəyyən risklərlə müşayiət olunur. [6, s.11] Halbuki, bazar münasibətləri şəraitində sənayedə yenidən ixtisaslaşmanın - diversifikasiyanın başlıca meyilləri qeyd edildiyi kimi, bazar konyunkturu hesab olunur. Konkret olaraq bazar konyunkturunda baş verən dəyişikliklərə müvafiq olaraq, sənaye istehsalının diversifikasiyasının prioritetləri müəyyən edilir. Deməli, struktur dəyişikliklərinin həyata keçirilməsində bazarda tələbatın yerli istehsal hesabına ödənilməsi imkanlarının yaxşılaşdırılması əsas məsələlərdəndir. Bu baxımdan sənayedə istehsalın bazar konyunkturuna uyğunlaşdırılması və iqtisadi cəhətdən daha səmərəli istehsal sahələrinin inkişaf etdirilməsi üçün daha təkmil mübadilə sisteminin formalaşdırılması zəruridir.

Diversifikasiya müəssisələrin iqtisadi strategiyasına əsaslanan sənaye istehsalının ixtisaslaşması, istehsalın inkişafının obyektiv qanunauyğunluğu kimi şərtlənməklə məhsul istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsinin və əmək məhsuldarlığının artırılmasının başlıca vasitəsidir. [5, s.18] Qeyd etmək lazımdır ki, ictimai əmək bölgüsü prosesi iqtisadiyyatın bütün sahələrinə, o cümlədən sənayeyə xarakterik olan cəhətlərdən biridir. İctimai əmək bölgüsü sənaye istehsalının spesifik xüsusiyyətləri, geniş təkrar istehsal prosesinin iqtisadi və təbii qanunauyğunluqlarından irəli gəlir. Geniş təkrar istehsal prosesinin iqtisadi və təbii qanunauyğunluqları, öz növbəsində sənayedə ictimai əmək bölgüsünün səviyyəsinə, həmçinin istehsalın ixtisaslaşma səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Məhsuldar qüvvələrin inkişaf səviyyəsi yüksəldikcə, təbii ki, əməyin ixtisaslaşması və bölüşdürülməsi də kifayət qədər dərinləşir. İctimai əmək bölgüsü əsasında iqtisadiyyatın bütün sahələrində elmi-texniki tərəqqini həyata keçirmək mümkündür. Bu proses əmək məhsuldarlığının yüksəldilməsinə, istehsalda istifadə edilən texnologiyaların davamlı olaraq təkmilləşdirilməsinə, istehsal təcrübəsinin yüksəlməsinə və davamlı olaraq ictimai istehsalın genişlənməsinə gətirib çıxarır. Beləliklə, ictimai əmək bölgüsünün inkişafı, nəticə etibarilə istehsalın fasiləsiz şəkildə təşkilini və təkmilləşdirilməsini şərtləndirir.

Təbiidir ki, ictimai əmək bölgüsü istehsalın ixtisaslaşması ilə şərtlənir. İstehsalın ixtisaslaşması, nəticə etibarilə ayrı-ayrı regionların təbii-iqtisadi şəraitindən səmərəli istifadə edilməsinə, əmək resurslarından və istehsal vasitələrindən istifadənin səmərəliliyinin yüksəldilməsinə xidmət edir. Araşdırmalar göstərir ki, istehsalın ixtisaslaşması keyfiyyət və kəmiyyət xüsusiyyətlərinə malikdir. Sənayenin keyfiyyət tələbləri, sahələrin tərkibi və onlar arasında əlaqə ilə səciyyələnir. Kəmiyyət baxımdan istehsalın ixtisaslaşması qarşılıqlı əlaqəyə girən sahələr arasındakı proporsiyaların həcmindəki nisbəti səciyyələndirir. Beləliklə, ixtisaslaşmanın hər iki tərəfi üçün səciyyəvi cəhət, müəyyən həcm və proporsiyalara malik olması və sahələrin tərkibinə xas olan proporsiyalar arasındakı nisbətin təmin edilməsindən ibarətdir. Sahələr arasındakı əlaqənin davamlı səciyyə daşıması, sənayenin sahələrarası inteqrasiya prosesinin dərinləşməsinə və kənd təsərrüfatında inkişafın dinamik xarakterinə əlverişli şərait yaradır. Qeyd etmək lazımdır ki, sahələr arasındakı qarşılıqlı əlaqələr və proporsiyalar dəyişkən xarakterə malikdir. Bu isə ixtisaslaşma prosesinin aktuallığını şərtləndirir və sənayenin inkişafının hər bir mərhələsində təsərrüfat subyektlərinin qarşılıqlı əlaqələrinin obyektiv xarakterini özündə əks etdirir. Deməli, bu proses məhz istehsal diversifikasiyasının prioritetliyini şərtləndirir.

İnkişaf etmiş ölkələrin təcrübəsində sənaye məhsuldar qüvvələrin inkişaf səviyyəsindən və diversifikasiyanın dərinləşməsi prosesindən bilavasitə asılıdır, bunlar isə son nəticədə ixtisaslaşma formalarının dəyişməsinə gətirib çıxarır. Beləliklə, sənaye istehsalının ixtisaslaşmasında baş verən dəyişiklikləri nəzərə almadan, sənayedə məhsuldar qüvvələrin və texniki tərəqqinin inkişaf istiqamətlərini müəyyən etmək mümkün deyil. [4, s.112]

Diversifikasiya və istehsalın yerləşdirilməsi

Qeyd etmək lazımdır ki diversifikasiya və istehsalın yerləşdirilməsi arasında asılılıq mövcuddur.

Hər bir ölkənin təbii-iqtisadi potensialı sənaye istehsalı diversifikasiyasının əhəmiyyətli amili kimi çıxış edir. Bu baxımdan təbii-iqtisadi şəraitin ölkənin ayrı-ayrı rayonlarında müxtəlif olması sənaye istehsalı üçün də fərqli proseslər yaradır. Təbii-iqtisadi bölgələr üzrə sənaye müəssisələrinin səmərəli yerləşməsi, məhsul istehsalının artırılmasına və eləcə də məhsul istehsalının istehsal xərcləri baxımından ucuz başa gəlməsinə əlverişli şərait yaradır. Sənaye istehsalının yerləşməsinin bu cür xüsusiyyəti nəticə etibarilə torpaq, material, maliyyə və əmək resurslarından səmərəli istifadə edilməsinə şərait yaratmaqla məhsulun daşınması ilə bağlı xərclərin ixtisar edilməsinə gətirib çıxarır.

Sənaye potensialının yerləşməsi ölkə ərazisi üzrə geniş təkrar istehsalın bütün amillərinin səmərəli şəkildə bölgüsündə də əhəmiyyətli rol oynayır. Təbii ki, bunlar ayrı-ayrı sahələrdə iqtisadi inkişafa xidmət etməklə, müxtəlif sahələrdə tələbatın yerli istehsal hesabına ödənilməsi ilə nəticələnir. Beləliklə, sənaye istehsalının səmərəli yerləşməsi bazar konyunkturu əsasında yenidən ixtisaslaşmaya, sənayedə özünütəminat səviyyəsinin yüksəlməsinə, həmçinin daxili və xarici bazara çıxarılan məhsulların rəqabətə davamlılığının yüksəldilməsinə xidmət edir.

Məlum olduğu kimi, sənaye məhsulları istehsalı ilə məşğul olan hər bir iqtisadi rayonun özünəməxsus təbii və iqtisadi şəraiti mövcuddur və bu amil istehsalın yerləşməsinə əhəmiyyətli təsir göstərir. İnkişaf etmiş ölkələrdə sənaye istehsalının əlverişli iqtisadi rayonlarda yerləşdirilməsi nəticəsində bir sıra iri təsərrüfatlar formalaşmışdır. Həmin təsərrüfatlar sənayedə, eləcə də daxili və xarici bazarlarda əhəmiyyətli xüsusi çəkiyə malikdir. Təbii ki, iri təsərrüfatların yaradılması məhsul istehsalına çəkilən xərclərin aşağı salınmasına səbəb olmaqla məhsuldarlığın yüksəldilməsində əhəmiyyətli rol oynamışdır. İri təsərrüfatların şəhərətrafı ərazilərdə yerləşməsi məhsulların daşınması şərtlərinin yüngülləşdirilməsinə də səbəb olur. Belə şəraitdə məhsulların xarab olması kimi xüsusiyyətlərindən kənarlaşması mümkün olur.

Göründüyü kimi, ixtisaslaşdırılmış təsərrüfatlar bir qayda olaraq özünəməxsus üstünlüklərə malik olmaqla yüksək əmək məhsuldarlığına nail olmağa, maddi-texniki vasitələrdən səmərəli istifadəyə və məhsul istehsalının genişləndirilməsinə əlavə stimul yaradır. İstehsalın ixtisaslaşmasının üstünlüklərini şərtləndirən ən mühüm amillərdən biri də təmərküzləşmə prosesinin yüksək olması nəticəsində elmi və qabaqcıl təcrübənin tətbiq edilməsi imkanlarının kifayət qədər genişlənməsidir. Bu, istehsal prosesinin kompüterləşməsi, mexanikləşdirilməsi və avtomatlaşdırılmasına əlverişli şərait yaratmaqla əməyin təşkilinin mütərəqqi formalarının tətbiqini, yeni texnologiyaların və ixtisaslaşmış kadrların istehsalda istifadəsini və bütövlükdə geniş təkrar istehsal prosesinin müvəffəqiyyətini şərtləndirən başlıca amillərdən birinə çevrilir.

Ümumiyyətlə, yenidən ixtisaslaşmanın - diversifikasiyanın inkişaf etdirilməsi bazar konyunkturunda baş verən dəyişikliklərin nəzərə alınması şərtilə iri təsərrüfatların yaradılmasında mülkiyyət formasından asılı olmayaraq hər bir təsərrüfata bərabər şərait yaradılmasını nəzərdə tutan səmərəli, iqtisadi və hüquqi mexanizmin yaradılmasını tələb edir.

Bazar təsərrüfatçılıq sisteminin ən mühüm xüsusiyyətlərindən birinin təsərrüfat subyektlərinin iqtisadi müstəqilliyinin təmin edilməsi olduğunu nəzərə alsaq istehsalın daha təkmil təşkilini və iqtisadi səmərəliliyinin yüksəldilməsini diversifikasiya prosesində ən vacib şərtlərdən biri kimi qeyd etmək olar. [3, s.105] Odur ki, əmtəə istehsalçılarının iqtisadi imkanlarının və istehsalın di-

versifikasiyasının genişləndirilməsinə yönəldilmiş tədbirlərin həyata keçirilməsi aktuallığını kəskin şəkildə göstərir.

Sənayedə istehsal diversifikasiyasının nəticələrini şərtləndirən amillər, onların qiymətləndirilməsi ən zəruri məsələlərdən biridir.

Sənayedə istehsalın diversifikasiyasının nəticələrini təbii, iqtisadi və sosial amillər kimi təsnifləşdirmək mümkündür. Bu baxımdan sənaye istehsalının diversifikasiyasını şərtləndirən amilləri ümumi şəkildə aşağıdakı kimi qiymətləndirmək mümkündür:

- bioloji və iqtisadi proseslərin qarşılıqlı əlaqəyə malik olması sənayedə təsərrüfat fəaliyyətinin nəticələrinə obyektiv surətdə təsir göstərmək imkanlarını şərtləndirir;
- çoxsaylı amillər və onların spesifikliyi sənaye istehsalının nəticələrinə əhəmiyyətli təsir göstərməklə istehsal potensialının elementlərindən səmərəli istifadə edilməsini özündə birləşdirir;
- təbii-iqlim amillərinin mövcudluğu yeyinti sənaye istehsalının yerləşməsində və ixtisaslaşmasında həlledici təsirə malikdir;
- iş müddəti ilə istehsal dövrü arasındakı əlaqənin fərqli xarakter daşıması istehsalda mövsümlük amilinin üstünlük təşkil etməsinə gətirib çıxarır.

Nəticə

Sənaye iştehsalının diversifikasiyasının elmi cəhətdən əsaslandırılması xüsusi əhəmiyyət kəsb edən məsələlərdəndir və bu, nəticə etibarilə bazar amillərinin təsiri fonunda dəyişən iqtisadi amillərə kifayət qədər dinamik reaksiya göstərilməsini şərtləndirir. Ümumiyyətlə, bazar amillərinin təsiri ilə istehsalın strukturunda köklü dəyişikliklər baş verir. Bu, öz növbəsində əşas növ sənaye məhsullarının istehsalı üzrə ixtisaslaşdırılmış müəssisələrin formalaşdırılmasına gətirib çıxarır. Konkret şərait daxilində sənaye istehsalının diversifıkasiyasının dərinləşməsi, yüksək rentabelli fəaliyyət göstərən sahələrin və təsərrüfatların inkişafında əhəmiyyətli rol oynayır.

Göstərilənləri ümumiləşdirərək sənaye istehsal diversifikasiyasının səmərəli nəticələrə gətirib çıxara biləcək aşağıdakı istiqamətlərini qeyd etmək olar:

- diversifikasiya strategiyasının formalaşması sənaye müəssisələrinə istehsal prosesinə başlamazdan əvvəl iqtisadi cəhətdən daha səmərəli sahələri müəyyənləşdirməyə imkan verir;
- diversifikasiya strategiyası bazar konyunkturunda baş verən dəyişikliklərə çevik reaksiya imkanlarını artırmaqla bazar haqqında məlumatların - tələb və təklifin, rəqabət mühitinin, qiymətlərin səviyyəsinin, alıcılıq qabiliyyətinin, istehlakçıların zövqünün və s.- toplanması və sistemləşdirilməsinə əlverişli şərait yaradır;
- diversifikasiya prosesi ənənəvi istehsal sahələri ilə yanaşı sənaye məhsulları istehsalçılarına bazarın tələbinə uyğun yeni növ məhsul istehsalı ilə məşğul olmağa vərdiş və bacarığının formalaşmasına şərait yaradır. Bu öz növbəsində istehsalm təşkili və idarə edilməsi məsələlərinə də yeni yanaşma intellektinin inkişafını şərtləndirir;
- iqtisadi cəhətdən daha üstün istehsal sahələrini müəyyənləşdirməyə imkan verən diversifikasiya prosesi istehsal və satışın nəticələri ilə bağlı riskləri əvvəlcədən “sığortalamaqla” müəssisələrin maliyyə dayanıqlığının təminatçısı qismində çıxış etmiş olur;
- diversifikasiya prosesi rəqabətqabiliyyətli məhsul istehsalı baxımından innovasiyaların istehsala cəlb edilməsinin stimullaşdırıcı amilinə çevrilir;
- diversifikasiya istehsalla bazar, istehsalçılarla istehlakçılar, tələblə təklif arasında əlaqəni tənzimləyən mühüm bir strategiya kimi sənaye müəssisələrinin iqtisadi inkişafının təkanverici mexanizmi rolunu oynaya bilir.

ƏDƏBİYYAT

1. Бойтович Ю.А. Модель формирования стратегии развития компании в направлении диверсификации. Экономика и управление.- 2010. - № 8 (69).

2. Пахомова Щ.Б., Пихтеп К.К. Экономика отраслевых рынков и политика государства. – М. Экономика, 2009. 533 с.
3. Ланкина В.Е. Менеджмент опранизации. Таганпог: ТПТУ, 2006. 304 с.
4. КОЛОБОВ А.А., Омельченко И.Щ. и д. Менеджмент высоких технологий.М., 2008. 206 с.
5. Жулина Е.Г., Мягкова Т.Л., Кацйба О.Б. Диверсификация деятельности предприятия М. 2008. 310 с.
6. Hürlimann, W. (2009). Optimisation of the Non-life Insurance Risk Diversification in Solvency. In: Cruz., M. (ed.) (2009).
7. Doff, R. (2007). Risk Management for Insurers. Risk Control, Economic Capital and Solvency. Risk Books, London. 322p
8. Gort M. Diversification and integration in American industry. - Prinston, Prinston University Press, 1962. - 508 p.
9. Kenneth Andrews. The Concept of Corporate Strategy. Homewood, Homewood University Press, 1971. - 498 p.
10. Yoshinara E., Sakuma A., Itami K. (Стратегия диверсификации на японском предприятии). - Токйо, Nipon Keirai, 1979. - 434 с.

Эхтибар Аскер оглы Имамвердиев,
доцент АГАУ, ДФЭ,
Вафа Низами гызы Гулиева,
старший преподаватель ГГУ

Стратегия диверсификации промышленного производства

Резюме

В статье диверсификация рассматривается стратегия превращения промышленных предприятий в многоотраслевые комплексы в связи с освоением более привлекательных отраслей. Особое внимание уделено научному обоснованию диверсификации. В итоге на основе анализов и исследований определены основные направления диверсификации в промышленности.

Ключевые слова: диверсификация, специализация, рыночная коньюктура, структурные изменения, экономическая эффективность, потребность, цена, прибыль.

Etibar Asker Imamverdiyev
associate professor of ASAU
Vafa Nizami Guliyeva
h/t GSU

Strategy of diversification of industrial production

Summary

The article considered of a diversification strategy of transformation of the industrial enterprises into diversified complexes in connection with development of more attractive branches. The special attention is paid to scientific justification of diversification. As a result on the basis of analyses and researches definition the main directions of diversification in the industry.

Key words: diversification, specialization, market conjuncture, structural changes, economic efficiency, requirement, price, profit.

UOT 339.5

Саламиан Садра АМИРШАХРУХ
докторант Азербайджанской
Государственной Нефтяной Академии

СОВЕРШЕНСТВОВАНИЕ МЕХАНИЗМА УПРАВЛЕНИЯ ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТЬЮ ИНОСТРАННЫХ И СОВМЕСТНЫХ ПРЕДПРИЯТИЙ В АЗЕРБАЙДЖАНЕ

Резюме

В статье рассматриваются организационно-экономические аспекты механизма управления инновационной деятельностью иностранных и совместных предприятий в Азербайджане, обращая при этом особое внимание характеру его действий; элементов; основные положения построения указанного механизма; обосновывается необходимость внедрения международных стандартов. Менеджмента качества, основополагающие принципы управления бизнес-процессами, широкого использования трансфера технологий в производственно - хозяйственной и управленческой деятельности этих предприятий; предлагается комплекс мер по активизации их инновационной деятельности

Ключевые слова: инновационная деятельность, механизм управления, управления бизнес-процессами, трансфер инновационной технологии.

Введение

В результате анализа и оценки инновационной деятельности, совместных предприятий в Азербайджане приходим к такому выводу, что она характеризуется нехваткой собственных средств на разработку и реализацию новаций, неразрывностью инновационной инфраструктуры, низким спросом на ноу-хау и новшества, отсутствием действенных способов распространения информации о новых технологиях и рынках сбыта, технологическим отставанием производства. В их деятельности медленно внедряются международные стандарты, основополагающие принципы бизнес- процессов, трансфер технологий. По этой причине незначительная часть их продукции экспортируется. Для устранения этих недостатков потребуется разработка механизма стратегического управления инновациями на иностранных и совместных предприятиях, функционирующих на территории Азербайджанской Республики.

Состав и содержанке механизма управления инновационной деятельностью

В рыночных условиях трансформируются объективные условия производства, изменяются производственные отношения, что требует совершенствования механизма управления инновационной деятельностью, основной частью которого являются организационно-экономические отношения, охватывающие отношения, складывающиеся в процессе управления инновационной деятельностью. Значит, механизм управления инновационной деятельностью в условиях рыночных преобразований является целостной системой, включающей в себя совокупность различных взаимосвязанных рычагов управления, координирующих и регулирующих функционирование и развитие экономики в условиях формирования и развития инновационного потенциала.

В этой связи механизм управления инновационной деятельностью – это совокупность взаимосвязанных экологических, технических, технологических и экономических рычагов, организационно-распорядительных и социально-психологических методов в сочетании с системой мотивации и ответственности. Механизм предполагает создание такой системы, которая обеспечивает постоянное и целенаправленное воздействие, направленное на обеспечение определенных результатов инновационной деятельности. В большей мере инновационная деятельность связывается с доведением научных, технических идей, разработок до

конкретной продукции и технологии, пользующейся спросом на рынке. Поэтому механизм ее управления должен содержать в себе: характеры действий по организации управления; отдельные элементы механизма; а также основные положения построения механизма управления инновационной деятельностью. Учитывая это обстоятельство, нами разработана принципиальная схема, отражающая состав и содержание механизма управления инновационной деятельностью на средних и крупных И и СП (рис.1). Думается, что использование со стороны И и СП методологического положения предложенной схемы, будет способствовать заметной активизации в инновационной деятельности. Однако, с учетом специфики отдельных отраслей, указанный механизм может подлежать изменению и адаптироваться к другим условиям. Комплексность и системность механизма управления инновационной деятельностью являются объективной закономерностью. При таком механизме согласование интересов взаимодействующих сторон достигается путем выбора методов и ресурсов в соответствии с природой факторов, на которые осуществляется воздействие. При несогласованности воздействия на факторы, влияющие на инновационную деятельность, а также невозможно достигнуть поставленных целей. Нашим исследованием установлено, что применительно к условиям промышленности Азербайджана, инновационную деятельность можно структурировать в следующие базовые группы:

- на административные и технологические инновации;
- процессные и продуктовые инновации;
- радикальные инновации.

Важнейшей проблемой действующего экономического механизма управления инновациями в Азербайджане, является отсутствие эффективной цепи взаимосвязи и взаимодействия между наукой и производством. Отсутствует организационная целостная система, которая идентифицировала бы макро- и микроэкономические интересы и несла бы за это ответственность. Это проявляется в обоснованности формирования организационных и экономических аспектов механизма управления инновациями, в несоответствии его задачам обеспечения устойчивого экономического развития экономики республики.

В соответствии с Концепцией "Азербайджан 2020: взгляд в будущее" преобразования экономики страны, направленные на развитие инновационной экономики, потребуют пересмотра теоретических концепций управления инновациями, в силу чего возникает потребность в разработке новой парадигмы управления инновациями, положения которой должны выражать объективные потребности реформируемой экономики и общества в современных инновациях. При этом она должна выражать главные ключевые моменты, использование которых при построении новой системы управления инновациями позволит обеспечить устойчивый рост. При этом следует учитывать и то, что смена парадигм предусматривает изменения способов действий управления.

Качество и эффективность управления инновациями

В современных условиях инновационная политика является определяющим инструментом в конкурентной борьбе, тем самым, создавая предпосылки для экономического роста. Причем наибольшего успеха добиваются те предприятия, где инновации создаются не от случая к случаю, а идет постоянный процесс совершенствования технологического бизнеса и выпускаемой продукции. Однако опыт ведущих фирм однозначно подтверждает, что без применения международных стандартов в процессе управления производством невозможно завоевать внешний рынок. Сегодня в большинстве совместных предприятий Азербайджана используются Национальные стандарты или технические условия, а выпускаемые ими продукции рассчитаны на внутренний рынок. Мы считаем, что вся деятельность иностранных и совместных предприятий в республике должна быть направлена на производство импортозаменяющей и экспортируемой продукции, для чего потребуется внедрение в производство



Рис.1. Состав и содержание механизма управления инновационной деятельностью на средних и крупных И и СП (разработан автором).

наряду с вышеуказанным стандартом и стандарт ИСО 9004-1:1994, где изложены схемы жизненного цикла высококачественной продукции. На действующих И и СП к основным следует отнести процессы, добавляющие ценность продукции для потребителя. Примерами таких процессов являются: маркетинг, закупки, производство, хранение, поставка продукции, сервисное обслуживание и другие, связанные с продукцией.

Перечень основных процессов на предприятии на основе схемы жизненного цикла продукции приводится в стандарте ИСО 9004-1: 1994. Учитывая важность этого документа для И и СП в Азербайджане, считаем целесообразным включить в данный подраздел диссертации примерный перечень основных процессов жизненного цикла продукции по указанному стандарту (рис.2).

Рис.2. Перечень основных процессов на основе схемы жизненного цикла продукции по ИСО 9004-1: 1994 [52; с. 55]

Таблица 1.

Основополагающие принципы управления бизнес – процессами в И и СП*)

Принципы	Наименование принципа	Содержание принципа
Принцип 1	Фокус на потребителя	Изготовитель продукции должен выяснить все требования конечного потребителя продукции и выполнить их
Принцип 2	Лидерство руководства	В соответствие с требованиями ИСО 9000:2000. Руководитель обязан обеспечить единство команды предприятий и лично возглавить процесс управления
Принцип 3	Вовлечение персонала	Активное участие персонала в разработке и внедрении инновационных проектов
Принцип 4	Процессный подход	Построить единую, гибкую и универсальную систему управления предприятием для достижения наилучших результатов
Принцип 5.	Системный подход к ме неджменту	Повышение результативности и эффективности управления для достижения поставленной цели
Принцип 6	Постоянное улучшение	Ведение непрерывного мониторинга результативности процессов, качества продукции и удовлетворенности потребителей
Принцип 7	Принятие решений, основанное на фактах	Принятие управленческих решений должно основываться только на достоверной информации
Принцип 8	Взаимовыгодные отношения с поставщиками	Формирование стабильного и долгосрочного отношения с поставщиками и потребителями

***) Таблица составлена на основе международного стандарта ИСО 9000:2000**

Однако для отдельных И и СП исходя из их специфических особенностей некоторые этапы (процессы), указанные на рисунке могут отсутствовать или быть объединенными. Разработка инноваций – это есть совместная деятельность, однако нет никаких гарантий, что предлагаемый проект будет доведен до логического завершения. Поэтому управление затратами на всех этапах жизненного цикла продукции должно быть в центре внимания каждого руководителя И и СП. Мой многолетний опыт в должности руководителя СП дает основание подтвердить, что без реального финансового учета и обоснованного расходования финансовых ресурсов невозможно достичь высоких конечных результатов. Поэтому считаем необходимым в средних и крупных И и СП прежде всего создать центры финансового учета (ЦФУ) и обеспечить взаимосвязь между этапами бизнес-процесса. В этой связи заслуживают особого внимания рекомендации В.Г.Елиферова и В.В.Репина, поэтому считаем уместным включить предложенную схему в данный подраздел (3).



Рис 3. Взаимосвязь бизнес процессов и центров финансового учета [52; с. 69]

Трансфер инновационных технологий

Структуры инновационной деятельности И и СП можно представить как совокупность следующих компонентов: мотивационного, когнитивного, динамического, эмоционального, результативного, личностного.

Проведенный нами опрос между менеджерами и руководителями производственных участков в совместных предприятиях показали, что большинство этих требований не выполняется. По различным объективным и субъективным причинам руководители СП неохотно воспринимают новшества и не предусматривают их в стратегических планах, так как это требует, прежде всего, осуществления реструктуризации самого предприятия.

Взамен всему этому они дают предпочтение трансферу готовой технологии без проведения какого-либо технико-экономического обоснования (ТЭО). На наш взгляд, трансфер технологии лишь является первым этапом всего инновационного цикла и является продуктом. Роль СП при этом заключается в том, чтобы полученный продукт (результат НИОКР) превратить в инновационную продукцию - новый конкурентоспособный товар (услуги), отвечающий требованиям потребителей.

Для оказания методологической помощи руководителям и менеджерам СП нами предлагается принципиальная схема организации и управления трансфера технологии и их осуществления в СП (Рис.4). Как видно из рисунка, трансфер технологий начинается с момента возникновения идеи и заканчивается реализацией инновационной продукции (услуги) на рынке.

Представленная на рисунке "Линейная" схема трасфера технологий ныне в Азербайджане представляет собой более теоретический, нежели практический интерес. Данное предположение имеет основательную почву. Так, в Азербайджане при Президиуме НАН имеется Центр Научных Инноваций (ЦНИ). По имеющимся сведениям ежегодно специалисты этого Центра обобщают и переводят на азербайджанский язык многочисленные передовые технологии зарубежных фирм, пропагандируют их через свои реферативные журналы и включают в сайт Центра. Об этих технологиях сообщаются в соответствующих семинарах, тренингах. Однако потребность в этих технологиях равна почти нулю. Причиной этому – отсутствие финансовых возможностей предпринимательских структур. При этом средства, выделяемые преимущественно государством для проведения НИР, расходуются на выполнение исследований и у науки не остается средств на разработку технологии (левая кривая), которая, по оценке экспертов, стоит на порядок дороже, чем НИР. Бизнес, как правило, инвестирует последний (4-й) этап (правая кривая), и не хочет инвестировать во 2-й и 3-й этапы, которые связаны с большими рисками. Поэтому, между 1-м и 4-м этапами образуется пропасть, которую называют "долиной смерти". Это говорит о том, что в республике отсутствует реальный механизм стимулирования трансфера технологий.

Для регулирования этого вопроса, на наш взгляд, необходимо, во-первых, усовершенствовать действующую нормативную базу, регулирующую процесс продвижения интеллектуальной собственности в производство, во-вторых, мотивировать ученых на передачу разработанных ими технологий или составляющих последние объектов интеллектуальной собственности – производству.

Заключение

С целью активации инновационных процессов и эффективной реализации существующего инновационного потенциала Азербайджана полагаем целесообразным создание регионального инновационного центра (РИЦ) в гг. Нахичевань, Гянджа, Сумгаит, Мингечаур, Ширван, Ленкорань, основными функциями которого являются разработка и сопровождение инновационных проектов, создание и поддержка малых фирм наукоемкого бизнеса, содействие реализации научно-технических программ, консалтинг в сфере инновационных разработок, учет и предоставление данных об участниках рынка новаций в соответствии с законодательством и полномочиями и др.



Рис.4.

Рис. 4. Организация и управление трансфера технологий и их осуществление в СП

Функционирование Центра должно обеспечиваться новейшими компьютерными, программными и исследовательскими технологиями, позволяющими оптимизировать его работу.

Во исполнение отдельных приоритетных направлений Государственной Программы по развитию промышленности в Азербайджанской Республике на 2015-2020 гг. считаем целесообразным, в качестве альтернативного варианта, рассмотреть вопрос об организации технополюсов в крупных промышленных гороах республики, которые являются совокупностью технопарков, инкубаторов и комплекс разнообразных структур, обеспечивающих жизнь городов. Именно технополюсы оказывают формирующее влияние на развитие тех городов, где они расположены и способствуют:

- повышению инновационной активности,
- формированию инновационной инфраструктуры,
- ускорению коммерциализации новшеств,
- структурной перестройке промышленности,
- созданию новых рабочих мест,
- совершенствованию механизмов инновационной деятельности,
- институционализации инновационной сферы,
- усилению наукоемкости развития промышленности,
- совершенствованию инновационной политики государства,
- повышению инновационной способности экономики.

Думается, что одним из путей совершенствования управления механизмом инновационной деятельности является создание инновационных и промышленных кластеров в регионах республики.

Предложенные методические аспекты совершенствования управления инновационной деятельностью могут быть использованы в повышении инновационной активности отдельных подотраслей обрабатывающей промышленности и отдельных регионов республики.

ЛИТЕРАТУРА

1. Елиферов В.Г., Репин А.В. Бизнес – процессы: Регламентация и управление М, ИНФРА – М, 2009, с.319.
2. Намазова А.З. Значение НАНА в формировании НИС Азербайджана //Информация и инновации №3-4.М, 2014 с.
3. Наумов А.Ф. Захарова А.А. Инновационная деятельность предприятия М,ИНФРА-М,2015, с.256.
4. Смирнова Е.Е., Хвалынская Н.В. Совместные предприятия: закономерности возникновения и перспективы развития. М, МГУ, 1988, с.160.
5. Самойлов А.Б. Механизм управления инновационной деятельностью // Вопросы экономики и права №3 СПБ, 2012, с. 177-181.

S.Ə.Salamian
Azərbaycan Dövlət Neft Akademiyasının doktorantı

Azərbaycanda xarici və müştərək müəssisələrin innovasiya fəaliyyətinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi

Xülasə

Məqalədə Azərbaycanda fəaliyyət göstərən xarici və müştərək müəssisələrin innovasiya fəaliyyətinin idarə edilməsi mexanizminin təşkilati-iqtisadi aspektləri açıqlanmış və bu zaman əsas diqqət fəaliyyət mexanizminin xarakterinə, elementlərinə, onun qurulmasına yönəldilmiş, həmin

müəssisələrin istehsal-təsərrüfat və idarəetmə fəaliyyətində keyfiyyət menecmentinin beynəlxalq standartlarının, biznes-prosesin idarə edilməsinin baza prinsiplərinin, transfer texnologiyalarının geniş tətbiqinin məqsədəuyğunluğu əsaslandırılmış, müəssisələrin innovasiya fəaliyyətinin aktivləşdirilməsi üzrə kompleks tədbirlər təklif olunmuşdur.

Açar sözlər: innovasiya fəaliyyəti, idarəetmə mexanizmi, biznes-prosesin idarə edilməsi, innovasiya texnologiyalarının transferi.

S.A.Salamian
doctoral candidate at the
Azerbaijan State Oil Academy

Management of innovation in improving the mechanism of foreign and joint ventures in Azerbaijan

Summary

The article in the management of innovation activity in foreign and joint ventures, institutional and economic aspects of the mechanism described The main focus of the mechanism of action and this time elements, and the management of its production and economic activity aimed at building the institutions of international standards for quality management performance management, business process management, basic principles, based on the appropriateness of the application of a wide range of technology transfer, innovation activity in the activation of a set of measures have been proposed facilities

Key words: innovation, management mechanism, business process management, innovation, technology transfer.

UOT 658.155

Vüsalə Hamlet qızı BƏKİROVA
Elm və Təhsil Mərkəzi "Təfəkkür"
Universitetinin dissertantı

AZƏRBAYCANIN NEFTQAZÇIXARMA MÜƏSSİSƏLƏRİNDƏ XƏRCLƏRİN AZALDILMASININ SİNERJİ EFFEKTİ

Xülasə

Məqalədə sinerji effektinin istiqamətləri və təzahür formaları açıqlanmış, "Azneft" İB fəaliyyətini xarakterizə edən göstəricilər təhlil olunmuş, neft-qaz hasilatına çəkilən xərclərin tərkibi və quruluşunda baş verən dəyişikliklərə qiymət verilmiş, sinerji effekti yarada bilən təşkilati tədbirlərin təsnifatı göstərilmiş, onların tətbiqinin sinerji effekti hesablanmışdır.

Açar sözlər: neftqazçıxarma müəssisələri, sinerji effekti, istehsal xərcləri, maya dəyəri.

Giriş

Azərbaycanda 90-cı illərin ikinci yarısından başlayaraq yeni neft strategiyasının uğurla həyata keçirilməsi neft-qaz sənayesinin müasirləşməsinə, öz inkişafının növbəti mərhələsinə qədəm qoymasına səbəb olmuşdur. Neftqazçıxarma sənayesinin avanqard qüvvəsi və lokomotivi sayılan Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) potensialı və aktivləri əsaslı şəkildə artmış, işgüzar əməkdaşlıq çərçivəsində orada qazanılmış qabaqcıl təcrübə, tətbiq olunan müasir texnologiyalar neft-qaz sənayesinin inkişaf etməsinə təminat yaratmışdır. İstehsal və idarəetmə xərclərinin səmərəli idarə edilməsi məqsədi ilə son 15 il ərzində ARDNŞ-nin strukturu təkmilləşdirilmiş, idarəetmə sisteminin optimallaşdırılması istiqamətində təsirli tədbirlər həyata keçirilmişdir. Lakin Şirkət üzrə həyata keçirilən kompleks tədbirlərə baxmayaraq, neftin və qazın hasilatına çəkilən xərclərin məbləği yüksələn xətlə artmaqdadır. Belə ki, əgər 2005-ci ildə 1 ton neftin hasilatına çəkilən xərc təxminən 40 man., 1000 kub. m. çıxarılmasına sərf edilən vəsait 23.2 manat təşkil etmişdirsə, 2013-cü ildə həmin göstəricilərin səviyyəsi uyğun olaraq 82.2 manat və 31.4 manat təşkil etmişdir. Xərclərin artmasını şərtləşdirən amillərin içərisində enerji, nəqliyyat, istismar, əmək haqqı, qeyri-istehsal xərcləri və s. xüsusi çəkisi yüksəkdir. Odur ki, neftqazçıxarma idarələrinin cari və strateji məqsədlərini çoxpilləli idarəetmə sistemində cəmləşdirmək və bütün növ resurslardan səmərəli istifadə etmək üçün xərclərin azaldılmasının sinerji effektini təmin edən daha təsirli təşkilati-iqtisadi tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi zərurəti yaranmışdır.

Neft kompaniyalarında sinerji effektinin istiqamətləri və təzahür formaları. Neft kompaniyaları sinerji effektinə müxtəlif resursların inteqrasiyası və texnoloji tsiklin tam icrası prosesində nail olurlar. Bu zaman sinerji effekti: xərclərin əsaslı şəkildə birbaşa azaldılması və mövcud kompaniyanın strukturunun təkmilləşdirilməsi, eləcə də texnoloji-təşkilati xarakterli innovasiyaların tətbiqi, şaquli və üfüqi inteqrasiyanın həyata keçirilməsi nəticəsində əldə edilə bilər. Beynəlxalq təcrübədə neft kompaniyalarının təşkilati-sinerji effekti adətən aşağıdakı iki üsulla ölçülür:

∗ Birgə əməliyyatların həyata keçirilməsi nəticəsində azalan xərclərin quruluşunun və məbləğinin qiymətləndirilməsi;

∗ Sahəyə yönəldilən daxili və xarici investisiyaların nəticəsində əldə edilən mənfəətin həddinin qiymətləndirilməsi.

İri neft kompaniyalarında sinerjinin tətbiqi üçün imkanlar və işlənilə bilən variantlar mümkündür və bu fəaliyyətin iqtisadi səmərəliliyinin yüksəldilməsinə imkan yaradır. Sinerji effektinin təzahür formalarını diferensial şəkildə aşağıdakı kimi təsvir etmək olar (şəkil 1). Şəkildən göründüyü kimi, sinerji effekti əsasən: pul daxilolmalarının məbləğinin artırılması, xərclərin ele-

mentlər üzrə azaldılması, eləcə də kombinə olunan təşkilati-iqtisadi tədbirlərin işlənilməsi və həyata keçirilməsi hesabına təmin edilməlidir. Onların icrası isə - yüksək ixtisaslı, sahənin iqtisadi problemlərinin, xərclərin düzgün idarə edilməsinə, sərbəst qərar qəbul etmək, biznes-plan tərtib etməyə qadir olan işgüzar işçi qrupunun formalaşması şəraitində mümkündür.



Şəkil 1. Neftqazçıxarma müəssisələrində sinerji effektinin əldə edilməsinin təzahür formaları.

"Azneft" İstehsalat Birliyində neft-qaz hasilatına çəkilən xərclərin tərkibi və quruluşunda baş verən dəyişikliklər.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) üzrə neft hasilatının təxminən 82%-i, qaz hasilatının isə - 92% -i "Azneft" İB-nin payına düşür. Həmin Birliyin müəssisələrində 2010-2013-cü illər ərzində neft hasilatının stabilləşdirilməsi və artırılması məqsədi ilə 3350 geoloji-texniki tədbir həyata keçirilmiş və onun nəticəsində 1343,5 min ton əlavə neft hasil edilmişdir (cədvəl 1).

Cədvəl 1

"Azneft" İB-də həyata keçirilən geoloji-texniki tədbirlər və onların hesabına əlavə neft hasilatı *)

Tədbirlər və hasilat	İ L L Ə R				2010-2013-cü illərdə cəmi
	2010	2011	2012	2013	
Həyata keçirilən geoloji-texniki tədbirlərin sayı, vahid	914	950	709	777	3350
Geoloji-texniki tədbirin həyata keçirilməsi nəticəsində alınan əlavə neft, min. ton	291,8	394,7	293,9	363,5	1343,5
*) Cədvəl ARDSK-nın 2010-2013-cü illər üzrə illik hesablamalarının məlumatları əsasında tərtib edilmişdir.					

Cədvəldən göründüyü kimi, həmin dövrdə geoloji-texniki tədbirlərin sayı ildən-ilə azalsa da, əlavə neft hasilatı əsasən yüksələn xətlə artmaqdadır. Araşdırmalar göstərir ki, faktiki həyata keçirilən geoloji-texniki tədbirlərin sayı planlaşdırılan tədbirlərin sayını üstələmişdir. Bu fakt həm quru və həm də dəniz yataqlarında müşahidə olunur (şəkil 2). Şəkildən göründüyü kimi, 2013-cü ildə "Azneft" İB üzrə 777 geoloji-texniki tədbir həyata keçirilmiş və bu tədbirlər hesabına 363,5 min ton əlavə neft hasil edilmişdir. Dəniz yataqları üzrə 278 geoloji tədbir həyata keçirilmiş və bu tədbirlər hesabına 316,5 min ton əlavə neft hasil edilmişdir. Quruda yerləşən yataqlar üzrə isə 499 geoloji tədbir həyata keçirilmiş və bunun nəticəsində 47 min ton əlavə neft hasil edilmişdir.



Şəkil 2. "Azneft" İB-də 2013-cü ildə həyata keçirilən geoloji-texniki tədbirlərin sayı və əlavə neft hasilatının həcmi min ton.

Bütün bunlara baxmayaraq, qeyd edilən illər ərzində adı çəkilən İstehsalat Birliyi üzrə neft hasilatının həcmi 5,7%, qaz hasilatı isə - 6,4% azalmışdır (cədvəl 2).

Cədvəl 2

"Azneft" İB üzrə neft və qaz hasilatının həcmi *)

Məhsulların adları	**İ L L ƏR**				**2010-2013-cü illərdə artım tempi**
	2010	**2011**	**2012**	**2013**	
Neft hasilatı, min ton	7219	7146	6833	6808	94,3
Qaz hasilatı, mlyn kub. m.	7021	6797	6526	6573	93,6
*) Cədvəl ARDSK-nın 2010-2013-cü illər üzrə illik hesablamalarının məlumatları əsasında tərtib edilmişdir.					

Onu da qeyd etmək vacibdir ki, Azərbaycan Respublikasının yanacaq - enerji təhlükəsizliyini və neft-qaz, neft-kimya sənayesinin inkişafı üzrə strateji maraqları təmin etmək, qabaqcıl və ekoloji təmiz texnologiyalardan istifadə edərək, Azərbaycan elmi-texniki, iqtisadi və intellektual potensialının artırılmasına dəstək olmaq, regional və beynəlxalq enerji layihələrində həlledici mövqe tutmaq, karbohidrogen ehtiyatlarının və emal məhsullarının daxili və xarici bazarlarda satışından maksimal mənfəət əldə etmək SOCAR-ın hazırda başlıca missiyasıdır.

Şirkətin uzunmüddətli strateji inkişafını müəyyən edən "SOCAR-ın 2025-ci ilə kimi strateji inkişafına dair Kompleks Planı" 2011-ci ildə işlənib hazırlanmışdır və qeyd olunan Kompleks Planın hər il yenilənməsi nəzərdə tutulur. Bu strateji planın uğurla həyata keçirilməsi üçün 2008-ci ildən tətbiq olunan Risklərin idarə olunması fəaliyyəti uğurla davam etdirilir. Risklərin idarə olunması COSO ERM sistemi əsasında yaranıb. COSO ERM əsas istiqaməti olan risklərin müəyyənləşdirilməsi, idarə olunması və nəzarəti eyni ilə SOCAR-da da tətbiq olunur. Risklərin idarə olunması və nəzarətdə saxlanılması üçün Korporativ Risklər xəritəsi də yaradılmışdır.

Burada Şirkətin bütün riskləri, o cümlədən Şirkətin Xəzər dənizində aparılan işlər üzrə müxtəlif biznes proseslərə aid olan risklər, bu risklərin təsviri və risklərin baş verməsi ehtimalının və nəticələrinin qiymətləndirilməsi, riskə görə cavabdeh olan şəxs və riskə nəzarət qaydaları təsvir olunmuşdur. Həmin tədbirlər planında "Azneft" İB üzrə istehsalın səmərəli idarə edilməsi və xərclərin azaldılması üzrə kompleks tədbirlərin nəzərdə tutulması və həyata keçirilməsinə baxmayaraq, orada 2005-2013-cü illərdə 1 ton neftin maya dəyəri 40,0 manatdan 87,2 manata çatmış, 1000 kub. m. qazın maya dəyəri isə - 13,2 man. bahalaşaraq 36,4 man. təşkil etmişdir (şəkil 3).

Xərclərin tərkibinə və quruluşuna nəzər yetirərkən, aydın olmuşdur ki, "Azneft" İB-nin quyularında sulaşmanın artması orta günlük hasilata öz mənfi təsirini göstərir. Başqa sözlə, sulaşma artdıqca, orta günlük hasilat azalır. Təhlil zamanı müəyyən edilmişdir ki, məhsulun sulaşması 95%-dən çox olduqda maya dəyərinin artım tempi daha yüksək olur və ayrı şərt olaraq yuxarı qalxır.



Şəkil 3. "Azneft" İB sistemində 1 ton neftin və 1000 kub. m. qazın istehsal maya dəyərinin dinamikası.

Məhsulun sulaşmasının artması özünü laylara süni təsir xərcləri maddəsində büruzə verir. Bu xərc maddələrinə - əmək haqqı, sosial sığorta ayırmaları, elektrik enerjisi, ƏİF-in amortizasiyası, sex və digər xərclər aiddir. "Azneft" İB üzrə laylara süni təsir xərcləri bütün xərc maddələrinin 0,65%-ni təşkil edir.

Təhlil göstərir ki, laya süni təsir metodları əlavə neft hasilatına imkan verdiyi halda eyni zamanda istehsal xərclərinin artmasına da təsir göstərir. laya süni təsir xərcləri maddəsini iqtisadi elementlər üzrə təhlil edərkən məlum olur ki, bu xərc maddəsində enerji xərcləri və amortizasiya ayırmaları ümumi xərcləri uyğun olaraq 30% və 60% təşkil edir ki, bütün bunlar da, maya dəyərinin səviyyəsini müəyyən etməklə onun planlaşdırılmasında mühüm əhəmiyyət kəsb edir. Məhsulun sulaşması neft hasilatının maya dəyərinin digər xərc maddələrində də əks etdirilir. Bu baxımdan neft və qazın yığılması və onların nəqli xərclərin maya dəyərinə öz təsirini göstərir. Məhsulun sulaşması enerji xərclərinə çoxtərəfli təsir edir: birincisi, məhsulun sulaşmasının artması ilə çıxarılan maye həcmi artır. Enerji sərfi isə maye həcminə proporsional olaraq dəyişir; ikincisi, maye hasilatının artması uyğun olaraq neftin nəqli, saxlanması və həmçinin neftin texnoloji hazırlanması xərclərinin səviyyəsini artırır; üçüncüsü, məhsulun sulaşması və bununla əlaqədar çıxarılan maye həcminin artması neft və qaz hasilatı maya dəyəri kalkulyasiyasında kompleks xərc maddələrində enerji xərclərinin artması ilə müşayiət olunur; dördüncüsü, maye hasilatının artması neft yataqlarında istismarda olan quyuların bir üsuldan digər üsula keçirilməsi ilə nəticələnir ki, bu da dolayısı ilə enerji xərclərinin və məhsulun maya dəyərinin artmasına səbəb olur. Bütünlükdə həmin qrup xərcləri artır, ona görə də həmin xərc maddələrinin azaldılması üzrə məqsədli təşkilati-texnoloji tədbirlərin işlənilməsi və həyata keçirilməsinə zəruri ehtiyac duyulur. Neft və qaz

hasilatına çəkilən xərclərin tərkibində fəhlə və qulluqçuların əmək haqqı, sosial sığorta və pensiya fondu xərclərinin xüsusi çəkisi də yüksəkdir. "Azneft" İB üzrə 2013-cü il ərzində adı çəkilən bütün istehsal xərclərindəki xüsusi çəkisi 18,5% təşkil etmişdir. Neftqazçıxarma sənayesinin xarakterik xüsusiyyətləri orada əmək haqqının yüksək olmasını şərtləşdirir. Lakin dövlət mülkiyyətində olan qurudakı NQÇİ-lərdə hasilatın həcmi ilə əmək haqqının ödənişi arasında uyğunsuzluğa yol verilməkdədir. Belə ki, quruda hasilatın sabit saxlandığı şəraitdə belə işçilərin əmək haqqının artımı müşahidə edilir. Əmək haqqının artımı öz növbəsində sosial sığorta ayırmalarının artmasına da təminat yaradır ki, bu da nəticə etibarı ilə məhsul vahidinə çəkilən xərclərin artmasına şərait yaradır. Bütün bunlar isə hasilatın azaldığı şəraitdə böyük xərc tələb edən və bu vaxtadək az təkmilləşən istehsalın idarə edilməsi strukturunun saxlanılması şəraitində baş verir.

Təşkilati tədbirlərin həyata keçirilməsi nəticəsində yarana bilən sinerji effekti

Tədqiqatlarımızla müəyyən edilmişdir ki, "Azneft" İB sistemində mövcud təşkilati strukturun əsas problemləri aşağıdakılardır:

∗ Çoxpilləli idarəetmə sisteminin mövcudluğu;

∗ İşçilər arasında cavabdehliyin düzgün bölüşdürülməsi;

∗ İdarəetmə aparatının şöbələri arasında üzvi əlaqənin olmaması və funksiyaların təkrarlanması;

∗ Səlahiyyətlərin yüksək idarəetmə səviyyəsində cəmləşdirilməsi.

Həmin problemləri həll etmək, mövcud iqtisadi potensiallardan səmərəli istifadə etmək, onları optimallaşdırmaq və xərclərin səmərəli idarə edilməsi hesabına sinerji effektini əldə etmək məqsədi ilə aşağıdakı tövsiyələrin həyata keçirilməsi məqsədəuyğundur:

- "Azneft" İB sistemində əsaslı restrukturizasiya aparmaq;
- Mövcud NQÇİ-lərin birləşdirilməsi;
- Mövcud sexlərin iriləşdirilməsi;
- Təmir xidməti bölmələrinin mərkəzləşdirilməsi və təmir fəaliyyətinin optimallaşdırılması;
- Qeyri-neft profilli bölmələrin İB-nin və NQÇİ-lərin tərkibindən çıxarılması;
- İşçilərin sayının istehsalın mürəkkəblik amillərini nəzərə almaqla optimallaşdırılması;
- Yeraltı təmir briqadalarında işçilərin sayının optimallaşdırılması;
- İşçilərin əməyinin motivləşdirilməsi sisteminin tətbiq olunması və ona uyğun əməyin ödənişi sisteminə yenidən baxılması;

Heyətin fasiləsiz öyrənilməsi sisteminin formalaşdırılması və inkişaf etdirilməsi.

Onların uğurlu icrası nəticəsində aşağıdakılara nail olmaq mümkündür:

❖ Məqsədyönlü strategiyanın formalaşması və həyata keçirilməsi;

❖ İstehsalın operativ idarə edilməsini həyata keçirməyə qabil olan bölmələrin sayının optimallaşdırılması;

❖ Mərkəzləşdirilmiş səlahiyyətlərin "Azneft" İB-dən NQÇİ-lərə verilməsi;

❖ İdarə aparatı işçilərinin sayının optimallaşdırılması;

❖ NQÇİ-lərin dəniz və quru profilləri üzrə birləşdirilməsi və mövcud NQÇİ-lərin bazasında vahid idarəetməyə malik "Quruda" və "dənizdə " NQÇİ-lərin yaradılması.

İlkin hesablamalara görə, həmin təşkilati tədbirlərin "Azneft" İB sistemində həyata keçirilməsi sinerji effektinin təkcə işçilərin sayının optimallaşdırılması, idarə və istehsal orqanlarının inteqrasiyası nəticəsində mövcud əmək haqqı fonduna hər il 30 mln. man. qənaət etmək mümkündür. Bununla yanaşı, hər işçiyə düşən neft hasilatının həcmi əsaslı şəkildə artmış olacaqdır. Digər tərəfdən, köməkçi təsərrüfatların birləşdirilməsi də izafi xərclərin diqqəti cəlb edən dərəcədə azalmasına imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin 2010-2013-cü illər üzrə illik Hesabatları. Bakı, 2010- 224 s.; 2012 - 192 s; 2013 -166 s.
2. ARDNŞ-nin 2013-cü il üzrə davamlı inkişaf haqqında hesabatı. Bakı, 2014 - 112 s.
3. Poluxov T.N. Azərbaycanın neftqazçıxarma müəssisələrində istehsal xərclərinin artırılmasını şərtləşdirən amillər. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, № 1, Bakı “Elm” 2012, s. 108 – 111.

Вусала Гамлет гызы Бекирова
диссертант Университета “Тафаккур”

Синергетический эффект от снижения затрат на нефтегазодобывающих предприятиях Азербайджана

Резюме

В статье раскрыты основные направления и формы проявления синергетического эффекта, проанализированы основные показатели, харакятериязующие деятельность по “Азнефть”, оценены происходящие изменения в составе и структуре затрат на нефте-газодобыче, разработана классификация организационных мер, способствующих созданию синергетического эффекта и рассчитан эффект от их внедрения.

Ключевые слова: нефтегазодобывающее предприятие, синергетический эффект, производственные затраты, себестоимость.

Vusala Hamlet Bekirova
candidate for a degree
of the University “Tafakkur”

The synergistic effect of reducing the cost of oil and gas producing enterprises of Azerbaijan

Summary

The article deals with the main directions and forms of synergies, analyzes the main indicators characterizing the activities of “Azneft”, evaluated occurring changes in the composition and structure of the costs of oil and gas production, classification of the organizational measures promoting creation of synergetic effect is developed and the effect from their introduction is calculated.

Key words: oil and gas producing enterprise, synergistic effect, production costs, prime cost.

UOT 338.45

Ramil Çingiz oğlu ƏLİYEV
Azərbaycan Texniki Universitetinin doktorantı

ELMTUTUMLU SƏNAYE TEXNOLOGİYALARI VƏ RƏQABƏT QABİLİYYƏTLİ İSTEHSAL SİSTEMİNİN TƏŞƏKKÜLÜNÜN NƏZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ

Xülasə

Hazırda elmtutumlu texnologiyaların tətbiqi və istehsal sisteminin rəqabətqabiliyyətliliyi məsələləri aktualdır. Məqalədə sənayedə rəqabət qabiliyyətli istehsal sisteminin təşəkkülünün və elmtutumlu texnologiyaların bu prosesdə yeri və rolunun müəyyənləşdirilməsinin nəzəri-metodoloji məsələləri tədqiq olunmuşdur.

Açar sözlər: elmtutumlu texnologiya, istehsal sistemi, rəqabət qabiliyyəti, sənaye, yeni iqtisadiyyat.

Giriş

XXI əsrdə bəşəriyyətin həyatında baş verən mühüm dəyişikliklər, həlledici dərəcədə elmi-texniki tərəqqinin yüksələn tempi və genişlənən miqyası ilə əlaqədardır. Son onilliklərdə nanotexnologiyalar, materialşünaslıq, aviasiya və kosmonavtika, optik elektronika və lazer texnikası və bir sıra digər sahələrdə texnoloji sıçrayışlar sənayenin elmtutumluluğunu inkişafın aparıcı amilinə çevirməkdədir. Odur ki, sənayedə rəqabət qabiliyyətli istehsal sisteminin təşəkkülündə elmtutumlu texnologiyaların yeri və rolunun müəyyənləşdirilməsi məsələləri aktual olaraq qalır.

Elmtutumlu sənaye texnologiyaları: mahiyyət və imkanlar

İnkişaf etmiş ölkələrin müvafiq ədəbiyyatında elmtutumlu texnologiyalar və yüksək texnologiyalar arasında ciddi fərq qoyulmur. Belə yanaşma, əhəmiyyətli dərəcədə yüksək texnoloji sahələrin son dövrlərə qədər təklif olunan təsnifatı ilə bağlıdır. Adətən hesab edilir ki, texnologiyaların daimi yenilənməsi sənayenin bir sıra sahələrində baş verir ki, bura informasiya-kommunikasiya, aviakosmik, kompüter və təşkilat texnikası, tibbi ləvazimatlar istehsalı və bir sıra digər, lakin məhdud sayda sahələr aiddir. Bununla belə, həmin mənbələrdə yüksək texnoloji və yüksək elmtutumluluğuna malik sahələrin sayının artırılmasının mümkünlüyü və hətta zəruriliyi qeyd olunur. Hesab edilir ki, sənayenin əksər sahələrinin elmtutumluluq dərəcəsinin yüksəldilməsi obyektiv zərurətdir. Bunu şərtləndirən səbəblər kimi, ilk növbədə:

- rəqabət mühitinin kəskinləşməsi;
- resursqoruyucu texnologiyaların tətbiqi zərurəti;
- bilik iqtisadiyyatına keçidin obyektiv reallığa çevrilməsi göstərilir.

İlkin araşdırmalar göstərir ki, sadalanan və digər səbəblərlə şərtlənən proseslərin sənayedə texnologiyaların elmtutumluluğuna təsiri kifayət qədər güclüdür.

Digər tərəfdən, XXI əsrin əvvəlinə olan məlumata görə dünya ixracında emal sənayesinin xüsusi çəkisi 75%, hasilat sənayesi 13%, kənd təsərrüfatı isə 9% təşkil edirdi. Bu onu göstərir ki, elmtutumlu texnologiyalar nəinki hasilat sənayesi, habelə kənd təsərrüfatında da əhəmiyyətli xüsusi çəkiyə malikdir.

Maykl Porterə görə rəqabət qabiliyyətini xərcləri azaltmaqla və bu istiqamətdə birinci olmaqla, məhsulları yeniləşdirərək onların çeşidini artırmaqla təmin etmək olar. Xərclərin azaldılmasında, xüsusilə yeni məhsullar daxil edilməklə buraxılışın çeşidinin genişləndirilməsində elmtutumlu texnologiyalar aparıcı rol oynamalıdır.

Sənayedə rəqabət qabiliyyətli istehsal sisteminin formalaşmasında elmtutumlu texnologiyaların artan rolu, habelə milli iqtisadiyyatın bu sahəsinin digər sahələr üçün yüksək texnologiyalar poli-

qonu olması ilə bağlıdır.

Sənaye texnologiyalarının elmtutumluluq amili resursqoruyuculuq hesabına istehsal xərclərinin azaldılması və hazır məhsulun qiymətinin ucuzlaşdırılması imkanlarını reallaşdırır. Başqa sözlə, texnoloji yenilik həm istehsalçının, həm də bilavasitə istehlakçının maraqlarına xidmət edir. Ona görə də “ən səmərəli variant istehsalatda elmi-texniki inkişafı və yeniliyi gücləndirməkdir. Elmi-texniki nailiyyətlər gələcəkdə qiymətlərin enməsini də nəzərə almaqla yüksək gərginliklə iş tələb edir. Rəqabət istehsalçılara bazara yeni-yeni məhsullar çıxarmaq üçün stimul yaradır. Təklif olunan məhsul növlərinin ayrılması bazarda tamamilə yeni məhsullar və ximətlərin iştirakını artırır”. [1, s.156]

Ümumiyyətlə, sənaye sahələrində tətbiq edilən texnologiyaları elmtutumluluq dərəcəsinin azalma əlaməti üzrə aşağıdakı kimi sıralamaq olar (şəkil 1).

Yüksək texnoloji	Kompüter və ofis texnikası istehsalı Kommunikasiya vasitələri (teleradio və digər cihaz və avadanlıqları) istehsalı Yüksək dəqiqliyə malik tibbi alətlər və avadanlıqlar
Orta texnoloji	Kimyəvi maddələr və kimyəvi məhsullar istehsalı Avtomobillər və digər nəqliyyat vasitələri Elektrik avadalıqları
Aşağı texnoloji	Hasilat sənayesi sahələri Aqroemal sahələri

Şəkil 1. Sənayedə tətbiq edilən texnologiyaların sahələr üzrə elmtutumluluq dərəcəsi.

Sənaye sahələrinin tətbiq edilən texnologiyaların elmtutumluluq dərəcəsi üzrə təsnifatında yüksək, orta və aşağı səviyyəli kimi bölgüsü, hər qrupa aid sahələrin tərkibi xeyli dərəcədə şərtidir. Məsələ ondadır ki, sadalanan əlamətlər üzrə bölgüdə baş verən dəyişiklikləri kəmiyyətcə qiymətləndirmək üçün kifayət qədər reprezentativ monitorinqlər, demək olar ki, aparılmır.

Yeni texnologiyaların yaradılması və mənimsənilməsi dövrü, yeni məhsulların həyat tsiklinin qısalması və bu kimi bir sıra digər amillərin təsiri altında əhəmiyyətli dərəcədə azalmışdır. Belə vəziyyət sənayedə texnoloji yeniləşmələrin iqtisadi cəhətdən, rəqabət mübarizəsində uğur qazanmaq baxımından həlledici rolunu şərtləndirmişdir. Məsələ ondadır ki, elmtutumlu texnologiyaların qiymətləndirilməsində qənaət əsas meyarlardan biri kimi önə çəkilir. Mövcud texnika və texnologiyaların mənəvi cəhətdən aşınması prosesi bu halda əhəmiyyətli dərəcədə sürətlənir.

Bilik iqtisadiyyatı postsənaye və innovasiya iqtisadiyyatının inkişafının ali mərhələsidir. Halbuki bəzi mənbələrdə bilik iqtisadiyyatı və innovasiya iqtisadiyyatı anlayışları eyniləşdirilir. Tətbiqi tədqiqatların rolunun artdığı postsənaye cəmiyyətində elmtutumlu texnologiyalar aparıcı rol oynayır. Postsənaye iqtisadiyyatı, demək olar ki, texnoloji dəyişikliklərin yeni keyfiyyət səviyyəsini yüksələn kadr potensialı hesabına təmin edir. Bilik iqtisadiyyatında əqli amillər ənənəvi maddi amilləri üstələdiyindən, burada əsas amil insan kapitalıdır.

Yeni iqtisadiyyat anlayışı, ilk növbədə yeni və elmtutumlu, habelə ekoloji tələblərə cavab verən texnologiyalarla bağlıdır. Yeni iqtisadiyyat dedikdə adətən, ilk növbədə informasiya-kommunikasiya texnologiyaları, daha sonra isə bio və ekotexnologiyalar aid edilir. Əlbəttə, belə yanaşma şərtidir və göstərilən ardıcıllıqda qlobal problemlərin aktuallığı dərəcəsi ilə yanaşı texnoloji imkanlar önə çəkilir. “Yeni iqtisadiyyat – bu, bir çox tədqiqatçılar tərəfindən artıq qəbul edilmiş “bilik iqtisadiyyatı”, intellektual xidmət iqtisadiyyatıdır. “Bilik iqtisadiyyatı”nın əsasını müxtəlif səviyyəli elm-təhsil strukturları təşkil edir. Onlara informasiya göstəricilərinin işlənməsi mexanizmləri daxildir ki, bu da öz növbəsində müəyyən şəraitlərdə məlumatlara, sonra isə texnologiyalara transformasiya olunur. İntellektual məhsulda - nou-xauda, texnologiyalarda işlənməmiş

informasiyaların yenidən işlənməsi bu prosesi, "yeni iqtisadiyyatda" artımın əsasını təşkil edir və onun məhsuldarlığının artmasına təsir göstərir. [2, s. 224]

Doğrudan da, yeni iqtisadiyyatda intellektual xidmətlər sektoru üstünlük təşkil etdiyindən, burada fasiləsiz təhsilin aparıcı rolu şübhəsizdir. Məhz fasiləsiz təhsil informasiyanın biliyə çevrilməsi, sonuncunun isə texnologiyada reallaşması üçün zəmin yaradır.

Elmi-texniki tərəqqi sənayenin inkişafının temp, proporsiya və miqyasını şərtləndirməklə innovasiyalı texnoloji mühitin formalaşmasında həlledici rola malikdir. Elmtutumlu texnologiyaların sənayedə rəqabət qabiliyyətli istehsal sistemində artan rolu, həmin sistemin müvafiq xarakteristikaları ilə şərtlənir. Digər tərəfdən yüksək texnoloji mühit sənayenin dinamik şəbəkə əmələ gətirmə qabiliyyətini təmin edən amil kimi diqqət mərkəzindədir.

Dövlətin sənaye siyasətinin prioriteti kimi innovasiyalı inkişaf, həlledici dərəcədə elmtutumlu texnologiyaların hazırlanması, mənimsənilməsi və tətbiqi sayəsində baş verir. Bu proses mürəkkəb və çoxcəhətli olmaqla yanaşı insan amilinin önə çəkilməsini tələb edir. Odur ki, elmtutumlu texnologiyaların erqonomik tələblərə cavab verməsi aktual məsələdir. Konkret halda, erqonomik tələblər elmtutumlu texnologiyaların tətbiq edildiyi müəssisələrdə işçinin vəzifə öhdəliklərini səmərəli icra etməsi baxımından insanın fiziki və psixi xüsusiyyətləri nəzərə alınmaqla iş yerinin təkmilləşdirilməsi tələbləri qismində çıxış edir. Yeni texnika və texnologiyaların mənimsənilməsi ilə əlaqədar fəaliyyətin sürəti, insan enerjisi sərfi, intensivlik, məhsuldarlıq və bu kimi bir sıra digər parametrlər üzrə erqonomik aspektdə optimallaşdırılması elmtutumlu texnologiyaların tətbiqi proseslərinin səmərəliliyinin həlledici şərtlərindən biridir.

Elmtutumlu texnologiyalar qloballaşmanın şərti və nəticəsi kimi nəzərdən keçirilə bilər. Belə yanaşma elmtutumlu texnologiyaların bəzi qlobal xüsusiyyətlərini konkretləşdirməyə imkan verir. Məsələ ondadır ki, elmtutumlu texnologiyalar:

- şəbəkə strukturlu dünya iqtisadiyyatı formalaşdırır;
- autsorsinq münasibətləri inkişaf edir və s.

Elmtutumlu məhsullar bazarında baş verən proseslər qlobal xarakterlidir. Bu isə bazar seqmentləri arasında müxtəlif resursların yenidən bölgüsünün miqyasını şərtləndirir. "Elmtutumlu bazarın inkişafı iqtisadiyyatın qloballaşması ilə sıx əlaqəlidir. Bu proseslər sadəcə olaraq qarşılıqı əlaqəli deyil, həm də - biri olmasa digəri yoxdur – kimi şərtləndirilir. Elmtutumlu bazarın artımı maliyyə, istehsal, material və əmək ehtiyatlarının digər bazarlarla yenidən bölüşdürülməsi hesabına baş verir. İqtisadiyyatin yüksək texnologiyalı sektorunda işləyən şirkətlər, bir tərəfdən bu prosesin üstünlüklərindən istifadə edir, digər tərəfdən isə onları öz fəaliyyətləri ilə sürətləndirir". [3,s.54]

İqtisadiyyatın, xüsusilə sənayenin müxtəlif sahələrində elmtutumluluq amilinin şərtləndirdiyi multiplikasiya effekti, innovasiyalı inkişafın məcmu səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir edir. Bu baxımdan ən modern texnoloji xətlərin qurulmasının əsas şərtlərindən biri olan texnoloji ardıcıllığın optimallaşdırılması məsələsi xüsusi aktuallığa malikdir. Texnoloji ardıcıllığın optimallaşdırılması, habelə sənayedə istehsal qabiliyyətli istehsal sisteminin formalaşması və inkişafında heç də az rol oynamır. Haqqında danışılan ardıcıllıq resursqoruyuculuq baxımından zəruri tələblərə cavab verməlidir. Bir sıra tədqiqatlarda sənaye istehsalında texnoloji ardıcıllığın optimallaşdırılması üçün resursa qənaət (məsrəflərin minimuma endirilməsi) meyarına əsaslanan məqsəd funksiyası təklif olunur. Nəzəri baxımdan bu yanaşma cəlbedici görünsə də, təcrübədə onun reallaşdırılması, xüsusilə elmtutumlu texnologiyalara münasibətdə heç də həmişə özünü doğrultmur.

Yeni texnologiyaların innovasiya perspektivlərinin qiymətləndirilməsi iqtisadi-texniki müstəvidə həll edilməli məsələdir. Elmtutumlu texnologiyaların innovasiya perspektivlərinin qiymətləndirilməsi üçün ümumi qəbul edilmiş metodika yoxdur. Ona görə də texnoloji inkişafın müxtəlif istiqamətləri üzrə innovasiya perspektivlərinin müəyyənləşdirilməsində istifadə olunan ekspert yanaşmaları fərqləndirilir. Deyək ki, elmtutumlu ekotexnologiyaların innovasiya perspektivlərinin qiymətləndirilməsində digər elmtutumlu texnologiyalardan fərqli olaraq aşağıdakı meyarlar önə

çəkilməlidir:

- bərpa olunmayan təbii resurslardan istifadə zamanı sərt qənaət rejiminin tətbiqi;
- texnogen resurslardan istifadəni nəzərdə tutan texnologiyaların ətraf mühitə neqativ təsirinin minimumlaşdırılması;
- alternativ enerji mənbələrindən istifadə dairəsinin genişləndirilməsi;
- resurslardan təkrar istifadə üzrə qapalı texnoloji rejimin qurulması və s.

Elmtutumlu texnologiyalar sənaye müəssisəsinin, artıq qeyd edildiyi kimi, rəqabət qabiliyyətinin yüksəldilməsinin mühüm vasitəsidir. "Malların və xidmətlərin rəqabət qabiliyyətinin səviyyəsi müxtəlif texniki iqtisadi amillərin (keyfiyyət, maya dəyəri, ticarətin forma və üsulları, qiymətlərin, tədarüklərin və daşımaların şərtləri və müddətləri, malların dəbə və yerli bazar şəraitinə uyğun gəlməsi, alıcılarla hesablaşmaların və ödənişlərin növləri və formaları, malın nüfuzu (mal nişanı), reklamın səmərəliliyi və s.) göstəricilər kompleksi ilə müəyyənləşdirilir". [4, s.252]

Elmtutumlu texnologiyalar innovasiyaların ETTKİ sayəsində reallaşdırıldığı texnologiyalardır. Ona görə də elmtutumlu texnologiyaların inkişafı elm,təhsil və istehsalatın birgə tərəqqisinə yönəldilən investisiyaların həcmi, dinamikası və strukturundan asılıdır. Ümumiyyətlə iqtisadi, xüsusilə maliyyə amili yüksək texnologiyaların hazırlanması, mənimsənilməsi, ötürülməsi (transferi) və tətbiqi prosesində həlledici amil ola bilir. Sənayedə elmtutumlu texnologiyaların, sahənin və məhsulun rəqabət qabiliyyətinin təminatındakı rolu, innovasiyalı inkişaf tələblərinə adekvat maliyyələşmə sisteminin səmərəliliyindən bilavasitə asılıdır. Bu baxımdan vençur investisiyalaşması xüsusi diqqətə layiqdir. Elmtutumlu texnologiyaların inkişafının iqtisadi mexanizmində vençur yanaşması və bu əsasda qurulan biznes mühüm rol oynayır. Vençur biznesinin aşağıdakı xüsusiyyətləri onun elmtutumlu texnologiyaların inkişafında artan rolunu şərtləndirir:

- çeviklik. Bu xüsusiyyət vençur işgüzarlığında yüksək risklərlə şərtlənən mobilliklə, daha doğrusu, yüksək risk ehtimalına qarşı səfərbərlik zərurəti ilə bağlıdır;
- gözlənilməz vəziyyətlərin mütəmadiliyi ilə fərqlənən dinamik mühitin tələblərinə qarşı adekvat reaksiya;
- qərar qəbulunun operativliyi.

Sadalanan və digər səbəblərdən vençur biznesi kiçik ölçülü qurumlarda daha uğurlu olur. Belə ki, başlanğıcda bürokratiyadan olan zərərlər həmin qurumlarda daha az olur. Vençur kapitalının özünəməxsus cəhətləri onun sənayedə elmtutumlu texnologiyaların rəqabət qabiliyyətli istehsal sisteminin təşəkkülündəki rolunu şərtləndirir.

"Vençur kapitalının xüsusiyyətləri:

- investorların carı gəlirlərə deyil, kapitalın əhəmiyyətli artımına yönəldilməsi;
- bazarda reallaşmanın uzunmüddətli olması, yəni investisiyalaşmanın başlanmasından sonra kapitalın artımının əldə olunması 3 ildən 7 ilə qədər müddətdə alınır;
- vençur kapitalı üçün xarakterik cəhət risklərin investorlar və layihənin təşəbbüskarları arasında bölüşdürülməsidir ki, bu da vençur investorlarının strateji qərarların qəbul olunmasında iştirakı vaxtı özünü büruzə verir;
- vençur maliyyələşməsi vaxtı zərərin yol verilə bilən norması müəyyənləşir". [5, s.157]

Əsasında elmtutumlu texnologiyaların durduğu vençur biznesi, nəticə etibarı ilə texnoparkların və texnopolislərin formalaşmasında həlledici rol oynayır. Məlum olduğu kimi, texnoparklar elmi-tədqiqat mərkəzləri və universitetlərlə ortaq fəaliyyət göstərir. Fəaliyyətin nəticəsi olaraq elmtutumlu texnologiyalara əsaslanan şirkətlər qrupunun birgə fəaliyyətini təmin edən texnoparklar və yüksək texnologiyaları yaradan və reallaşdıran digər qurumlar formalaşır. Texnoparklar ideyaların formalaşmasından tutmuş yüksək texnologiyalar və elmtutumlu məhsulların yaranması və istifadəsinə qədər innovasiyalı fəaliyyəti təmin edən məkan kimi təqdim olunur.

Rəqabət qabiliyyətli istehsal sisteminin təşəkkülü məsələləri

Elmtutumlu texnologiyaların hazırlanması, mənimsənilməsi və tətbiqi prosesində kreativlik rə-

qabət qabiliyyətinin yüksəldilməsinin həlledici şərtidir. Odur ki, hazırda texnoloji transferlərin sürətləndirilməsi, ərazi elm-sənaye komplekslərinin formalaşması, texnoloji kooperasiyanın təşviqi mexanizminin təkmilləşdirilməsi yüksək texnologiyaların səmərəliliyini şərtləndirən mühüm amillər qismində önə çəkilir.

Sənayedə rəqabət qabiliyyətli istehsal sisteminin təşəkkülü səviyyəsi onun bazardakı mövqeyi ilə müəyyənləşir. Haqqında danışılan mövqe bazardakı anoloji məhsulların qiymətinə təsir imkanı ilə şərtlənir. "Bazarın mühüm xarakteristikası onun raqabətqabiliyyətliliyidir. Bu isə ayrı-ayrı firmaların məhsul bazarına təsir göstərmək, hər şeydən əvvəl istehsal olunan məhsulun qiymətini dəyişmək bacarığını bildirir. Firmasının onun məhsulunu realizə edən bazara təsir imkanı nə qədər az olarsa, bazar bir o qədər rəqabətli hesab edilir". [6, s.257]

Elmtutumlu texnologiyalar yayılması innovasiyalı inkişafın tempi və miqyasına bilavasitə təsir göstərir. Artıq qeyd olunduğu kimi, yüksək texnologiyaların mənimsənilməsi və tətbiqi mərhələləri arasında texnologiyaların transferi kimi multiplikativ effekt yaradan mərhələ durur. Başqa sözlə, innovasiyaların hərəkət forması kimi texnologiyaların transferi prosesi, zaman və səmərəlilik baxımından xüsusi diqqətə layiqdir. Müasir dövrdə, əsasən elmtutumlu texnologiyalar transfer obyekti olur. Lisenziya çərçivəsində ixtiralara patentlərin verilməsi, patent lisenziyalaşdırılması, patentsiz ixtiraların satın alınması, intellektual fəaliyyətin nəticələri üzərində mülkiyyət hüququnun özgəninkiləşdirilməsi, nou-hauya lisenziya çərçivəsində texnoloji sənədlərin ötürülməsi, texnologiyaların müştərək işlənib hazırlanması, yüksək texnologiyalar sahəsində mütəxəssislərin cəlb edilməsi, elmtutumlu texnologiyalara həsr olunmuş elmi və praktiki tədbirlərdə informasiya mübadiləsi texnologiyaların transferinin müxtəlif aspektlərini əhatə edir.

Texnoloji yeniliklərin kommersiyalaşdırılması prosesinin mühüm tərkib hissəsi kimi texnologiyaların transferində texnologiyaların mənbəyi və son istifadəçisindən başqa, investor qismində iştirak edən tərəf ola bilər və sonuncu imtiyazlı müştəri statusu əldə edir. Texnoloji inkişafda rəqibləri qabaqlamaq baxımından texnologiyaların transferi mühüm vasitə olub, elmtutumlu texnologiyalar hesabına sənayedə rəqabət qabiliyyətli istehsal sisteminin təşəkkülündə həlledici rola malikdir.

Elmtutumlu texnologiyaların tətbiqi və onun sənayedə rəqabət qabiliyyətli istehsal sisteminin təşəkkülündəki rolu qeyri-müəyyənliyin aradan qaldırılması ilə bilavasitə bağlıdır. "İqtisadi fəaliyyətin davam edəcəyi şərait haqqında kifayət qədər məlumatın olmaması, bu şəraiti qabaqcadan görməyin,əvvəlcədən xəbər verməyin zəif səviyyədə olmasıdır. Qeyri-müəyyənlik iqtisadi sistemin bütün səviyyələrində planlaşma, qərar qəbul etmə, fəaliyyəti həyata keçirmə riskləri ilə bağlıdır". [7, s.21]

Sənayedə elmtutumlu texnologiyaların rəqabət qabiliyyətli istehsal sisteminin qurulmasının başlıca şərtinə çevrilməsi texnoloji yeniliklərin kommersiyalaşmasında dövlət-özəl bölmə tərəfdaşlığının səviyyəsindən asılıdır. Haqqında danışılan texnoloji yeniliklərin kommersiyalaşmasının nəticələri bütün tərəfdaşlar üçün cəlbedici olmalıdır. Bu baxımdan digər mühüm şərt intellektual mülkiyyətin yaradılması, qorunması, hərəkəti və istifadəsi üçün adekvat infrastrukturun mövcudluğudur. Dövlət elmtutumlu texnologiyaların tətbiqinin iqtisadi və sosial nəticələrində, investorlar isə ondan əldə ediləcək gəlirdə daha maraqlıdır. Başqa sözlə, dövlətin simasında cəmiyyət elmtutumlu texnologiyaların dayanıqlı inkişafa təsirini proqnozlaşdırmalıdır.

Yüksək texnoloji mühitdə menecment və marketinq məsələlərinə adekvat, başqa sözlə, elmi cəhətdən hərtərəfli əsaslandırma xüsusi əhəmiyyətə malikdir. Hazırda menecment və marketinq fəaliyyətinin texnoloji detallaşdırma və dəqiqlik səviyyəsinə çatdırılması, eyni zamanda çevik reaksiya imkanlarının təmin olunması məsələləri gündəlikdədir.

"Yeni iqtisadiyyatın məhsuldar qüvvələri menecment və marketinqin sosial-iqtisadi texnologiyalarına əsaslanan təşkilediciləri özündə birləşdirir. Məhz menecment və marketinqin müasir texnologiyaları istehsalın yeni amillərinin məhsuldarlığını və səmərəliliyini açaraq, "yeni iqtisa-

diyyatın” bütün mexanizmini göstərən alətdir. Bu amillər qeyri-maddi amillərdir: çəkiyə gəlməyən sərvət, “hiss olunmayan aktivlər”, “görünməyən kapital”, mütəxəssislərin intellektual kapitalı, brend, imic, şirkətlərin işgüzar adı və s.”. [2, s. 225]

Yeni iqtisadiyyat müasir proseslərə, o cümlədən iqtisadi-texnoloji proseslərin idarə edilməsinə, bazara çıxışın asanlaşdırılması və məhsul satışının artırılması proseslərinə yeni yanaşma tələb edir. Konkret halda, haqqında danışılan yenilik kreativ marketinq fəaliyyətinin və idarəetmə qərarlarının operativlik və əsaslandırılma meyarları üzrə optimallaşdırılmasında, transaksion məsrəflərin minimumlaşdırılmasında ifadə olunur.

Elmtutumlu texnologiyalar sənaye istehsalının səmərəliliyinə multiplikativ təsir etməklə, onun nəticəsini, başqa sözlə, məhsulun rəqabət qabiliyyətini yüksəldir. Sənayedə elmtutumlu texnologiyalar resurslara qənaət imkanlarını genişləndirir, sahədə ekotexnologiyaların iqtisadi səmərəliliyinin təmin edilməsi onların geniş tətbiqinə və son nəticədə dayanıqlı inkişafa xidmət edir. Nəhayət onu da qeyd edək ki, elmtutumlu texnologiyalar autsorsinq münasibətlərinin inkişafı imkanlarını artırır, elmtutumlu texnoloji mühit insanın fiziki və psixi xüsusiyyətləri nəzərə alınmaqla iş yerinin təkmilləşdirilməsini, ümumilikdə erqonomik tələblərin ciddiləşdirilməsini tələb edir.

Nəticə

Sənayenin innovasiyalı inkişafında elmtutumlu texnologiyaların hazırlanması, mənimsənilməsi və tətbiqi həlledici rola malikdir. Yüksək texnoloji mühitin səmərəliliyi onun şəbəkə əmələ gətirmə qabiliyyətindən asılıdır. Müasir texnoloji xətlərin səmərəli fəaliyyəti texnoloji ardıcıllığın optimallaşdırılmasını tələb edir. Elmtutumlu texnologiyaların inkişafında vençur biznesinin artan rolu müvafiq mexanizmin çevikliyi, dinamik mühitin tələblərinə adekvat reaksiyası, idarəetmə qərarlarının hazırlanması və qəbulunun operativliyi sayəsində baş verir. Rəqabət qabiliyyətinin yüksəldilməsi məhsulları yeniləşdirərək onların çeşidinin genişləndirilməsini, texnoloji transferlərin sürətləndirilməsini, ərazi elm-sənaye komplekslərinin formalaşması, texnoloji kooperasiyanın təşviqi mexanizminin təkmilləşdirilməsini tələb edir. Rəqabət qabiliyyətli istehsal sisteminin qurulması, sənayedə elmtutumlu texnoloji yeniliklərin kommersiyalaşmasında dövlət-özəl bölmə tərəfdaşlığı təmin edilməli, kommersiyalaşmanın nəticələri bütün tərəfdaşlar üçün cəlbedici olmalıdır.

ƏDƏBİYYAT

1. Tağıyev A.H. Bazar itisadiyyatının əsasları. Bakı, “Maarif”, 2000, 342 s.
2. Авдокушин Е.Ф. Новая экономика. Современные наукоемкие технологии. 2010, № 10, с.223-225
3. Баженов В.А., Денисова К.В. Об одном способе комплексной оценки уровня наукоемкости продукции. с.54. www.nsu.ru/exp/ref
4. Axundov Ş. Marketinqin əsasları. Bakı, “Əbilov, Zeynalov və oğulları”, 2001, 572 s.
5. Кулиев Р.А. Регулирование инвестиционной деятельности. Баку, SBS Polygraphic Production, 2008, 306 с.
6. Теория цены и ценообразования. Баку, “СКБ и Полиграфия”, 2001, 614 с.
7. İzahlı iqtisadi terminlər lüğəti. II hissə, Bakı, “Nurlar”, 2005, 546 s.

Рамил Чингиз оглы Алиев
докторант АзТУ

Наукоемкие промышленные технологии и научно-методологические вопросы формирования конкурентоспособной производственной системы

Резюме

В настоящее время актуальны вопросы применения наукоемких технологий и конкурентоспособность производственных систем. В статье исследованы научно-методологические вопросы формирования конкурентоспособной производственной системы в промышленности и определения место и роли наукоемких промышленных технологий в этом процессе.

Ключевые слова: наукоемкая технология, производственные системы, конкурентоспособность, промышленность, новая экономика.

Ramil Chingiz Aliyev
candidate for a degree of AzTU

Theoretical- methodological issues of formation of knowledge - intensive industrial technologies and competitive production system

Summary

The application of knowledge-intensive technologies and compeətetiveness of production system are pressing questions. The paper has investigated theoretical-methodological issues for determination of importance and role of formation of competitive production system and knowledge-intensive technologies in this process.

Key words: knowledge-intensive technology, production system, industry, competitive, new economy.

UOT 338.45

Günay Oqtay qızı ƏLİYEVA
Azərbaycan Texniki Universitetinin dissertantı

SƏNAYE İNNOVASİYALARININ İNVESTİSİYALAŞDIRILMASI PROSESLƏRİNİN TƏNZİMLƏNMƏSİNİN KONSEPTUAL ASPEKTLƏRİ

Xülasə

Sənaye innovasiyalarının investisiyalaşdırılması proseslərinin tənzimlənməsi sisteminin səmərəliliyi, həlledici dərəcədə onun bazar özünütənzimləməsi prinsiplərinə uyğunluğundan asılıdır. Məqalədə sənaye innovasiyalarının investisiyalaşdırılması proseslərinin tənzimlənməsi sisteminin fəaliyyəti və inkişafının konseptual aspektləri tədqiq olunmuşdur.

Açar sözlər: tənzimləmə,innovasiya, investisiya prosesləri, sənaye, istehsal.

Giriş

Maddi istehsal sahələrində inkişafın yeni keyfiyyət səviyyəsinin əldə olunması sənayedə innovasiya fəallığının təşviqini tələb edir. İnnovasiya fəallığının təmin edilməsinin ilkin şərtlərindən biri kimi əlverişli investisiya mühitinin yaradılmasında son onilliklərdə dövlətin rolunun artması müşahidə olunur. Bu və digər səbəblərdən sənaye innovasiyalarının investisiyalaşdırılması proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi məsələləri xüsusi aktuallıq kəsb edir.

İnnovasiyalı inkişafın investisiyalaşması: konseptual aspektlər

Dövlətin innovasiyalı inkişafa yönəlmiş investisiya siyasətinin prioritetlərinin əsaslandırılması üçün həyata keçirilən kompleks araşdırmalar investisiyanın həcmi, strukturu, əsaslı vəsait qoyuluşlarının vaxtı və müddəti, bu vəsaitlərin ödənilməsinin müddəti və bu kimi bir sıra digər parametrlərin təhlilə cəlb edilməsi ilə həyata keçirilir. İnvestisiya fəaliyyəti geniş əhatəli və çoxmərhələli olmaqla, sənayedə istehsal-texnoloji, idarəetmə və digər xarakterli innovasiyalarla yanaşı, habelə maliyyə innovasiyalarının tətbiqi şəraitinə də ciddi surətdə təsir edir. Bu və digər səbəblərdən sənaye innovasiyalarının investisiyalaşdırılması proseslərinin tənzimlənməsi məsələlərinin xüsusi aktuallıq kəsb etdiyini söyləmək olar.

Sənayenin investisiyalaşdırılması bazar prinsiplərinə əsaslansa da, həmin proseslərin sosial, ekoloji tələblər baxımından tənzimlənməsi zərurəti, praktiklər üçün, demək olar ki, diskussiya predmeti deyildir. Əlbəttə,belə vəziyyət heç də, investisiya bazarının tənzimlənməsinin forma və metodlarına dair fərqli fikirlərə diqqəti azaltmamalı, investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məqsədilə tənzimləmə sisteminin təkmilləşdirilməsi imkanlarına aydınlıq gətirilməlidir. Həmin fərqlər:

- investisiya fəaliyyətinin, xüsusilə elmtutumlu sənaye istehsalının inkişafının çoxvektorlu olmasından;
- bazar özünütənzimləməsinin təsir gücünün və əhatə dairəsinin dəyişməsindən;
- intensiv inkişaf mühitinin, innovasiyalı fəaliyyətin genişlənməsinin tempi və miqyasının dinamikliyindən;
- həmin mühiti formalaşdıran amillərin zaman keçdikcə vaciblik dərəcəsinin dəyişməsindən və bu kimi bir sıra səbəblərdən irəli gəlir. Belə vəziyyət, eyni zamanda sənayeyə yönəlmiş investisiya axınlarının bazar özünütənzimləməsinin məkan və zaman parametrlərinin dəqiqləşdirilməsini zəruri edir.

Postsovet respublikalarında, XX əsrin 90-cı illərinin əvvəllərində xalis bazar prinsiplərinə üstünlük verilməsi, ümumilikdə iqtisadiyyatda və onun ayrı-ayrı sahələrində dövlət tənzimlənməsinin rolunun nəzərə alınmaması ciddi iqtisadi və hətta siyasi fəsadlarla nəticələnmişdir. Digər tərəfdən, məhz postsovet və postsosialist ölkələrində dövlətin iqtisadiyyata müdaxilələrinə, o do-

layı olsa belə həddindən artıq ehtiyatla yanaşılmasının tarixi səbəbləri də diqqətdən kənarda qalmamalıdır. Məsələ ondadır ki, onilliklər ərzində mərkəzləşdirilmiş və inzibati-amirlik üsulları ilə idarə edilən iqtisadiyyatın neqativ cəhətləri həmin ölkələrin yaxın tarixində əyani şəkildə öz əksini tapmışdır. Odur ki, postsovet məkanı dövlətlərində ekspertlərin iqtisadiyyatın dövlət tənzimlənməsinin əhatə dairəsinin müəyyənləşdirilməsi məsələsinə hədsiz ehtiyatla yanaşması, hər bir zaman və məkan intervalında hərtərəfli əsaslandırma tələb etməsi başa düşüləndir. Unutmaq olmaz ki, iqtisadi proseslərə edilən birbaşa və sırf inzibati xarakterli istənilən müdaxilə, gələcəkdə analoji müdaxilələr üçün münbit şərait yaradır.

Azərbaycan iqtisadiyyatının dinamik inkişafı, iqtisadi artım tempinə görə dünyada öncül yerə çıxması onu iri regional layihələrin nəinki bərabərhüquqlu iştirakçısına, habelə həmin layihələrin əsas iştirakçısına və idarəedicisinə çevirmişdir. Avropanın enerji təhlükəsizliyinin potensial zəmanətçisi kimi çıxış edən ölkəmiz, dünya təsərrüfat sisteminin aparıcı qüvvələri ilə bir sırada dayanır. Sənaye istehsalının artdığı, qeyri-neft bölməsinin inkişafının prioritet elan olunmağından keçən az bir müddət ərzində ciddi nailiyyətlərin əldə edildiyi Azərbaycan Respublikasına investorların artan marağı göz qabağındadır. Milli iqtisadiyyatın, o cümlədən sənayenin qeyri-neft bölməsinin intensiv inkişafında əhəmiyyətli addımlar, texnoloji transferlərin artan tezliyi ilə əlaqədardır. Bununla belə, sənayenin elmtutumlu sahələrinin investisiya cəlbediciliyinin artırılması istiqamətində kompleks tədbirlər davam etdirilməlidir.

"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun "İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi" adlı üçüncü fəslində göstərildiyi kimi, "investisiya fəaliyyətinin dövlət tənzimlənməsi vahid iqtisadi, elmi-texniki və sosial siyasət yeridilməsi məqsədi ilə həyata keçirilir və Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf proqramında nəzərdə tutulmuş həcmlərdə dövlət büdcəsi hesabına maliyyələşdirilir." (1, maddə 10)

Qanunvericilikdə investisiya fəaliyyətinin dövlət tənzimlənməsinin aşağıdakı vasitələrlə həyata keçirilməsi nəzərdə tutulur:

- kredit və əsas fondların sürətli amortizasiyasını nəzərdə tutan amortizasiya siyasətinin həyata keçirilməsi. Amortizasiya üzrə güzəştlər ayrı-ayrı iqtisadi sahələr, əsas fondların və avadanlığın müxtəlif növləri və elementləri üçün dəyişkən və fərqli müəyyən edilə bilər;
- ayrı-ayrı region, sahə və istehsalatların inkişafı üçün subvensiya, subsidiya büdcə borclarının verilməsi;
- dövlət norma və standartlarının müəyyənləşdirilməsi;
- antiinhisar tədbirlərin görülməsi;
- mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi;
- torpaqdan, sudan və başqa təbii ehtiyatlardan istifadə şərtlərinin müəyyənləşdirilməsi;
- qiymətqoyma siyasətinin həyata keçirilməsi;
- investisiya layihələrinin ekspertizasının keçirilməsi. (1, maddə 11)

İnvestisiya fəaliyyətinin tənzimlənməsi milli iqtisadiyyatın digər sahələrində olduğu kimi, sənayedə də rəqabət imkanlarını məhdudlaşdırmamalı, bir sözlə, azad bazar prinsiplərinə maneə yaratmamalıdır. Bu baxımdan dövlətiin icra etdiyi sosial-iqtisadi funksiyaların həyata keçirilməsi mühiti sivil bazar münasibətlərinin inkişafı üçün də əlverişli olmalıdır.

Sənaye innovasiyalarının yaranması, yayılması və mənimsənilməsi mərhələlərinin investisiyalaşdırılması prosesləri vahid rakursda nəzərdən keçirildikdə innovasiyalara yönəldilən investisiyaların səmərəliliyini daha düzgün qiymətləndirmək imkanları genişlənir. Həmin imkanların müəyyən edilməsi və gerçəkləşdirilməsi mühitinin xarakteristikası:

- sahədə intensivləşmə proseslərinin dayanıqlı inkişaf tələblərinə uyğunlaşdırılması;
- innovasiyalı inkişafın tənzimlənməsinin əsas parametrlərinin müəyyən edilməsi;
- innovasiyalı inkişafın maliyyə stimullaşdırılması formalarının investisiya cəlbediciliyi meyarları əsasında seçilməsi məsələlərinə diqqəti artırır.

İnvestisiya fəaliyyətinin tənzimlənməsinin forma və istiqamətləri kimi, əsasən aşağıdakılar qeyd olunur: "maliyyə investisiyalarının tənzimlənməsi, dövlət hüdudlarından kənarda vəsait qoyuluşlarının şərtlərinin tənzimlənməsi, investisiya fəaliyyətinin vergi tənzimlənməsi, investisiyalaşmanın sahə və obyektlərinin tənzimlənməsi, investorların özəlləşdirmədə iştirakının tənzimlənməsi, investisiya proseslərinin ekspertizası, səmərəli amortizasiya siyasətinin həyata keçirilməsi, güzəştli kreditləşdirmə, investisiyaların qorunması, maliyyə yardımının göstərilməsi." [2, s.121]

Qeyd olunan forma və istiqamətlərin, demək olar ki, hamısı sənayedə innovasiyalı inkişafın investisiyalaşdırılması proseslərinin tənzimlənməsi zamanı, bu və ya digər dərəcədə istifadə olunur.

İnnovasiyaların investisiyalaşdırılması proseslərinin tənzimlənməsi zərurəti aşağıdakı amillərlə şərtlənir:

- milli iqtisadiyyatın, o cümlədən sənayenin bu və ya digər sahəsinin rəqabət qabiliyyətinin yüksəldilməsi və dövlət gəlirlərinin artırılmasının motivləşdirilməsinə obyektiv ehtiyacın olması;
- bazar özünütənzimləməsi mexanizmində innovasiyalı inkişaf və onun maliyyələşdirilməsi baxımından ictimai tələblərin kifayət qədər nəzərə alına bilməməsi;
- qlobal miqyasda innovasiyaların investisiyalaşması proseslərinin dayanıqlı inkişafın tələblərini nəzərə alan sisteminin formalaşdırılması zərurəti.

Əlbəttə, bu halda unutmaq olmaz ki, innovasiyaların investisiyalaşdırılması proseslərinin tənzimlənməsi dövlətin sosial-iqtisadi, elmi-texniki siyasətinin həyata keçirilməsi vasitəsidir. İnnovasiyaların investisiyalaşdırılması proseslərinin tənzimlənməsində dövlətin fəallığı dərəcəsi sosial-iqtisadi inkişaf prioritetləri, elmi-texniki potensialdan istifadə səviyyəsi, investisiya bazarına təsir gücü, dövlətin iqtisadi və maliyyə qüdrəti, geosiyasi mövqeyi və bu kimi bir sıra digər amillərlə şərtlənir. Sadalanan və digər amillərin kəsişdiyi mühitin konkret ölkə üçün səciyyəvi olan özünəməxsusluğu innovasiyaların investisiyalaşmasında daxili və xarici investisiyaların nisbətini şərtləndirir. Əlbəttə, həmin nisbətin formalaşmasında makro amillərin rolu kifayət qədər böyükdür.

Sənayedə innovasiyalı fəaliyyətin investisiyalaşdırılması proseslərinin tənzimlənməsinin makromühiti dövlətin pul-kredit siyasəti və pul-kredit tənzimlənməsi sisteminin təsiri altında formalaşır. Bu halda qiymət və məşğulluq amillərinin təsirinin ahəngdarlığının təmin edilməsi məsələləri önə çəkilməlidir. Dünyanın ən böyük iqtisadiyyatına malik ölkədə isə kifayət qədər fərqli situasiyalar heç də nadir hal deyildir. "Müəyyən amillər xüsusi məqsədləri müdafiə üçün Federal Ehtiyat Sisteminin puldan istifadə etmək siyasəti imkanlarını mürəkkəbləşdirir. Birincisi, pul siyasətindən istifadə məhz ona görə çətindir ki, pul ehtiyatında dəyişikliklər iqtisadiyyatda dəyişikliklərin lazımi sürətini təmin etmir. Pul ehtiyatının artması və ya azalması başqa iqtisadi şərtlər dəyişmədikcə, iqtisadiyyata təsir etməyə və ya pul ehtiyatındakı dəyişikliklə dolayı qarşılıqlı əlaqədə ola bilər. Əslində, qiymət sabitliyinə nail olmaq üçün pul siyasətindən istifadə cəhdləri bəzən tam məşğulluğa nail olmağa əngəl törədir, işsizliyin qarşısını almaq üçün pul siyasətindən istifadə cəhdləri isə bəzən inflyasiyaya aparır." [3, s.130]

Qeyd olunan vəziyyət digər inkişaf etmiş ölkələrin pul-kredit siyasəti və pul-kredit tənzimlənməsi sisteminin fəaliyyət mühitində də müşahidə olunur. Başqa sözlə, iqtisadiyyatın və onun ayrı-ayrı sahələrinin intensiv-innovasiyalı inkişafının sosial meyarlar baxımından tənzimlənməsi, heç də həmişə arzuolunan nəticəni vermir. Daha doğrusu, iqtisadi motivlərin sosial, ekoloji və digər tələbləri üstələməsi halları baş verməkdədir.

Sənayedə məhsulun bilavasitə istehsalı prosesində və onun istehlakçıya doğru hərəkətində qarşılaşdığı risklər çoxsaylı və müxtəlif xarakterli amillərin təsiri altında meydana çıxır. Odur ki, müvafiq mənbələrdə həmin riskləri bir sıra əlamətlər üzrə təsnifləşdirir, onlara fərqli yanaşma hesabına qabaqlayıcı və neytrallaşdırıcı təsir mexanizmini təkmilləşdirməyə çalışırlar. İnnovasiyalı

inkişafa yönəldilən investisiya resurslarından istifadə səmərəsinin, o cümlədən onların gəlirliyinin yüksəldilməsi cəhdləri daha riskli sahələrdə fəaliyyətin maliyyələşdirilməsi ilə müşayiət olunur. Bu halda riskləri şərtləndirən əsas amillər və onların uçota alınmasının və nəticələrinin xarakteri, yaranma vaxtı və məkanı kimi parametrlər nəzərə alınır. Zənnimizcə, belə yanaşma, risklərin bu və ya digər əlamət (əlamətlər) qrupu üzrə təsnifatına əsaslanan yanaşmadan daha səmərəlidir. Belə ki, sənayedə innovasiyalı fəaliyyətin investisiyalaşdırılması proseslərinin tənzimlənməsində, idarə olunan risklərin yaranma xarakteristikaları araşdırıldıqdan sonra, onların maliyyə, sığorta istehsal və ya kommersiya sinfinə aidliyi məsələsinə münasibət bildirmək daha məqsədəuyğundur.

Sənayedə innovasiyalı inkişafın investisiyalaşdırılması proseslərinin tənzimlənməsinin adekvat sisteminin elementləri

Sahədə innovasiyaların investisiyalaşdırılmasının tənzimlənməsinin məqsədi, məlum olduğu kimi, ayrılan vəsaitdən istifadə səmərəliliyini yüksəltmək, riskləri minimuma endirmək və onların optimal bölüşdürülməsini və s. təmin etməkdir. Bu məqsədlə, hər şeydən əvvəl investisiyaların səmərəliliyi təhlil edilməli, ilk növbədə innovasiyalı investisiya fəaliyyəti üçün zəruri şərtlər, o cümlədən vəsaitə tələbatın motivləri, onlardan istifadə mühitinin məqbulluğu, müvafiq hüquqi bazanın, maliyyə və işçi resurslarının mövcudluğu müəyyən edilməlidir.

İnvestisiya təhlilinin mühüm tamamlayıcısı kimi riskin nəzarət olunan həddə saxlanmasını nəzərdə tutan risk menecmentinin alternativliyin və qeyri-müəyyənliyin idarə olunmasının mütərəqqi və innovasiyalı inkişafa adekvat üsul və vasitələr dəsti seçilməlidir. Həmin üsul və vasitələr natamam informasiya şəraitində optimal qərarların qəbul edilməsinə imkan verməlidir. İnnovasiyaların investisiyalaşdırılması prosesində meydana çıxan risklərin idarə edilməsi məqsədilə qeyri-müəyyənliyin səciyyələndirilməsi tələb olunur. Bunun üçün tətbiq edilən çox sayda üsullar arasında stoxastik və parametrik proqramlaşdırma və qeyri-səlis çoxluqlar nəzəriyyəsinin alətlərindən istifadə perspektivli hesab olunur. Bununla belə, investisiya təhlili və risk menecmentin əksər üsullarının tətbiqindən əldə edilən nəticələr, investisiya qərarlarının etibarlılığına tam zəmanət vermir. Daha çox gəlir götürməyə investisiya fəaliyyətində risk ehtimalı yüksəlir. Odur ki, "hər bir vəsait qoyuluşu gəlirlilik və risk dərəcəsi baxımından mütəmadi surətdə təhlil edilməlidir. Əgər aktiv artıq portfelə uyğun gəlmirsə, onda investor onu satmalı və daha münasib alətlər satın almalıdır. Nəhayət, investor dayanıb hər bir sent mənfəəti gözləməməlidir. Maksimal qiyməti gözləyən, bir qayda olaraq öz vəsait qoyuluşlarının dəyərinin aşağı düşməsini müşahidə edir." [4, s. 869]

Azərbaycanda yaradılmış davamlı və mütərəqqi makroiqtisadi sabitlik, innovasiyalı-intensiv inkişafın investisiyalaşdırılması mühitində sağlam rəqabətin təşviqi üçün əlverişli şəraiti təmin edir. Həmin şəraitin açdığı geniş imkanların gerçəkləşdirilməsi:

- ölkədə mövcud olan investisiya mühitinin hərtərəfli səciyyələndirilməsini;
- sahənin investisiyaya tələbatının və onun ödənilməsi vəziyyətinin müəyyən edilməsini;
- sənayedə innovasiyalı fəaliyyətin investisiyalaşdırılması proseslərinin tənzimlənməsinin adekvat sisteminin formalaşdırılması dərəcəsinin qiymətləndirilməsini tələb edir.

Daha sonra start göstəriciləri araşdırılaraq sahədə innovasiyaların investisiyalaşdırılması proseslərinin daha səmərəli tənzimlənməsinin üsul və vasitələri seçilməli, onların birgə istifadəsi üçün konseptual baxımdan daha perspektivli, təcrübi baxımdan isə daha əlverişli mexanizm müəyyən edilməlidir.

Aparılan tədqiqatlar transformasiya iqtisadiyyatında tənzimləyici tədbirlərin səmərəliliyinin innovasiyalı inkişafın investisiya mühitinin monitorinqi üzrə milli sisteminin yaradılması və istifadəsindən bilavasitə asılı olduğunu göstərir. Belə ki, innovasiyaların investisiyalaşdırılması proseslərinin tənzimlənməsi sisteminin ilkin informasiya bazasının etibarlılığı, tənzimləyici qərarların səmərəliliyinin mühüm şərti kimi çıxış edir.

İnnovasiyalı fəaliyyətin investisiyalaşdırılması proseslərinin stimullaşdırılması tədbirləri, sənayenin intensiv inkişafını dəstəkləməklə investorun və cəmiyyətin maraqlarını uzlaşdıran tənzimləyici qərarların icrasını təmin etməlidir. Həmin tədbirlər adekvat güzəştli vergi və kredit, qiymətqoyma, səmərəli sığorta, sürətli amortizasiya mexanizmlərinin tətbiqini nəzərdə tutur. İnnovasiyalı fəaliyyətin investisiyalaşdırılmasında xarici şirkətlərin fəal iştirakı şəraitində aşağıdakı amillər diqqət mərkəzində olmalıdır:

- yerli xammaldan istifadə. İnnovasiyalı fəaliyyətin davamlılığı qlobal amillərdən birbaşa asılı olsa da, onun milli iqtisadiyyatda oynadığı rol yerli xammaldan istifadə dərəcəsi ilə əlaqədardır. Yerli xammal bazasını formalaşdıran daxili istehsalın inkişafına maliyyə və texniki-texnoloji dəstək tədbirlərinin tənzimlənməsi sistemində stimullaşdırıcı istiqamət aparıcı olmalıdır;
- innovasiyalı inkişaf, artıq qeyd olunduğu kimi, bu və ya digər ölkədə gəlir və məşğulluq göstəricilərinə ciddi təsir edir. Dövlət innovasiya siyasətində sosial tələbləri, investor isə iqtisadi maraqları önə çəkə bilər. Bununla belə, innovasiyalı fəaliyyətin investisiyalaşdırılması layihələri məşğulluğa təsir baxımından ciddi ekspertizadan keçirilməlidir;
- innovasiyaların investisiyalaşdırılması üzrə xarici şirkətlərin fəal iştirak etdiyi layihələrdə istifadəsi nəzərdə tutulan maşın və avadanlıqlar ən yüksək standartlarla müqayisə olunmalı, onların alternativ enerji mənbələrindən istifadəyə uyğunlaşdırılması dərəcəsi qiymətləndirilməlidir.

Sənayenin müxtəlif sahələrində innovasiyalı fəaliyyətə yönəldilən investisiyaların kreditləşdirilməsində dövlətin iştirakı dərəcəsi mühüm indikator kimi diqqət mərkəzində olmalıdır. Haqqında danışılan iştirak dərəcəsi, xüsusi və cəlb edilən vəsaitlərin nisbəti yüksəldikcə, əksər hallarda kreditə tələbatın ödənilməsi səviyyəsi və sahədə investisiya fəallığının artması müşahidə olunur. Sahədə innovasiyalı fəaliyyətə investisiyaların kreditləşdirilməsi, ilk növbədə hazırkı və gələcək xərc və gəlirlərin zaman baxımından müqayisəsini tələb edir. Daha sonra isə innovasiyalara investisiyaların kreditləşdirilməsi üçün maliyyə resurslarının səfərbərliyə alınmasının konkret forma və metodları seçilməli, onların tətbiqi mexanizmi reallaşdırılmalıdır.

Ümumiyyətlə, "dövlət maliyyə resurslarının səfərbərliyə alınmasının konkret forma və metodlarına, dövlət xərclərinin həyata keçirilmə üsullarına və istiqamətlərinə əsaslanmaqla müxtəlif dövlət və hakimiyyət strukturlarının timsalında bilavasitə tənzimlənmənin subyekti kimi çıxış edir.

Dövlət gəlirlərinin və xərclərinin konkret növləri və ümumdövlət pul vəsaitləri fondunun digər mənbələri, onların səfərbərliyə alınma və təqdim olunma metodları, prosedurları ilə birlikdə maliyyə tənzimlənməsinin üsullarını, bu vəsaitlərin tutulma və maliyyələşdirmənin həyata keçirilməsinin konkret prinsipləri isə bu təsirin xarakterini müəyyən edir." [5, s.55]

İnnovasiyaların vergi tənzimlənməsi, müvafiq istiqamətli investisiyalaşmanın tənzimlənməsinin mühüm istiqaməti kimi sənayenin bir sıra sahələrində innovasiya fəallığının yüksəldilməsində mühüm rola malikdir. İnnovasiyalı sənaye fəaliyyətinin stimullaşdırılmasında vergi amilinin yaratdığı imkanların reallaşdırılması kompleks yanaşma tələb edir. İnnovasiyalı inkişafın təşviqi üçün sənayenin bu və ya digər sahəsində vergi bazasının genişləndirilməsi, vergi yükünün azaldılması imkanları qiymətləndirilməklə innovasiyalı fəaliyyətə vergi güzəştlərinin ünvanlılığı mexanizmi təkmilləşdirilməlidir. Bu halda digər meyarlarla yanaşı, elmtutumlu sənaye istehsalının təşkilinə tranzaksion məsrəflərin minimuma endirilməsi meyarı da nəzərə alınmalıdır. Əlbəttə, unutmaq olmaz ki, elmtutumlu sənaye istehsalının təşkilinə tranzaksion məsrəfləri kəmiyyətcə əks etdirən informasiya massivləri natamamdır. Odur ki, həmin məsrəflərin minimuma endirilməsi məsələsi həll edilərkən, natamam informasiya şəraitində qərar qəbulu üçün hazırlanmış ekspert üsullarının daha fəal istifadəsi tövsiyə olunur.

İctimai zəruri fəaliyyətin, o cümlədən innovasiyalı sənaye fəaliyyətinin "vergi tənzimlənməsinin mühüm üsulları kimi vergi güzəştləri və vergi sanksiyaları çıxış edirlər. Bu alt sistemlərin optimal şəkildə bir-birinə uyğunlaşdırılması vergitutmanın çevikliyini, son nəticədə isə vergi siyasətinin səmərəliliyini təmin edir. İqtisadi cəhətdən əsaslandırılmış güzəştlər sistemi vasitəsilə

həyata keçirilən vergi tənzimlənməsi yeni, rəqabətə davamlı məhsul buraxılışı zamanı, texniki proseslərin modernləşdirilməsi zamanı yaranan maliyyə itkilərini kompensasiya edən strateji xarakterli qarşılıqlı əlaqəli vergi güzəştləri kompleksidir." [6, s.173]

Sənayedə innovasiyalı inkişafın investisiya proseslərinin tənzimlənməsində təhlil və proqnozlaşdırmada istifadə olunan çoxsaylı amillər sırasında mənfəət özünəməxsus və istiqamətləndirici rola malikdir. Bu göstərici, sosial indikatorlar nəzərə alınmaqla əlavə investisiya qoyuluşlarının məbləği və strukturunun əsaslandırılması zamanı istifadə olunur. Belə ki, həmin qoyuluşlar, mənfəətin zəruri səviyyəsi əldə edildikdə həyata keçirilir. Sənaye müəssisəsinin mənfəətinin yenidən investisiyaya gedən hissəsinə (reinvestisiya) vergi güzəştlərinin optimallaşdırılması innovasiyalara investisiya qoyuluşlarının səmərəli istifadəsinin mühüm istiqaməti kimi diqqətəlayiqdir. Sənaye innovasiyalarına vergi güzəştlərinin optimallaşdırılması məsələsi, təcrübədən göründüyü kimi, əsasən dövlət proqramları çərçivəsində həll olunur. Əlbəttə, digər vasitələr də bu baxımdan istisna edilməməlidir.

İnnovasiyaların investisiyalaşması proseslərinin tənzimlənməsi sisteminin səmərəliliyi, xüsusilə sənayedə həyata keçirilən amortizasiya siyasətindən, onun prioritetlərindən bilavasitə asılıdır. Sürətləndirilmiş amortizasiya sənayenin elmtutumlu sahələrində innovasiya potensialının formalaşmasının mühüm şərti kimi çıxış edir. Ümumilikdə sənayedə amortizasiya siyasətinin liberallaşması, amortizasiya ayırmalarının tezliyinə münasibətdə əsaslandırılmış çevik qərarlar qəbul etməyə imkan verir. Qabaqcıl xarici təcrübədə bu məqsədlə xüsusi ilkin amortizasiya güzəşti yanaşmasından istifadə olunur. İnnovasiya proseslərinin sıçrayışlı xarakteri, məhsul, xüsusilə proses innovasiyalarına adekvat amortizasiya siyasətinin əsaslandırılması və reallaşdırılmasını tələb edir. Bu məqsədlə, sənayecə inkişaf etmiş ölkələrdə amortizasiyanın qeyri-xətti metodlarının tətbiqi istiqamətində qiymətli təcrübə qazanılmışdır. Qeyri-xətti metodlar, demək olar ki, yüksək elmtutumlu və innovasiya potensialından fəal istifadə edilən sənaye sahələrində tətbiq edilir. Onu da qeyd edək ki, bir neçə onillik bundan əvvəlki dövrlə müqayisədə, sənayenin müvafiq statuslu sahələrinin sayı əhəmiyyətli dərəcədə artmışdır.

İnnovasiyalı inkişaf sıçrayışlarla müşayiət olunsa da, sənayedə bu əsasən innovasiyaların yaranması mərhələsinə xasdır. İnnovasiyaların yayılması (transferi) və mənimsənilməsi mərhələlərində yeniliklərin tətbiqi prosesi üçün tədricilik reallığın tələbi kimi meydana çıxır. Odur ki, sənayedə investisiya mühitinin dayanıqlığı və tərəfdaşlıq əlaqələrinin etibarlılığı məsələləri aktual olaraq qalır. Sahədə innovasiyalı inkişafın investisiyalaşdırılmasına xidmət edən fəaliyyətin tənzimlənməsi tərəfdaşlıq əlaqələrinin etibarlılığının yüksəldilməsi üçün əlverişli şərait yaratmalıdır. Məsələ ondadır ki, elmtutumlu sənaye istehsalının təşkili və onun nəticələrinin yayılması prosesində qarşılıqlı əlaqə yaradılan tərəfdaşlar arasında həm elmi, həm elmi-təcrübi fəaliyyətlə, habelə innovasiyaların transferi ilə məşgul olan qurumlar üstünlük təşkil edir. Sadalanan qurumların ixtisaslaşmasının istiqamət və səviyyəsi nəzərə alınmaqla, onlarla qarşılıqlı faydalı tərəfdaşlığın davamlılığının səmərəli olacağı yüksək ehtimalla gözlənilən dir.

Sənayedə innovasiyalı inkişafın investisiyalaşdırılması proseslərinin tənzimlənməsinin aktual məsələləri araşdırılarkən innovasiya layihələrinin və onların investisiya cəlbediciliyinin qiymətləndirilməsinin elmi-nəzəri və metodoloji aspektlərinə xüsusi diqqət verilməlidir. İnnovasiyalı inkişafda investisiya resurslarından səmərəli istifadə etmək üçün investisiya layihələrinin qiymətləndirilməsi meyarları sırasına elmi ideyaların kommersiyalaşmasının məcmu səmərəliliyi meyarı da salınmalıdır. Əks halda, sənayedə intensiv inkişafın, kəskinləşən rəqabət mübarizəsi tələblərinə adekvatlığının təmin olunması, demək olar ki, qeyri-mümkündür. İnnovasiya layihələrinin icrası üçün investisiya resurslarının idarə edilməsi, qərarların hazırlanması və qəbulu modelinin əsas komponentləri dəqiqləşdirilməlidir. Bu zaman innovasiya layihəsinin investisiya cəlbediciliyi, etibarlılığı dəyərləndirilməklə bütün məlumat mənbələri və mümkün vasitələr cəlb edilməklə hərtərəfli qiymətləndirilməlidir.

Nəticə

İnnovasiyaların investisiyalaşdırılması proseslərinin tənzimlənməsi zərurəti sənayenin rəqabət qabiliyyətinin yüksəldilməsinə obyektiv ehtiyacın olması, innovasiyaların investisiyalaşması proseslərinin dayanıqlı inkişafın tələblərini nəzərə alan sisteminin formalaşdırılması zərurəti ilə şərtlənir. Risk menecmentində riskləri şərtləndirən əsas amillər, onların uçota alınmasının və nəticələrinin xarakteri, yaranma vaxtı və məkanı kimi parametrlərin nəzərə alınması, risklərin bu və ya digər əlamət üzrə təsnifatına əsaslanan yanaşmadan daha səmərəlidir. İnnovasiyalı inkişafın təşviqi üçün sənayedə vergi bazasının genişləndirilməsi və vergi yükünün azaldılması imkanları birgə qiymətləndirilməklə, innovasiyalı fəaliyyətə vergi güzəştlərinin ünvanlılığı mexanizmi təkmilləşdirilməlidir. İnnovasiyalı investisiya layihələrinin qiymətləndirilməsi zamanı elmi ideyaların kommersiyalaşmasının məcmu səmərəliliyi göstəricisi nəzərə alınmalıdır.

ƏDƏBİYYAT

1. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 1995.
2. Кулиев Р.А. Регулирование инвестиционной деятельности. Баку, “CBS Polygraphic Production”, 2008, 308 с.
3. Amerika iqtisadiyyatının əsas cəhətləri Bakı, 2000, 211 s.
4. Лоренс Дж. Гитман, Майкл Д. Джонк. Основа инвестирование. Москва, Дело, 1997, 870 с.
5. Ələkbərov Ə.Ə.Sosial-iqtisadi inkişafın maliyyə-büdcə parametrlərinin tənzimlənməsi. Bakı, “Elm”, 2007, 448 s.
6. Kəlbiyev Y.A.Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. Bakı, “Elm”, 2005, 468 s.

Гюнай Октай гызы Алиева
диссертант АзТУ

Концептуальные аспекты регулирования инвестиционных процессов промышленных инноваций

Резюме

Эффективность системы регулирования процессов инвестирования промышленных инноваций, в решающей степени зависит от ее адаптации к принципам рыночного саморегулирования. В статье исследованы концептуальные аспекты функционирования и развития системы регулирования процессов инвестирования промышленных инноваций.

Ключевые слова: регулирование, инновация, инвестиционные процессы, промышленность, производства.

Gunay Oqtay Aliyeva
candidate for a degree of the AzTU

Conceptual aspects of regulation of investing processes of industrial innovations

Summary

Efficiency of regulation system of investing process of industrial innovations depends crucially on compliance with its self-market regulating principles. The paper has investigated operation and development conceptual aspects of regulation system of the process of investing industrial innovations.

Key words: regulation, innovation, investing processes, industry, production.

III BÖLMƏ
MALİYYƏ, BANK VƏ İNVESTİSİYA MƏSƏLƏSİ

УДК - 338.2

Лала Тофик гызы НЕЙМАТОВА
АзТУ, диссертант

ЗАРУБЕЖНЫЙ ОПЫТ ПО УПРАВЛЕНИЮ ФИНАНСОВО-ПРОМЫШЛЕННЫМИ ГРУППАМИ

Резюме

В статье на основе изучения и обобщения зарубежной литературы излагается эволюционный путь развития ФПГ, опыт развитых стран в их формировании, организации, управлении; а также рассматривается роль и значение транснациональных ФПГ в экономике зарубежных стран; обосновывается необходимость использования их опыта в экономической сфере Азербайджана.

Ключевые слова: финансово-промышленная группа, зарубежный опыт, организация и управление.

Введение

В условиях глобализации одной из важнейших проблем является создание, структурами и повышение их эффективности. Среди этих структур финанасово - промышленные группы (ФПГ) являются одним из наиболее перспективных и экономически выгодных форм менеджмента, поэтому в развитых странах в системе управления экономикой они получили наибольшее распространение. Учитывая преимущество этой организационной формы, еще в 1996г в Азербайджане был принят Закон "О финансово - промышленных группах". В последующие годы в законе сделаны соответствующие изменения и дополнения. Несмотря на все это, ФПГ не нашли должного развития в республике.

Для развития ненефтяного сектора, привлечения в него инвестиций, повышения конкурентоспособности производства, создания благоприятных технологических и кооперативных связей, улучшения экспортного потенциала, совместного осуществления инновационных проектов и программ, расширение сети ФПГ, становится одним из приоритетных направлений. Для достижения успехов в этой области необходимо изучение и использование зарубежного опыта по организации и управлению ФПГ и их использованию в практической деятельности в различных сферах экономики республики.

Эволюционный путь развития ФПГ

Причины возникновения финансово-промышленных групп выявил еще Карл Маркс, описывая слияния промышленного и финансового капитала. Значит, исторические предпосылки появления ФПГ следует искать во взаимосвязи процесса концентрации производства, капитала и процесса монополизации. В конце XIX – в начале XX веков эти процессы почти совпадали, а монополии носили, как правило, отраслевой характер. Чем крупнее был трест, синдикат, тем сильнее возрастала его доля в соответствующей отрасли и тем в большей мере он становился монополистом.

Однако, начиная с 60-х годов прошлого столетия, этот процесс существенно видоизменился и усложнился. Монополистические гиганты, господствовавшие в той или иной отрасли, чувствовали себя не слишком комфортно в условиях резко меняющийся конъюнктуры

на рынке, в особенности перед конкурентами, стремящимися внедриться в данную отрасль и, наконец, перед лицом монополий-смежников: по линии сырья и сбыта готовой продукции.

На смену одноотраслевой экспансии пришли процессы вертикальной интеграции и, что еще важнее, - многоотраслевой диверсификации производства. Бывшие отраслевые тресты превратились в многоотраслевые концерны. В результате каждый из них стал иметь свои производства во многих, как правило, десятках отраслей.

Утверждение крупных многоотраслевых концернов создало реальные каналы межотраслевого движения монополистического капитала. Научно-техническая революция не только обеспечила ему дополнительные сферы приложения, но и подготовила необходимые предпосылки для дальнейшей жизнедеятельности. А происшедшая в послевоенный период модификация финансово-кредитной системы расширила монополию рынка капиталов. Массовому переходу капиталистических концернов к многоотраслевому устройству способствовало и государственно-монополистическое стимулирование - как прямое, так и косвенное.

По мере интернационализации производства и капитала, увеличения степени открытости экономик развитых стран число конкурентов значительно пополнилось иностранными транснациональными корпорациями. В результате вместо одной, существовавшей в начале века монополии только на автомобильном рынке Америки, появилось около двух с половиной десятков компаний Западной Европы, Японии и Южной Кореи, некоторые из них имели по нескольку заводов в США. Такую ситуацию стали называть монополистической конкуренцией.

Сейчас в странах с высокоразвитой рыночной экономикой ФПГ играют весьма важную роль.

Опыт развитых стран в формировании и развитии ФПГ

Процесс создания ФПГ оказало антимонопольное законодательство США, которое во многом затрудняло сращивание банковского капитала с промышленным.

На сегодняшний день в США получили распространение два основных типа ФПГ, отличающихся между собой центром, вокруг которого выстраивается вся группа. В первом случае консолидирующим ядром ФПГ выступает банковский холдинг, во втором – производственно – технологический комплекс.

К наиболее известным ФПГ США, основу которых составляют крупнейшие финансовые институты, относятся группы “Чейз”, “Моргана”, “Мелона” и.т.д. В большинстве случаев данные группы имеют схожую историю создания и развития, а также одинаковое строение.

Во второй группе доминируют промышленные предприятие (“General Motors”, “El du Pont de Nemours”, “General Electric” “Ford Motors”, “AT&T”), но финансовые структуры в них также весьма сильны (“General Motors Acceptance Corp.”, “General Electric Capital Services”, “Ford Motor Credit Corp.”, “IBM Credit Corp.” и т.д.).

Характерной особенностью промышленного комплекса Японии на сегодняшний день являются шесть универсальных многоотраслевых финансово-промышленных объединений (японский вариант “сюданы”): “Mitsubishi”, “Mitsui”, “Sumitomo”, “Fuyo”, “Sanwa”. Согласно официальным данным, совокупный годовой объем продаж этих 6 групп - гигантов составляет примерно 14-15% ВНП страны.

“Сюданы” представляют собой самодостаточные, универсальные многоотраслевые экономические комплексы, образованные по определенным общим принципам. В организационную структуру включается финансовые институты (банки, страховые и трастовые компании), торговые фирмы, а также набор производственных предприятий, составляющих полный спектр отраслей народного хозяйства. Все сюданы характеризуются взаимоучастием

компаний в капитале друг друга и ведущей ролью банка в деятельности группы. Взаимоучастие японских компаний в капитале друг друга позволяет им защититься от экспансии зарубежного капитала, что неудивительно, учитывая 1000-ю историю японского “островного” изоляционизма.

Связи между участниками группы достаточно тесные, но перекрестное владение акциями незначительно – в среднем по группам всего 1,5-2%. Внутри “сюданов” действует принцип не конкуренции, а целенаправленно организуемой внутренней специализации (когда сферы деятельности фирм не должны пересекаться). Поэтому в отношениях поставщик – потребитель здесь утвердилась взаимная монополия.

Верхний уровень “сюданов” образуют горизонтальные объединения, представляющие собой головные фирмы крупнейших промышленных объединений. Промышленные объединения (“кэйрэцу”) построены, как правило, по принципу вертикальной интеграции.

Обязательным членом группы, а по многим оценкам и стержнем, является крупнейший банк. В комплексе с ним и под его контролем работают также страховые и инвестиционные компании, траст-банки, образуя финансовую основу ФПГ.

Другим обязательным членом группы (сюдана) является универсальная торговая фирма. Они выполняют в сюдане функции универсального “сбытовика” и “снабженца”, более того – своеобразного “департамента внешних связей” при освоении новых сфер деятельности, в которых фирмы сюдана практически вообще не имеют возможностей сбыта и снабжения. [1]

ФПГ Германии отличаются довольно гибкостью образования и маневренностью, которые в значительной степени обеспечивается банками. Именно под их воздействием происходит поглощение или слияние отдельных компаний, образование крупнейших ФПГ. [2]

Ведущими банками Германии являются Deutsche Bank, Commerzbank которые на основе собственного владения акциями, доверенностей на право голосования и акций, принадлежащих своим дочерним инвестиционным компаниям, сконцентрировали в своих руках огромную степень контроля над ведущими открытыми акционерными обществами Германии. Вокруг этих банков были образованы крупные горизонтально интегрированные финансово-промышленные объединения. Во главе иерархии при этом стоит банк, с которым связана группа крупных промышленно-торговых компаний, а вокруг них группируется множество крупных и средних фирм. [3]

К финансово-промышленным группам Южной Кореи относятся Samsung, Daewoo, LG, Hyundai. Корейские группы представляют собой иерархические пирамиды, в основе которых лежит семейный капитал. [4]

Корейские финансово-промышленные группы имеют очень высокий уровень диверсификации, которая проходила при сильном влиянии государства, стимулировавшего реализацию импортозамещающих проектов. В каждой из финансово-промышленных групп Южной Кореи представлены ведущие отрасли промышленности. [5]

Деятельность финансово-промышленных групп Южной Кореи отличается очень высокой интернационализацией, при этом основной акцент делается на США и государства Азиатско-Тихоокеанского региона. Головная холдинговая компания такой многонациональной компании обычно выполняет функции главного торгового дома. [6]

В России процесс создания ФПГ шел по двум основным направлениям:

1. объединение с целью производства одного определенного товара (продукции);
2. по отраслевому принципу.

Действующие ФПГ в России, как правило, специализированные, а “универсальных” довольно мало. Исключение составляют Уральские заводы (телекоммуникации, приборостроение, оборудование, стройматериалы), Восточно-Сибирская группа (добыча нефти и газа,

электроэнергетика, химическая промышленность) и Сокол (автокомплектующие, топливно-энергетический и агропромышленный комплексы, стройиндустрия, радиоэлектроника).

Остальные же ФПГ по специализации узко направлены: драгоценности Урала (добыча и обработка драгметаллов и драгкамней), объединенная горнометаллургическая компания (черная металлургия), скоростной флот (судостроение), Нижегородские автомобили (автомобилестроение) и пр.

Важнейшая составляющая ФПГ – коммерческий банк, обеспечивающий финансовые перетоки. Как правило, он участвует в инвестировании и операциях от лица группы на фондовом рынке. Таким образом, основные характеристики ФПГ в выше указанных странах со стороны О.А.Беляевой изложены в следующей таблице (табл. 1.). [7]

Таблица 1.

Страна	Источник капитала	Механизм трансформации капитала	Тип акционерной структуры	Ядро ФПГ	Тип головной холдинговой компании
США	Независимые частные инвесторы	Фондовый рынок	Иерархия	Банк	Банковская ХК
				Промышленная корпорация	Смешанная либо чистая ХК
Германия	Независимые частные инвесторы	Банковская система	Иерархия с элементами перекрестного участия	Банк	Банк
				Промышленная корпорация	Смешанная либо чистая ХК
Япония	Государство	Банковская система	Этархия	Банк	Отсутствует
Южная Корея	Семейный капитал	Прямые инвестиции	Иерархия	Торгово-промышленная компания	Смешанная ХК
Россия	Государство	Ваучерная приватизация, инвестиционные конкурсы	Иерархия	Промышленное либо торговое предприятие	Смешанная ХК
		Залоговые аукционы	Иерархия	Банк	Чистая ХК

Транснациональные ФПГ

В условиях глобализации в мировой экономике занимают свое место и транснациональные ФПГ. Уместно отметить, что в Законе Азербайджанской

Республики “О финансово-промышленных группах” также предусмотрено создание транснациональных ФПГ. [8]

Изучение организационно-правовых проблем ФПГ показало, что в ряде стран СНГ также идет процесс законодательного оформления процесса создания ФПГ. Причем следует отметить важнейшую особенность: в этом процессе участвует Россия, и большинство за законодательством России. Так, между Правительством РФ и правительством Киргизской республики заключено соглашение об основных принципах создания финансово-промышленных групп. Аналогичное соглашение подписано с правительством Республики Таджикистан.

Постановлением Кабинета Министров Республики Узбекистан 12 сентября 1995 г. № 354 утверждено Положение о ФПГ. Его анализ показывает, что это положение практически полностью повторяет Положение о ФПГ и порядке их создания, принятом Указом Президента РФ от 5 декабря 1993 г. (к настоящему времени отмененному). Заметим только, что и в Рес-

публике Узбекистан формирование ФПг предусматривается также на основе консолидации пакетов акций.

Интересен опыт создания законодательной базы для ФПГ в Украине. В ноябре 1995 г. был принят Закон "О промышленно-финансовых группах в Украине". В соответствии с ним, финансово-промышленная группа (ФПГ) – объединение, в которое могут входить промышленные предприятия, сельскохозяйственные предприятия, банки, научные и проектные учреждения, другие учреждения и организации всех форм собственности, имеющие цель получение прибыли и, которое создается по решению правительства Украины на определенный срок в целях реализации государственных программ развития приоритетных отраслей производства и структурной перестройки экономики Украины, включая программы в соответствии с международными договорами, а также производства конечной продукции.

В Беларуси на сегодняшний день действует Указ Президента РБ "О создании и деятельности хозяйственно-промышленных групп" от 27 ноября 1995 г. и постановление КМ "О государственной регистрации промышленных и иных хозяйственных групп №402 от 19 июня 1996 г.

Определенные надежды на повышение загрузки белорусских предприятий связываются сих участием в ТФПГ, ведущая роль в которых закономерно должна принадлежать российскому капиталу как более мощному.

Доля государственной собственности белорусских предприятий в уставном капитале ТФПГ составляет 0,55%.

Кроме того, в стадии подготовки находится проект еще одной белорусско-российской ТФПГ под названием "Планар", которая должна заняться разработкой специального технологического оборудования для производства изделий микроэлектроники. От России в ней будут участвовать 5 приборостроительных АО и научно- исследовательский институт, а от Беларуси – АПК ТМ "Планар", на базе которого предполагается создать холдинг (центральную компанию данной белорусско-российской ТФПГ).

В некоторых из перечисленных ФПГ имеются достаточно мощные финансово-кредитные учреждения (крупные российские банки, страховые и инвестиционные компании).

Заключение

Обобщение зарубежного опыта по организации и управлению ФПГ дает нам основание сделать вывод о том, что в развитых странах, России и Беларуси развиваются различные виды ФПГ. В этих странах в законодательном порядке довольно четко определены механизм и правила функционирования ФПГ. Однако в других странах СНГ данный вопрос требует своего совершенствования. Единственным крупным недостатком действующего нормативного акта является запрещение банкам участвовать более чем в одной ФПГ. Данный вопрос спорен, но большинство экономистов не видят в участии банка в нескольких ФПГ ничего дурного

Однако, несмотря на полезность и необходимость для нашей экономики, как холдингов, так и ФПГ, они относятся к монопольным структурам. И при их создании необходимо устанавливать их соответствие антимонопольному законодательству.

В странах с рыночной экономикой отсутствует единая модель корпоративного построения и управления ФПГ.

Процесс создания и развития финансово-промышленных групп дает опыт управления государственным промышленным сектором в ряде европейских стран.

В управленческой практике сделаны первые шаги ФПГ – региональных, диверсифицированных и на базе замкнутых производственных и технологических циклов.

Для того, чтобы ФПГ в реальности использовали свои экономические преимущества и положительно влияли на развитие промышленности, а не были просто средством контроля

государства над определенными отраслями или средством ухода от налогов и диверсификации активов необходимо стимулировать участие банков, инвестиционных фондов и финансовых компаний в финансировании реальных проектов промышленности.

ЛИТЕРАТУРА

1. Ильин М.С. Финансово-промышленная интеграция и корпоративные структуры: мировой опыт и реалии России. М.С.Ильин, А.Г.Тихонов. М.: Альпина Паблишер, 2002, с.97-101.
2. Ленский Е.В. Транснационализация капитала. 2001, с. 262.
3. Жилинский С.Э.Предпринимательское право (правовая основа предпринимательской деятельности). Учебник для вузов. М: Изд-во НОРМА, 2007.
4. Лаптев В.А. Предпринимательское объединения: холдинги, финансово-промышленные группы, простые товарищества: Монография. – М. Изд-во ИНФРА-М, 2009.
5. Пивоваров С.Э., Тарасевич Л.С., Майзель А.И. Международный менеджмент: Учебник для вузов. – СПБ., Изд-во ПИТЕР, 2009.
6. Ершова И.В. Предпринимательское право: Учебник. – Изд-во Юриспруденция, 2009.
7. Закон Азербайджанской Республики “О финансово-промышленных группах”, с.2.
8. Беляева О.А. Предпринимательское право. М, ИНФРА –М, 2008, с.77.

Lalə Tofiq qızı Neymətova
AzTU, dissertant

Maliyyə-sənaye qruplarının idarəsi xarici təcrübədə

Xülasə

Məqalədə xarici ölkə alimlərinin əsərlərinin öyrənilib ümumiləşdirilməsi əsasında maliyyə-sənaye qruplarının təkamül yolla inkişafı, onların formalaşması, təşkili və idarə edilməsi üzrə inkişaf etmiş ölkələrin təcrübəsi, eləcə də transmilli maliyyə-sənaye qruplarının həmin ölkələrin iqtisadiyyatında yeri və rolu araşdırılmış, xarici təcrübədən Azərbaycanın iqtisadi sferasında istifadənin zəruriliyi əsaslandırılmışdır.

Açar sözlər: maliyyə-sənaye qrupları, xarici təcrübə, təşkili və idarə edilməsi.

Lala Tofig Neymatova
candidate for a degree of AzTU

Foreign experience on the management of financial and industrial groups

Summary

The article based on the study and generalization of foreign literature describes the evolutionary path of FİG, the experience of developed countries in their formation, organization, management; and examines the role and importance in the economy of transnational FİG foreign countries; The necessity of using their experience in the economic sphere of Azerbaijan

Key words: financial-industrial group, foreign experience, organization and management.

UOT 336.71

İntizar Mirzəli qızı QURBANOVA
Sumqayıt Dövlət Universiteti

ALİ MƏKTƏBLƏRƏ ƏLAVƏ MALİYYƏ VƏSAİTLƏRİNİN CƏLB OLUNMASI YOLLARI

Xülasə

Öz fəaliyyət prosesində ali məktəbin əsas məqsədlərindən biri təhsilin keyfiyyətini daima artırmaq və dünya standartları səviyyəsinə çatdırmaqdır.

Göstərilən təhsil xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, biznes, cəmiyyət və təhsil müəssisəsi arasındakı qarşılıqlı əlaqələrin təmin olunması üçün Ali məktəblərin Himayədarlıq Şurasının yaradılması, həmçinin müəssisənin maliyyə sabitliyi məqsədilə Məqsədli Kapital Fondunun formalaşdırılması mümkündür.

Bütövlükdə, insan resurslarına kapital qoyuluşu bütün cəmiyyət üçün faydalıdır və təhsil sisteminin keyfiyyəti nə qədər yüksək olarsa həm dövlətə, həm də biznesə iqtisadiyyatda rəqabətqabiliyyətliliyin artırılmasına xeyir verər.

Açar sözlər: maliyyə, kapital, ali məktəb, təhsil, keyfiyyət, himayədarlıq, idarəetmə.

Giriş

Strateji sahələrdən biri olan təhsil sistemi daima dövlətin və cəmiyyətin diqqət və qayğısına ehtiyac duyur. Cəmiyyətdə elə bir insan yoxdur ki, təhsil ilə hər hansı şəkildə əlaqəsi olmasın. Belə ki, hər bir insan özü və yaxınları təhsil sisteminin müəyyən mərhələlərindən keçir. Buna görə də təhsil sisteminə diqqət və qayğı yalnız dövlətin deyil, hər bir vətəndaşın və bütövlükdə cəmiyyətin borcudur. Sürətlə yeniləşən, inkişaf edən dünyada təhsilə diqqət daha da artırılmalı, yeni və qabaqcıl modellər sistemi tətbiq olunarkən əvvəlki modelin üstünlükləri də qorunub saxlanılaraq ən optimal variant seçilməlidir.

Bu gün dövlətin və cəmiyyətin təhsil sistemindən gözləntiləri əsasən keyfiyyətlə bağlıdır. Bunun üçün isə ölkənin güclü iqtisadiyyata malik olması labüddür. Keçən əsrin son illərindən başlayaraq inkişaf etmiş ölkələrin ümumi məhsulunun strukturunda biliklərə əsaslanan yeni iqtisadiyyat aparıcı yer tutur. Bu ölkələrdə intellektual əmək sayəsində yaradılan ümumdaxili məhsulun payı ilk 3 yerdən birini tutur və artmaqda davam edir. [3, s.13]

Hazırda ölkəmizdə iqtisadiyyatın heç də zəif olmadığını, əksinə, getdikcə daha da inkişaf edərək bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşaraq inkişaf etmiş ölkələrin sırasına qoşulmaq əzmində olduğunu, həm neft, həm də qeyri-neft sektorunun sürətli inkişaf dinamikasını nəzərə alaraq təhsil sisteminin də inkişafına kifayət qədər imkanların olduğunu deyə bilərik. Sadəcə olaraq, bu imkanların araşdırılıb səmərəli formada təhsilin inkişafına yönəldilməsi lazımdır.

Ali təhsil müəssisələrinin fəaliyyətinin effektiv modeli ölkənin inkişafının texnoloji, iqtisadi və demoqrafik meyilləri ilə müəyyən olunur. Müasir inkişaf meyillərini nəzərə alsaq təhsil müəssisəsi qarşısında duran məsələləri aşağıdakı kimi təsnifləşdirə bilərik:

- yüksək keyfiyyətli, yəni, beynəlxalq bazarda rəqabət qabiliyyətli fasiləsiz təhsilin təmin olunması;
- dövlət və bələdiyyə idarəetmə orqanları üçün, iqtisadiyyatın sahələri üçün məsləhət xidmətinin təmini;
- ali məktəblərin təhsil xidmətlərinin fəaliyyətin digər əsas növləri ilə - elmi tədqiqatlarla, məsləhətləşmə və idarəetmə ilə əlaqəsi və s.

Göstərilən təhsil xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, biznes, cəmiyyət və təhsil müəssisəsi arasındakı qarşılıqlı əlaqələrin təmin olunması üçün Ali məktəblərin Himayədarlıq Şurasının

yaradılması, həmçinin müəssisənin maliyyə sabitliyi məqsədilə - Məqsədli Kapital Fondunun formalaşdırılması mümkündür.

Ali məktəblərdə Himayədarlıq Şurasının yaradılması

Ali məktəblərin fəaliyyət prosesində əsas məqsədlərindən biri təhsilin kefiyyətinin daima yaxşılaşdırılmasının vacibliyi və gələcəkdə onun dünya standartları səviyyəsinə çatdırılmasıdır. Bu məsələnin yerinə yetirilməsi adətən, təhsillə ali məktəblərin (AM) ixtisaslaşdırılması sahəsində işləyən təşkilatların qarşılıqlı əlaqələrinin gücləndirilməsi yolu ilə həyata keçirilir. Həmçinin AM-lərdə tədris olunan fənlərin nəzəri əsaslarının daha dərindən öyrənilməsi və AM-in elmi bazasının inkişaf etdirilməsi və emi tədqiqatların maarifləndirmə prosesinin ayrılmaz komponentinə çevrilməsi yolu ilə həyata keçirilir.

Təhsilin keyfiyyətinin artırılmasına nail olmaq üçün təklif olunan yeniliklərdən biri Himayədarlıq Şurasının yaradılmasıdır. Himayədarlıq Şurası AM-in daimi fəaliyyət göstərən məsləhətçi orqanı kimi müəssisənin inkişafında yaranan aktual məsələlərin həllinə kömək edir. Müəssisənin seçilmiş sahələr üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üçün fasiləsiz təhsil mərkəzi kimi inkişaf etməsi də belə məsələlərdəndir.

Himayədarlıq Şurası tədris-metodiki kompleksin maddi-texniki təminatının yaxşılaşdırılmasına, ictimai aləmdə AM-in yüksək nüfuz qazanmasına, onun dövlət hakimiyyəti və idarəetmə orqanları ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə, beynəlxalq əməkdaşlıq da daxil olmaqla bizneslə əməkdaşlığın artmasına imkan verə bilər.

Himayədarlıq Şurası AM rəhbərliyinin yüksək orqanının-hakimiyyət və idarəetmə orqanları nümayəndələrindən, elm və təhsil müəssisələrindən, işgüzar dairələrdən, ictimai birliklərdən, bir sözlə, bu AM-in inkişafında və fəaliyyətinin təkmilləşməsində marağı olan digər şəxslərdən asılıdır. Bu orqan həmin AM-in öz nümayəndələrindən ibarət olan Elmi Şuranın qərarı ilə yaradıla bilər. Şuranın tərkibi məmurların və biznes nümayəndələrinin bilavasitə iştirakı ilə elə formalaşdırılır ki, ölkə iqtisadiyyatının tələblərinə cavab verən mütəxəssislərin hazırlanması planını müvafiq olaraq yerinə yetirməyə imkan versin.

Şübhəsiz ki, cəmiyyət, biznes və dövlət arasında əlaqəni inkişaf etdirən amil, dövlət sektoru və özəl müəssisələrin yüksək peşəkar kadrlarla təmin olunmaq asılılığının olmasıdır. Hansı ki, belə kadrların hazırlanmasında və ixtisasının artırılmasında əsas rolu hələ də dövlət ali təhsil müəssisələri oynayır. AM-lərin bir çoxu öz ixtisaslaşdırılmış maarifləndirmə bazasına əsaslanır və yalnız ilkin hazırlığı deyil, kadrların vaxtaşırı yenidən hazırlanması və ixtisasının artırılmasını da təmin etməyə qadirdir. Bütövlükdə, insan resurslarına kapital qoyuluşu bütün cəmiyyət üçün xeyirlidir. Çünki, təhsil sisteminin keyfiyyətinin yüksək olması həm dövlətə, həm də biznesə iqtisadiyyatda rəqabətqabiliyyətliliyin artırılmasına fayda verə bilər.

Bütün maraqlı olan tərəflərin daha effektiv qarşılıqlı əlaqəsi üçün AM-lərin Himayədarlıq Şurasının yaradılması məqsədəuyğundur. Himayədarlıq Şurasının üzvləri AM-i dəstəkləməli, dövlətin, cəmiyyətin və biznesin birgə maraqlarını və əlaqələrini inkişaf etdirməlidir. Onlar həmçinin ali idarəetmə orqanı olan Elmi Şuranın iclaslarında iştirak etmək və səs vermək hüququna malikdirlər.

Himayədarlıq Şurası lazım gəldikdə öz iclaslarını keçirə bilər. Onun qərarı AM rəhbərliyi üçün mütləqdir. Bu qərarlar üzvlərin böyük hissəsinin iştirak etdiyi iclaslarda qəbul olunur. Himayədarlıq Şurasının funksiyaları yalnız AM-in dövlət, bələdiyyə orqanları, kommersiya və qeyri-kommersiya təşkilatları ilə əlaqələrinin genişləndirilməsi və cəmiyyətin maarifləndirmə tələbatlarının ödənilməsinin təmin olunması ilə bitmir. AM-lərin tədris və elmi fəaliyyətlərinin təmin olunması üçün maliyyə resurslarının cəlb edilməsi, müəssisənin uzunmüddətli inkişaf proqramının işlənilib qəbul olunması, mütəxəssislərin hazırlanma keyfiyyətinin artırılmasına kömək edən perspektiv proqramların həyata keçirilməsinin təmini və s. də bu funksiyalara daxildir. Başqa sözlə desək, Himayədarlıq Şurası AM-in fəaliyyətində bilavasitə iştirak edir, tələbələrin və dinləyicilərin ha-

zırlanma keyfiyyətinə və kəmiyyətə nəzarət edir, beynəlxalq AM-lər də daxil olmaqla digər Ali təhsil müəssisələri ilə sıx əlaqələr yaradır, həmçinin büdcə və qeyri-büdcə vəsaitlərinin effektiv və qənaətli istifadə olunmasına təminat verir.

Əlavə maliyyənin cəlb olunması məsələsi həm də Məqsədli Kapital Fondunun yaradılması və ona donor vəsaitlərinin cəlb edilməsi yolu ilə həyata keçirilə bilər.

Məqsədli Kapital Fondunun (MKF) yaradılması

Təhsilin və elmin inkişafı proqramının maliyyələşdirilməsi üçün MKF-nin yaradılması təklif olunur. Başqa sözlə, AM-in məqsədli kapitalı gəlir əldə olunmasına yönəldilir, yaranan gəlir isə öz növbəsində AM-in proqramlarının maliyyələşdirilməsinə, müəssisənin müxtəlif istiqamətlərdə inkişafına və s. yönəldilir.

Təhsil müəssisəsi qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərə müxtəlif ödənişli təhsil xidmətləri göstərmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, hüquqi və fiziki şəxslərdən ianələr və könüllü yardımlar almaq hüququna malikdir. Bu mənbələrdən əldə olunan vəsait və digər əmlak dövlət təhsil müəssisəsinə büdcədən ayrılan vəsaitlərin miqdarına təsir göstərmir və onun nizamnaməsinə uyğun olaraq sərbəst istifadə edilir. [1, maddə 38. (2)]

İstənilən dövlət müəssisəsində və ya qeyri-kommersiya təşkilatında məqsədli kapitalın olması 2 əsas məsələnin həlli üçün nəzərdə tutulur:

1. Təşkilatın ümumi gəlirində zəmanət verilən gəlirin payının artırılması nəticəsində maliyyə sabitliyinin yüksəldilməsi.

2. Uzunmüddətli maliyyələşdirmə mənbəyinin olduğu şəraitdə fəaliyyətin uzunmüddətli planlaşdırılması imkanı.

Burada məqsəd AM-in kadr siyasətinin və tədris prosesinin təkmilləşdirilməsindən, maddi bazasının möhkəmləndirilməsindən, elmi bazanın inkişaf etdirilməsindən ibarətdir. Bu zaman aşağıdakı istiqamətlərə önəm verilməlidir:

- təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsi (yeni tədris metodlarının tətbiqi və peşəkar pedaqoji heyətin genişləndirilməsi vasitələri ilə);
- ödənişli əsaslarla təhsil alan tələbələrin ödəniş haqlarının azaldılması;
- AM-in xərc tələb edən istiqamətlərinin inkişafı: məsələn, təhsil alanların staj keçmələri;
- istedadlı tələbələrə, magistrant və doktorantlara dəstək olmaq, gənc alimlərin və digərlərinin həvəsləndirilməsi və s.

MKF donorların (ianəçilərin) pul vəsaitləri hesabına formalaşır və minimum müddəti 10 il təşkil edir. Yığılmış məbləğ təxminən 3 mln. manat təşkil edərsə, 2 ay ərzində İdarəetmə Kompaniyasının (İK) ixtiyarına verilməlidir. İK lisenziya əsasında belə fəaliyyəti peşəkar surətdə həyata keçirir. Məhz, İK MKF-ni təşkil edən vəsaitləri sərmayələşdirir. Bununla yanaşı MK haqqında əsasnamə itki risqini azaltmaqla fondun sərmayələşdirilməsi istiqamətlərini məhdudlaşdırır. Məqsədli kapitalı formalaşdıran pul vəsaitləri xarici valyuta da daxil olmaqla aktivin yalnız şərtləşdirilmiş növlərinə yerləşdirilə bilər. Lakin, məqsədli kapital etibarlı idarəetməyə verilməzdən əvvəl MKF kapitalı idarə edəcək orqanın heyətini və say tərkibini müəyyən etməlidir. Beləliklə, məqsədli kapitalın idarə olunması bu şəkildə baş verir. MKF-də ixtisaslaşdırılmış orqan-Himayədarlıq Şurası (onu başqa formada məqsədli kapitalın istifadəsi üzrə Şura adlandırmaq olar) yaradılır. Onun tərkibinə AM-in, dövlət orqanlarının nümayəndələri, ianəçilər, xeyriyyəçilər, tanınmış ictimaiyyətçilər, yəni, cəmiyyət qarşısında müəyyən xidmətləri olan şəxslər və ya AM-in profilinə müvafiq olan fəaliyyət sahəsində müəyyən nailiyyət qazananlar daxildir.

Tanınmış şəxslərdən ibarət kollegial orqanın olması həm donorlara, həm də cəmiyyətə əminlik verir ki, belə idarəetmə orqanı ictimai əhəmiyyətli məqsədləri rəhbər tutacaq və toplanmış vəsait məqsədyönlü şəkildə istifadə olunacaq. MKF-nin Himayədarlıq Şurasının tərkibinə AM-in Himayədarlıq Şurasının nümayəndələri daxil olmaqla onlar həmin AM-in cəmiyyətlə qarşılıqlı əlaqələrini təmin etməlidirlər.

İanəçi Fonda ianə qoyan zaman müqavilə bağlayarkən məqsədli kapitaldan gəlir götürənlər konkret müəyyən edilə və məqsədli kapitalın gəlirinin konkret məqsədlər üçün istifadəsi təyin oluna bilər. Müqavilədə belə təyinatlar nəzərdə tutulmadıqda məqsədli kapitalın gəlirinin necə istifadə edilməsini MKF-nin nizamnaməsinə əsaslanmaqla fondun Himayədarlıq Şurasının özü müəyyən edir. Cəmiyyət və donorlar məqsədli kapitalın formalaşması, istifadəsi, məqsədli kapitaldan gələn gəlirin bölüşdürülməsi barədə internet saytı vasitəsilə məlumatlandırılırlar.

Beləliklə, MKF-nin Himayədarlıq Şurasının səlahiyyətlərinə aşağıdakılar daxildir:

- idarəedici kompaniyanın seçimi;
- məqsədli kapitaldan gələn gəlirin məqsədyönlü istifadəsinin təyin olunması, həmçinin məqsədli kapitaldan gəlir götürənlərin, kapitalın formalaşdırılması müddətinin, əldə olunan gəlirin hesabına ödənişin həcmi, dövrilik və digər şərtlərin müəyyən edilməsi;
- məqsədli kapitalın istifadəsi haqqında müqavilənin şərtlərinə əməl olunmasına, kapital vəsaitlərinin məqsədli xərclənməsinə və onun gəlirlərinin sərmayələşdirilməsinə nəzarət;
- məqsədli kapitalın formalaşdırılması və istifadəsi ilə bağlı digər məsələlər.

MKF-nin Himayədarlıq Şurası lazım gəldikdə öz iclaslarını keçirməlidir. Beləliklə, MKF Ali məktəb üçün maliyyə sabitliyinin təminatının səmərəli aləti kimi çıxış edir. O, özəl-dövlət əməkdaşlığının xüsusi formasına əsaslanır. Bu zaman dövlət AM-in fəaliyyət xərclərini büdcədən maliyyələşdirir, stimullaşdırıcı siyasət yürütmək və bir sıra qanunverici aktlar qəbul etməklə əlverişli şərait yaradır. Özəl sektor isə təhsilə sərmayə qoyaraq ixtisaslaşmış mütəxəssislər qazanır, müəssisələri genişləndirir və bütövlükdə iqtisadiyyatı inkişaf etdirir. Üstünlük ondadır ki, bu mexanizmin qəbulu birdəfəlik ianələrdən fərqli olaraq (belə ki, birdəfəlik ianələr vaxtaşırı və qeyri-sabit şəkildə daxil olur) sabit və uzunmüddətli qeyri-büdcə gəlir mənbəyi əldə etməyə və müvafiq olaraq təhsil müəssisəsinin fəaliyyətinin uzunmüddətli planlaşdırılmasına imkan verir. Bu da öz növbəsində yuxarıda qeyd olunan məqsədlərə çatmağa şərait yaradır. Bundan əlavə vergi yükünün olmaması məqsədli kapitalın formalaşması kimi səmərəli iqtisadi mexanizmin istifadə olunmasına marağı artırır. Məqsədli kapitalın formalaşmasına pul vəsaitlərinin verilməsi vergi ödəmə obyekti sayılmır. Belə ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə görə, fiziki şəxs və ya xeyriyyə təşkilatı tərəfindən həyata keçirilən və maddi və ya digər yardıma ehtiyacı olan fiziki şəxslərə və ya bilavasitə bu cür yardım göstərən təşkilatlara, o cümlədən xeyriyyə təşkilatlarına, birbaşa bu cür təmənnasız yardım göstərməkdən, o cümlədən əvəzsiz pul köçürməkdən ibarət olan fəaliyyət, yaxud bu Məcəllədə digər hallar nəzərdə tutulmamışdırsa, ictimai mənafelər naminə həyata keçirilən elmi, təhsil və ya başqa fəaliyyət - xeyriyyəçilik fəaliyyəti sayılır. [2, 13. 2. 35.] Mədəniyyət, incəsənət, teatr, kino, radio, televiziya, musiqi, rəssamlıq, idman, mühəndislik, memarlıq, arxitektura və elm sahələri üzrə Azərbaycan Respublikasındakı fəaliyyətlə bağlı edilən ödənişlər Əlavə dəyər vergisinin (ƏDV) məqsədləri üçün qeyri-maddi aktivlər, pul vəsaiti və torpaq mal sayılmır. [2, 13.2.16.17-1]

Həmçinin məqsədli kapitalın formalaşması üçün alınan pul vəsaitləri və eyni zamanda həmin kapitalın istifadəsindən alınan gəlir digər daxilolmaların (ianə, xeyriyyə ödəmələri, qrantlar, büdcə daxilolmaları və s.) passiv sərmayələşməsindən fərqli olaraq məqsədli daxilolmalar kateqoriyasına aid olaraq gəlirə görə vergi ödənilən bazanın müəyyən edilməsi zamanı nəzərə alınmayan gəlirlərə daxil edilir.

Beləliklə, məqsədli kapitalın formalaşması, ondan alınan gəlirlərin istifadəsi və idarə olunması bir tərəfdən Ali məktəbdə keyfiyyətli maarifləndirmə fəaliyyətini həyata keçirməyə, digər tərəfdən israfçılığa yol vermə hallarını məhdudlaşdırmağa imkan verir.

Nəticə

AM-lərin çoxsaylı problemləri: təhsilin keyfiyyətinin artırılması; peşəkar pedaqoji heyətin olması; sərt rəqabət şərtlərinə uyğunlaşma; elm ilə istehsalın qarşılıqlı əlaqəsinin təmin edilməsi;

elmin inkişafında yeni texnika və texnologiyaların tətbiq edilməsi; müəssisənin fəaliyyətinə nəzarətin təmini və həmçinin maliyyə çatışmamazlığı ilə bağlı məsələlər və s. müəyyən ölçü götürülməsini tələb edir.

Maarifləndirici xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, biznes, cəmiyyət və təhsil müəssisəsi arasındakı qarşılıqlı əlaqələrin təmin olunması üçün Ali məktəblərin Himayədarlıq Şurasının yaradılması məqsədəuyğundur. Ali məktəbin nizamnaməsində Himayədarlıq Şurasının yaradılması, həmçinin müəssisənin maliyyə sabitliyinin təmin olunması məqsədilə - Məqsədli Kapital Fondunun formalaşdırılması nəzərdə tutula bilər.

Himayədarlıq Şurası AM-in fəaliyyətində bilavasitə iştirak edir, tələbələrin və dinləyicilərin hazırlanma keyfiyyətinə və kəmiyyətə nəzarət edir, beynəlxalq AM-lər də daxil olmaqla digər Ali təhsil müəssisələri ilə sıx əlaqələr yaradır, həmçinin büdcə və qeyri-büdcə vəsaitlərinin səmərəli və qənaətli istifadə olunmasına nəzarət edir.

Əlavə maliyyənin cəlb olunması məsələsi həm də Məqsədli Kapital Fondunun yaradılması və ona donor vəsaitlərinin cəlb olunması yolu ilə həyata keçirilə bilər. Məqsədli kapitalın formalaşması, ondan alınan gəlirlərin istifadəsi və idarə olunması ali məktəbin keyfiyyətli fəaliyyətini həyata keçirməyə və israfçılığın qarşısını almağa imkan verir.

ƏDƏBİYYAT

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. 19 iyun 2009-cu il.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. (Azərbaycan Respublikasının 11 iyul 2000-ci il tarixli 905-İQ saylı Qanunu ilə təsdiq edilmişdir).
3. Я.И.Кузьминов. Образование в России. Что мы можем сделать?// Вопросы образования. 2004. №1.

И.М.Гурбанова
СГУ

Пути привлечения дополнительных финансовых средств высшим учебным заведениям

Резюме

Одной из основных целей ВУЗа в процессе деятельности является необходимость постоянного улучшения качества образования и в перспективе достижение уровня мировых стандартов.

Для обеспечения улучшения качества предоставляемых образовательных услуг и более тесного взаимодействия между бизнесом, обществом и образовательным учреждением представляется возможным создание Попечительского совета ВУЗа, а также в целях финансовой стабильности, формирование фонда целевого капитала.

В целом вложения в человеческий капитал выгодны для всего общества, и чем качественнее будет система образования, тем больше будет отдача и бизнесу, и государству для роста конкурентоспособности в экономике.

Ключевые слова: финансы, капитал, ВУЗ, образования, качество, попечительство, управление.

Intizar Mirzali Gurbanova
SSU

Ways of the involving of the addition finance meanses to higher schools

Summary

One of main purposes of the higher school in its activities always to increase the quality of the education and to reach the level of world standards.

Improve of the quality of the educational services, for provide of the mutual connections between business, society and educational institution it is possible creation of the sponsor council of the higher schools and forming of the fund of purposefully capital for finance stability of the establishment.

Completely, capital investment to human resource is useful for all society. If quality of the educational system is high, its will be useful to the state and business to raising competitive in the economy.

Key words: finance, capital, higher school, education, quality, sponsor, management.

UOT 336.71

Yeganə Rəşid qızı KƏRİMOVA
Azərbaycan Dövlət İqtisad Universiteti

KOMMERSİYA BANKLARININ MALİYYƏ ƏMƏLİYYATLARININ NƏTİCƏLƏRİNİN PROQNOZLAŞDIRILMASI MƏSƏLƏSİNİN QOYULUŞU

Xülasə

Məqalədə Azərbaycan Respublikasının kommersiya bankları timsalında kredit təşkilatlarının gəlirliliyinin ekonometrik təhlili məsələləri nəzərdən keçirilmişdir. Burada iqtisadi-kibernetik sistemlərin funksional asılılıqlarının reqressiya təhlilinin nəzəri-metodoloji əsasları nəzərdən keçirilmiş, cüt və çox korrelyasiyanın reqressiya modellərinin qurulmasının riyazi əsasları və bu modellərin qiymətləndirilməsinin statistik əmsalları göstərilmişdir. Faktiki məlumatlar əsasında bankların mənfəətliliyinin onların gəlirliliyi və aktivlərdən asılılığının riyazi-statistik təhlili aparılmış və bu təhlil əsasında bankların gəlirliliyinin proqnozları hesablanmışdır.

Açar sözlər: iqtisadi-kibernetik sistem, kommersiya banklarının maliyyə əməliyyatları, ekonometrik modellər, avtokorrelyasiya, multikollinearlıq, reqressiya tənliyi, trend modelləri.

Giriş

Müasir dövrdə iqtisadi sistemlərin idarə edilməsi qarşısına qoyulan mühüm tələblərdən biri də qəbul edilən idarəetmə strategiyalarının mümkün strategiyalar içərisində ən yaxşıları olması, daha doğrusu, optimal strategiyalar olmasının təmin edilməsidir. Bu məqsədə nail olmaq üçün iqtisadi sistemlərin optimal idarə edilməsi problemi riyazi cəhətdən kifayət qədər adekvat şəkildə formalaşdırılmalı, daha dəqiq desək iqtisadi-riyazi model çərçivəsinə gətirilməlidir.

Bu tip idarəetmə məsələlərindən biri də maliyyə sisteminin mühüm komponentlərindən biri olan kommersiya banklarının gəlirliliyi və likvidliyi üzrə optimal idarəetmə strategiyalarının qurulması və onların maliyyə əməliyyatlarının nəticələrinin proqnozlaşdırılmasıdır.

Kredit təşkilatlarının maliyyə əməliyyatlarının optimallaşdırma məsələsinin qoyuluşu

Ölkə iqtisadiyyatının sürətlə inkişafı ilə yanaşı əhalinin rifah halının daha da yaxşılaşması, dövlət tərəfindən sosial öhdəliklərin tam yerinə yetirilməsi, sahibkarlıq subyektlərinin sayının artması, infrastrukturun təkmilləşdirilməsi, yeni iş yerlərinin yaradılması sayəsində işsizliyin minimuma endirilməsi və digər amillər onu deməyə əsas verir ki, dünyada baş verən maliyyə böhranına baxmayaraq, ölkəmiz davamlı inkişafını 2012-2014-cü illərdə də davam etdirmişdir.

Qlobal böhran şəraitində Azərbaycanın əldə etdiyi nailiyyətlər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən təsdiqlənmiş və BMT-nin İnsan İnkişafına dair növbəti hesabatında 169 ölkə arasında Azərbaycanın 67-ci yer tutması və "orta insan inkişafı ölkələri" qrupunu tərk edərək "yüksək insan inkişafı ölkələri" qrupuna daxil olması buna əyani sübutdur.

Azərbaycan Respublikasının bank sistemi kredit təşkilatlarının formalaşmasının ağırlıq mərkəzini təşkil edir. Çünki kredit təşkilatları ölkənin pul axınlarının paylanması ilə məşğul olan əsas strukturlardan biridir. Son illərdə ölkəmizdə kredit təşkilatlarının, o cümlədən bank sisteminin əsasını təşkil edən kommersiya banklarının əhaliyə və müəssisələrə göstərdikləri xidmətlərin sferası aktiv şəkildə inkişaf etdiyi üçün kredit təşkilatlarının fəaliyyəti getdikcə daha çox özəlliklərə malik olmağa başlamışdır. Son illərdə Azərbaycanda xırda və orta biznesin kreditləşməsi, ipoteka kreditlərinin verilməsi get-gedə sürətlənir. Bütün bunlar bank sisteminin və digər kredit təşkilatlarının fəaliyyətlərinin yaxşılaşdırılması və əhalinin rifah halının artması yolunda bünövrə və təminat rolunu oynayacaqdır. Odur ki, kommersiya banklarının fəaliyyətinin, eləcə də onların maliyyə əməliyyatlarının iqtisadi-riyazi modelləşdirilməsi əsasında optimal idarəetmə qərarlarının qəbul edilməsi yolu ilə onların fəaliyyətinin səmərəliliyinin artırılması məsələsi Azərbaycan iq-

tisadiyyatının bütün sahələri üçün həlledici əhəmiyyət kəsb edən problemlərdən biri kimi nəzərdən keçirilməlidir.

Azərbaycan Respublikasının bank sistemi öz təyinatına görə çoxsaylı birbaşa və əks əlaqələrə malik olan mürəkkəb, dinamik və stoxastik iqtisadi-kibernetik sistemdir. Bu sistemin mürəkkəbliyi həm onun ölçüləri ilə, həm də emercentlik qabiliyyətinə malik olması ilə əsaslandırılır. Bank sisteminin dinamik sistem olması isə onun çoxsaylı giriş və çıxış kanallarına malik olması ilə müəyyən edilir. Giriş kanalları vasitəsilə banklar öz vəsaitlərini formalaşdırır, çıxış kanalları vasitəsilə isə bu vəsaitləri yerləşdirir. Girişlərin çıxışlara çevrilməsi operatorları son nəticədə bankların maliyyə-kredit əməliyyatlarının, o cümlədən likvidliyin səmərəliliyini təmin etməlidir. Bank sisteminin stoxastikliyi isə bu sistemdə baş verən əməliyyatların determinik xarakter daşımaması, daha doğrusu, bankların giriş kanallarının vəziyyətini xarakterizə edən $x = \{x_1, x_2,..., x_n\}$ vektoruna görə onun çıxış kanallarının vəziyyətini xarakterizə edən $y = \{y_1, y_2,..., y_R\}$ vektorunu birqiymətli təyin etməyin qeyri-mümkünlüyü ilə əsaslandırılır.

Beləliklə, biz kommersiya banklarına (kredit təşkilatlarına) mürəkkəb iqtisadi-kibernetik sistemlər kimi yanaşacağıq. Bu tip sistemlərin fərqli xüsusiyyətlərindən biri onların optimal idarə edilməsi məsələsinin riyazi cəhətdən formalaşdırılmasının mümkünlüyüdür.

"Kredit təşkilatları" iqtisadi-kibernetik sistemin optimal idarə edilməsi məsələsinin qoyuluşunu açıqlamazdan əvvəl bir daha qeyd edək ki, müasir iqtisadiyyatın əsas vəzifəsi olan təsərrüfatın səmərəli aparılması, səmərəli davranış (economiring), ölkənin prioritetlərinin reallaşdırılması məqsədi ilə məhdud ehtiyatlardan düzgün istifadə ilə müəyyən edilir. Başqa sözlə desək, iqtisadi sistemin optimal idarə edilməsi bütün hallarda ehtiyatların optimal idarə edilməsinə gətirilir.

Sözün geniş mənasında optimal idarəetmə dedikdə idarəedici təsirlərin elə bir məcmusu başa düşülür ki, verilmiş məhdudiyyətlər daxilində bu məcmu təsirlər müəyyən kəmiyyət göstəricisinin ən əlverişli qiymətini müəyyən edir.

Sadə halda optimal idarəetmənin riyazi qoyuluşunu verək. Tutaq ki, hər hansı bir iqtisadi sistemin vəziyyəti n ölçülü faza koordinatları vektoru ilə xarakterizə edilir:

$$x = \{x_1, x_2,..., x_n\}$$

(Burada faza koordinatlarına iqtisadi sistemin malik olduğu müxtəlif təyinatlı məhdud ehtiyatlar kimi baxmaq olar). Fərz edək ki, iqtisadi sistemin faza koordinatlarının zamana görə dəyişməsi

$$\frac{dx_i}{dt} = f_i(x,u) \qquad (i = \overline{1,n}) \qquad (1)$$

birinci tərtib diferensial tənliklər sistemi ilə ifadə edilir. Burada $f_1(x, u)$ - x vəziyyətlər vektorunun və U idarəetmə vektorunun funksiyasıdır. U isə $U = (U_1, U_2,..., U_n)$ kimi müəyyən edilir.

İqtisadi sistemin x^0 ilkin vəziyyəti və $U(t)$ idarəetmə funksiyasının verilmiş qiymətlərində (1) tənliklər sistemi iqtisadi sistemin $x(t)$ faza trayektoriyasını müəyyən edir. Bu halda iqtisadi sistemin idarə edilməsi üzərinə qoyulan və hər şeydən əvvəl ehtiyatlarla əlaqədar olan məhdudiyyətlərin mahiyyəti onunla müəyyən edilir ki, hər bir zaman momentində $U(t)$ vektoru r ölçülü fəzanın alt çoxluğu olan U çoxluğuna aid olur. Verilmiş başlanğıc x^0 nöqtəsi və sonuncu x^1 nöqtəsində bütün mümkün $U(t)$ idarəetmələri nəzərdən keçirək. (Bu yanaşmada nəzərə alınır ki, bütün $t^0 \le t \le t_1$ -lər üçün $U(t) \in U$ elə idarəetmələrdir ki, ilkin $x(t_0)=x^0$ vəziyyətində və $U(t)$ idarəetməsində (1.1) sisteminə uyğun olan $x(t)$ trayektoriyası t^1 momentində x^1 nöqtəsində başa çatacaqdır, yəni $x(t_1)=x^1$. İqtisadi sistemin bütün mümkün idarəetmələrindən elə bir variant seçilir ki,

$$J = \int_{t_0}^{t_1} f_0' \left[x(t), u(t)\right] dt$$

funksionalı özünün minimum qiymətini alsın. Bu idarəetmə optimal idarəetmə, ona uyğun olan iqtisadi sistemin hərəkət trayektoriyası isə optimal trayektoriya adlanır. Yuxarıda nəzərdən keçir-

diyimiz optimal idarəetmə məsələsinin qoyuluşunda ehtiyatlarla xarakterizə edilən x^0 və x^1 nöqtələri qeyd edilmiş hesab edilir. Odur ki, ehtiyatların optimal idarə edilməsi məsələsinin bu qoyuluşunu qeyd edilmiş sonluqlara malik məsələ adlandırmaq olar. [2, s. 97]

Kommersiya banklarının fəaliyyətinin korrelyasiya təhlilinin nəzəri-metodiki əsasları

Kredit təşkilatlarının, o cümlədən kommersiya banklarının maliyyə əməliyyatlarına aid real statistik məlumatlar bazasının təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, bankların gəlirliliyi mürəkkəb-kibernetik sistem kimi baxdığımız iqtisadi qurumun müəyyən göstəricilərinin funksiyası ola bilər. Bu tip xarakteristikalar içərisində ən çox maraq doğuran xarakteristika bankların gəlirliliyinin və likvidliyinin riyazi gözləməsidir. Planlaşdırma üfüqünün müxtəlif dövrlərində gəlirliliyin riyazi gözləmələri arasındakı asılılıq ekonometrikanın vacib təhlil instrumentarilərindən biri olan korrelyasiya-reqressiya metodu ilə öyrənilə bilər.

Korrelyasiya-reqressiya təhlili metodları tədqiqatın gedişində "Kredit təşkilatları" iqtisadi-kibernetik sistemlər səviyyəsində elə məsələləri həll etməyə imkan verir ki, bu məsələləri başqa metodlarla, o cümlədən optimallaşdırma metodları ilə həll etmək mümkün olmur. Bu tip məsələlərə misal olaraq bir çox qarşılıqlı əlaqəli və eyni zamanda təsir göstərən faktorların "Kredit təşkilatları" sistemində gəlirliliyin və likvidliyin dəyişməsinə birgə və avtonom təsirlərin öyrənilməsini göstərmək olar.

"Kredit təşkilatları" iqtisadi-kibernetik sistemlər baxımından korrelyasiya-reqressiya metodlarının həll edə biləcəyi məsələləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- "Kredit təşkilatları" iqtisadi-kibernetik sistemin nəticə və faktor əlamətləri arasındakı əlaqə formasının müəyyən edilməsi;
- Sistemin parametrləri arasındakı əlaqənin sıxlığının qiymətləndirilməsi;
- Ayrı-ayrı faktor əlamətlərin sistemin vəziyyətinə təsirinin qiymətləndirilməsi;
- Dinamik sıraların ekstropolyasiyası yolu ilə sistemin gələcək vəziyyətinin proqnozlaşdırılması və proqnozun ehtibarlılıq intervallarının qiymətləndirilməsi;

"Kredit təşkilatları" iqtisadi-kibernetik sistemlər səviyyəsində korrelyasiya-reqressiya təhlilinin aparılmasını aşağıdakı mərhələlərdən ibarət çoxmərhələli proses kimi təsəvvür etmək olar:

- Sistemin elementlərinin vəziyyətini əks etdirən statistik məlumatların ilkin işlənməsi və faktor arqumentlərin seçilməsi;
- Əlamətlər arasındakı əlaqənin formasının seçilməsi;
- Öyrənilən prosesin çoxfaktorlu korrelyasiya modelinin qurulması və onun təhlili;
- Təhlilin nəticələrinin "Kredit təşkilatları" iqtisadi-kibernetik sistemin vəziyyətinin qiymətləndirilməsi və inkişafının proqnozlaşdırılması məqsədi ilə istifadə edilməsi.

Bütövlükdə iqtisadi sistemlərdə olduğu kimi "Kredit təşkilatları" iqtisadi-kibernetik sistemlərdə də əsasən nəticə və faktor göstəriciləri arasındakı asılılığın xətti təbiətini əsas götürən xətti korrelyasiya modelləri tətbiq edilir.

Qeyd edək ki, "Kredit təşkilatları" iqtisadi-kibernetik sistemlərin davranışı və inkişafının riyazi-statistik təhlilində mühüm mexanizm hesab edilən korrelyasiya modellərinin tərtibi nəticə əlamətinə təsir göstərə biləcək faktor əlamətlərin seçilməsindən başlayır. Bu seçim ehtimallı əlaqənin mövcudluğu haqda məntiqi təhlil və məntiqi müşahidələr əsasında aparılır. Təbii ki, bu halda əlaqənin forma və istiqamətini nəzərə almaq lazımdır. Məsələn, fərz etmək olar ki, kommersiya banklarının mənfəəti ilə bankın gəlirləri və aktivləri arasında əlaqə mövcuddur, çünki bankın xalis mənfəətinin həcmi bu parametrlərin bilavasitə təsiri ilə formalaşır. Sadə məntiqə görə, fərz edə bilərik ki, əlaqənin istiqaməti aktivlər və ümumi gəlirdən mənfəətə doğru gedir, daha doğrusu, bu ehtiyatların kəmiyyətləri mənfəətə təsir göstərir. Deməli, mənfəətə nəticə əlaməti kimi, bankların aktivləri və ümumi gəlirlərinə isə faktor kimi baxmalıyıq. Məntiqi mülahizələri davam etdirsək, onda gəlirlərin və aktivlərin ölçülərinin artması ilə bankın xalis mənfəətinin artacağını qəbul etməliyik. Deməli, öyrənilən iqtisadi-kibernetik sistemin nəticə və faktor əlamət-

ləri arasındakı əlaqənin formasının birinci yaxınlaşmasını xətti korrelyasiya modeli hesab etmək olar.

"Kredit təşkilatları" iqtisadi-kibernetik sistemin davranışı və inkişafının riyazi-statistik təhlili aparılan zaman tədqiqat prosesində avtokorrelyasiyanın və multikolleniarlığın təsiri aradan qaldırılmalıdır.

Avtokorrelyasiya iqtisadi-kibernetik sistemlərin davranışının və inkişafının korrelyasiya-reqressiya təhlili müxtəlif dövrlərin informasiyası əsasında aparılan zaman yarana bilər və özünü sistemin keçmiş və gələcək dövrlərindəki vəziyyətlərini xarakterizə edən məlumatlar arasındakı əlaqə formasında büruzə verir. Korrelyasiya-reqressiya təhlili metodu ilkin məlumatların statistik qeyri-asılılığına arxalandığı üçün avtokorrelyasiyanın mövcudluğu alınmış nəticələrin etibarlılığını şübhə altına qoyur. Odur ki, "Kredit təşkilatları" iqtisadi-kibernetik sistemə daxil olan parametrlərin dinamik sıralarında avtokorrelyasiyanın olmamasını təmin etmək lazımdır. Dinamik sıralarda avtokorrelyasiyanın mövcudluğunu Durbin-Uatson kriteriyası əsasında yoxlamaq olar. Avtokorrelyasiyanın aradan qaldırılması üçün isə ən səmərəli yol *t* zaman faktorunu müstəqil parametr kimi tədqiqata daxil etməkdir. [1, s.393]

Multikolleniarlıq isə iqtisadi-kibernetik sistemin bəzi parametrləri arasında xətti asılılığın mövcud olması hallarında meydana çıxır. Multikolleniarlıq özünü korrelyasiya modelinə daxil edilmiş faktorlar arasında güclü korrelyasiyanın mövcud olması şəklində büruzə verir. Bu vəziyyəti əmələ gətirən əsas səbəb tədqiq edilən prosesin eyni bir xüsusiyyətini əks etdirən, ya da eyni bir elementin tərkib hissələri olan bir neçə sərbəst dəyişənin mövcud olmasıdır. Multikolleniarlığı aradan qaldırmaq üçün öz aralarında korrelyasiya olunan faktorlardan birini modeldən kənarlaşdırmaq, ya da süni ortoqonallıq yaratmaq lazımdır. Qeyd edək ki, multikolleniarlığı iqtisadi-kibernetik sistem haqqında ilkin informasiyanı genişləndirmək yolu ilə də aradan qaldırmaq olar. Reqressiya tənliklərinin qurulması iqtisadi-kibernetik sistemlərin korrelyasiya-reqressiya təhlilinin mühüm mərhələlərindən biridir.

Qeyd edək ki, aşağıdakı üstünlüklərinə görə ən kiçik kvadratlar metodu korrelyasiya modellərinin ən səmərəli reallaşdırma mexanizmlərindən biridir:

• Ən kiçik kvadratlar metodu işlənilən müşahidələrin paylanma qanununun məlum olmasını tələb etmir;

• Metod kompüter reallaşdırılması üçün əlverişli mexanizmə malikdir.

Ən kiçik kvadratlar metodu ilə təyin edilən reqressiya modelinin əsas parametrləri olaraq aşağıdakıları götürəcəyik:

• Sistemin hər bir faktor əlamətinin variasiyasının nəticə əlamətinin variasiyasına təsirini qiymətləndirən xüsusi determinasiya əmsalları;

• Modelə daxil edilmiş bütün faktor əlamətlərin nəticə əlamətinin variasiyasına birgə təsirinin xüsusi çəkisini müəyyən edən çoxdeterminasiya əmsalları;

• Vahid miqyasda ayrı-ayrı faktor əlamətlərin nəticə əlamətinə təsirini faizlə müəyyən edən elastiklik əmsalları və Beta əmsallar.

Kommersiya banklarının mənfəətliliyinin proqnozlaşdırılması

Azərbaycan Respublikasının 2 kommersiya bankının - Beynəlxalq Bankın və Bank Respublikanın rəsmi saytlarında yerləşdirilmiş informasiya əsasında bu banklarda gəlirlilik və mənfəətliliyin sistemli təhlili aparılmış və korrelyasiya-reqressiya təhlili bazasında mənfəətin, aktivlərin və gəlirliliyin həm zaman faktorundan, həm də bankların gəlirliliyi və aktivlərindən asılılığının əlaqə tənlikləri müəyyən edilmişdir.

Məlum olmuşdur ki, bu əlaqə tənlikləri

Beynəlxalq Bank üzrə: $y = 11218,42 - 5,602\ x_1 - 0,0004\ x_2 + 0,297\ x_3$

Bank Respublika üzrə: $y = 984,719 - 0,491\ x_1 + 0,028\ x_2 - 0,017\ x_3$

şəklindədir.

Korrelyasiya təhlilinin mühüm məqamlarından biri tədqiqata cəlb edilmiş göstəricilər arasındakı əlaqənin sıxlığının qiymətləndirilməsidir. Bu qiymətləndirməni aparmaq üçün istifadə edilən statistik göstəricilərə misal olaraq korrelyasiya əmsalını, determinasiya əmsalını, Styudent əmsalını, elastiklik əmsalını və s. göstərmək olar.

Korrelyasiya əmsalı iqtisadi sistemin y və x göstəriciləri arasındakı əlaqənin sıxlığını və ya gücünü ifadə edir. [3, s.146] Əgər r > 0 olarsa, onda fərz edilir ki, korrelyasiya asılılığı müsbət xarakter daşıyır və x sərbəst dəyişənin artması ilə y asılı dəyişən də artır. r < 0 olduqda isə korrelyasiya asılılığı mənfi xarakterdə olur və y-in dəyişməsi meyli x-in dəyişməsi meylinin əksi olur. Determinasiya əmsalı isə reqressiyanın dəqiqliyinin qiymətləndirilməsi, daha doğrusu, tapılmış reqressiya tənliyinin mövcud emprik məlumatlara uyğunluğunun qiymətləndirilməsi üçün istifadə edilir. [3, s. 147] Başqa sözlə desək, determinasiya əmsalı vasitəsi ilə y asılı dəyişənin qiymətinin formalaşmasında x sərbəst dəyişənin iştirak payı kəmiyyətcə qiymətləndirilir.

Tədqiqatın gedişində korrelyasiya əmsallarının kifayət qədər yüksək - Beynəlxalq Bank üzrə $R_{y/x_1,x_2,x_3} = 0,7956$, Bank Respublika üzrə isə $R_{y/x_1,x_2,x_3} = 0,9370$ olması alınmış reqressiya tənliklərinin real iqtisadi şəraitə kifayət qədər adekvat olmalarını və proqnozlaşdırma üçün yararlı olduğunu əks etdirir.

Bu banklar üzrə determinasiya əmsalının qiymətinin uyğun olaraq $R^2_{y/x_1,x_2,x_3} = 0,6330$-ə və $R^2_{y/x_1,x_2,x_3} = 0,8780$ bərabər olması isə belə bir qənaətə gəlməyə imkan verir ki, bu bankların mənfəətlərində baş verən dəyişiklikləri 63,3% və 87,8% zaman faktorunun, aktivlərin və gəlirlərin birgə təsiri ilə əlaqələndirmək olar. Bu halda Beynəlxalq Bank üzrə 1- $R^2 = 0,37$ və Bank Respublika üzrə 1- $R^2 = 0,12$ olduğundan modeldə nəzərdə tutulmamış faktorların mənfəətə təsirini kifayət qədər əhəmiyyətsiz hesab etmək olar.

Fərdi korrelyasiya əmsallarının qiymətləri göstərir ki, digər faktorların qiymətləri dəyişməz qaldıqda mənfəətin öyrənilən faktorların hər biri ilə əlaqənin sıxlığı kifayət qədər yüksəkdir.

Hər iki bank üzrə alınmış reqressiya tənliklərinin fərdi korrelyasiya əmsalları qiymətlərinin 1-ə kifayət qədər yaxın olması multikolleniarlığın mövcud olmasına işarə ola bilər. Lakin çoxkorrelyasiya əmsallarının fərdi korrelyasiya əmsallarına kifayət qədər yaxınlığı aparılan riyazi-statistik təhlilə multikolleniarlığın təsir etmədiyini göstərir.

Tədqiqatlara cəlb edilmiş hər iki bank üzrə $R_{y/x_1,x_2,x_3}$ çoxkorrelyasiya əmsalının əhəmiyyətliliyini qiymətləndirək. Bu məqsədlə əmsalın etibarlılıq intervallarını hesablayaq:

$$R - t\sigma_R \le R \le R + t\sigma_R$$

burada σ_R - R-in orta kvadratik sərfi;

t - Styudent əmsalıdır (çox vaxt t=2 qəbul edilir);

σ_R -i hesablayaq:

• Beynəlxalq Bank üzrə:

$$\sigma_R = \frac{1-R^2}{n-p-1} = \frac{1-0,7959}{11-3-1} \approx \frac{0,2041}{7} \approx 0,029$$

onda, $0,7959 - 2\cdot 0,029 \le R \le 0,7959 + 2\cdot 0,029$

$$0,7379 \le R \le 0,8535$$

• Bank Respublika üzrə:

$$\sigma_R = \frac{1-R^2}{n-p-1} = \frac{1-0,937}{9-3-1} \approx \frac{0,063}{5} \approx 0,013$$

onda, $0,937 - 2\cdot 0,013 \le R \le 0,937 + 2\cdot 0,013$

$$0,911 \le R \le 0,963$$

Göründüyü kimi, hər iki bank üzrə R çoxkorrelyasiya əmsalının etibarlılıq intervalına 0 daxil

deyil, deməli, bu əmsallar əhəmiyyətlidir. Bu da öz növbəsində tədqiqatlara cəlb edilmiş “Kredit təşkilatları” iqtisadi-kibernetik sistemin davranışı və inkişafının təhlili üçün seçilmiş ekonometrik modelin etibarlı olmasına bir daha işarədir.

Nəticə

Məqalədə aşağıdakı nəticələr əldə edilmişdir:

1. Kommersiya bankları önəmli iqtisadi-kibernetik sistemlər olmaqla optimal idarəetmə obyektləri kimi çıxış edirlər. Bu sistemlərdə maliyyə əməliyyatlarının optimal idarə edilməsi strukturları yalnız riyazi modelləşdirmə metodu əsasında qəbul edilə bilər.
2. İşdə kommersiya banklarının fəaliyyətinin səmərəli göstəricilərinin proqnozlaşdırılması üçün ekonometrik modelləşdirmə metodu tətbiq edilmiş və çoxfaktorlu əlaqə tənlikləri qurulmuşdur.
3. Müəyyən edilmişdir ki, tədqiqata cəlb edilmiş kommersiya bankları üzrə mənfəətin proqnozlaşdırılması modelləri real şəraitə kifayət qədər adekvatdır və alınmış proqnozlar kifayət qədər etibarlı olacaqdır.

ƏDƏBİYYAT

1. Hacızalov Y.İ., Kərimova Y.R., Hüseynova L.N. Ekonometrika. Bakı, 2012.
2. Hacızalov Y.İ., Zeynalov M.Y. İqtisadi kibernetika. Bakı, 2012.
3. Бережная Е.В., Бережной В.И. Математические методы моделирования экономических систем. Москва, 2006.

Егяна Рашид гызы Керимова
Азербайджанский Государственный
Экономический Университет

Постановка задачи прогнозирования результатов финансовых операций коммерческих банков

Резюме

В статье рассмотрены вопросы эконометрического анализа прибыльности кредитных организаций на примере коммерческих банков Азербайджанской Республики. Рассмотрены теоретико-методологические вопросы регрессионного анализа функциональных зависимостей в экономико-кибернетических системах, приведены математические основы построения регрессионных моделей парной и множественной регрессии и статистические коэффициенты оценки этих моделей. На основе фактических данных проведен математико-статистический анализ зависимостей прибыльности банков от доходности и активов банков и выбраны уравнения регрессии, которые в дальнейшем использованы для прогнозирования доходности банков.

Ключевые слова: экономико-кибернетическая система, финансовые операции коммерческих банков, эконометрические модели, автокорреляция, мультиколлинеарность, уравнение регрессии, трендовые модели.

Yegana Rashid Kerimova
Azerbaijan State Economic University

Problem definition of forecasting of results of financial operations of commercial banks

Summary

In article are considered the questions of econometric analysis of profitableness of the credit organizations on an example of commercial banks of the Azerbaijan Republic. Here are considered the theoretic-methodological questions of reqression analysis of functional dependences in economic-cybernetic systems, are resulted mathematical bases of construction reqressions models of pair and plural regress and statistical factors of an estimation of these models. In article is carried on the basis of the fact sheet the mathematic-statistical analysis of dependences of profitableness of banks from profitableness and are chosen actives of banks out and the equations of regress which are used further for forecasting of profitableness of banks.

Key words: economic-cybernetic system; financial operations of commercial banks; economic-mathematical model; econometric models; autocorrelation; a multicollinearity; trend models; the regress equation.

UOT 336.71

İsmayıl Mikayıl oğlu HÜSEYNOV
Azərbaycan Dövlət İqtisad Universitetinin
"Bank işi" kafedrasının müəllimi

KOMMERSİYA BANKLARINDA UÇOT SİYASƏTİ, ANALİTİK VƏ SİNTETİK UÇOTUN MAHİYYƏTİ

Xülasə

Bank sisteminin fəaliyyəti qəbul olunmuş "Mərkəzi Bank haqqında", "Bank və bank fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları və Mərkəzi Bankın bank uçotu, bank uçotunun siyasəti, uçot siyasətinin formalaşdırılması, tənzimlənməsi və idarə olunması, Mərkəzi Bankın və Kredit Bankların bank uçotunun aparılması qaydası, analitik, sintetik uçotların aparılması, analitik və sintetik uçot məlumatlarının yoxlanılma qaydası, hesabların aftomatlaşdırılması, mühasibat uçotunun aparılmasının əsasları, Banklarda mühasibat uçotunun aparılması işinin təşkili və mühasibat uçotunun ümumi tələblər, bank sənədləri və ilkin uçot sənədlərinin rəsmiləşdirilməsi, uçot sənədlərinin saxlanmasının təmin edilməsi, maliyyə hesabatları formalarının müəyyənləşdirilməsi, maliyyə hesabatlarının tərkibi, mühasibat balansı, mühasibat balansında təqdim edilməli olan məlumatlar, mühasibat hesabının aktiv, passiv (öhdəliklər), kapital hissələrə bölünməsi və onun uçotu, mənfəət və zərər haqqında hesabat və maliyyə hesabatlarında uçot siyasətinin təqdim olunması barədə məlumat verilmişdir.

Açar sözlər: bank uçotu, onun siyasəti, analitik, sintetik uçot və mühasibat uçotunun aparılma qaydası.

***

Banklarda mühasibat uçotu işinin təşkili

Mühasibat uçotu sistemi – vəsaitlərin və təsərrüfat əməliyyatlarının dinamikasının pul formasında, sənədlərə əsaslanan fasiləsiz və bir-biri ilə əlaqəli əks etdirilməsidir. Dövlət idarəetmə orqanları tərəfindən qanuniləşdirilmiş statistik məlumat massivlərinin formalaşdırılması naminə vahid qayda və formalarda həyata keçirilir. Mühasibat uçotunun məlumatları əsasında mühasibat hesabatı – bankın hesabat dövrü (ay, rüb, il) üzrə vəsaitlərinin və maliyyə-təsərrüfat fəaliyyətinin vəsaitlərinin vəziyyətini xarakterizə edən göstəricilər sistemi tərtib olunur. Mühasibat uçotunun əsas məqsədi aşağıdakılardır:

- kredit təşkilatının fəaliyyəti və onun əmlak vəziyyəti haqqında mühasibat hesabatının daxili – rəhbərlər, təsisçilər, təşkilatın iştirakçıları, həmçinin kənar istehlakçıları – investorlar, kreditorlar və mühasibat hesabatının digər istehlakçıları üçün lazımi müfəssəl, səhih və dolğun informasiyanın formalaşdırılması;
- bütün bank əməliyyatlarının, tələb və öhdəliklərinin mövcudluğu və hərəkətinin, kredit təşkilatı tərəfindən maddi və maliyyə ehtiyatlarının istifadəsinin müfəssəl, tam və mühasibat uçotunun aparılması kredit təşkilatının maliyyə sabitliyinin təmin olunması, onun fəaliyyətinin mənfi nəticələrinin qarşısının alınması üçün təsərrüfatdaxili ehtiyatların üzə çıxarılması;
- idarəetmə qərarlarının qəbul edilməsi üçün mühasibat uçotunun istifadə edilməsi.

Mühasibat uçotu sistemi dünya praktikasında qəbul olunmuş aşağıdakı prinsiplərə əsaslanır: tam sənədləşdirmə; inventarlaşdırma; informasiyanın hesablarda ümumiləşdirilməsi; iki hesablı qeydlər; balans və hesabatın tərtib edilməsi.

Bank, mühasibat uçotunun təşkilini həyata keçirərkən:

- uçot siyasətini;
- mühasib işinin təşkilati formasını (konkret təsərrüfat şərtləri əsasında);
- Azərbaycanda qüvvədə olan forma və metodlara əsaslanaraq, ümumi metodoloji prinsiplərə

riayət etməklə mühasibat uçotunun forma və metodlarını, uçot məlumatının işlənməsi texnologiyasını;

- istehsaldaxili (idarəetmə) uçot, hesabat və nəzarət sistemini müstəqil surətdə müəyyən edə bilər.

Bank öz filiallarını, nümayəndəliklərini, şöbələrini ayrıca balansa ayıra bilər. Bankın uçot siyasəti dedikdə, onun seçdiyi mühasibat uçotunun aparılması üsullarının cəmi – ilkin müşahidə, dəyər əsasında ölçmə, təsərrüfat fəaliyyəti faktlarının cari qruplaşdırılması və yekun ümumiləşdirilməsi başa düşülür. Mühasibat uçotunun aparılması üsullarına təsərrüfat həyatının faktlarının qruplaşdırılması və qiymətləndirilməsi, aktivlərin dəyərinin ödənilməsi, sənəd dövriyyəsinin təşkili üsulları, mühasibat uçotu hesablarının istifadə üsulları, uçot registrləri sistemi, informasiyanın işlənməsi və digər üsul və metodlar aid edilir.

Uçot siyasətinin tərkibində aşağıdakılar təsdiq edilməlidir:

- kredit təşkilatında, onun filiallarında və tabe təşkilatlarında mühasibat uçotu hesablarının Mərkəzi Bankın təsdiq etdiyi hesablar planına əsaslanan iş planı;
- əməliyyatların rəsmiləşdirilməsi üçün istifadə edilən ilkin uçot sənədlərinin formaları, o cümlədən barəsində Azərbaycan Dövlət Statistika Komitəsinin albomlarında ilkin uçot sənədlərinin nümunə formaları nəzərdə tutulmayan daxili mühasibat hesabatı üçün sənədlərin formaları;
- öz filialları (struktur bölmələri) ilə hesablaşma qaydası;
- Mərkəzi Bankın qanunvericiliyinə və normativ aktlarına zidd olmayan ayrı-ayrı uçot əməliyyatlarının aparılması qaydası;
- inventarlaşdırmanın aparılması qaydası və əmlak növlərinin və öhdəliklərin qiymətləndirilməsi metodları;
- sənəd dövriyyəsi qaydaları və uçot informasiyasının işlənməsi texnologiyası;
- bank daxilində aparılan əməliyyatlara nəzarət qaydası;
- analitik və sintetik uçot sənədlərinin çapa verilməsi qaydası və dövriliyi. Bu zaman gündəlik olaraq, balans mühasibat jurnalı, üzərində əməliyyatlar aparılmış (əməliyyat aparılmış) şəxsi hesablar, həmçinin müştəri hesablarından çıxarışlar (şəxsi hesablardan 2-ci nüsxələr);
- mühasibat uçotunun aparılması üçün digər lazımi qərarlar."

Uçot siyasəti aşağıdakı tələblərə cavab verməlidir:

1) tamlıq, yəni mühasibat uçotunda təsərrüfat fəaliyyətinin bütün faktlarının əks olunmasının tamlığını təmin etməlidir;

2) vaxtlı-vaxtında olma, yəni təsərrüfat həyatının faktları uçotda vaxtlı-vaxtında əks edilməlidir;

3) ehtiyatlılıq, yəni itkilərin (xərclərin) və passivlərin uçotuna daha yüksək hazırlığı təmin etməlidir, nəinki mümkün gəlirlərin və aktivlərin uçotuna (gizli ehtiyatların yaradılmasına yol vermədən);

4) məzmunun forma qarşısında üstünlüyü, yəni təkcə hüquqi formasına deyil, həm də təsərrüfat fəaliyyəti faktlarının iqtisadi mahiyyətinə və təsərrüfatçılıq şərtlərinə əsaslanaraq, həmin faktların mühasibat uçotunda əks olunmasını təmin etməlidir;

5) qeyri-ziddiyyətlilik – analitik uçot məlumatlarının hər bir ayın birinci gününə sintetik hesabatın hesabları üzrə dövriyyə və qalıqları ilə, həmçinin mühasibat hesabatı göstəricilərinin sintetik və analitik uçot məlumatları ilə eyniliyini təmin etmək;

6) səmərəlilik, yəni təsərrüfatçılıq şəraitinə və bankın böyüklüyünə əsaslanaraq, mühasibat uçotunun səmərəli və qənaətli aparılmasını təmin etmək.

Aparılmış təsərrüfat əməliyyatları haqqında qeydlər mühasibat uçotunun registrlərində, qəti olaraq sənədlər əsasında aparılır. Mühasibat uçotunda ilkin sənədlərin yaradılması, qəbul edilməsi və əks edilməsi qaydası Sənədlər və sənəd dövriyyəsi haqqında Əsasnamə ilə tənzimlənir. İlkin sənədlər təsərrüfat əməliyyatının yerinə yetirilməsi faktını qeydə alır. Onlar səhih məlumatlardan ibarət olmalı və vaxtında, əməliyyat yerinə yetirilərkən tərtib edilməlidir.

Bankın Uçot siyasəti. Bankda mühasibat uçotunun formalaşdırılması və açıqlanmasının əsaslarını müəyyən edir. Uçot siyasəti dedikdə mühasibat uçotunun təşkili və aparılması – təsərrüfat fəaliyyəti faktlarının ilkin müşahidəsi, dəyərinin ölçülməsi, cari qruplaşdırılması və yekun ümumiləşdirilməsi, habelə uçotun struktur bölmələri üzrə təşkili istiqamətində Bankın tətbiq etdiyi üsulların məcmusu başa düşülür.

Mühasibat uçotunun aparılması üsullarına təsərrüfat fəaliyyəti faktlarının qruplaşdırılması və dəyərləndirilməsi, aktivlərin dəyərinin ödənilməsi, sənəd dövriyyəsinin təşkili, inventarizasiya, mühasibat uçotu hesablarının, mühasibat uçotu registrlərinin, informasiyanın emalı sisteminin tətbiqi və digər müvafiq üsullar və metodlar aiddir.

Uçot siyasətinin formalaşdırılması və idarə olunması. Uçot siyasəti Bankın Müşahidə Şurası tərəfindən təsdiq edilir. Bankda uçot siyasətinə uyğun olaraq mühasibat uçotunun təşkili və aparılmasına, qanunvericiliyə riayət olunmasına bank rəhbərliyi məsuliyyət daşıyır. Mühasibat uçotunun aparılması və tənzimlənməsi məsələlərinə Bankın Baş mühasibi (Baş maliyyə inzibatçısı) rəhbərlik edir və o, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun fəaliyyət göstərir. Bankda uçot siyasətinə uyğun mühasibat xidmətinin işi Maliyyə menecmenti departamentinin rəhbərliyi ilə filiallarda (struktur bölmələrdə) müvafiq mühasibat bölmələrinin (mühasibat, nəzarət və s.) fəaliyyətinin təşkili, habelə məsul şəxslərin müəyyənləşdirilməsi prinsipi üzrə qurulur.

Uçot siyasətinin tənzimləmə istiqamətləri. Bankın uçot siyasəti mühasibat uçotunun təşkili və aparılmasında Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən müəyyən olunmuş prinsipləri – hesablama metodu, fasiləsizlik, şəffaflıq, əhəmiyyətlilik, etibarlılıq və müqayisəlilik prinsiplərini əsas tutur.

Uçot siyasəti aşağıdakı istiqamətlərin tənzimlənməsini şərtləndirir:

- uçotun və hesabatların vaxtında və tam olması tələblərinə müvafiq olaraq mühasibat uçotunun aparılması üçün zəruri olan sintetik və analitik hesablardan ibarət mühasibat uçotu hesablarının işçi planı;
- təsərrüfat fəaliyyətinin ilkin uçot sənədlərinin tipik forması nəzərdə tutulmayan faktlarını sənədləşdirmək üçün tətbiq edilən ilkin uçot sənədi formaları, eləcə də daxili mühasibat uçotu üçün sənəd formaları;
- bankın aktiv və öhdəliklərinin inventarizasiyasının keçirilməsi qaydası;
- aktiv və öhdəliklərin dəyərləndirilmə metodlarının tətbiqi;
- təsərrüfat əməliyyatlarına nəzarət qaydası;
- bankın mühasibat uçotu üçün zəruri olan digər qaydalar.

Uçot siyasətini formalaşdırarkən güman edilir ki:

- bank öz fəaliyyətini yaxın gələcəkdə davam etdirəcək, onun ləğv edilmək və fəaliyyətini həddən ziyadə ixtisar etmək niyyəti və zərurəti yoxdur və deməli, öhdəliklər müəyyən olunmuş qaydada ödəniləcəkdir;
- bankın uçot siyasəti bir hesabat ilindən digərinə fasiləsiz olaraq tətbiq olunur;
- bankın təsərrüfat fəaliyyəti faktları, bu faktlarla əlaqədar olaraq pul vəsaitlərinin faktiki daxilolma və ya ödənilmə vaxtından asılı olmayaraq, onların baş verdiyi hesabat dövrünə aiddir.

Bankın uçot siyasəti aşağıdakıları təmin edir:

- mühasibat uçotunda bütün təsərrüfat fəaliyyəti amillərinin tam əks etdirilməsini;
- təsərrüfat fəaliyyəti faktlarının mühasibat uçotunda və mühasibat hesabatında vaxtlı-vaxtında əks etdirilməsi;
- mühasibat uçotunda gizli ehtiyatların yaradılmasına yol vermədən mümkün gəlir və aktivlərdən çox, xərc və öhdəliklərin etiraf edilməsinə hazır olması;
- təsərrüfat fəaliyyəti amillərinin onların hüquqi formasından çox, təsərrüfat fəaliyyətinin aparılması faktları və şəraitinin məzmunundan çıxış etməklə mühasibat uçotunda əks olunması;
- analitik uçot məlumatlarının sintetik uçot üzrə dövriyyə və qalıqlarla eyniliyi;

- mühasibat uçotunun etibarlı şəkildə aparılması;
- mühasibat uçotu sahəsində qanunvericiliklə müəyyən olunmuş digər tələblərin icrası.

Uçot siyasətinin açıqlanması. Bank uçot siyasətinə uyğun olaraq maliyyə-təsərrüfat fəaliyyətində tətbiq ediləcək mühasibat uçotunun əsaslı üsullarını açıqlayır. Mühasibat uçotunun aparılmasının əsaslı üsulları o üsullar hesab olunur ki, onların tətbiqi nəticəsində Bankın fəaliyyətinin maliyyə vəziyyəti, pul vəsaitlərinin hərəkəti və maliyyə nəticələrini düzgün qiymətləndirmək mümkün olur. Bankın uçot siyasətinə uyğun olaraq qəbul etdiyi və açıqladığı mühasibat uçotunun aparılması üsullarına əsas vəsaitlərin və qeyri-maddi aktivlərin, kassa əməliyyatlarının, köçürmə əməliyyatlarının uçotu, qiymətlilərin və arxiv sənədlərinin saxlanılması və Uçot siyasətinin əhatə etdiyi digər istiqamətləri tənzimləyən üsullar aiddir.

Uçot siyasəti - bank tərəfindən maliyyə hesabatlarının hazırlanıb təqdim edilməsi üçün qəbul olunmuş konkret prinsiplər, əsaslar, şərtlər, qaydalar və təcrübədir.

Bankın uçot siyasəti maliyyə hesabatlarına tətbiq edilən bütün uçot Qaydalarına uyğun olmalı və aşağıdakı tələblərə cavab verməlidir:

a) qərar qəbul edilməsində istifadəçilərin ehtiyacları üçün münasib olmalıdır;

b) etibarlı olmalıdır, belə ki, bu siyasət.

- bankın maliyyə vəziyyətini və nəticələrini dəqiq şəkildə təqdim edir;
- hadisə və əməliyyatların yalnız hüquqi formasını yox, həmçinin iqtisadi məzmununu əks etdirir;
- neytraldır;
- hərtərəflidir;
- istənilən mənada tamdır.

Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatlarında mühasibat uçotunun aparılması Qaydaları Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatlarında mühasibat uçotunun təşkili və aparılması qaydalarını müəyyən edir.

Banklarda mühasibat uçotunun əsas vəzifələri aşağıdakılardır:

1. bankın fəaliyyəti, aktivləri, öhdəlikləri və kapitalın vəziyyəti haqqında maliyyə hesabatlarının daxili istifadəçilərinə - rəhbərliyə, təsisçilərə, bankın iştirakçılarına (payçılarına, səhmdarlarına), habelə xarici istifadəçilərə - investorlara, kreditorlara, nəzarət və dövlət orqanlarına, maliyyə hesabatlarının digər istifadəçilərinə dolğun, tam, düzgün və təfsilatı ilə məlumatların təqdim olunması;

2. aparılan bütün bank əməliyyatları haqqında, tələb və öhdəliklərin mövcudluğu və bank tərəfindən istifadə olunan maddi və maliyyə resursları haqqında ətraflı, tam və düzgün uçotun aparılması;

3. bankın aktivlərinin mövcudluğu və hərəkəti, nağd pul və digər qiymətlilərin saxlanması, əmək resurslarının, xüsusi və cəlb olunmuş vəsaitlərin səmərəli istifadəsi, habelə bank tərəfindən aparılan digər əməliyyatlar üzrə nəzarətin təmin olunması.

Banklarda mühasibat uçotu MHBS-yə əsasən müəyyən olunmuş prinsiplərə - hesablama metodu, fasiləsizlik, şəffaflıq (aydınlıq), əhəmiyyətlilik, etibarlılıq və müqayisəlilik prinsiplərinə uyğun həyata keçirilir.

Bank bütün əməliyyatlarının, aktivlərinin və öhdəliklərinin mütəmadi olaraq inventarizasiyasını aparmalı və nəticələri tam şəkildə mühasibat uçotu hesablarında əks etdirməlidir. Bank tərəfindən aparılmış əməliyyatlar aid olduğu hesabat dövründə tanınmalı və bankın gündəlik balansında əks olunmalıdır. Hesabat dövrünün əvvəlinə olan balans və balansdankənar hesabların qalıqları əvvəlki dövrün sonuna olan qalıq məbləğlərinə uyğun olmalıdır.

Mühasibat uçotunun aparılmasında bank aşağıdakıları təmin etməlidir:

1. bankın və müştərilərin pullarının və maddi qiymətlilərinin qorunmasını;

2. hesabat dövrü ərzində həyata keçirilən əməliyyatların, aktiv və öhdəliklərin qiymətləndiril-

məsinin əks olunmasını təmin edən uçot siyasətinin dəyişilməz olaraq qalmasını;

3. hesabat dövrü ərzində bankın bütün əməliyyatlarının, habelə aktivlərin və öhdəliklərin inventarizasiya nəticələri də daxil olmaqla uçotda tam şəkildə əks olunmasını;

4. hesablama metoduna uyğun olaraq gəlir və xərclərin aid olduğu hesabat dövrünə aid edilməsini;

5. kapital qoyuluşları üzrə uçotun və xərclərin uçotunun bir-birindən fərqləndirilməsini.

Bankın mühasibat uçotunun təşkili və aparılmasına, qanunvericiliyə riayət olunmasına bank rəhbərliyi məsuliyyət daşıyır. Bank rəhbərliyi mühasibat uçotunun düzgün aparılması üçün zəruri şərait yaratmalı, habelə uçot sənədlərinin və məlumatların rəsmiləşdirilməsi və təqdim edilməsi qaydası üzrə bankın uçot siyasətinin tələblərinin uçota aidiyyəti olan bütün bölmələr, xidmətlər və işçilər tərəfindən yerinə yetirilməsini təmin etməlidir.

Banklarda mühasibat uçotunun aparılmasına bankın baş mühasibi başçılıq edir və o, Azərbaycan Respublikası qanunvericiliyinə uyğun fəaliyyət göstərir. Bankın baş mühasibi vəzifəsinə “Banklar haqqında” Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuş tələblərə cavab verən şəxs təyin edilir.

Bankın baş mühasibi qüvvədə olan qanunvericilik aktlarını, Mərkəzi Bankın normativ xarakterli sənədlərini, bankın daxili qaydalarını öz işində rəhbər tutur və MHBS-yə uyğun olaraq müəyyən olunmuş mühasibat uçotunun ümumi metodoloji prinsiplərə əməl olunmasına məsuliyyət daşıyır.

Baş mühasib aşağıdakıları təmin etməlidir:

1. bankın həyata keçirdiyi bütün əməliyyatlara, o cümlədən bankın özünün fəaliyyətinə aid əməliyyatlara nəzarəti və onların maliyyə hesabatlarında və Baş kitabda müvafiq uçot registrlərində əks etdirilməsini;

2. şəxsi hesablarda olunan düzəlişlərə nəzarət edilməsini;

3. mədaxil və məxaric hesabları üzrə əməliyyatların aparılmasına nəzarət edilməsini;

4. bankın rəhbərliyinə mühasibat uçotu məsələlərinə dair operativ məlumatın verilməsini;

5. müəyyən olunmuş müddətlərdə maliyyə hesabatlarının tərtib edilməsini;

6. bankın maliyyə-təsərrüfat fəaliyyətinin iqtisadi təhlilinin həyata keçirilməsini (digər bölmələr və xidmətlərlə birlikdə).

Baş mühasib gündəlik olaraq aşağıdakıları yoxlamalıdır:

1. kassa əməliyyatlarının yekununu;

2. gündəlik balansı və dövriyyə məlumatlarını;

3. bank sənədlərinin, şəxsi hesabların,yoxlama cədvəllərinin, habelə hesabatların düzgün formalaşdırılmasını və saxlanmasını.

Baş mühasib bank rəhbərliyi ilə birlikdə mal və qiymətlilərin, pulların mədaxil və məxarici üçün əsas olan sənədləri, habelə hesablaşma sənədlərini imzalayır. Göstərilən sənədlər baş mühasibin imzası olmadıqda etibarsız sayılır və icraya qəbul edilmir. Bank rəhbərliyi ayrı-ayrı uçot sahələri üzrə sənədləri imzalamaq hüququnu yazılı sərəncamla digər müvəkkil şəxslərə verə bilər.

Təşkilatçılıq və nəzarət funksiyalarını icra edən bankın rəhbərləri müvəqqəti olaraq işdə olmadıqda baş mühasib onların vəzifələrini, habelə mühasibat əməliyyatlarının bilavasitə yerinə yetirilməsi üzrə vəzifələri həyata keçirə bilməz.

Fəaliyyət göstərən kredit təşkilatlarında mühasibat uçotunun aparılması qaydası

Bu Qaydaların məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

Banklarda mühasibat uçotu - bankın aktivləri, öhdəlikləri, kapitalı, gəlirləri və xərcləri haqqında məlumatların mühasibat hesablarında ikili yazılış üsulu ilə toplanması, qeydiyyatı və ümumiləşdirilməsi sistemidir.

Analitik hesab - subhesabın daxilindəki məlumatların təfsilatı ilə açıqlanmasını və qruplaşdırılmasını təmin edən hesabdır.

Subhesab - analitik uçot məlumatlarını özündə əks etdirməklə sintetik hesabın daxilindəki mə-

lumatların təfsilatı ilə açıqlanmasını və qruplaşdırılmasını təmin edən hesabdır.

Sintetik hesab - aktivlərin, öhdəliklərin, kapitalın, gəlirlərin və xərclərin debeti və krediti üzrə dövriyyələrinin ümumiləşdirilməsinə xidmət edən hesabdır.

Mühasibat uçotu registrləri - ilkin uçot sənədlərinə əsasən müvafiq mühasibat jurnallarında, kitablarda bank əməliyyatının sistemləşdirilməsidir.

Bank əməliyyatları – kredit təşkilatlarının əmlakını, öhdəliklərini, kapitalını, onların hərəkətini və ümumiyyətlə maliyyə vəziyyətini ayrı-ayrılıqda özündə əks etdirən faktlardır.

İlkin uçot sənədləri – bank tərəfindən əməliyyatların həyata keçirilməsi faktını təsdiqləyən və mühasibat yazılışlarına əsas verən sənəddir.

İlkin uçot sənədlərinə – ciddi hesabat blankları və özündə pul dövriyyəsini əks etdirməyən, lakin bu dövriyyələrin uçota alınmasına əsas verən digər mühasibat sənədləri daxildir.

Bank sənədləri - bank əməliyyatlarının həyata keçirilməsi üçün zəruri və kifayət qədər məlumatları əks etdirən, onun qanuniliyini təsdiq edən və əməliyyatların mühasibat uçotunda əks olunmasına əsas verən sənədlərdir. Bank sənədləri müştəri sənədlərinə və bankdaxili sənədlərə bölünür. Müştəri sənədlərinə - ödəniş sənədləri, bankdaxili sənədlərə - kassa və memorial sənədlər daxildir.

Analitik uçot - bankın aktivlərinin (tələblərinin), öhdəliklərinin və kapitalının təyinatını əks etdirməklə onların hər biri üzrə açılan analitik hesablarda aparılan əməliyyatların təfsilatı ilə qeydiyyatı və qruplaşdırılmasıdır.

Sintetik uçot - bankın aktivləri (tələbləri), öhdəlikləri və kapitalı, gəlirləri və xərcləri üzrə sintetik hesablarda toplanmış məlumatların ümumiləşdirilməsidir.

Frant-ofis - müştərilərlə və bankın tərəfdaşları ilə müqavilələrin bağlanması və bağlanmış əqdlər üzrə bank sənədlərinin qeydiyyata alınması üçün bek-ofisə təqdim olunmasını həyata keçirən bank bölməsidir.

Bek-ofis - frant-ofisdən alınmış məlumatlar əsasında bağlanmış əqdlər üzrə sənədlərin qeydiyyata alınmasını həyata keçirən bank bölməsidir.

Mühasibatlıq - əməliyyatların aparılması barədə məlumatların MHBS-yə uyğun olaraq mühasibat uçotunda əks olunmasına nəzarəti həyata keçirən bank bölməsidir.

Hesablar planı – bank sistemi üçün mühasibat uçotunun müəyyən edilmiş əlamətləri üzrə sintetik və subhesabların məcmusudur.

Baş kitab - bank sistemi üçün hesablar planına uyğun olaraq, müvafiq mühasibat jurnallarından (kitablarından) alınan sintetik hesablarda toplanmış debet və kredit üzrə aylıq dövriyyələrin məcmusu əsasında məlumatları əks etdirən mühasibat uçotu registridir.

Köməkçi mühasibat jurnalları - analitik hesablar üzrə aparılan bank əməliyyatları haqqında ətraflı məlumatları əks etdirən mühasibat uçotu registridir.

Əməliyyatçı - bank xidmətinin göstərilməsi üzrə müvafiq əməliyyatın aparılmasına məsul edilmiş şəxsdir.

Baş mühasib - bankın strukturuna uyğun olaraq mühasibat uçotunun aparılmasına və maliyyə hesabatlarının təqdim edilməsinə rəhbərlik həvalə edilmiş məsul şəxsdir.

Avtomatlaşdırılmış bank informasiya sistemləri (ABİS) - obyektin səmərəli idarə olunması məqsədilə uçot prosesinin avtomatlaşdırılmasını təmin edən ardıcıl surətdə kağız və elektron daşıyıcıları vasitəsilə müvafiq maliyyə, iqtisadi və təhlil xarakterli digər məlumatların təqdim olunması sistemidir.

Məlumatların müasir texniki işlənmə vasitələri kompüter texnologiyası əsasında, bank məlumatlarının avtomatlaşdırılmış işlənmə sisteminin (BMAİS) yaradılması yolu ilə informasiya proseslərinin yerinə yetirilməsini təşkil etməyə imkan verir. Bu sistemlərin yaradılmasının əsas məqsədi bankın informasiya proseslərinin avtomatlaşdırılması və onların yerinə yetirilməsi formasının təkmilləşdirilməsidir.

Maliyyə hesabatları formalarının müəyyənləşdirilməsi

Maliyyə hesabatlarının formaları dəqiq müəyyənləşdirilməli və dərc edilmiş digər məlumatlardan ayrılmalıdır.

Maliyyə hesabatlarının hər bir tərkib hissəsi dəqiq müəyyənləşdirilməlidir. Həmçinin, aşağıdakı məlumatlar dəqiq seçilməli və təqdim olunan məlumatların daha düzgün başa düşülməsi üçün zəruri olduqda, təkrarlanmalıdır:

a) hesabat verən bankın adı və ya digər tanınma əlamətləri;

b) maliyyə hesabatlarının ayrıca bir bankı, yoxsa banklar qrupunu əhatə etməsi haqqında məlumat;

c) maliyyə hesabatlarının müvafiq tərkib hissəsi üçün (hansının daha uyğun olmasından asılı olaraq) hesabat tarixi və ya maliyyə hesabatlarının əhatə etdiyi dövr;

ç) hesabat valyutası;

d) maliyyə hesabatlarında məlumatların (rəqəmlərin) təqdim edilməsində istifadə olunan dəqiqlik səviyyəsi.

Aktivlər maliyyə hesabatlarında müvafiq maddələr aktivin məfhumuna uyğun olduqda, kifayət qədər etibarlıqla ölçülə bildikdə, onun haqqında informasiya istifadəçinin öz qərarına dəyişiklik etməsinə təsir göstərdikdə və maddə barəsində məlumat etibarlı (yoxlanılan, bitərəf yaxud qərərsiz və etımada layiq) olduqda tanınılır. Maddənin göstəricisi kiçik rəqəmlərlə ifadə olunduqda, yaxud göstəricilər aşağı olan ayrı-ayrı maddələrin məcmusu, maliyyə hesabatları üçün əhəmiyyət kəsb etmədikdə, həmin hesabatlarda aktivlərin açıqlaması zərurəti itir.

Adətən,aktivlər balans hesabatlarına, likvidlik dərəcələrinə müvafiq olaraq, aşağıdakı ardıcıllıqla daxil edilir:

• Cari aktivlər;
• Uzunmüddətli investisiyalar;
• Əmlak, zavod və avadanlıq;
• Qeyri-maddı aktivlər;
• Sair aktivlər (o cümlədən, vaxtı uzadılmış ödənişlər və təşkilati xərclər).

Cari xərclər deyildikdə, hansının müddətinin daha uzun olmasından aslı olaraq, adi iş (əməliyyat) dövrü, yaxud il ərzində nağd pula çevrilə, satıla, yaxud istifadə edilə bilən, nağd pul və sair aktivlər başa düşülür. Əməliyyat dövrü nağd puldan xammal və materialların alınması, onların emalı və satışı üçün istifadə edilməsi və yenidən nağd pula çevrilməsi üçün zəruri olan vaxtdır.

Maliyyə hesabatlarında məlumatlar min və ya milyon manat vahidlərində təqdim olunmalıdır.

Hesabat dövrü. Maliyyə hesabatları ən azı hər il təqdim edilməlidir. Müstəsna hallarda bankın hesabat tarixi dəyişildikdə və illik maliyyə hesabatları bir ildən artıq və ya bir ildən qısa müddətdə təqdim edildikdə, bank, maliyyə hesabatlarının əhatə etdiyi dövr üzrə əlavə olaraq aşağıdakıları açıqlamalıdır:

a) bir ildən fərqli dövrün istifadə edilməsinin səbəbini;

b) mənfəət və zərər haqqında, kapitalın strukturunda dəyişikliklər, pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarda müqayisəli məbləğlərin və müvafiq qeydlərin tutuşdurula bilməməsi faktını.

Hesablar Planı və onun tətbiqinə dair Metodiki Göstərişlər maliyyə hesabatlarının elementlərini və balansdankənar hesabların xüsusiyyətlərini təsvir edir, habelə bank əməliyyatlarının bu hesablarda uçotuna dair metodoloji əsasları müəyyənləşdirir.

Bu sənəddə istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

“Nostro” müxbir hesablar - bankın (A bankının) digər bankda (B bankında) olan müxbir hesabları;

“Loro” müxbir hesablar - digər bankın (B bankının) bankda (A bankında) olan müxbir hesabları;

Bloklaşdırılmış hesab - akkreditivlərin açılması, qarantiyaların verilməsi və digər bank əməliyyatları ilə əlaqədar müəyyən müddətə dayandırılmış və ya məhdudlaşdırılmış müştəri hesabı;

Bağlanmış hesab - hesab üzrə qalığı olan bağlanmış müştəri hesabı;

Büdcə təşkilatı - maliyyələşdirilməsi bilavasitə Azərbaycan Respublikasının dövlət büdcəsi və Naxçıvan Muxtar Respublikasının büdcəsi hesabına həyata keçirilən idarə və təşkilatlar;

Büdcədənkənar dövlət fondları - qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən hüquqi şəxs qismində təsis edilmiş və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondları;

Dövlət mülkiyyətində olan hüquqi şəxslər - dövlət mülkiyyətinə əsaslanan və ya səhmlərin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər;

Dövlət mülkiyyətində olmayan hüquqi şəxslər - təsərrüfat ortaqlıqları və cəmiyyətləri də daxil olmaqla dövlət mülkiyyətində olmayan hüquqi şəxslər;

Fərdi sahibkar - əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs;

Fiziki şəxs - hüquqi münasibətlərdə öz adından iştirak edən insan fərdi;

Xarici dövlətlərin rəsmi nümayəndəlikləri - Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən xarici dövlətlərin rəsmi nümayəndəlikləri (səfirliklər, konsulluqlar və bu statusa malik olan digər təşkilatlar);

Maliyyə institutları/təşkilatları - depozitlər cəlb edən/idarə edən və/və ya kreditlər verən təşkilatlar, o cümlədən banklar, bank olmayan kredit təşkilatları, kredit ittifaqları, trast şirkətləri, habelə sığorta şirkətləri, pensiya fondları, brokerlər, anderrayterlər, investisiya şirkətləri;

Beynəlxalq maliyyə institutları - Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və maliyyə sahəsində beynəlxalq razılaşmalar əsasında yaradılan digər beynəlxalq maliyyə institutları;

Maliyyə sektoru - iqtisadiyyatın maliyyə institutlarının/ təşkilatlarının fəaliyyət göstərdiyi hissəsi;

Qeyri-maliyyə sektoru - maliyyə sektoruna daxil olmayan müəssisə və təşkilatlar;

Mərkəzi Xəzinədarlıq - Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi;

Ödəniş terminalı və ya proqram-texniki kompleks - ödəyicilərə ödənişləri nağd pul vəsaiti və ya ödəniş kartları vasitəsilə həyata keçirmək imkanı verən və onları ödəniş əməliyyatları üzrə təsdiqləyici sənədlə təmin edən müvafiq proqram təminatı ilə təchiz olunmuş avadanlıq.

Yolda olan nağd pul və digər ödəniş vasitələri - hesabat tarixinə banka aid olan, lakin hesablaşma hesabına mədaxil olunmamış nağd pul və digər ödəniş vasitələri.

Yolda olan qiymətli metallar - hesabat tarixinə banka aid olan, lakin hesablaşma hesabına mədaxil olunmamış qiymətli metallar.

Hesablar planının strukturu və təsnifləşdirilməsi

Hesablar planı 5 hissədən ibarətdir:

- aktivlər;
- öhdəliklər;
- kapital;
- mənfəət və zərər;
- balansdankənar hesablar.

Aktiv-passiv hesablar eyni zamanda həm debet, həm də kredit qalığına malik ola bilməz. Kontr-aktiv hesablar aktivdə əks olunmaqla kredit qalığına, kontr-passiv hesablar isə passivdə əks olunmaqla debet qalığına malik olmalıdır.

Hesablar planında hesablar milli valyuta, xarici valyuta və qiymətli metal hesablarına bölün-

məklə təsnifləşdirilir. Aktiv və öhdəliklərin müddəti bir il və ya ondan azdırsa qısamüddətli, bir ildən artıqdırsa uzunmüddətli hesab olunur.

Maliyyə hesabatları üzrə məsuliyyət

Maliyyə hesabatlarının hazırlanıb təqdim edilməsi üzrə məsuliyyət Bankın Müşahidə Şurası, İdarə Heyəti və ya digər rəhbər orqanının üzərinə düşür.

Maliyyə hesabatlarına aşağıdakılar daxildir:

a) mühasibat balansı;

b) mənfəət və zərər haqqında hesabat;

c) kapitalın strukturunda dəyişikliklər haqqında hesabat;

ç) pul vəsaitlərinin hərəkəti haqqında hesabat;

d) uçot siyasəti və izahat qeydləri.

Bank maliyyə hesabatlarından başqa, fəaliyyətinin maliyyə nəticələrinin əsas xarakterini, maliyyə vəziyyətini və qarşılaşdığı əsas qeyri-müəyyənlikləri əks etdirən rəhbərliyin maliyyə şərhlərini təqdim edə bilər.

Mühasibat balansında təqdim edilməli olan məlumatlar. Bank aktiv və öhdəlikləri likvidlik səviyyəsini əks etdirən ardıcıllıqla və onların xarakteri üzrə qruplaşdıraraq mühasibat balansında əks etdirməlidir.

Bank əməliyyatlarının tərkibi və strukturu

Bankların passiv əməliyyatları ehtiyatların toplanması üzrə əməliyyatlardır.

Onları aşağıdakı qruplara bölmək olar:

- xüsusi kapitalın formalaşması, onun tərkibinə nizamnamə kapitalı, ehtiyat və digər fondlar, bölüşdürülməmiş mənfəət və digər xüsusi mənbələr daxil edilir;

- qiymətli kağızların – səhm, istiqraz, sertifikat, veksellərin və s. emissiyası;

- depozit əməliyyatları;

Cari, hesablaşma, müddətli, müxbir və s. hesabların açılması üzrə əməliyyatlar. Bankların aktiv əməliyyatları xüsusi və cəlb edilmiş ehtiyatların bank tərəfindən mənfəətin əldə edilməsi məqsədilə istifadəsi, habelə müştərilər tərəfindən komissiya ödənişləri hesabına bankın gəlirini təmin edən müştərilərə xidmət üzrə əməliyyatlardır.

Bankların aktiv əməliyyatlarını dörd qrupa bölmək olar:

∗ nəticəsində bankın kredit portfelinin formalaşdığı kredit əməliyyatları;

∗ investisiya portfelinin formalaşması üçün əsas yaradan investisiya əməliyyatları;

∗ bankın öz müştərilərinə göstərdiyi əsas xidmət növlərindən biri olan kassa və hesablaşma əməliyyatları;

∗ müştərilərə xidmət göstərilməsi ilə bağlı digər aktiv əməliyyatlar.

Kredit əməliyyatları aktiv və passiv əməliyyatlara bölünür.

Aktiv kredit əməliyyatlarına aiddir:

∗ müştərilərin kreditləşdirilməsi;

∗ digər bankların kreditləşdirilməsi;

∗ digər banklarda depozitlərin yerləşdirilməsi;

∗ Azərbaycan Bankında ehtiyat müxbir hesabında vəsaitlərin yerləşdirilməsi;

∗ Digər banklarda müxbir hesablarda vəsaitlərin yerləşdirilməsi.

Passiv kredit əməliyyatlarına aiddir:

∗ müştərilərin depozitlərinin alınması;

∗ digər bankların depozitlərinin alınması;

∗ bank kreditlərinin, o cümlədən Azərbaycan Bankının kreditlərinin alınması.

Bankın investisiya portfelinin formalaşdırılması üçün zəmin yaradan investisiya əməliyyatlarına bankın öz hesabına qiymətli kağızlara investisiyalar aid edilir.

Hesablaşma əməliyyatları banklar üçün ənənəvidir. Onlara aiddir:

1) nağd pulla ödəmələr;
2) nağd pulların hesaba depozitə qoyulması;
3) nağd pulların hesabdan çıxarılması;
4) pulların ödəniş tapşırığı ilə köçürülməsi;
5) vəsaitlərin bir hesabdan digərinə köçürülməsi;
6) debet köçürməsi;
7) kredit köçürməsi.

Bank fəaliyyəti zamanı depozitlərdə qiymətli kağızlarda, verilmiş kreditlərdə və vəsaitlərin yerləşdirilməsinin başqa növlərində yerləşdirilmiş pul vəsaitlərini təşkil edən işləyən aktivlərin bütün əsas növləri üzrə mümkün zərərlərdən müdafiənin təmin edilməsi üçün lazımi məqsədli ehtiyatlar yaradır. Kreditlər və başqa aktivlər üzrə mümkün itkilərin ödənilməsinə məqsədli ehtiyatlar ümumi ehtiyatlardan və xüsusi ehtiyatlardan ibarətdir. Bank tərəfindən alınmış gəlirlər yaradılmış ehtiyatların ödənilməsi mənbəyidir. Ümumi ehtiyatlar bütovlükdə kredit portfelinə məxsus riskdən müdafiə üçün və bankın sabitliyinin və davamlı fəaliyyətinin dəstəklənməsi üçün formalaşdırılır. Ümumi ehtiyatlar aktivlərin ayrı- ayrı növləri üzrə itkilərin ödənilməsi üçün istifadə oluna bilməz. Xüsusi ehtiyatlar risk dərəcəsinin qiymətləndirilməsi əsasında onların təsnifatından asılı olaraq bütün işləyən aktivlər üzrə əsas borc üzrə ödənməmiş borcla (müddətli, təxirə salınmış, gecikdirilmiş) əlaqədar mümkün itkilərin ödənilməsi üçün formalaşdırılır. Ümumi ehtiyatlar Bank Şurası tərəfindən Xüsusi ehtiyatlar yaradılmamış işləyən aktivlər üzrə əsas borc üzrə debitor borcunun (müddətli, təxirə salınmış, gecikdirilmiş) ümumi ölçüsündən faiz kimi müəyyən edilir.

Bankın maliyyə sabitliyinin təhlili

Bankın maliyyə sabitliyinin təhlili zamanı bankın işinin yekun effektliliyinə təsir edən növbəti pul axınlarını nəzərə almaq əhəmiyyətlidir:

∗ verilmiş kreditlərin bütün növləri və kuponlu qiymətli kağızlar üzrə faiz gəlirlərinin, həmçinin səhmlər üzrə dividentlər və veksellər üzrə diskont alınması;

∗ qiymətli kağız portfellərinin bazar qiymətinin dəyişməsi;

∗ bütün növlərdə cəlb edilmiş ehtiyatlar üzrə faizlərin ödənilməsi;

* yeni ehtiyatların təmiz axını (şəxsi və cəlb edilmiş);

∗ cari öhdəliklərin və ya pul vəsaitlərinin sərmayənin başqa növlərinə köçürülməsinin icrası üçün, onların plandan kənar satışı ehtiyacından yaranan aktivlərin dəyərinin dəyişməsi.

Bankın maliyyə sabitliyinin səviyyəsini müəyyən etməyə imkan verən ilk addım bankın aktivlər və passivlərinin strukturunun təhlilidir.

Aktivlərin və passivlərin struktur təhlili bank əməliyyatlarının diversifikasiyası səviyyəsinin kafiliyinin üzə çıxarılması, bankın bank xidmətləri və məhsullar bazarının müxtəlif seqmentlərində xarici vəziyyətin inkişafından, ümumiqtisadi və regional tendensiyalardan, bir müştərinin və ya öz arasında əlaqəli olan müştərilərin davranışından asılılıq dərəcəsinin müəyyən edilməsi üçün keçirilir.

Bankın ehtiyat bazası strukturunun təhlili bankın passivlərinin kəmiyyət və keyfiyyət xarakteristikaları nöqteyi-nəzərindən onlar haqqında ümumi təsəvvür verir.

Bankın aktiv əməliyyatlarının strukturunun təhlili onun ehtiyatlarından istifadənin istiqamətlərinin və iqtisadi məqsədəuyğunluğun qiymətləndirilməsini və ayrı-ayrı aktiv əməliyyatların risk təhlilini təşkil edir. Aktivlərin strukturunun təhlili zamanı növbəti məqamları nəzərə almaq əhəmiyyətlidir:

∗ bankın balansında işləyən aktivlərin payı. Onlar ən azı 50% olmalıdır. Bankın balansında olan pis aktivlərlə və əmlakla həddən artıq yüklənməsi, aktivlərin qaytarılmasının azalmasına və likvidliyin itməsinə gətirib çıxarır;

∗ işləyən aktivlərin əsas növlərinin nisbəti: kreditlər və qiymətli kağızlar. Hesab edilir ki, ban-

kın aktivləri portfelində kreditlərin payı balansın valyutasının 60-65%-ni ötməməlidir, qiymətli kağızların payı isə 20-25% olmalıdır. Lakin hətta əgər kredit portfelinin ümumi həcmi göstərilən məhdudiyyəti təmin edirsə, lakin onda əsasən bir növdə kreditləri varsa, kifayət qədər diversifikasiya edilmiş aktivlər hesab etmək olmaz. Bundan başqa, Azərbaycan qiymətli kağızlar bazarının qeyri-sabit şəraitində Azərbaycan bankları aktivlərin əhəmiyyətli həcmlərini qiymətli kağızlara yerləşdirə bilmir və aktiv əməliyyatların diversifikasiyası üçün başqa alternativlər tapmalıdır. Burada bankın (kassada və "Nostro" hesablarında qalıqlar) kassa aktivlərinə diqqəti yetirmək lazımdır, çünki onlar banka gəlir gətirərək, konversiya əməliyyatlarının bütün növlərinin keçirilməsi zamanı işləyir və həmçinin icarə və ipoteka əməliyyatlarına (kreditləşdirmənin mülki təmin edilmiş formalı olan) və trest əməliyyatlarına (burada kredit və sistem riskinin bir hissəsi bankın müştərisinin üzərinə düşür) ən yüksək likvidlik səviyyəsinə malikdirlər;

∗ kredit portfeli strukturu: kredit portfeli strukturunun təhlili Azərbaycan sistem risklərinə xüsusi məruz qalan banklararası kreditlərin payını, təmin edilmiş və təmin edilməmiş kreditlərin payını aşkar etməlidir, əmanətlərin regional və sahə üzrə strukturlarını, uzunmüddətli və qısamüddətli ssuda əməliyyatlarının həcmlərini göstərməlidir;

∗ bank filialları üzrə kredit qoyuluşları və digər aktivlərin strukturu: aktiv əməliyyatların əhəmiyyətli həcminə malik olan filialları seçmək və bu əməliyyatlara və onların ayrı növlərinə ümumi limitlərin artırılmasının və ya azaldılmasının məqsədəuyğunluğunu təhlil etmək lazımdır. Bu analiz şübhəsiz ki, filialların aktiv əməliyyatlarının effektivlik göstəricilərinin cəlb edilməsiylə keçirilməlidir.

Passiv əməliyyatların strukturunun təhlili zamanı aşağıdakılara diqqət yetirmək lazımdır:

∗ bankın şəxsi və cəlb edilmiş ehtiyatlarının nisbəti;

∗ banklararası bazardan asılılıq səviyyəsi. Banklararası kreditlərin payı cəlb edilmiş ehtiyatların ümumi həcmində 10-12%-i ötməməlidir;

∗ cəlb edilmiş vəsaitlərin 70-75%-ni formalaşdırmalı, tələb olunana qədər hesablarda və əhalinin hesablarında sabit qalıqlar;

∗ depozitlər bazarının müxtəlif sektorlarından, xüsusilə maliyyə böhranı dövrlərində panikaya daha çox məruz qalan əhalinin vəsaitlərindən asılılıq səviyyəsi;

∗ cəlb edilmiş ehtiyatlardan istifadə müddətidir ki, bu da ehtiyatların idarə edilməsi sahəsində bankın siyasətini qiymətləndirməyə imkan verir: uzun depozitlərin cəlb edilməsi bank tərəfindən nə qədər müvəffəq olunarsa, uzunmüddətli və ya qısamüddətli sərmayə bank tərəfindən həyata keçirilir;

∗ filiallarda ehtiyatların strukturunu. Bu analiz bankın hansı filiallarının donor olmasını (yəni, yalnız şəxsi aktiv əməliyyatların keçirilməsi üçün istifadə edilməyən ehtiyatlar cəlb etmir, həm də başqa filialların əməliyyatlarını cəlb edir) və hansı yad ehtiyatlardan istifadə etmələrinin müəyyən edilməsi üçün lazımdır. Təhlilin növbəti mərhələsində, ehtiyatların bir filialdan digər filiala ötürülməsinin nə qədər effektiv olmasını, onun onların fəaliyyətinin müflisliyini gizlədib-gizlətmədiyini qiymətləndirmək çox əhəmiyyətlidir.

Aktivlərin və passivlərin strukturu yalnız bank əməliyyatlarının və bankın eyni tipli (cari an çox sərfəli olan) əməliyyatlarla məşğul olmasına gətirib çıxaran təhlükələrin üzə çıxarılmasının diversifikasiyası dərəcəsinin təyin edilməsi üçün təhlil edilmir. Bu göstəricilər bilavasitə həmçinin bankın cari maliyyə durumuna, hər şeydən əvvəl onun likvidliyinə, keçirilən əməliyyatların ümumi effektivliyinə və bütün cari və gələcək risklərin səviyyəsinə təsir edir.

Aktiv və passivlərin portfellərinin kifayət etməyən diversifikasiyası riski bank fəaliyyətinin bu və ya digər qrup aktiv və passivlər dinamikasına əsassız bağlamasına görə yaranır. Bu növ riskə spesifik xüsusiyyətlərilə uyğunluqda müxtəlif risklərin (kredit, faiz, təkrar maliyyələşdirmə və s.) konqlomeratı kimi baxıla bilər. Aktivlərin (və ya passivlərin) kifayət etməyən diversifikasiyası riski bankın maliyyə bazarlarının ayrı- ayrı seqmentlərindən və əlverişsiz şərait zamanı yeni ma-

liyyə alətlərinə keçidlə bağlı çətinliklərdən asılılığın yüksək səviyyəsinə gətirib çıxarır.

Maliyyə analitikləri tərəfindən sadalanan risklərin təhlili və qiymətləndirilməsi, bankın rəhbərliyinə onların mümkün neqativ nəticələrinin minimallaşdırılması üzrə tədbir görməyə imkan verir.

Kredit dosyelərinin məzmunu. Kreditin alınması üçün sifarişin, onun verilməsi, uçotu, monitorinqi və tutulması üçün tələb olunan sənədlərin formaları verilməlidir. Kredit dosyelərində kreditlərin verilməsi üçün tələb olunan minimum sənədlər yuxarıda qeyd olan əlavələrinə uyğun olaraq aparılmalıdır.

Digər şərtlər. Bankdaxili kredit qaydalarına bankın hansı iqtisadi və coğrafi məkanda fəaliyyət göstərdiyi sahələrin təsviri, istisnalar, kreditlərin müddətinin dəyişdirilməsi, sənədləşdirilməsi qarşısında digər tələblər, borcalanın fəaliyyətinə nəzarət məqsədi ilə onun iş yeri ilə tanışlıq, mübahisələrin həlli, girovun qiymətləndirilməsi, yerlərdə yoxlanması, tələb olunarsa onun sığortalanması, dəyişdirilməsi və əlavə girovun alınması, habelə müvafiq qanunlara və normativ aktlara əsaslanmalar və kreditlərlə əlaqədar digər məsələlər daxil edilə bilər.

Kreditlərlə bağlı aparılan əməliyyatların mühasibat uçotu: Kreditlər verilərkən aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Müvafiq verilmiş kreditlər hesabı;

Kredit: Kassa və ya müxbir hesab.

Kreditlər qaytarılarkən aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Kassa/ müxbir hesabı və ya müştərinin hesabı;

Kredit: Müvafiq verilmiş kreditlər hesabı.

Verilmiş kreditlər üzrə öhdəliklərin uçotu müvafiq balansdankənar hesabda aparılır.

Kreditlərin vaxtı keçdiyi zaman aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Müvafiq vaxtı keçmiş kreditlər hesabı;

Kredit: Müvafiq verilmiş kreditlər hesabı.

Razılaşdırılmış müqavilə əsasında vaxtı keçmiş kreditlərin müddəti uzadılarsa və ya kreditlər restrukturizasiya olunarsa, aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Müvafiq verilmiş kreditlər hesabı;

Kredit: Müvafiq vaxtı keçmiş kreditlər hesabı və ya restrukturizasiya olunan kreditlər.

Müvafiq aktivlər üzrə alınacaq faizlər hesablanarkən aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Müvafiq hesablanmış alınacaq faizlər hesabı (aktiv hesab);

Kredit: Müvafiq faiz gəlirləri hesabı.

Faizlər banka daxil olduqda aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Kassa / müxbir hesab və ya müştərinin hesabı;

Kredit: Müvafiq hesablanmış alınacaq faizlər hesabı.

Aktivlər üzrə ehtimal olunan zərərlər üçün xüsusi ehtiyat fondunun yaradılması zamanı aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Aktivlər üzrə ehtimal olunan zərərlər üçün xüsusi ehtiyatın yaradılmasına ayırma (xərclər hesabı);

Kredit: Aktivlər üzrə ehtimal olunan zərərlər üçün xüsusi ehtiyat fondu.

Ümidsiz borcun (əsas məbləğin) balansdan silinməsi üçün aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Aktivlər üzrə ehtimal olunan zərərlər üçün xüsusi ehtiyat fondu;

Kredit: Müvafiq ümidsiz borc üzrə hesab.

Ümidsiz borcun ödənilməsi (geri qaytarılmış məbləğ) zamanı aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Kassa müxbir hesab və ya müştərinin hesabı;

Kredit: Aktivlər üzrə ehtimal olunan zərərlər üçün xüsusi ehtiyat fondu.

Kreditlərin təsnifləşdirilməsi zamanı xüsusi ehtiyat fondunun məbləği kreditlərdən dəyə biləcək zərərlərin ödənilməsi üçün kifayət etdikdə, xüsusi ehtiyat fondunun artıq məbləği aşağıdakı mühasibat yazılışı ilə tənzimlənir:

Debet: Aktivlər üzrə ehtimal olunan zərərlər üçün xüsusi ehtiyat fondu;

Kredit: Müvafiq gəlirlər hesabı.

Mövcud bank qanunvericiliyinə görə bankın cari fəaliyyətinə nəzarət üçün ümumi məsuliyyət Müşahidə Şurasının üzərinə düşdüyündən o, hazırlanmış bankdaxili kredit qaydalarını bankın cari il üçün taktikası və iqtisadi əhatəsi baxımından ildə azı bir dəfə yenidən nəzərdən keçirməlidir.

Azərbaycan Respublikası Mərkəzi Bankı banklara reytinq verən zaman hazırlanmış bankdaxili kredit qaydalarının mövcudluğuna və onların keyfiyyətinə nəzarət etməli və Bankın rəhbərliyinin idarəetmə qabiliyyətini qiymətləndirən zaman ona əməl olunmasına xüsusi diqqət yetirməlidir.

Nəticə

Beləliklə, Bank sisteminin sabit, normal iş şəraitini təmin edən amillərdən biri Azərbaycanda bank sisteminin fəaliyyətini tənzimləyən bir neçə əsas qanunlar qüvvədədir: Bank öz filiallarını, nümayəndəliklərini, şöbələrini ayrıca balansa ayıra bilər. Bankın uçot siyasəti dedikdə, onun seçdiyi mühasibat uçotunun aparılması üsullarının cəmi – ilkin müşahidə, dəyər əsasında ölçmə, təsərrüfat fəaliyyəti faktlarının cari qruplaşdırılması və yekun ümumiləşdirilməsi başa düşülür. Mühasibat uçotunun aparılması üsullarına təsərrüfat həyatının faktlarının qruplaşdırılması və qiymətləndirilməsi, aktivlərin dəyərinin ödənilməsi, sənəd dövriyyəsinin təşkili üsulları, mühasibat uçotu hesablarının istifadə üsulları, uçot registrləri sistemi, informasiyanın işlənməsi,kreditlərlə bağlı aparılan əməliyyatların mühasibat uçotu və digər üsul və metodlar aid edilir. Beynəlxalq təcrübə göstərir ki, bank sisteminin səmərəli fəaliyyəti üçün bank birlikləri və konsorsiumları, holdinqləri, xüsusi təyinatlı banklar, kredit kooperasiyaları haqqında qanunlar işlənib hazırlanmalıdır. Həmçinin bankların fəaliyyətini nizamlayan qanunlar toplusuna kredit işi, elektron ödəniş sistemi, bank sirri, bankların iflası qanunları da daxil edilməlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Bank sistemində hesablama metodu ilə uçot Qaydaları (14 fevral 2001-ci il və 2002-ci il 02 mart tarixli dəyişikliklərlə).
2. Azərbaycan Respublikası Mərkəzi Bankının qərarları (Protokol № 33, 07 noyabr 2005-ci il, 25 dekabr - 18 mart 2002-ci il tarixli qərarı ilə təsdiq edilmişdir № 06 Protokolu 2008-ci il 18 fevral və 2010-cu il 15 aprel tarixli dəyişikliklərlə, 16 avqust 2002-ci il 18 saylı Protokol və sair normativ aktları.)
3. Azərbaycan Respublikasının bank sistemində digər aktiv və passivlərin uçot Qaydaları (16 avqust 2002-ci il).
4. Правила ведения бухгалтерского учета в кредитных организациях, расположенных на территории Российской Федерации. Утверждены Приказом Банка России от 18.06.97 №61, п.1.3.
5. Банковское дело. Учебник. М. Проспект, 2008.
6. Банковское дело Управление и технологии под ред. Тавасиева. Учебник, 2005, 671.
7. Банковское дело.под ред. Коробовой Г.Г. - Учебник, 2014 -766 с.

Исмаил Микаил оглы Гусейнов
пред. АГЭУ

Банковский учет, применяемый в коммерческих банках и его политика, сущность аналитического и синтетического учетов (теоретические и пгактические аспекты)

Резюме

Предоставлены сведения “О централъном банке”, принятом в деятелъности банковской системы, законах Азербайджанской Республики “О банках и банковской деятелъности” и банковский учет Централъного банка, политика банковского учета, формирование, регулирование и управление учетной политики, порядок проведения банковского учета Централъного банка и кредитных банков, проведение аналитических, синтетических учетов, порядок проверки аналитических и синтетических учетных сведений, автоматизация счетов, основы проведения бухгалтерского учета, организация проведения бухгалтерского учета в банках и общие требования бухалтерского учета, банковские документы и оформление документов первичного учета, обеспечение хранения учетных документов, определение форм фнансовых отчетов, состав финансовых отчетов, бухалтерских баланс, сведения, которые необходимо предоставитъ в бухалтерском балансе, разделение бухалтерского отчета на активную, пассивную (обязанности), капиталъные части и его учет, отчет о прибыли и убытках и сведения о предоставлении в финансовых отчетах учетной политики.

Ключевые слова: ванковский учем,его полимика, аналимический, синмемический учем и порядок проведения бухгалмерского учема.

İsmayil Mikayil Huseynov
teacher of ASUE

Bank account and applied to commercial banksIts policy, analytical and synthetic substance accounting (theoretical and practical aspects)

Summary

The banking system has been adopted, “On the Central Bank”, “On Banks and Banking Activity” Resbublikasının laws and the Central Bank of Azerbaijan, “the bank records of Bank Accounting Policies, policy formulation, regulation and management of the Central Bank and Credit bank accounting rules for banks, analytical, synthetic carry out accounting treatments, analytical and synthetic data validation rules for accounting, accounts aftomatlasdırılması, accounting treatment bases, banks, accounting and accounting organization of the general requirements, bank documents and the accounting paperwork, ensuring retention of records, financial statements identification forms, financial statements, composition, balance sheet, the information to be presented in the balance sheet, accounting account active, pasiv (ohtəliklər), and its equity shares bolunməs accounting, profit and loss statement and presentation of financial statements, accounting policies have been reported.

Key words: bank account in its policy, analytical, synthetic accounting and book keeping accounting procedure.

UOT 336.71

Pərviz Vidadi oğlu ZEYNALOV
Azərbaycan Dövlət İqtisad Universitetinin
"Bank işi" kafedrasının müəllimi

KOMMERSİYA BANKLARINDA TƏTBİQ OLUNAN KREDİT SİYASƏTİNİN MAHİYYƏTİ (NƏZƏRİ VƏ PRAKTİKİ ASPEKTLƏR)

Xülasə

Məqalədə kommersiya banklarında tətbiq olunan kredit siyasətinin mahiyyəti, nəzəri və praktiki aspektləri təhlil edilir.

Banklarda kredit siyasəti və strategiyaları, bank rəhbərliyinin nəzərdə tutduğu büdcə, hədəf və strategiyaları müəyyənləşdirilir.

Məqalədə kredit siyasəti çərçivəsində faiz dərəcələrinin müəyyən edilməsi prosesinə xüsusi əhəmiyyət verilir. Məqalədə kredit siyasətinin əsas məqsədi müəyyənləşdirilir.

Açar sözlər: kredit siyasəti, depozit siyasəti, faiz siyasəti, əmanət, kredit riski.

Giriş

Bank siyasətinin (o cümlədən, depozit, kredit, faiz və s.) yeridilməsindən əldə edilən gəliri maksimallaşdırmaq üçün bank sistemli yanaşma tətbiq edir, yəni bank siyasətinin bütün elementlərini vəhdətdə istifadə edərək optimal qərar çıxarır.

Kredit siyasəti dedikdə kredit riskinin müəyyən olunması, ölçülməsi, izlənilməsi və idarə edilməsi üzrə istiqamətləndirilmiş siyasətin yaradılması və tətbiq edilməsi başa düşülür. Düzgün kredit siyasəti fəaliyyətin və məhsuldarlığın artmasına zəmin yaradır ki, bu da banklarda aktiv keyfiyyətli kredit portfelinin yaradılmasına təsir edir.

Məhz buna görə də bankın işində kredit siyasətinin rolunu müəyyən etmək üçün kommersiya bankının kredit siyasətinin elementlərinin bir-birini qarşılıqlı şərtləndirməsi onların elə qarşılıqlı əlaqədə də öyrənilməsini şərtləndirir. Həqiqətən də, kredit siyasətinin prinsipləri bir-biri ilə sıx bağlıdır. Bu prinsiplərin birinin pozulması digərlərinin də pozulmasına səbəb olur.

Banklarda kredit siyasəti və strategiyaları, bank rəhbərliyinin nəzərdə tutduğu büdcə, hədəf və strategiyalara uyğun olaraq hazırlanılır. Qlobal iqtisadi inkişafın ölkə iqtisadiyyatı və digər sektorlar üzərindəki təsiri dəyərləndirilir və nəzərdə tutulmuş siyasətlərə uyğunluğuna mütləq diqqət yetirilir. Mövcud siyasətin tətbiqi ilə kredit portfelinin həcmi, cəmlənməsi, kifayətliliyi təsbit edilir və lazımi tənzimləmələr həyata keçirilir.

Son illər istehlak kreditləri bazarında müşahidə olunan aktivlik kredit risklərinin adekvat idarə olunması məsələsini aktuallaşdırmışdır. Belə ki, xüsusi artım təminatsız nağd kreditləri olan digər istehlak kreditləri seqmentində müşahidə olunmuşdur.

Kredit siyasətinin komponentləri

Kredit siyasətini işləyərkən, strateji və taktiki məqsədlərdən çıxış edilir. Həqiqətən də, bankın fəaliyyətində prioritetlər, o cümlədən bankın kredit əməliyyatlarının təhlükəsizliyi, etibarlılığı və gəlirliliyindən ibarətdir.

Kommersiya banklarının kredit siyasəti "qiymət-gəlir-faiz" mexanizminə köklənir. Kreditə olan tələb artdıqda, ssuda kapitalına tələb və təklifin nisbəti dəyişir və ssuda faizi artır.

Kommersiya bankının optimal kredit siyasəti dedikdə, bankın xərclərinin örtülməsini təmin edən və xalis gəlir gətirən (gəlirlilik prinsipi) siyasət başa düşülür.

Bank siyasətinin (o cümlədən, depozit, kredit, faiz və s.) yeridilməsindən əldə edilən gəliri maksimallaşdırmaq üçün bank sistemli yanaşma tətbiq edir, yəni bank siyasətinin bütün elementlərini vəhdətdə istifadə edərək optimal qərar çıxarır.

Beləliklə, bankın kredit siyasəti o zaman səmərəli və optimal ola bilər ki, o, kredit siyasətinin prinsipləri nəzərə alınmaqla qurulmuş olsun. Optimal depozit siyasətinin (bankda açılmış hesablara depozitə vəsaitlərin cəlb edilməsinin səviyyəsi), valyuta siyasətinin (qaytarma əsaslarla vəsaitlərin cəlb edilməsi və yerləşdirilməsi hissəsində), kommersiya bankının kredit siyasətini bir çox mənada şərtləndirən və təsirini öz üzərində hiss edən faiz siyasətinin müəyyənləşdirilməsində də analoji yanaşmalardan istifadə olunur.

Qeyd olunduğu kimi, bankların kredit siyasətinin ölkə iqtisadiyyatına təsiri həm müsbət, həm də mənfi ola bilir. Bəzi hallarda bu, məhsuldar qüvvələrin inkişafı üçün səmərəli şərait yaradır, bəzi hallarda isə istehsalın artım templərini azaltmaqla, məhsuldar qüvvələrin inkişafını tormozlandırır.

Kommersiya bankları öz müştərilərinə ssuda təklif etməklə kredit ekspansiyası və ya kredit restriksiyası siyasətini həyata keçirirlər. Təbii ki, düzgün, bazarda real qüvvədə olan amillər nəzərə alınmaqla işlənmiş siyasət iqtisadiyyata müsbət təsir göstərir, inkişafını həvəsləndirir, eyni zamanda iqtisadiyyatın subyektlərinin (o cümlədən, əhalinin) də tələbatlarını ödəyir. Lakin belə bir hal da mümkündür ki, iqtisadi siyasət bir istiqamətdə iqtisadi inkişafa səbəb olsun, digər istiqamətdə isə onu ləngitsin. Kredit siyasətinin müəyyən məqsədlərinə çatmanın çoxvariantlı yollarının işlənməsi praktikası da bundan xəbər verir.

Səmərəli (optimal) kredit siyasəti iqtisadiyyatın inkişafına yaxşı təsir göstərir, lakin onu həyata keçirmək və kredit siyasətinin arsenalında olan metodlarını tətbiq etmək üçün məqsədyönlü fəaliyyət tələb olunur. Beləliklə, bütün bunlar bankın optimal siyasətinin konsepsiyasının işlənməsinə ümumi yanaşmadır, lakin onun praktiki işlənməsi üçün kommersiya bankının kredit siyasətinin səmərəliliyini şərtləndirən bütün amilləri nəzərə almaqla daha dərin təhlil aparmaq lazımdır. Bu barədə söhbət aşağıda aparılacaqdır. Burada isə onu qeyd edək ki, bankın kredit siyasətinin səmərəliliyini, optimallığını əsasında kredit siyasətinin prinsiplərinin qoyulduğu aşağıdakı meyarları nəzərə almaqla qiymətləndirmək lazımdır: kommersiya bankının inkişafının bu tarixi mərhələsində onun üçün optimal olan gəlirlilik və likvidliyin nisbətinin təmin edilməsi üçün risk-menecmentinin adekvatlığı.

Bu arada kommersiya bankı səviyyəsində kredit siyasətinin səmərəliliyini təhlil edərkən, nəzərə almaq lazımdır ki, bütövlükdə (makroiqtisadi səviyyədə) kredit siyasəti yalnız o zaman optimal və səmərəli ola bilər ki, onda cəmiyyətin, iqtisadiyyatın təsərrüfat subyektlərinin və fərdlərin maraqları mümkün qədər çox nəzərə alınmış olsun.

Məhz buna görə də bankın işində kredit siyasətinin rolunu müəyyən etmək üçün kommersiya bankının kredit siyasətinin elementlərinin bir-birini qarşılıqlı şərtləndirməsi onların elə qarşılıqlı əlaqədə də öyrənilməsini şərtləndirir. Həqiqətən də, kredit siyasətinin prinsipləri bir-biri ilə sıx bağlıdır. Bu prinsiplərin birinin pozulması digərlərinin də pozulmasına səbəb olur.

Bəzi elementlərə bir qədər ətraflı nəzər salaq.

Bankın depozit siyasəti (dar mənada bu, bütövlükdə bankın kredit siyasətinin ayrılmaz hissəsidir) vəsaitlərin depozitə cəlb edilməsi və onların səmərəli idarəedilməsi ilə bağlı bank siyasətidir.

Kommersiya bankının depozit siyasəti likvidlik və digər kreditorların vəsaitlərinin cəlb edilməsi üzrə strategiya və taktikası və bu bank üçün vəsait mənbələrinin daha səmərəli kombinasiyasının müəyyən edilməsidir.

Depozit siyasətinin məqsədi lazım olduqca, borc vəsaitlərinin fəal axtarışı yolu ilə bankın likvidliyini təmin etməkdir. Bununla əlaqədar gəlir əldə etmək imkanları genişlənir, lakin bu, risklə də bağlıdır (bu, əsasən cəlb olunan vəsaitlərlə depozitlərdən istifadə zamanı əldə edilə biləcək gəlir arasında nisbətdir).

Qərbin inkişaf etmiş ölkələrinin iqtisadi ədəbiyyatında depozit siyasəti məsələlərinə, xüsusən də "depozit pulların" tənzimlənməsi problemlərinə böyük önəm verilir. Pul dövriyyəsinə nəzarət edib idarə etmək üçün dövriyyədə olan pul kütləsinin və onun elementi kimi depozit kütləsinin

vəziyyətinin planlaşdırılması, proqnozlaşdırılması, tənzimlənməsi metodlarından istifadə olunur, pul kütləsinin strukturlaşdırılmasının, depozitlərin "multiplikasiyası"nın müxtəlif variantları təhlil olunur.

Qeyd etdiyimiz kimi, kredit siyasəti (depozit və kredit siyasətinin vəhdəti kimi geniş mənada) kommersiya bankının faiz siyasətindən ayrı şəkildə nəzərdən keçirilməməlidir.

Faiz siyasəti bankının əmanət və investisiya fəaliyyətinin tənzimlənməsində həlledici mexanizmlərdən biri kimi çıxış edir.

Makroiqtisadi səviyyədə faiz siyasəti faiz sahəsində bank sisteminin rentabelliyinin təmin edilməsinə və iqtisadiyyatın optimal inkişaf templərinin təmin edilməsinə yönələn tədbirlər toplusudur. Makroiqtisadi səviyyədə siyasətin yeridilməsi ölkənin mərkəzi bankı tərəfindən həyata keçirilir.

Onun faiz siyasəti dövlətin pul-kredit siyasətinin məqsəd və vəzifələri ilə şərtlənir. Faiz siyasətinin mikrosəviyyədə məqsədlərini isə birmənalı müəyyən etmək çətindir. Konkret kommersiya bankının faiz siyasəti bankın müvafiq şəraitdə maksimum rentabelliyini təmin etməlidir. Deməli, o, əməliyyatlardan gələn gəlirlərin maksimallaşdırılmasına və əməliyyatlara xərclənən məsrəflərin minimallaşdırılmasına yönəlməlidir. Lakin bank təkcə qısamüddətli deyil, həm də uzunmüddətli aspektlərdə rentabellik haqqında düşünməlidir. Bunu dərk edərək uzaqgörən banklar hər cür yolla gəlir əldə etməyə yox, daimi müştəri dairəsini yaradıb genişləndirməyə can atır, müştərilərinin iqtisadi vəziyyətinin möhkəmləndirilməsində, işgüzar fəallığının inkişaf etdirilməsində köməklik edir. Müxtəlif səbəblərdən kommersiya banklarının heç də hamısı rentabelliyin maksimallaşdırılmasını öz fəaliyyətinin imperativi hesab etmir. Buna görə də konkret kommersiya bankı səviyyəsində yeridilən faiz siyasətini bankın likvidliyinin, rentabelliyinin və əməliyyatlarının inkişafına yönələn faiz stavkalarının tənzimlənməsi sahəsində bankın strategiyası və taktikası kimi səciyyələndirmək olar. Bazar şəraitində həlledici amillərə aiddir: bank xidmətləri bazarında tələb və təklifin nisbəti, faiz stavkalarının dövlət tənzimlənməsi.

Kommersiya bankının işinin səmərəliliyi bir çox mənada faiz siyasətinin səmərəliliyindən asılıdır. Bankın faiz siyasətinə adətən onun gəlirlərinin maksimallaşdırılması nöqteyi-nəzərdən baxılır. Buna müxtəlif üsullarla nail olmaq olar, o cümlədən: 1) müəyyən olunan faiz stavkasının bank xidmətlər bazarında vəziyyəti nəzərə alması və bankla müştəri arasında müqavilənin şərtlərini mümkün qədər dolğun əks etdirməsi və bankın işinin rentabelliyini təmin etməsi üçün faizin tutulmasının mövcud forma və metodlarını təkmilləşdirməklə, 2) bankın göstərdiyi xidmətlərin dairəsini genişləndirib əldə edilən faiz stavkalarının həcmini artırmaqla. Bu mənada inflyasiyanın rəsmi səviyyəsi nəzərə alınmaqla və xarici ölkələrin təcrübəsindən faydalanmaqla faiz stavkalarının müəyyən edilməsi metodikasını işləmək məqsədə müvafiq olar. Xarici ölkələrdə bankların faiz stavkalarının səviyyəsi inflyasiya indeksi nəzərə alınmaqla həyata keçirilir. Belə ki, inflyasiyadan itkilərin aradan qaldırılması üçün üzən faiz stavkalarından geniş istifadə olunur. Onların ölçüsü bankla müqavilənin bütün müddəti üçün fiksə olunmayıb bazarda təşəkkül tapan iqtisadi konyunkturadan, inflyasiya templərindən və digər amillərdən asılı olaraq variasiya edir.

Bankın gəlirliliyinin yüksəldilməsinin ikinci yolunu ekstensiv kimi xarakterizə etmək olar. Bu, əməliyyat və xidmətlərin həcminin artırılması ilə bağlıdır (onlardan gələn gəlir də əməliyyatların cəminə faiz nisbətində müəyyən oluna bilər). Nəticədə bankın ümumu faiz gəliri artır.

Beləliklə, faiz siyasətinin inkişafı, onun səmərəliliyinin yüksəldilməsi faizlərin tutulmasının mövcud formalarının təkmilləşdirilməsi, bankın yerinə yetirdiyi əməliyyatların həcminin artırılması və kommersiya banklarının dövlət tənzimlənməsinin yuxarıda qeyd edilən dolayı metodlarının təkmilləşdirilməsi ilə bağlıdır. Səmərəli faiz siyasətinin qurulması bank siyasətinin yuxarıda göstərilən prinsiplərinə əsaslanmaqla elementləri optimallaşdırmadan mümkün deyil.

Kommersiya banklarında tətbiq olunan kredit siyasəti

Kredit siyasəti dedikdə kredit riskinin müəyyən olunması, ölçülməsi, izlənilməsi və idarə edil-

məsi üzrə istiqamətləndirilmiş siyasətin yaradılması və tətbiq edilməsi başa düşülür. Düzgün kredit siyasəti fəaliyyətin və məhsuldarlığın artmasına zəmin yaradır ki, bu da banklarda aktiv keyfiyyətli kredit portfelinin yaradılmasına təsir edir.

Kredit siyasəti aşağıdakıları əhatə edir:

• Müştəri seqmenti və kredit tələblərinə uyğun olaraq kredit qiymətləndirmə modellərinin qurulması;

• Kredit risklərinin təminatlı və səmərəli şəkildə mənfəətli istifadəsinin təmin edilməsi;

• Nəticələrə görə kreditlərin izlənilməsi;

• İqtisadi və siyasi konyunkturanın izlənilməsi ilə dəyişikliklər nəzərə alınaraq yeni razşılaşma və düzəlişlərin edilməsi.

Banklarda kredit siyasəti və strategiyaları, bank rəhbərliyinin nəzərdə tutduğu büdcə, hədəf və strategiyalara uyğun olaraq hazırlanılır. Qlobal iqtisadi inkişafın ölkə iqtisadiyyatı və digər sektorlar üzərindəki təsiri dəyərləndirilir və nəzərdə tutulmuş siyasətlərə uyğunluğuna mütləq diqqət yetirilir. Mövcud siyasətin tətbiqi ilə kredit portfelinin həcmi, cəmlənməsi, kifayətliliyi təsbit edilir və lazımi tənzimləmələr həyata keçirilir.

Kredit siyasəti standartlaşdırılmış kredit üzrə faiz dərəcələrinin təyin edilməsi prosesinə xüsusi diqqət göstərir. Belə ki, kredit faizlərinin müəyyənləşdirilməsi prosesində xərclərin azaldılaraq məhsuldarlığın artırılması təmin oluna bilər. Kommersiya banklarında portfelin idarə edilməsi və nəzarəti ilə gələcəyə istiqamətli proqnozların verilməsinə imkan verən kredit siyasətinin təşkili nəzərdə tutulur.

Kredit siyasətinin bankın bütün şöbələrinə tətbiq oluna bilməsi üçün qəbul edilmiş kredit qaydalarının yazılı qaydalara çevrilməsi lazımdır. Kredit qaydaları:

• Etibarlı kreditvermə standartlarının formalaşmasına,

• Kredit riskinin müəyyən edilməsinə və idarə olunmasına,

• Riskin doğru bir şəkildə qiymətləndirilməsinə, nəzarətinə və izlənməsinə,

• Problemli kreditlərin müəyyən edilməsinə və idarə olunmasına,

• Bankın ehtiyacına istiqamətlənmiş portfelin idarə olunmasına yönəldilmiş şəkildə əhatəli, dəqiq və açıq olaraq təyin edilir.

Kredit siyasət və strategiyalarının həyata keçirilməsində bankların bazar payının optimal böyüklüyü, yəni gəlir tarazlığının artırılması hədəf olaraq götürülür. Bu səbəblə, "doğru firmaya doğru təminatla və doğru kredit verildikdə kredit geri dönər" prinsipi əsasdır.

Yüksək aktiv keyfiyyətə malik olmaq məqsədilə bankın həyata keçirtdiyi kredit siyasətinin ən əhəmiyyətli aləti kreditləşmə standartlarının yaradılmasıdır. Bu standartın yaradılması ilə qurulacaq kredit qiymətləndirmə modelləri əhəmiyyətli rola malikdir.

Kredit siyasəti özündə aşağıdakı ünsürləri birləşdirir:

1. kreditin növləri və ödənişləri;
2. kredit işçilərinin səlahiyyətləri və məsuliyyətləri;
3. kredit qərarının alınma müddəti;
4. lazımi sənəd və zəmanətlər;
5. faiz, komissiya və digər xərclər;
6. geri ödəmə şərtləri;
7. kredit limitləri və standartları;
8. Problemli kreditlərə tətbiq olunan siyasət.

Bankların kredit resursları ilə təminatında bank kapitalının rolu

Adətən, səhmdar kommersiya banklarının nizamnamə kapitalı satılmış səhmlərdən daxil olmuş vəsaitlər hesabına formalaşır. Lakin nizamnamə kapitalı təkcə daxil olmuş pul vəsaitləri hesabına deyil, həm də maddi və qeyri-maddi aktivlərin, həmçinin üçüncü şəxsin qiymətli kağızları hesabına da formalaşa bilər. Xüsusi kapital bilavasitə banka məxsus olan vəsaitlərdir. Xüsusi kapital öz çə-

kisinə görə ümumi kapitalda az bir hissəni təşkil etsə də, kredit təşkilatının normal fəaliyyətini təmin etmək üçün mühüm funksiyaları yerinə yetirir. Bu funksiyalar aşağıdakılardan ibarətdir: müdafiə funksiyası, operativ funksiya, tənzimləmə funksiyası.

Milli bankların şəxsi kapitalının kifayətlilik dərəcəsi ilə bağlı tələblərin hazırlanması zamanı verilən standartlardan Azərbaycanda da istifadə olunur. Hazırda Azərbaycanda yeni bank açmaq üçün 50 milyon manat tələb edilir.

Məcmu kapitalın idarə edilməsi ilə bağlı strategiya və bankdaxili prosedurlar bankın İdarə Heyəti tərəfindən hazırlanır, Müşahidə Şurası tərəfindən təsdiq edilir və bankın müvafiq əməkdaşlarına çatdırılır.

01.04.2015-ci ilin sonuna Azərbaycan bank sisteminin məcmu kapitalının həcmi 4400 mln. manat olmuşdur. I dərəcəli kapitalın məcmu kapitalda payı 80%, mənfəətin payı 8,9% olmuşdur. Bank sisteminin məcmu kapital adekvatlığı yüksək səviyyədə qalmış (16,9%) və Mərkəzi Bankın müəyyən etdiyi minimal normanı (12%) xeyli üstələmişdir.

Aktivlərin və kapitalın artım tempində disbalansların neytrallaşdırılması, bank sisteminin sabitliyini təmin etmək, aktivlərin köpüklərinin yaranmasının qarşısını almaq, bank aktivlərinin sağlam artımını təmin etmək məqsədilə Mərkəzi Bank tərəfindən 2010-cu ilin sonunda yeni leverec əmsalı tətbiq olunmuşdur. Banklar leverec əmsalını 8 faizdən az olmayan səviyyədə saxlamağa borcludurlar.

Banklarda kredit riski və onun idarə edilmə sistemi

Risk – gözlənilməz hadisələrin bankın kapitalına mənfi təsir göstərə bilməsi və bankın biznes məqsədlərini həyata keçirmək imkanlarını məhdudlaşdırması ehtimalıdır.

Ümumi bank səviyyəsində bazar riski mövcuddur. Bazar riski - faiz dərəcəsi, xarici valyuta məzənnəsi və kapitalın (həmçinin bazar qiymətli kağızlarının) qiymətlərindəki enib-qalxmaların nəticəsində bank aktivinin bazar dəyərini dəyişməsindən itkiyə səbəb ola bilən ehtimaldır. Bu anlayışa əsasən bazar riski riskin mənbəyindən asılı olaraq aşağıdakı kateqoriyalara bölünə bilər: Faiz dərəcəsi riski – faiz dərəcəsinin dəyişilməsi nəticəsində yaranan riskdir. Bu risk mənbəyi ilk növbədə faiz gətirən maliyyə alətlərinə təsir edir; xarici valyuta riski – valyuta məzənnələrindəki dəyişikliklərə görə yaranan riskdir. Bu risk mənbəyi xarici valyutada yerləşdirilən alətlərin portfelinə təsir edir. O, həmçinin ticarət əməliyyatları müxtəlif valyutalarda aparıldıqda və sonradan qiymətləndirmə uçotu və hesabatları yerli valyutaya çevrildikdə bankın ümumi portfeli xarici valyuta riski ilə üzləşə bilər; kapital riski – kapitalın və digər bazar giymətli kağızlarının qiymətlərindəki dəyişikliklərə görə yaranan riskdir. Bu risk mənbəyi kapital portfelinə, eləcə də hecinq və spekulyasiya məqsədləri üçün istifadə edilən kapitalın törəmə alətlərinə təsir göstərir; əmtəəmal riski - əmtəə-mal qiymətlərindəki dəyişikliklərə görə yaranan riskdir. Bu risk mənbəyinin təsir göstərdiyi portfellər faktiki əmtəələrdən (məsələn, qızıl) və ya əmtəə fyuçerslərindən və forvard müqavilələrindən ibarət ola bilər. Bu riskin banklara təsiri onların fəaliyyətindən asılı olacaqdır.

Risklərin idarə edilməsi funksiyasını həyata keçirən təşkilati struktur ümumi bank səviyyəsində (Bazar riski: faiz dərəcəsi riski, valyuta riski, kapital riski, əmtəə riski) gözlənilməz hadisələrin bankın kapitalına mənfi təsir göstərə bilməsi və bankın biznes məqsədlərini həyata keçirmək imkanlarını məhdudlaşdırmasının qarşısını almaqla bərabər, həmçinin bankın daxilindən qaynaqlanan, yəni ayrı-ayrı fərdi əməliyyat səviyyəsində(Kredit riski, Əməliyyat riski, Nüfuz riski, Strateji risk, Likvidlik riski) ortaya çıxan riskləri minimizə etmək məcburiyyətindədir.

Kredit riski, aktivin dəyərini itirməsinə və yaxud dəyərsiz hala düşməsinə səbəb olan, borcalanın maliyyə vəziyyətinin pisləşməsi kimi hadisədən (balansdankənar hadisələr daxil olmaqla) yaranan zərər ehtimalıdır.

Kredit risklərinin idarə edilməsində məqsəd, belə kredit hadisələrini aradan qaldırmaq, kredit riski təhlükəsini məqbul olan parametrlər daxilində saxlamaq, bank aktivlərinin sağlamlığını qo-

rumaq və onlardan əldə olunacaq gəlirlərin itkiləri örtəcəyini təmin etməkdən ibarətdir. Banklar, bütün kredit portfelinin riskini, eləcə də ayrı-ayrı kreditlərdə və ya əməliyyatlarda mövcud olan riskləri idarə etməlidir.

Nəticə

Beləliklə, hər bir bankda onun əməliyyatlarının növünə, həcminə, fəaliyyətinin xüsusiyyətlərinə və mühitinə, mürəkkəbliyinə və üzləşdiyi risklərə adekvat risklərin idarə edilməsi sistemi yaradılır. Bankların kapitalının minimum məbləğinin 50 mln. manatadək artırılması barədə Mərkəzi Bankın 25 iyul 2012-ci il tarixli qərarı sistemdə kapitalizasiya proseslərini sürətləndirmişdir. Qərarın qəbulundan ötən 2 il ərzində məcmu bank kapitalı 120 % və ya 4.4 mlrd. manat artmış, kapitalı 100 milyon manatdan çox olan özəl bankların sayı 3-dən 8-ə yüksəlmişdir.

Sistem üzrə kreditlərin aktivlərdə payı 01.01.2015-ci il tarixinə 70% təşkil edir. Azərbaycanda kreditlərin qeyri-neft ÜDM-inə nisbətinin səviyyəsi digər inkişaf etməkdə olan ölkələrlə müqayisədə qənaətbəxş səviyyədədir. Mərkəzi Bankın banklar arasında apardığı sorğulara əsasən iqtisadi subyektlərin bank kreditlərinə tələbi gələcəkdə də yüksək qalacaqdır. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, cari və növbəti illərdə kredit portfelinin dinamikasına və strukturuna ənənəvi faktorlarla (biznes tsikli, mövsumi və s.) yanaşı AMB-nin prudensial tələblərinin (həm kreditlərin anderraytinqinə dair, həm də normativ tələblərin) sərtləşdirilməsi təsir edəcəkdir.

Banklarda risklərin idarə olunması potensialının gücləndirilməsi istiqamətində AMB tərəfindən nəzarət tədbirlərinin davam etdirilməsi risk tolerantlığının azalmasına, uzunmüddətli dövrdə risk-gəlir tarazlığının gözlənilməsinə, kredit anderraytinqi zamanı borcalanlara qarşı qeyri-maliyyə tələblərinin ciddiləşdirilməsinə səbəb olmuşdur.

ƏDƏBİYYAT

1. Долан Э., Кэмпбелл К. и Кэмпбелл Р. Деньги, банковское дело и денежно-кредитная политика. М., 2014.
2. Панова Г.С. Кредитная политика коммерческого банка во взаимоотношениях с населением. Москва, 2007.
3. Zahid Fərrux Məmmədov. Bank fəaliyyətinin əsasları. Bakı, dərs vəsaiti, 2014.
4. Bağırov M.M. Bank işi. Dərslik. Bakı, 2013.

Парвиз Видади оглы Зейналов
преподаватель АГЭУ

Суть кредитной политики коммерческих банков
(теоретическиеипр актическиеаспекты)

Резюме

Кредитная политика банка – программа и направление действий кредитной организации в области предоставления займов юридическим и физическим лицам. В статье рассматривается понятие политики в целом и в частности кредитной политики коммерческих банков. Определены функции кредитной политики, направления развития и указана ее роль в совершенствовании банковской деятельности. Основная цель проведения кредитной политики банка - получение максимальной прибыли при минимальном уровне риска.

Ключевые слова: кредитная политика, депозитная политика, процентная политика, вклады, кредитный риск.

Parviz Vidadi Zeynalov
teacher of the ASUE

The essence of the credit policy of banks kommercheskix
(theoretical and practical aspects)

Summary

The credit policy of the bank - the program and the direction of credit institutions in theprovision of loans to businesses and individuals. The article discusses the concept of politics in general and in particular the credit policy of commercial banks. Functions of the credit policy, development trends and contains its role in improving banking. Themain objective of the credit policy of the bank - to maximize profits with minimal risk.

Key words: credit policy, deposit policy, interest rate policy, deposits, credit risk.

UOT 336.714

Firdovsi Damət oğlu BAĞIROV
Azərbaycan Dövlət İqtisad Universitetinin
"Bank işi" kafedrasının dissertantı

İNVESTİSİYA ANLAYIŞI VƏ MAHİYYƏTİ

Xülasə

Məqalədə kommersiya banklarında tətbiq olunan kredit siyasətinin mahiyyəti, nəzəri və praktiki aspektləri təhlil edilir.

Banklarda kredit siyasəti və strategiyaları, bank rəhbərliyinin nəzərdə tutduğu büdcə, hədəf və strategiyaları müəyyənləşdirilir.

Məqalədə kredit siyasəti çərçivəsində faiz dərəcələrinin müəyyən edilməsi prosesinə xüsusi əhəmiyyət verilir. Məqalədə kredit siyasətinin əsas məqsədi müəyyənləşdirilir.

Açar sözlər: investisiya, səhm, istiqraz, maliyyə aktivləri, investisiya mühiti.

***

İnvestisiya iqtisadiyyatın inkişaf etməsi və güclənməsində böyük rola malikdir. İnvestisiya ümumilikdə ümumi istehsala və məşğulluğa, iqtisadiyyatda struktur irəliləyişinə, təsərrüfat sferasının inkişafına təsir göstərir.

Hazırda Azərbaycan Hökuməti ölkədə iqtisadi islahatların davam etdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, neft sektoru ilə bərabər, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı tədbirlər həyata keçirir.

İnvestisiya və plasman anlayışlarının fərqliliyi

İnvestisiya dedikdə gəlir götürmək məqsədilə pul vəsaitlərinin uzunmüddətli qoyuluşu nəzərdə tutulur. Birləşmiş Millətlər Təşkilatı (BMT) investisiyaları 1953, 1968 və 1993-cü illərdə Milli Hesablar Sistemi (System of National Accounts – SNA) içində təsnif etmişdir 1993-cü ildəki SNA, BM, OECD, IMF, IBRD və Avropa Topluluqları Komissiyası tərəfindən müştərək hazırlanmışdır. Bununla rəsmi olaraq dünya miqyasında statistikaların müqayisə edilə biləcək vəziyyətə gəlməsi təmin edilmişdir. 1993-cü ildəki SNA iqtisadi varlıqları maliyyə iqtisadi varlıqları və qeyri-maliyyə aktivləri olaraq ikiyə ayırmışdır.

Maliyyə iqtisadi aktivləri aşağıdakı komponentlərdən təşkil olunur: Bono; istiqraz; səhm; qızıl; kassa-bank; avanslar; debet hesabları.

Ümumi olaraq investisiyaları aşağıdakı şəkildə təsnif etmək mümkündür: etüd-proyekt investisiyaları; yeni investisiyalar; fəaliyyəti davam etdirmə və yeniləmə investisiyaları; ekspansiya investisiyaları; tamamlama və çətin situasiyaları açmaq üçün ekstremal investisiyalar; modernləşdirmə və təkmilləşdirmə investisiyaları; araşdırma-inkişaf etdirmək (research and development R&D) investisiyaları.

İqtisadiyyatda gəlir və məşğulluğu artıran təməl ünsür olan investisiya anlayışına bəzi hallarda yanlış tərif verilir. Məsələn, mövcud bir fabrikin, bir ərazi və ya tarlanın satın alınması xalq arasında investisiya adlandırılır. O isə bu kimi xərcləmələrdə iqtisadiyyatda yeni bir istehsal gücü təşkil etmir, sadəcə mövcud mal və xidmətlər bir əldən başqa ələ keçir. Mövzuya mikrosəviyyədə baxsaq, bu hadisə mövcud bir fabrikə satın alan şirkət baxımından bir investisiyadır. Ancaq mikrosəviyyədə düşünsək bunun bəsit bir əldən-ələ dəyişmə olduğunu görərik. Bunun kimi, qiymətli kağızların satın alınması halı da investisiya çərçivəsi xaricindədir. Səhm, istiqraz satın alan şəxsin etdiyi xərcləmə də bir investisiya xərcləməsi deyildir. Buna iqtisad dilində (ingiliscə placement) playsmant deyilir, yəni playsmant sadəcə mövcud yatırımların əldən-ələ keçməsidir, yeni bir investisiya deyildir. İnvestisiya isə sadəcə sərmayə həcminə qoyulan əlavə kapitaldır.

Plasman - pulun, gəlir gətirən daşınır və daşınmaz mallara və ya digər sərvət ünsürlərinə qo-

yularaq dəyərləndirilməsidir. Plasman mövcud investisiyaların əl dəyişdirməsidir, yəni bir investisiya deyildir. Adətən, sənayeləşmiş ölkələrdə plasman səhmlərə yatırılan vəsaitdir.

Bunların alqı-satqısı iqtisadiyyatda mövcud istehsal gücləri üzərindəki mülkiyyət haqqının bir əldən başqa ələ keçməsi prosesidir.

İqtisadi anlamda investisiya fondların sərmayə mallarına (real varlıqlara) yönəlməsidir. Ümumiyyətlə, hər hansı bir ölkədə yığımın həcmi real investisiyalar təşkil edir, real investisiyaların həcmi isə bu investisiyaların gerçəkləşdirilməsi üçün yetərli fondların olmasına, digər bir ifadə ilə desək, yığım fondlarının axtarılmasına bağlıdır. Real varlıq investisiyaları yenidənqurmaya və istehsal gücünün artımına yönəldilmiş investisiyalardır.

Ümumiyyətlə, iqtisadçıların sərmayənin marjinal təsiri adlandırdıqları və maliyyə nəzəriyyəsində daxili gəlirlik nisbəti (internal rate) olaraq tanınan investisiyanın səmərəlilik nisbəti, şübhəsiz, investisiyaya yönəlik planların qərara alınmasında önəmli amildir.

İnvestisiyanın kriterlərə təsnifatı

İnvestisiyanın təsnifatı seçmiş olduğumuz kriteriyalar əsasında müəyyənləşdirilir. Vəsaitlərin obyektlərə qoyuluşuna görə investisiya real və maliyyə investisiyalarına bölünür. Real investisiya vəsaitin real iqtisadi aktivlərə qoyuluşunun məcmusu kimi çıxış edir: maddi resurslar və qeyrimaddi aktivlər. Maliyyə investisiyası vəsaitlərin müxtəlif maliyyə aktivlərinə qoyuluşunu əks etdirir: qiymətli kağızlar, bank depozitləri və s.

İnvestisiya məqsədlərinə görə birbaşa və portfel investisiyasına ayrılır. Birbaşa investisiya, investisiya qoyulan obyekt üzərində nəzarət və idarəetməni həyata keçirmək məqsədilə müəssisənin nizamnamə kapitalına qoyulan investisiyadır. Portfel investisiya gəlir əldə olunması (investisiya obyektinin bazar qiymətinin artması, dividend, faiz, digər pul ödəmələri) və riskin diversifikasiyası məqsədini daşıyır.

Müddətə görə investisiyalar qısamüddətli, ortamüddətli və uzunmüddətli olur.

İnvestisiyanı resurslar üzərində mülkiyyət formasına görə şəxsi, dövlət, xarici və müştərək investisiyalara bölmək olar.

Regional göstəricilərə görə investisiyalar ölkədaxili və xarici olur. Ölkədaxili investisiya vəsaitin ölkə daxilindəki obyektlərə qoyuluşunu həyata keçirir. Xarici investisiya isə ölkə xaricində həyata keçirilən investisiyadır.

Sahəvi göstəricilərə görə investisiyalar bir-birindən fərqlənir: sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və rabitə, ticarət və s.

Riskə görə investisiyalar aqressiv, mülayim və konservativ olur. İqtisadi ədəbiyyatda investisiyanın maliyyə mənbəyi təhlil edilərkən daxili və xarici mənbələr qeyd edilir.İnvestisiyanın daxili mənbələrinə bir qayda olaraq daxili mənbələr, həmçinin şirkətin öz vəsaitləri, maliyyə bazarının resursları, əhalinin əmanətləri, büdcə investisiya təxsisatı aid edilir.

Xarici mənbələr isə xarici investisiya kreditləri və istiqrazlar hesab edilir.İnvestisiya maliyyələşməsinin daxili və xarici mənbələrinin təhlili makroiqtisadi və mikroiqtisadi səviyyələrdə aparılmalıdır. Makroiqtisadi səviyyədə investisiya maliyyələşməsinin daxili mənbələrinə aşağıdakılar aid edilir: büdcə maliyyələşməsi, əhalinin əmanətləri, şirkətlərin yığımı, qeyri-hökumət pensiya fondları, kommersiya bankları, investisiya fondları, sığorta şirkətləri və s. xarici mənbələrə isə xarici investisiya kreditləri və borc öhdəlikləri aid edilir.

Mikroiqtisadi səviyyədə isə investisiya maliyyələşməsinin daxili mənbələrinə gəlir, amortizasiya, şirkət sahiblərinin investisiyası aid edilir. Mikroiqtisadi səviyyədə xarici mənbələr dövlət maliyyələşməsi, investisiya kreditləri, şəxsi qiymətli kağızların yerləşdirilməsi yolu ilə cəlb olunan vəsaitlər hesab edilir.

Bank kreditinin növü olan investisiya krediti investisiya məqsədləri üçün həyata keçirilir. Kredit kreditləşmənin əsas prinsiplərinə əməl olunmaqla verilir: qaytarılma, müddətlilik, ödəniş təminatı, məqsədli istifadə.

İstiqrazların buraxılmasından əvvəl uzunmüddətli bank ssudalarının alınmasının öz üstünlükləri vardır:

• daha çevik maliyyə sxemi;

• faiz dərəcələrinin fərqində udmaq imkanı;

• qiymətli kağızların reyestri və yerləşdirilməsi ilə bağlı olan xərclərin olmaması.

Maliyyə hesabatlarında qiymətli kağızlar təyinatına görə aşağıdakı qaydada təsnifləşdirilir:

1. Borc qiymətli kağızlar;
2. Dilinq əməliyyatları üçün qiymətli kağızlar;
3. İnvestisiyalar.

Borc qiymətli kağızların alınmasında məqsəd ödəniş müddəti tamamlanana qədər saxlanılmaqla, müəyyən olunmuş faiz gəlirlərinin əldə olunmasıdır.

Dilinq əməliyyatları üçün qiymətli kağızların alınmasında əsas məqsəd faiz və dividend gəlirlərinin götürülməsi deyil, bu qiymətli kağızların alış və satış dəyərinin arasındakı fərqdən gəlir əldə olunmasıdır.

Maliyyə hesabatlarında investisiyalar müəssisələrin fəaliyyətində iştirak payından asılı olaraq təsnifləşdirilir. Qiymətli kağızlar portfelində olan qiymətli kağızlar Azərbaycan Respublikası qanunvericiliyinə və Mərkəzi Bankın normativ aktlarına uyğun olaraq bankın daxili sərəncamına əsasən müvafiq məqsədlərə uyğun yenidən təsnifləşdirilə bilər. Qiymətli kağızların yenidən təsnifləşdirilməsi balans dəyərinə əsasən aparılır.

Xarici investisiyanın dövlət təminatı. Xarici investisiyanın cəlb olunmasının ən vacib şərtlərindən biri xarici investorların hüquq və maraqlarının dövlət zəmanətidir. Bunlar da əsasən aşağıdakı şəkildə həyata keçirilir:

• konstitutsiya və xüsusi normativ aktlar əsasında ;

• xarici investisiyaların qorunması və stimullaşdırılması barədə olan ikitərəfli və çoxtərəfli dövlətlərarası sazişlər çərçivəsində;

• dövlətlərarası və başqa ölkələrin vətəndaşlarının investisiya mübahisələrinin tənzimlənməsi üzrə konvensiyalarda iştirak etmək.

1985-ci ildə xarici investisiyaya təsir göstərmək məqsədilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı çərçivəsində investisiyanın zəmanətləndirilməsi barədə Beynəlxalq Agentlik yaradılmışdır. Agentlik aşağıdakı qeyri-kommersiya riskləri zamanı xarici investorlara uzunmüddətli zəmanət verir:

• kapitalın dəyişdirilməsi və ötürülməsində dövlət tərəfindən tətbiq olunan məhdudiyyətlər zamanı;

• xarici investorları mülkiyyət hüququndan, investisiya üzərində nəzarətdən məhrum edən dövlətin hüquqi və inzibati tədbirləri zamanı;

• xarici investorların hüququnu pozan inzibati və məhkəmə təcrübəsi zamanı;

• silahlı qarşıdurmalar və vətəndaş müharibəsi zamanı.

İnvestisiyanın stimullaşdırılmasına təsir edən amillər

İnvestisiyanın stimullaşdırılmasına təsir edən 2 önəmli amil vardır: investisiyanın gəlirlilik nisbəti və investisiyanın maliyyə mənbələrinin ortalama xərcləri. Maliyyə bazarında cəlbetmə vəsaitlərinin aşağı və ya yuxarı səviyyədə olmasına təsir edən başlıca amillər: Mərkəzi Bankın apardığı pul siyasəti, ölkə iqtisadiyyatının yığım potensialı və onun kapital bazarındakı fəaliyyətinin əhatə dairəsi təşkil edir.

İnvestisiya fəaliyyətinin mərhələləri və investisiya resurslarının tərkibi

İnvestisiya fəaliyyətinin iki əsas mərhələsi var. Birinci mərhələ "investisiya resursları və vəsaitin qoyuluşu" investisiya fəaliyyətinin elə özü hesab edilir. İkinci mərhələ "vəsaitin qoyuluşu – investisiyanın nəticəsi" həyata keçirilən xərcləri və investisiyanın istifadə olunması nəticəsində gəlir əldə edilməsini nəzərdə tutur. Buna görə də, investisiya fəaliyyətini resursların qoyuluşu

və gələcəkdə gəlir əldə etmək proseslərinin vəhdəti kimi müəyyən etmək olar.

İnvestisiya fəaliyyətinin əsas subyektləri investorlar və investisiya obyektinin istifadəçiləri hesab edilir. İnvestorlar əmanətçilər, alıcılar, sifarişçilər, kreditorlar və investisiya fəaliyyətinin digər iştirakçıları ola bilərlər. İnvestisiya fəaliyyəti obyektinin istifadəçiləri investisiya fəaliyyəti obyektlərindən istifadə edən hüquqi və fiziki şəxslər, dövlət və bələdiyyə orqanları, xarici ölkələr, beynəlxalq birlik və təşkilatlar ola bilərlər.

İnvestisiya obyekti isə ikili xarakter daşıyır. Bir tərəfdən onlar investisiya resursları kimi çıxış edir, digər tərəfdən isə kapital əmlakının artımını müəyyən edən sahibkarlıq obyektlərinə qoyuluşu nəzərdə tutur.

İnvestisiya resurslarının tərkibinə aşağıdakılar aid edilir:

• pul vəsaitləri və maliyyə alətləri (depozit, istiqraz, səhm və s.);

• maddi dəyərlər (bina, avadanlıqlar və digər daşınan və daşınmaz əmlak);

• pul qiymətinə malik mülki, intellektual və digər hüquqlar.

İnvestisiya riskinin qiymətləndirilməsi

Bazar iqtisadiyyatında investisiya qoyuluşunun müxtəlif imkanları mövcuddur. Hüquqi və fiziki şəxslərin kapital qoyuluşunun seçilməsi zamanı ən əsas kriteriyalardan biri investisiya riskinin qiymətləndirilməsidir. İnvestisiya riskinin əsas növlərinə aşağıdakıları aid etmək olar:

• sistematik risk – makro səviyyədə risk;

• qeyri-sistematik risk – mikro və ya qiymətli kağızlarla bağlı bütün növ risklərin ahəngi.

Sistematik risk ölkədə və dünyada baş verən ümumi iqtisadi və siyasi vəziyyət, resursların qiymətinin artımı, maliyyə aktivlərinin ümumbazar qiymətlərinin aşağı düşməsi ilə bağlı olan riskdir. Sistematik risk kateqoriyasına aşağıdakılar aid edilir:

1. Valyuta riski (valyuta kursunun dəyişməsi riski);
2. Faiz dərəcələrinin dəyişmə riski;
3. Ümumbazar qiymətlərinin aşağı düşməsi və inflyasiya riski.

Faiz dərəcələrinin dəyişmə riski əsasən inflyasiya dövründə daha aktualdır. Ümumi bazarda aşağı düşmə riski qiymətli kağızlar bazarında dövr edən qiymətli kağızların qiymətinin eyni vaxtda aşağı düşməsi ilə bağlı olur. Bu risk əsasən aksiyalarla aparılan əməliyyatlara bağlı olur. İnflyasiya riski pulun alıcılıq qabiliyyəti ilə şərtləndirilir. Bu risk bütün dünyada mövcuddur. Burada fərq yalnız onun müxtəlif ölkələrdə ayrı-ayrı səviyyələrdə olması ilə bağlıdır. Qərbdə illik inflyasiya səviyyəsi 3% norma hesab edilir.

Qeyri-sistematik risk kateqoriyasına likvidlik, sahəvi, kommersiya və maliyyə riskləri aid edilir.

Likvidlik riski – qiymətli kağızların bazardakı realizasiyası zamanı gecikmələrlə bağlı olur. İnvestor hər zaman əmin olmalıdır ki, o, öz qiymətli kağızını sata bilər və öz kapitalını nağd pula çevirə bilər.

Sahəvi risk - iqtisadiyyatın sahələrindəki dəyişikliklərlə bağlı kommersiya riski qiymətli kağızlar bazarı iştirakçılarının konkret fəaliyyəti nəticəsində gəlir əldə edilməsi və ya zərər olması ilə bağlı olur.

Kommersiya riskinin əsas faktorları aşağıdakılardır: alıcılıq qabiliyyətinin səviyyəsi, emitentin maliyyə sabitliyi, idarəetmə keyfiyyəti və investorda kifayət qədər informasiyanın olması.

Maliyyə riski – qiymətli kağız emitentinin gəlirsizlik və iflasa uğramaqla bağlı zərər riskidir. Ümumilikdə maliyyə riskinin iqtisadi və siyasi qeyri-müəyyənliyi aşağıdakı kimi xarakterizə edilə bilər:

• kəmiyyət üzrə risk: aşağı, orta və yuxarı;

• ehtimal olunma üzrə risk – gəlirin bir hissəsinin itirilməsi üzrə;

• kritik risk – bu zaman gəlir tamamilə itirilir və xərclərin yerini doldurmaq zəruriyyəti yaranır:

• katastrofik risk – əmlakın tamamilə itirilməsi;

• obyektlər üzrə risk – sahibkarın, müəssisənin, bankın, sığorta şirkətinin riski;

• fəaliyyət növü üzrə risk – istehsal, vasitəçi, ticarət, nəqliyyat, sığorta, mühasibat və digər fəaliyyət növlərinin riskləri;

• iqtisadi mahiyyət üzrə risk;

• xarakter üzrə risk – əməliyyati inflyasiya, kredit, faiz, valyuta əməliyyatı riski bu və ya digər müəyyən əməliyyatların həyata keçirilməsi metodunun düzgün seçilməsi ilə bağlıdır. Bu növ risklərə menecerlərin riskləri aid edilir.

İnflyasiya riski inflyasiyanın dəqiq proqnozlaşdırma dərəcəsi və onun maliyyə təsərrüfat fəaliyyətinin nəticəsinə təsir etməsi ilə müəyyən edilir. Kredit riskinə kreditin ödənilməməsi və faizlərin ödənilməməsi riski kimi baxılır.

İnvestisiya riski - korporativ qiymətli kağızlar bazarında investisiya riski maliyyə riskinin müxtəlifliyi ilə bağlı olur. İnvestisiya riskinin iki növü var: diferensial və qeyri-diferensial risk. İnvestisiya riskinin səviyyəsi siyasi, iqtisadi, sosial, ekoloji, kriminal vəziyyətdən asılı olur.

İnvestisiya riskinin qiymətləndirilməsi metodları müxtəlifdir.Dünyada investisiya riskinin azaldılması məqsədilə praktiki fəaliyyət həyata keçirilir. Riskin idarə olunmasının metodiki bazası sistem təhlili hesab edilir. İnvestisiya layihəsinə təsir edən real faktorlar müəyyən edilir.

İnvestisiya qərarının qəbulu

İnvestisiya qərarının düzgün qəbul olunması üçün iqtisadi, sosial, ekoloji məsələlər və dövlət idarəçiliyinin aspektləri tam və hərtərəfli informasiya tələb edir. Bu informasiya investorların çoxu üçün mümkündür. Burada əsas maliyyə riskinin səviyyəsinin dəqiq qiymətləndirilməsidir. Sığorta şirkətləri riskin qiymətləndirilməsində ekspertlərin maliyyə riskinin səviyyəsini peşəkarcasına qiymətləndirir. Korporativ qiymətli kağızlar bazarında riskin azaldılması onun iş fəaliyyətinin düzgün təşkil olunmasından da çox asılı olur.

Azərbaycanda investisiya siyasəti

Ölkə iqtisadiyyatına investisiyaların cəlb olunması məqsədilə hökumət tərəfindən "açıq qapı" siyasəti həyata keçirilir. Hazırda Azərbaycan Hökuməti ölkədə iqtisadi islahatların davam etdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, neft sektoru ilə bərabər, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı tədbirlər həyata keçirir.

Azərbaycan Respublikasının ərazisində investisiya fəaliyyətinin (sərmayədarlığın) ümumi sosial, iqtisadi və hüquqi şərtləri və xarici investisiya qoyuluşunun hüquqi və iqtisadi prinsipləri müvafiq olaraq "İnvestisiya fəaliyyəti haqqında" və"Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilir.

Azərbaycanın uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində investisiyaların cəlb edilməsi xüsusi rol oynayır. İnvestisiyaların tələb olunan həcm və keyfiyyətinin təmin edilməsi məqsədilə ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılması qarşıda duran əsas vəzifələrdəndir və 2011 - 2014-cü illər üçün ölkədə dövlət investisiya siyasətinin ana xəttini aşağıdakı prioritetlər təşkil etmişdir: investisiya axınının qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsinin stimullaşdırılması; regionlar arasında investisiyaların bölüşdürülməsinin optimallaşdırılması; ölkədə investisiya fəaliyyətinin sosial istiqamətinin gücləndirilməsi, insan kapitalına, infrastruktura qoyulan investisiyaların prioritetliyi; dövlət investisiya siyasətinin tam şəffaflığının təmin edilməsi; ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasına nəzarətin gücləndirilməsi və dövlətin müdafiə qabiliyyətinin artırılması.

Özəl investisiyalar sahəsində siyasətin əsas istiqamətlərinin prioritetləri: Azərbaycan müəssisələrinin investisiya cəlbediciliyinin daha da artırılması məqsədilə tədbirlərin davam etdirilməsi; müəssisələrin texnoloji yenidənqurulması məqsədilə müasir texnoloji avadanlığın Azərbaycana gətirilməsi üçün xarici ticarət rejiminin təkmilləşdirilməsi; daxili investisiyalarla yanaşı birbaşa xarici investisiyaların ixracyönümlü və əlavə dəyərin xüsusi çəkisi yüksək olan sahələrə yönəldilməsi; xidmət sahələrində birbaşa xarici investisiyaların tənzimləmə rejiminin təkmilləşdiril-

məsi və beynəlxalq standartlara uyğun mühasibat uçotunun və auditor fəaliyyətinin yaradılması prosesinin sürətləndirilməsi.

Ölkədə sahibkarlığın inkişafının sürətləndirilməsi, biznes mühitinin əlverişliliyinin daha da artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi üçün zəruri tədbirlərin görülməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti “Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin “bir pəncərə” prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında” 2007-ci il 25 oktyabr tarixli Sərəncam imzalamışdır. Sərəncama əsasən, “bir pəncərə” prinsipi üzrə vahid dövlət qeydiyyat orqanı Azərbaycan Respublikasının Vergilər Nazirliyi müəyyən edilmiş və 2008-ci ilin 1 yanvar tarixindən Azərbaycanda bu sistemin tətbiqinə başlanmışdır. “Bir pəncərə” sisteminin tətbiqindən sonra Azərbaycanda biznesə başlama prosedurları 15-dən 1-ə və bunun üçün sərf olunan vaxt 30 gündən 3 günə endirilmişdir.

İqtisadi fəaliyyətin artırılması və sahibkarlığın dinamik inkişafı məqsədilə vergi sistemində aşağıdakı dəyişikliklər edilib: müəssisə və təşkilatların mənfəətindən vergi tutulmasının proqressiv sistemindən proporsional sisteminə keçilməsi və bu vergi növü üzrə vergi dərəcələrinin tədricən 35%-dən 20%-ə endirilməsi, ƏDV-nin dərəcəsinin 28%-dən 18%-dək azaldılması, bir sıra vergilərin ləğv edilməsi, fiziki şəxslərin gəlirlərindən tutulan vergilərin dərəcələrinin maksimum həddinin 55%-dən 35%-ə endirilməsi.

Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan “Doing Business 2009” hesabatında Azərbaycan biznes mühitinin yaxşılaşdırılması sahəsində ən islahatçı ölkə elan edilmişdir. “Doing Business 2010” hesabatında isə ölkəmiz öz mövqelərini qoruyub saxlamış və “Doing Business 2011” hesabatında Azərbaycan 183 ölkə arasında 54-cü yeri tutmuşdur. Hesabatda 2006-cı ildən etibarən 5 il ərzində Azərbaycanın biznes mühiti üzrə əhəmiyyətli islahatlar apardığı və biznes mühitinin təkmilləşdirilməsinə xüsusi diqqət ayırdığı qeyd edilmişdir.

“Qlobal Rəqabətlilik Hesabatı”nda Azərbaycan MDB ölkələri arasında 1-ci yeri, makroiqtisadi mühitin stabilliyi altindeksi üzrə 139 ölkə arasında 13-cü yeri tutmuşdur.

ƏDƏBİYYAT

1. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu.
1. Bağırov D. Maliyyə. “Azərnəşr”. Bakı, 2014.
2. Məmmədov Z.F. Pul, kredit və banklar. Dərslik. Bakı, 2014.
3. Бирман Г., Шмидт С. Экономический анализ инвестиционных проектов / Пер. с англ. / Под ред. Л.П. Белых. М.: Банки и биржи, ЮНИТИ, 1997.
4. Вахрин П.И. Организация и финансирование инявесятияций (сборник практических задач и конкретных ситуаций): Учеб. Пособие. М.: Информационно-внедренческий центр “Маркетинг”, 1999.
5. Гитман Л.Дж., Джонк М.Д. Основы инвестирования: Пер. с англ. М.: Дело, 1997.
6. Глазунов В.Н. Финансовый анализ и оценка риска реальяных инвестиций. М.: Финстатинформ, 1997.
7. Ендовицкий Д.А. и др. Комплексный анализ и контяроль инвестиционной деятельности. М.: Финансы и статистика, 2000.
8. Игонина Л.Я. Инвестиции: учебное пособие. М.: “Экономистъ”, 2004.
9. Марковиц Г., Шарп У. Инвестиционный портфель и фондовый рынок. М.: Дело, 2001.
10. Мелкумов Я.С. Организация и финансирование инявесятиций: Учебное пособие. М.: Инфра-М, 2000.
11. Черкасов В.Е. Международные инвестиции. М.: Дело, 2001.
12. Шарп У., Александер Г., Бэйли Дж. Инвестиции: Пер. с англ. М.: ИНФРА-М, 2001.

Фирдовси Дамат оглы Багиров
докторант АГЭУ

Понятие и сущность инвестиции

Резюме

Привлечение инвестиций требует формирования благоприятного инвестиционного и общего делового климата в стране. В условиях быстрого развития в ряде развивающихся государств Азербайджан вынуждена укреплять свои позиции на международных рынках капитала и повышать свою национальную конкурентоспособность как страны реципиента прямых иностранных инвестиций. В этом контексте тема настоящей статьи представляется весьма актуальной. Обоснование роли инвестиций в экономическом росте и развитии национальной экономики, определение эффективности различных видов инвестиций, выявление приоритетных объектов инвестирования в целях подъема экономики.

Ключевые слова: инвестиции, акции, облигации, финансовые активы, инвестиционная среда.

Firdovsi Damat Baghirov
candidate for a degree of the ASUE

The concept and essence of investment

Summary

The main investment requires the formation of a favorable investment and the overall business climate in the country. With the rapid development of a number of developing countries, Azerbaijan is forced to the strengthen its position in the international capital markets and increase its competitiveness as a national of the country of the recipient of foreign direct investment. In this context, the theme of this article is very important. Justification of the role of investment in economic growth and development of the national economy, to determine the effectiveness of different types of investments, identification of priority investment targets in order to lift the economy.

Keywords: investing, stocks, bonds, financial assets, investment environment.

IV BÖLMƏ
BAZAR: SAHİBKARLIQ FƏALİYYƏTİ

UOT 330.341

Günay Şadət qızı MUSAYEVA
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

İSTEHLAK BAZARININ FORMALAŞMASININ NƏZƏRİ ASPEKTLƏRİ

Xülasə

Bazar sektorunda struktur dəyişiklikləri bütün təsərrüfat sisteminin regional iqtisadi inkişafına diqqət yönəlməsinə səbəb olaraq, bu sahədə nəzəri tədqiqatların genişlənməsinə gətirib çıxarmışdır. Keçirilən iqtisadi islahatların uğurlu nəticə ilə bitməsində bazarların ərazi sisteminin fəaliyyəti mühüm yer tutur. İqtisadi nəzəriyyədə istehlak bazarlarının formalaşması və inkişafını tədqiq edən nəzəriyyələr çox olsa da ayrıca lokal sistemlərin təşkili və səmərəliliyinin yüksəlməsinə kifayət qədər diqqət ayrılmayıb.

Məqalədə istehlak bazarına dair nəzəriyyələr təhlil edilmiş, onun formalaşması və inkişafının müxtəlif sosial-iqtisadi aspektləri qiymətləndirilmişdir. Həmçinin, istehlak bazarı anlayışının mahiyyətini izah edən müddəalar sistemləşdirilmişdir.

Açar sözlər: regional istehlak bazarı, konsepsiyalar, regionun iqtisadiyyatı, bazar məkanı, kompleks iqtisadi təhlil.

Giriş

Ayrı-ayrı bazar strukturları istehsal, bölgü, mübadilə və istehlak proseslərində iştirak edərək regionda təkrar istehsal prosesinin təbii gedişatını təmin edirlər. Bu prosesin son həlqəsi kimi lokal istehlak bazarı çıxış edir. İstənilən ölkənin birinci əhəmiyyətli məqsədi cəmiyyətin həyati əhəmiyyətli istehlak mallarına olan tələbatının ödənilməsi və regionlarda əhalinin rifah halının yüksəlməsidir. Bu səbəbdən istehlak bazarının formalaşması və inkişafı problemlərinə kompleks yanaşma zəruridir.

İstehlak bazarının mahiyyəti

Regional istehlak bazarının fəaliyyəti aşağıdakı elementlər arasındakı əlaqələrin strukturu ilə müəyyənləşir: əhalinin tələbatları və istehsal arasında; regional bazarda əmtəə və xidmətlərə olan tələb və təklif arasında; gəlirlərin diferensiasiyası və istehlakın xarakteri ilə; istehlakın səviyyəsi və strukturu arasında; cari istehlak və yığım arasında; istehlakın ictimai və fərdi formaları arasında əlaqələr və s.

Regional istehlak bazarının fəaliyyət məqsədi mövcud regionda əhalinin əmtəələrə olan tələbini maksimal ödəməkdir.Bunun əsasında tələb və təklifin qarşılıqlı əlaqəsinin bazar mexanizmləri vasitəsilə əmtəə-pul münasibətlərinin maksimum istifadəsi durur və regionda təkrar istehsal prosesi səmərəli fəaliyyət göstərir.

Ölkənin istehlak bazarı ayrı-ayrı regionların istehlak bazarlarının məcmusundan ibarətdir. Regional istehlak bazarı əhalinin tələbatlarını ödəyən mübadilə sahəsində yaranan sosial-iqtisadi əlaqələrin ərazi sistemidir. O həm alıcılarla satıcılar arasında iş,xidmət, əmtəə münasibətlərinin, həm də tələb ilə təklif arasında münasibətlərin məcmusudur. Regional istehlak bazarı açıq, dinamik sosial-iqtisadi sistem olub, qarşılıqlı təsir və əlaqədə olan iqtisadi sistemdir.

Regional istehlak bazarlarının formalaşması obyektiv olaraq konkret ərazidən və regionların hər birində tədavül sferasının təşkilindən asılıdır. Bazar sisteminin formalaşmasının təşkilati-iqtisadi elementlərindən əlavə, mövcud sistemin bazar iqtisadi sisteminin müasir tələblərinə nə dərəcədə cavab verməsi də təhlil olunmalıdır.

Regional istehlak bazarı bir sıra əhəmiyyətli funksiyaları yerinə yetirir: [4, s. 15]

- alqı-satqı sövdələşmələrinin vasitəsilə alıcılar və satıcılar arasındakı münasibətləri,həmçinin kontragentlərin iqtisadi maraqlarını təmin edir;
- regionlararası ticari-iqtisadi münasibətlərdə regionun iştirakını təmin edir;
- müxtəlif əmtəələrin qiymətləri arasında nisbəti və tarazlı qiyməti müəyyən edir;
- tələb və təklifin strukturunda kəmiyyət nisbətini müəyyənləşdirir;
- birbaşa və əks əlaqələr vasitəsilə istehsalçılar və istehlakçılar üçün siqnal sistemi rolunu oynayır;
- regionların əhalisi,müxtəlif sosial qruplar arasında əmtəə və xidmətlərin bölgüsünü həyata keçirir.

Regional istehlak bazarına üç böyük seqment aiddir: ərzaq malları bazarı, qeyri - ərzaq malları bazarı və istehlak xidmətləri bazarı.Hər üç seqment öz qarşılıqlı alqı-satqı əlaqələri vasitəsilə uzlaşır və əhalinin tələbatlarını təmin edərək regionun səmərəli inkişafına səbəb olur.

Hazırda "istehlak bazarı" anlayışının mahiyyətini izah edən yanaşmaların sayı kifayət qədərdir. F.Kotler, Q.V.Qutman, A.S.Novoselova, R.İ.Şniper və digər iqtisadçılar bu məsələni dərin araşdırmışlar. Bu yanaşmalar istehlak bazarının inkişafının müxtəlif sosial - iqtisadi aspektlərini əks etdirir:

- istehlak bazarının sosial-iqtisadi inkişafının loqistik tərkibinin müəyyənləşdirilməsi;
- satıcıların öz məqsədlərini reallaşdırmasına dair münasibətlər;
- əhalinin ehtiyaclarının ödənilməsinə dair münasibətlər;
- regionun iqtisadiyyatında istehlak bazarının yeri və rolu;
- istehlak bazarının sosial-iqtisadi münasibətlərinin dövlət tənzimlənməsi;
- nemətlərin mübadiləsi sahəsində sosial-iqtisadi əlaqələrin meyarları və s.

İstehlak malları bazarı - kütləvi istehlak təyinatlı malların bazarıdır. O aşağıdakı tədbirlərin nəticəsində formalaşır:

1. ərzaq və qeyri-ərzaq mallarının istehsalı və satışı sahəsində sahibkarlığın inkişafı;
2. kiçik və orta sahibkarlığın inkişafına dəstək yolu ilə;
3. kütləvi istifadə təyinatlı istehlak mallarının vergi və kredit stimullaşdırılması.

İstehlak malları bazarı funksional bazardır. Burada obyekt kimi əmtəələr, subyekt kimi isə satıcılar çıxış edərək əmtəələrin istehsalçıdan istehlakçıya doğru hərəkətini həyata keçirir.

İstehlak bazarının infrastrukturu dedikdə bütün bu sahəyə daxil pərakəndə və topdan ticarət müəssisələri və təşkilatları(ticarət strukturları,əmtəə istehsalçıları və əmtəələrin tədavülü sferasının normal fəaliyyətini, həmçinin bütün əhali qruplarına ticari xidmətlərin göstərilməsini təmin edən fəaliyyət növlərinin məcmusu başa düşülür.

Regional istehlak malları bazarının formalaşma xüsusiyyətlərini aşağıdakı kimi təsvir etmək olar: [3, s. 32]

Regional səviyyədə istehlak malları bazarının xüsusiyyətləri	
Daxili həmçinin xarici iqtisadi, sosial, siyasi vəziyyətə reaksiya verən açıq	Nisbi təcridolma və müstəqillik
Məhdud fəaliyyət, müəyyən sərhədlər hüdudunda fəaliyyət	Əhalinin müxtəlif tələbatlarını ödəyə bilən geniş çeşidlilik
İstehlak malları satıcılarının sayının alıcıların kəmiyyətinə nisbətdə azlığı	İstehlak təyinatlı əmtəələrə tələbin fasiləsizliyi
Müxtəlif regional bazar altsistemləri ilə sıx əlaqə	Ərzaq mallarının yerli istehsalçıları arasında güclü rəqabət
Regionda sosial-iqtisadi vəziyyətin asılı olduğu strateji təyinatlı məhsullar	İstehlak bazarının əsas subyektləri pərakəndə ticarət müəssisələridir
Qiymətlərin istehsalçılar və satıcılar tərəfindən təyin edilməsi	Əmtəələrin tək nüsxə yaxud dəstələrlə əldə edilməsi
Əmtəələrin əldə edilməsinin məkan və zamanının qeyri-dəqiqliyi	Kənd təsərrüfatı və emaledici sənayenin bütün sahələri ilə qarşılıqlı əlaqə

İstehlak bazarı nəzəriyyələri

Regional istehlak bazarlarının və bazar infrastrukturlarının təşkilinin əsas qanunauyğunluqlarını aşkarlamaq üçün müxtəlif iqtisadi məktəblər çərçivəsində yaranan nəzəri konsepsiyalara diqqət salaq.

Regional bazarların fəaliyyəti haqqında vacib nəzəriyyələrdən olan **tədavül sferasının və istehsalın yerləşdirilməsi konsepsiyasıdır.** Bu nəzəriyyə istehlak bazarını bazarın məkan və müəssisənin yerləşmə problemləri nöqteyi-nəzərindən təhlil edir. Bu yanaşmanın tərəfdarları İ.Q.fon Tyunen, V.Launqardt, V.Roşer, A.Leş, U.Ayzard kimi iqtisadçılardır.

Qeyd etdiyimiz nəzəriyyə bir neçə istiqamətdə inkişaf etmişdir. Əsas müddəaları XIX əsrdə klassik alman siyasi iqtisad məktəbinin nümayəndələri tərəfindən formalaşdırılmışdır. A.Predel göstərmişdir ki, istehsalin yerləşdirilməsi üçün bir yox bir neçə əlverişli yer ola bilər. Bu əlverişli nöqtələrin seçimi xammal mənbələri və məişət bazarlarının məkan spektrlərindən asılıdır. T.Palander isə "xətti bazar" modelini təklif etmişdir ki, burada əsas yeri bir mərkəzi bazar tutur. Digər istehlakçılar və təbii resurslar isə ətraf məkan üzrə bərabər paylanir,lakin əmtəələrə tələb dəyişməz hesab edilirdi.Nəzəriyyənin çatışmaz cəhəti isə istehsalın yerləşdirilməsi zamanı optimallaşdırma meyarının nəzəri əsaslandırıla bilməməsidir. Çünki optimallaşdırmanın əsas meyarı xalis gəlirin maksimumlaşdırılmasıdır və istehsalın yerləşdirilməsinə dair qərarı isə sahibkar verir. Sahibkarın qərarları isə subyektiv xarakter daşıyır. [1, s. 125]

Bazarların məkan qarşılıqlı əlaqələri və bazar potensialları nəzəriyyəsi. Bu nəzəriyyədə regiona, yaxud regional bazarlara ümumilikdə kütlə kimi baxılır. Bu kütləyə daxil bazarlar arasında qarşılıqlı əlaqələrin intensivliyi və tezliyi müəyyən qanunauyğunluqlara tabe olaraq kütlənin daxili elementlərinin davranışına təsir edir.

Bazar potensialları nəzəriyyəsi XX əsrin 80-90-cı illərində regional əmtəə və xidmətlər bazarlarının proqnozlaşdırılması ilə məşğul olan M.Birkin, F.Fouldjer və digər iqtisadçıların işlərində araşdırılıb.

V.Kristallerin mərkəzi yerlər (central place theory) konsepsiyası. 1930-cu illərdə əsası qoyulmuşdur. V.Kristaller mərkəzi yerlər dedikdə, özünü və ətrafındakı ərazilərin əmtəə və xidmətlərə olan tələbatını ödəyən iqtisadi əraziləri nəzərdə tuturdu.Bu model sonralar A.Leş və B.Berri tərəfindən təkmilləşdirilmişdir.Tədqiqatlar göstərdi ki, elmi-texniki tərəqqinin, aqlomeratların inkişafı, ticarət və maliyyə sisteminin beynəlmiləlləşməsi, pərakəndə və topdan ticarətin inteqrasiyası nəticəsində bazar zonaları və bazar mərkəzlərinin iyerarxiyasında, topdan və pərakəndə ticarət müəssisələrinin yerləşməsində əhəmiyyətli dəyişikliklər baş verir.

Əmtəə axınlarının məkan bölgüsü nəzəriyyəsi regional bazara əmtəə hərəkəti kanallarının məcmusu kimi baxaraq,əmtəələrin istehsalçıdan istehlakçıya doğru hərəkətinin maliyyə, həm də maddi-texniki tərəfini araşdırır. Bu nəzəriyyənin müəllifləri əmtəə-bölgü proseslərini ona təkcə ticarət deyil,regional bazarı təşkil edən maliyyə-kredit sistemləri və digər iqtisadi sahələri daxil edərək kompleks təhlil edirlər.

Bu iqtisadi yanaşmaya F.Klarkın "bazar prosesləri üçbucaqı" və U.Aldersonun "bazarların heterogenliyinin radikallığı" konsepsiyaları aiddir.

80-90-cı illərdə əmtəə axınlarının məkan üzrə bölgüsü nəzəriyyəsi üç əsas istiqamətdə inkişaf etmişdir: artan rəqabət mühitində regionların ticarət-bölgü sistemi; bölgü sisteminin regional proqramlaşdırılması; bölgü kanallarının strukturu, şaquli, üfuqi və çoxkanallı ticarət-bölgü sisteminin işlənib hazırlanması.

Məkan rəqabəti nəzəriyyəsi.Tədavül və istehsal sferasının regional xüsusiyyətləri və müxtəlif əmtəələrin bazar zonalarının ərazi sərhədləri nəzərə alınmasa, rəqabət mühiti iqtisadi məkandan təcridi şəkildə təhlil edilə bilməz. İlk dəfə məkan rəqabətinin klassik modeli X.Xostellinq tərəfindən işlənilib və sonradan E.Çemberlinin əsərlərində təkmilləşdirilib. Regional bazarlarda rəqabət mühitinin formalaşması problemləri həmçinin A.Leş və digər iqtisadçıların işlərində də öz

əksini tapmışdır.

Bu məktəb iki elmi istiqamətin kəsişməsi nəticəsində formalaşıb. Bu istiqamətlər rəqabət nəzəriyyəsi və antiinhisar tənzimlənməsi nəzəriyyəsidir. Bu məktəbin nümayəndələri bazarların coğrafi sərhədlərinin və tutumunun müəyyənləşdirilməsi metodunu, bazarın strukturunu formalaşdıran amilləri (istehsal miqyası effekti, tranzaksiya xərcləri, texnoloji dəyişikliklər və s.) işləyib hazırlamışlar.

Rəqabət mühitinin öyrənilməsinə struktur - təşkilati yanaşmadan əlavə marketinq yanaşma da populyarlıq qazanmışdır. Onun tərəfdarları hesab edirlər ki,regional bazarlarda rəqabət mühitinin təhlilinə təşkilati-struktur yanaşma pərakəndə və topdan ticarətin inkişafının regional xüsusiyyətlərini, əmtəə hərəkəti kanallar sistemini, əmtəə axınlarının intensivliyini nəzərə almır. Bu problemlər səhv formalaşan regional bazarlar konsepsiyasının nəticəsidir.

Sahədaxili və firmadaxili ticarət konsepsiyaları. İqtisadi fəaliyyətin bütün sahələrinin qloballaşması prosesi ərazi üzrə əmək bölgüsü sistemində regional bazarların ənənəvi üstünlüklərinin zəifləməsinə səbəb olur. İstehlak bazarlarının inkişafında yeni meyillər ortaya çıxır. Bu meyillər regionlararası əmək bölgüsünün transformasiyası, detal və əməliyyat üzrə ixtisaslaşmaya əsaslanan texnoloji əmək bölgüsünün inkişafı ilə əlaqədardır. Müxtəlif ölkələrin müəssisələri arasında texnoloji əlaqələr güclənir və bu, iri çoxsahəli kompleksləri təmsil edən transmilli korporasiyaların fəaliyyəti ilə şərtlənir.

Bazara institusional yanaşma. Bu nəzəriyyə çərçivəsində vasitəçilərin iqtisadi subyekt kimi rolu (R.Uesterfild), bazarın institusional strukturu (R.Breer, E.Duddi), bazarın riyazi - iqtisadi modelləşdirilməsi, bazar agentlərinin qarşılıqlı əlaqə matrisli modeli (F.Bulderston, A.Hoqqat) hazırlanmışdır. Bu istiqamətin nümayəndələri tərəfindən bazarın institusional aspektləri öyrənilmiş və bazar institutları regional səviyyədə təhlil olunmuşdur.

İstehlak bazarının digər bir konsepsiyası **istehlakçı davranışı nəzəriyyəsidir**. Bazarda istehlakçıların davranışına dörd qrup amil təsir edir: mədəniyyət səviyyəsi amilləri (mədəniyyət, submədəniyyət və sosial vəziyyət); sosial xarakterli amillər (referent qruplar, ailə, rollar və statuslar); şəxsi amillər (yaş, ailənin həyat tsikli mərhələsi, məşğuliyyət növü, iqtisadi vəziyyət, həyat səviyyəsi, şəxsiyyət tipi və istehlakçının özü haqqında fikirləri) və psixoloji amillər (motivasiya,dərk etmə, mühakimə və münasibətlər). Bu amillər istehlakçının tələbatlarını tam ödəməyə və onları cəlb etməyə imkan yaradır. Bazarda fəaliyyət göstərən istehlakçının beynində baş verən prosesləri,onun qıcıqlandırıcılara reaksiyasını dərk etməlidir. Çünki alıcının xüsusiyyətləri onların məhsulu almaq haqqında qərarına təsir edir.

İstehlakçı davranışı nəzəriyyəsi göstərir ki, istehlakçılar öz tələbatlarını maksimumlaşdırmaq üçün gəlirlərini necə xərcləyirlər və onların seçimlərinə əmtəələrin qiyməti, gəlir, istəkləri hansı yolla təsir edir. Beləliklə, deyə bilərik ki, istehlak bazarında tələbin formalaşmasında bu nəzəriyyənin rolu danılmazdır.

Geomarketinq konsepsiyasına əsasən regional istehlak bazarına istehlak əmtəələri və xidmətlərinə tələb və təklifin məkan xüsusiyyətləri və bazar zonaları nöqteyi-nəzərindən baxılır. Bazar zonalarının qiymətləndirilməsində mərkəzi yerlər və məkan qarşılıqlı əlaqələri istifadə olunur. Bu konsepsiyanın tərəfdarları regional istehlak bazarının inkişafının əsas problemini pərakəndə ticarət sisteminin ərazi təşkilində görürlər. Pərakəndə ticarət sisteminin ərazi təşkili bazar zonaları və ticarət mərkəzlərinin iyerarxiyasına əsaslanır.

Regional istehlak bazarının geomarketinq konsepsiyası elmi-texniki tərəqqinin,informasiya cəmiyyətinin inkişafı, qloballaşma və beynəlmiləlləşmənin təsirilə istehlak və ticarətdə struktur dəyişikliklərinə əsaslanır. İnstitusional məktəbin nümayəndələri regional istehlak bazarına müəyyən bazar zonaları sərhədlərində istehlak əmtəələrinin alqı-satqısını həyata keçirən firmaların məcmusu kimi baxırlar. Regional istehlak bazarının institusional strukturuna ticarət - vasitəçilik fəaliyyəti, əmtəələrin saxlanılması, daşınması, reallaşdırılmasını həyata keçirən firmalar daxildir.

İstehlak bazarının inkişafı və fəaliyyətinə dair müxtəlif nəzəriyyələrin təhlili onun inkişaf istiqamətlərini müəyyən etməyə imkan verir:

- regionların təsərrüfatçılıq edən subyektlərinin və bazar institutlarının qarşılıqlı fəaliyyətinin səmərəliliyini yüksəldən iqtisadi proseslərin təkmilləşdirilməsi;
- hüquqi və ticari-iqtisadi təcrübəyə əsaslanaraq xidmətlərin təşkili formaları və iqtisadi əlaqələrin ən əlverişli formalarının seçilməsi;
- istehlakçıların maraqlarını üstün tutan regional bazar sisteminin yaradılması;
- istehlak bazarının tipini nəzərə alan əlverişli əmtəə axını kanalının seçilməsi;
- regionun istehlak bazarı infrastrukturunun loqistik, maddi, informasiya və maliyyə proseslərinin optimallaşdırılması və maddi-texniki bazanın inkişafı;
- regional istehlak bazarının əsas istiqamətlərinin seçilməsi və inkişafı;
- regionun istehlak bazarının inkişaf proqnozlarının formalaşdırılması.

Ölkədə istehlak bazarının inkişafına regional inkişafın bir sıra sosial-iqtisadi amilləri mənfi təsir göstərə bilər. Bunlara aiddir:

- əhalinin əksər hissəsinin alıcılıq qabiliyyətinin aşağı səviyyədə olması;
- şəhər və kəndlərdə məskunlaşan insanların həyat səviyyəsində kəskin fərqlənmə;
- regionlarda bazar infrastrukturlarının zəif inkişafı;
- demoqrafik vəziyyətin pisləşməsi;
- regionların iqtisadiyyatında mənfi meyillərin mövcudluğu və s.

Əhalinin əmtəə və xidmətlərlə təmin edilməsi aktuallığını itirməyən məsələlərdən olduğuna görə istehlak bazarının formalaşmasının həm dövlət, həm də regional miqyasda nəzəri əsaslarının dərin öyrəilməsi vacibdir. İstənilən inkişaf modelinin qurulması ilk növbədə güclü nəzəriyyəyə əsaslanmalıdır. Qloballaşan iqtisadi əlaqələr şəraitində mövcud istehlak bazarı konsepsiyalarına yeni yanaşmalar hazırlanmalı və dəyişikliklərə çevik reaksiyanı təmin etməliyik. Nəzərdən keçirilən nəzəriyyələr bir-birindən kifayət qədər fərqlənsə də onların ümumi cəhətləri də vardır. Sadəcə olaraq istehlak bazarının öyrənilməsində fərqli metodlardan və vasitələrdən istifadə edilir. Hər bir ölkənin fərqli inkişaf modeli olduğundan, onun iqtisadi strategiyasının əsaslanacağı fundamental nəzəriyyə də fərqli olmalıdır.

İstehlak bazarının nəzəri konsepsiyalarının praktiki tətbiqi

Müasir şəraitdə istehlak bazarının uzunmüddətli dövr üçün nəzərdə tutulmuş inkişaf və tənzimlənmə konsepsiyasının işlənməsi və onun mərhələlərlə reallaşdırılması öz aktuallığını itirməyib.İstehlak bazarının tənzimlənməsi nəzəriyyəsi regional idarəetmə qurumlarına uzunmüddətli bazar inkişaf strategiyası və onların reallaşdırılmasının alternativ variantlarını təklif edə bilər. Bunun vasitəsilə inkişaf edən bazar münasibətlərinin formalaşdırılması yolları, perspektivdə istehlak bazarının inkişafının sosial-iqtisadi, investisiya və ekoloji parametrləri müəyyənləşdirilərək, bazarın tənzimlənməsinin iqtisadi və hüquqi metodlar sistemi elmi əsaslandırıla bilər.

Region səviyyəsində istehlak bazarının uzunmüddətli inkişaf konsepsiyası bir sıra meyarlara əsaslanır:

1. bazar sisteminin strukruru bazarın bir neçə tiplərini ehtiva edir. Bu bazarlardan hər birinin özünəməxsus formalaşma və tənzimləmə xüsusiyyətləri vardır.
2. İstehlak bazarı spesifik subyektlərdən ibarətdir ki, bu subyektlər fəaliyyət, tənzimləmə forma və metodlarını müəyyən edir.
3. istehlak bazarı infrastrukturlarının inkişafı bazar sisteminin digər elementləri ilə qarşılıqlı əlaqə şəraitində baş verir.
4. istehlak bazarının tənzimlənməsi mexanizmi ziddiyyətsiz bünövrə üzərində qurulmalıdır.

Konsepsiyaya əsasən, istehlak bazarının uzunmüddətli inkişafının məqsədi-bazar sistemi elementlərinin ticarət-vasitəçilik, maliyyə-kredit, informasiya-kommersiya, xarici iqtisadi və idarəetmə əlaqələrinə əsaslanan regional istehlak bazarının formalaşması üçün iqtisadi mühit

yaradılmasıdır. İstehlak bazarının sonrakı normal inkişafı üçün pul-kredit sistemi, vergi, xarici iq tisadi və nəzarət - normativ tənzimləmənin təkmilləşdirilməsi zəruridir.

Bazarın effektiv fəaliyyəti üçün iqtisadi potensial ehtiyatları və bazar infrastrukturunun maddi-material bazasının yaradılması vacibdir. Bu iki amil olmasa təsərrüfatçılıq edən subyektlər arasında qarşılıqlı əlaqələr pozula, müqavilələr üzrə əmtəə çatdırılması gecikə, ticarət müəssisələrinin təminat ritmi pozula, təsərrüfat öhdəliklərinin icrası çətinləşə bilər. Regional istehlak bazarının inkişaf proqramı və inkişaf edən bazar infrastrukturları olmadan bu problemləri həll etmək mümkün deyildir. Proqramın işlənilməsi bir sıra məqsədlər blokunun açılmasını tələb edir: bazar infrastrukturunun inkişafı, əmtəə və xidmətlərə tələbin proqnozlaşdırılması, regional istehlak bazarının xarici iqtisadi əlaqələrinin inkişafı, bazarın inkişaf proqramına dövlətin maliyyə dəstəyi və dövlət tənzimlənməsi,əmtəə və maliyyə axınlarının tarazlığı, təşkilati-idarəetmə strukturu.

İstehlak bazarının inkişaf strategiyası mövcud statistik məlumatların təhlilinə,ticarət sahələrinin nümayəndələri,ekspertlər və biznes cəmiyyəti,yerli özünüidarə orqanlarının təmsilçiləri ilə qarşılıqlı fikir mübadiləsinə əsaslanaraq işlənib hazırlanmalıdır. O, ölkənin iqtisadiyyatının innovativ inkişaf ssenarisinin tələblərinə cavab verən əmtəə bölgüsü sisteminin (commodity distribution system) yaradılmasına xidmət etməlidir.

Uğurla keçirilən regional inkişaf proqramı kimi regionlarda mövcud olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etmək, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirmək və aqrar sektorda islahatları dərinləşdirmək, əhalinin məşğulluğunu artırmaq, yoxsulluğun səviyyəsini azaltmaq, infrastrukturu yeniləşdirmək, əlverişli investisiya şəraiti, müasir tipli müəssisələr, yeni iş yerləri yaratmaq istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" təsdiq edilmişdir.

Regionların inkişafına dair birinci Dövlət Proqramının uğurla həyata keçirilməsinin ardınca 2009-cu il aprelin 14-də ikinci konsepsiya - "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiqləndi. Həmin proqramda qarşıya qoyulan vəzifələr də uğurla yerinə yetirildi.

Ötən 10 ildə neftdən əldə edilən gəlirlərdən regionlarda həyata keçirilən layihələrə hər il milyardlarla manat vəsait ayrıldı. Bu investisiyalar bölgələrdə sosial-iqtisadi inkişaf üçün ən vacib şərti-infrastrukturun yenidən qurulmasını və inkişafını təmin etmiş oldu.

Regionların inkişafına dair 2009-2013-cü illəri əhatə edən ikinci dövlət proqramı çərçivəsində dövlət tərəfindən bölgələrə yatırılan investisiyaların həcmi ildən-ilə daha da artırıldı. Bu proqramın həyata keçirilməsinin dörd ili ərzində (2009-2012) regionların inkişafına cəmi 14,5 milyard manat dövlət investisiyası yönəldildi. 2013-cü il üçün isə regionlar üçün ölkə üzrə əsaslı vəsait qoyuluşunun 77 faizi və ya 5,3 milyard manat vəsait ayrılmışdır.

Nəticədə, neft gəlirlərinin əhəmiyyətli hissəsinin bölgələrin inkişafına sərf olunması siyasətinin nəticəsi olaraq ötən 10 il ərzində bu məqsədlə ümumilikdə 27 milyard manata yaxın vəsait ayrılmışdır. Bu dövlət investisiyaları bölgələrin sosial-iqtisadi inkişafı üçün əhəmiyyətli təkan rolunu oynadı. [9]

Kənd təsərrüfatının ümumi məhsulu son 10 ildə 1,5 dəfə, taxıl istehsalı 43,9 faiz, kartof istehsalı 29,1 faiz, tərəvəz 17,8 faiz, bostan məhsulları 20,5 faiz, meyvə və giləmeyvə 49,1 faiz, üzüm istehsalı isə 2,4 dəfə artmışdır.

Regionların sosial-iqtisadi inkişaf proqramlarının həyata keçirildiyi 10 illik müddətdə məhsul və xidmətlərin ümumi buraxılışı 6 dəfədən çox artaraq 81166,0 milyon manata çatdı. Həmçinin bu zaman kəsiyində pərakəndə ticarət dövriyyəsi 6 dəfə, topdansatış əmtəə dövriyyəsi isə 7 dəfədən çox artmışdır. Bunlar milli istehlak bazarının inkişafını əks etdirən vacib göstəricilərdir. Əhalinin tələbatlarının ödənilməsində daxili bazarın rolunun artırılması üçün məhsul və xidmət-

lərin istehsalının artırılması prioritet məqsəd olmalıdır.

Qeyd etmək olar ki, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” da artıq qəbul edilmişdir. Dövlət Proqramında müəyyən edilmiş məqsədə nail olmaq üçün regionlarda infrastruktur təminatının, o cümlədən əhalinin kommunal xidmətlərlə təminatının daha da yaxşılaşdırılması, ixracyönümlü və rəqabətədavamlı məhsul istehsalı istiqamətində sahibkarlığın inkişafının sürətləndirilməsi, əhalinin, xüsusi ilə kənd əhalisinin məşğulluq səviyyəsinin artırılması və yoxsulluğun səviyyəsinin azaldılması istiqamətində tədbirlərin davam etdirilməsi kimi mühüm vəzifələrin də yerinə yetirilməsi nəzərdə tutulub. [10]

Müasir dövrdə istehlak malları bazarının inkişafı və təhlilinin təkmilləşdirilməsi üçün bir sıra istiqamətlər mövcuddur:

1. istehlak bazarının inkişafında prioritetlərin müəyyən edilməsi;
2. müasir ticarət və dükan komplekslərinin inkişafı;
3. göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi;
4. əmtəə hərəkəti və əmtəə axınlarının optimallaşdırılması;
5. istehlak malları bazarının tənzimlənməsinin mövcud olan qanunvericilik bazasının təkmilləşdirilməsi;
6. səmərəli topdan ticarət sistemini təmin edən vasitəçi təşkilatların, anbar təsərrüfatı şəbəkəsinin formalaşdırılması;
7. istehlak malları bazarında investisiya fəaliyyəti üçün əlverişli şəraitin yaradılması.

Bazar münasibətlərinin öyrənilməsində iqtisadi diaqnostika yeni yanaşmadır. O, iqtisadi və empirik tədqiqatların sintezinə əsaslanır.Müasir dövrdə konservativ bazar konsepsiyaları nəzəri xarakter daşıdığından yeni metodoloji yanaşma zəruridir ki, bazar proseslərinin iqtisadi diaqnostikası bu vəzifəni yerinə yetirir. İqtisadi diaqnostika istehlak malları bazarının inkişaf xüsusiyyətlərini qiymətləndirir.

İqtisadi diaqnostika iqtisadi siyasət obyektinin retrospektiv, operativ və kompleks-perspektiv təhlilinə əsaslanır. Bu metod istehlak bazarının ən əhəmiyyətli problemlərini və inkişaf prioritetlərini müəyyən edərək, onun fəaliyyətinin səmərəliliyini yüksəltməyə və mövcud vəziyyətini yaxşılaşdırmağa imkan verən qısamüddətli və uzunmüddətli tədbirlər proqramı hazırlamağa qadirdir.

Nəticə

Beləliklə, istehlak bazarının formalaşmasının nəzəri aspektlərinin təhlili göstərdi ki, istehlak bazarı mürəkkəb iqtisadi kateqoriya olmaqla regionda sosial-iqtisadi şəraitə əhəmiyyətli təsir göstərir və təkrar istehsal prosesində vacib yer tutur.

İstehlak malları ticarəti sahəsində təsərrüfat mexanizmi sosial ədalətin və iqtisadi səmərəliliyin tarazlığına əsaslanır. Bu onu sübut edir ki, istehlak malları bazarı regionun bazar iqtisadiyyatının müstəqil sosial-iqtisadi altsistemidir. Regionun sosial-iqtisadi altsistemi kimi istehlak malları bazarının mahiyyəti ilk növbədə vahid regional bazarın xüsusi hissəsi olmasında, ikincisi, regionun istehlak bazarının əhəmiyyətli hissəsi olmasında, üçüncüsü isə təsərrüfatçılıq edən subyektlər arasında iqtisadi əlaqələrin xüsusi forması kimi çıxış etməsində əks olunur.

Regional istehlak bazarı daim inkişafda olan, ölkədə və dünyada baş verən dəyişikliklərə çevik reaksiya verən, qloballaşma, inteqrasiya, innovativ inkişafa məruz qalan açıq sistemdir. O həm daxili,həm də xarici iqtisadi, sosial və siyasi şəraitə reaksiya verir, regionlararası əmtəə axınları, işçi qüvvəsinin miqrasiyası, pul və kapitalların hərəkətindən asılıdır.

Regional istehlak bazarının bu spesifik funksiyaları onun ayrıca iqtisadi kateqoriya kimi öyrənilməsini vacib edir.

Həmçinin, regional istehlak bazarlarına dair konsepsiyalara nəzər saldıqda görürük ki, onların fərqləndirilməsi araşdırılan iqtisadi hadisənin çoxcəhətliliyi və çoxaspektliliyi ilə bağlıdır. Hər konsepsiya regional istehlak bazarının mahiyyətini fərqli müəyyən edir ki, bu, təhlilin məqsədin-

dən, problemə metodoloji yanaşmadan asılıdır.

Ümumilikdə, istehlak bazarının konseptual əsaslarının təhlili regional istehlak bazarı nəzəriyyələrinin iqtisadi tənzimləmə və iqtisadi inkişaf nəzəriyyələri ilə uzlaşdığını deməyə imkan verir.

ƏDƏBİYYAT

1. Коваленко Е.Г. Региональная экономика и управление: Учебное пособие. - СПб.: Питер, 2005. - 288 с.
2. http://www.napks.edu.ua. Эволюция теорий и концепций региональных рынков товаров Ветрова Н.М., Шабашова Л.А.
3. http://cyberleninka.ru/. К вопросу о сущности потребительского рынка товаров как социально-экономической подсистемы региона. Черемисина Т.Н.
4. http://research.sfu-kras.ru/ Совершенствование оценки состояния и развития потребительского рынка. Гурьянов Т. И.
5. www://ecsocman.hse.ru/ А.С.Новоселов. Теоретические аспекты исследования региональных рынков.
6. . Бухтиярова Т.И., Павленко Е.Л. Разработка стратегии развития потребительского рынка региона // Современные проблемы науки и образования. – 2012. – № 2; www.science-education.ru
7. Абалкин Л. Роль государства в становлении и регулировании рыночной экономики // Вопросы экономики, 1997, № 6.
8. www.bibliofond.ru
9. www.anfes.gov.az/
10. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "Azərbaycan Respublikasi regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafi Dövlət Proqramı".

Гюнай Шадет гызы Мусаева
докторант АУК

Теоретические основы формирования потребительского рынка

Резюме

В статье исследуются теоритические аспекты формирования региональных рынков, их роль в экономике и в воспроизводственном процессе. В результате исследования различных теорий региональных рынков обосновываются подходы к разработке концепции развития региональных рынков, позволяющей повышать эффективность экономической деятельности.

Ключевые слова: региональный потребительский рынок, концепции, региональная экономика, рыночная пространство, комплексное экономическое исследование.

Gunay Shadat Musayeva
PhD of ACU

Theoretical foundations of formation of consumer market

Summary

The theoretical aspects of formation of the regional markets, their role in economy and reproduction process are studied. As a result of various regional markets conceptual research development approach to regional markets is substained which,allowing to increase efficiency of economic activity.

Key words: regional consumer market, concepts, regional economy, market space, complex economic research.

UOT 330.341

Leyla Nizaməddin qızı HÜSEYNOVA
Azərbaycan Dövlət İqtisad Universiteti

ƏMƏK BAZARININ RİYAZİ MODELLƏŞDİRİLMƏSİ VƏ PROQNOZLAŞDIRILMASI MƏSƏLƏSİNİN QOYULUŞU

Xülasə

Məqalədə əmək bazarının modelləşdirilməsi və proqnozlaşdırılmasının nəzəri - metodoloji aspektləri müəyyən edilmişdir. Əmək bazarının sistem xarakteristikaları aşkar edilmişdir. Müəyyən edilmişdir ki, əmək bazarının təşkili və proqnozlaşdırılmasının əsas riyazi instrumentariləri olaraq ekonometrik və imitasiya modelləşdirilməsi çıxış edir.

Açar sözlər: İqtisadi sistem, əmək bazarı, proqnozlaşdırma, quruluş vektoru, emercentlik, qara qutu, modelləşdirmə, adekvatlıq, ekonometrika, imitasiya modelləşdirilməsi.

Giriş

Sistemlər nəzəriyyəsi müxtəlif təbiətli mürəkkəb sistemlərin analizi və sintezinin konkret elmi və praktiki məsələlərinin öyrənilməsi ilə məşğul olur. Sistemli təhlil - obyektlərdə çətin müşahidə edilən və çətin dərk edilən xüsusiyyətlərin və münasibətlərin bu obyektlərin məqsədyönlü sistemlər şəklində təsvir edilməsi yolu ilə tədqiq edilməsi və bu sistemlərdə məqsədlərin reallaşdırılması vasitələri arasındakı qarşılıqlı əlaqələrin öyrənilməsi mexanizmidir. Riyazi modelləşdirmə və proqnozlaşdırma isə sistemli təhlilin reallaşdırma mexanizmi kimi çıxış edirlər.

Sistemli təhlil əsasında mürəkkəb iqtisadi-kibernetik sistem kimi tədqiqi zəruri olan iqtisadi sistemlərdən biri də əmək bazarı və onun ayrı-ayrı alt sistemləridir. Əmək bazarı sistemi səviyyəsində optimal idarəetmə məsələsinin riyazi cəhətdən dəqiq formalaşdırılması qəbul ediləcək idarəetmə strategiyalarının optimallığını və proqnozların etibarlılığını təmin edəcəkdir.

Əmək bazarı-mürəkkəb kibernetik sistem kimi

Müasir dövrdə iqtisadi sistemlərin idarə edilməsi onlara mürəkkəb, dinamik, stoxastik kibernetik sistemlər kimi yanaşmanı tələb edir. Bu yanaşmaya görə sistem dedikdə elə bir çoxluq başa düşülür ki, bu çoxluqda əvvəlcədən verilmiş, qeyd edilmiş P xassəli R münasibəti ödənsin [1, s. 18]. İqtisadi sistemlərin mürəkkəbliyini həll edilən idarəetmə məsələsinin özünün hissələrə ayrılması (dakompozisiyası) kimi başa düşəcəyik. İqtisadi sistemlərin mürəkkəb sistem xarakteristikalarına malik olması göstəricilərinə misal olaraq emercentliyi və onların müxtəlif strukturlara malik ola bilməsi xassələrini göstərmək olar. Bu halda emercentlik dedikdə sistemin qeyri-xəttilik xassəsi başa düşülür. Daha dəqiq desək, emercentlik dedikdə bütövlükdə sistemin onu formalaşdıran elementlərdən heç birinə xas olmayan və onların qarşılıqlı əlaqələri nəticəsində yaranan törəmə xassəyə malik olması başa düşülür. Məlumdur ki, hətta ən sadə əmək kooperasiyası, yəni işçi qüvvəsinin "cəmlənməsi" əlavə effekt doğurur. [1, s. 28]

Mürəkkəblik doğuran digər xassə isə sistemin strukturundakı alternativlərlə bağlıdır. Belə ki, əgər iqtisadi sistemin strukturunu onu formalaşdıran elementlərin tərkibi və həmin elementlərin birləşdirilməsi qaydası kimi qəbul etsək, onda eyni elementlərin toplusu onların birləşdirilməsi qaydasının dəyişməsi ilə müxtəlif strukturlar yaradacaqdır.

Ölkənin əmək bazarı, eləcə də regional əmək bazarları mürəkkəb iqtisadi - kibernetik sistemlər kimi fəaliyyət göstərirlər. Odur ki, bu bazarların davranışı və inkişafının modelləşdirilməsi əhalinin təkrar istehsalı prosesi, əmək ehtiyatlarının miqrasiyası, ərazi üzrə paylanması, əmək ödənişinin vəziyyəti, məşğulluğun səviyyəsi və təbii ki, işsizliyin səviyyəsi kimi faktorları əhatə etməlidir.

Əmək bazarının tədqiqi ilə məşğul olan bir çox tədqiqatçıların qənaətinə görə, əmək bazarı

bütün mürəkkəb sistemlərə xas olan emercentlik, dinamiklik və struktur alternativliyi bu xassələrə malikdir. Əmək bazarının konyunkturası bu bazarın strukturunu müəyyən edən bütün komponentlərdə tələb və təklifin nisbəti kimi müəyyən edilir. Odur ki, əmək bazarının kibernetik blok-sxeminin əməyə məcmu tələb (ƏMTəl) alt sistemi ilə əməyin məcmu təklifi (ƏMTək) sistemlərinin kəsişməsi məhz əməyə tələbin ödənilmiş hissəsini əks etdirəcəkdir. (Şəkil 1)



Şəkil 1. Əmək bazarının blok sxemi.

Əmək bazarının mürəkkəb sistem xassələrinə misal olaraq yuxarıda qeyd etdiyimiz emercentlik xassəsini, abstraktlığı, dinamikliyi, təsadüflüyü və s. göstərmək olar. Əmək bazarının tədqiqi baxımından isə, mürəkkəb sistemlərin aşağıdakı üç xassəsini fərqləndirmək olar:

1.Unikallıq, yəni yalnız əmək bazarına xas olan xassələrin mövcudluğu. Bu xassələrə misal olaraq əmək ehtiyatları kontingentinin özünəməxsusluğunu, əmək bazarının formalaşması və inkişafının regional incəliklərini göstərmək olar. Bu unikallıq əmək bazarının tədqiqində orijinal nəzəri tədqiqatlardan istifadəni zəruri edir.

2. Gələcək vəziyyətin zəif proqnozlaşdırılması. Bu xassə özünü onda göstərir ki, obyekti formalaşdıran elementlərin funksiyaları haqqında təsəvvürlərimiz nə qədər zəngin olsa da, bu təsəvvürlərə arxalanaraq, bütövlükdə obyektin funksiyaları haqqında fikir yürütmək mümkün olmur. Bu müddəa sistemin yalnız kəmiyyət göstəricilərinin proqnozlaşdırılmasına deyil, həm də keyfiyyət davranışının proqnozlaşdırılmasına aiddir.

3. Qeyri-entropiyalıq və ya məqsədyönlülük. İqtisadi sistemlər daim qeyri - müəyyən xarakterli təbiət və cəmiyyətin təsirləri altında fəaliyyət göstərirlər. Aydındır ki, təbiət amillərinin, həm də cəmiyyət amillərinin təsirləri həmişə qeyri-müəyyən, təsadüfi və ehtimallı xarakter daşıyırlar. [1, s. 129] Qeyri - entropiyalıq və ya məqsədyönlülük sistemin elə bir xüsusiyyətini əks etdirir ki, sistem ətraf mühitin təsadüfi və ya əlverişçiz təsiri şəraitində öz entropiyasını idarə etmək qabiliyyətinə malikdir və müəyyən məqsədə çatmağa xidmət edərək davranışı seçə bilir. Bu xassəyə bəzən sistemin özünü təşkil etmək xassəsi də deyilir.

Əmək bazarına nəzərən bu xassə özünü onda göstərir ki, sistem özünü tənzimləyə bilir. Əmək bazarını tənzimləməyə imkan verən belə faktorlar olaraq əmək haqqının səviyyəsini (diferensiasiyasını), iş yerlərinin yaradılmasını (işsizliyin azaldılmasını), əmək ehtiyatlarının ixtisasının artırılmasını, əmək miqrasiyası üçün şəraitin yaradılmasını göstərmək olar.

Yuxarıda sadaladığımız xarakteristikalardan başqa, əmək bazarı bir sıra əlavə xassələrə də malikdir və bazarların tədqiqində onlar hökmən nəzərə alınmalıdır. Bu xassələr aşağıdakılardır:

• iqtisadi hadisələrin inkişafında təsadüflük və qeyri-müəyyənlik. Tədqiqat obyektinin təhlili göstərir ki, prosesə təsir edən bütün faktorları nəzərə almaq olmur. Həm də, əmək bazarında gedən proseslərin ehtimallı xarakteristikalarının uçotu aparılmalıdır;

• sosial-iqtisadi proseslərin dinamikliyi. Bu halda iqtisadi sistemin parametrlərinin və strukturunun daxili və xarici faktorların təsiri altında zamana görə dəyişməsi nəzərdə tutulur;

• iqtisadi sistemlərdə baş verən proseslərin və hadisələrin onları xalis şəkildə öyrənmək məqsədi ilə tənlənməsinin qeyri-mümkünlüyü;

• əmək bazarı da daxil olmaqla sosial-iqtisadi sistemlərin fəaliyyətində insan faktorlarının mühüm rol oynaması.

Əmək bazarının riyazi modelləşdirilməsi məsələsinin qoyuluşu

Mürəkkəb sosial - iqtisadi sistemlərin, o cümlədən də əmək bazarının analizi və sintezinin əsas dərketmə instrumentarisi olaraq riyazi modelləşdirmə çıxış edir.

İqtisadi sistemlərin optimal idarə edilməsi strategiyalarının qurulmasını reallaşdırmaq üçün müxtəlif tədqiqat metodlarından istifadə edilir. Bu tədqiqat metodları içərisində modelləşdirmə metodları xüsusi əhəmiyyət kəsb edir, daha doğrusu, biz riyazi modelləşdirməni optimal idarəetmənin əsas dərketmə instrumentarisi hesab edəcəyik. İqtisadi sistemlərin əsas tədqiqat metodu, daha doğrusu, optimal idarəetmə mexanizmi hesab edilən modelləşdirmə metodu nəzəri tədqiqat və praktiki fəaliyyət qaydası olmaqla, modellərin qurulması və istifadəsini nəzərdə tutur. [2,s. 36]

İqtisadi sistemlərdə, o cümlədən də əmək bazarı sistemində riyazi modellərin qurulması və tətbiqi imkanları onunla izah edilir ki, bir çox həlləri kəmiyyətcə ölçülə bilən və həm idarəetmə obyektini, həm də ətraf mühiti xarakterizə edən kəmiyyətlərlə əlaqələndirmək olur. Qeyd edək ki, iqtisadi sistemlərdə, o cümlədən də əmək bazarında baş verən proseslərin mürəkkəbliyi təkcə bu sistemlərin riyazi modellərinin qurulmasında deyil, həm də onların adekvatlığının, alınmış nəticələrin həqiqiliyinin yoxlanılmasında çətinliklər yaradır. Bu halda adekvatlıq problemi iqtisadi sistemlərin mürəkkəbliyi ilə bağlı bir sıra xüsusiyyətlərlə əlaqədardır. Bu xüsusiyyətlərə iqtisadi sistemlərdə emercentlik effektinin mövcud olmasını, bu sistemlərdə baş verən proseslərin kütləvi xarakter daşımasını, iqtisadi sistemlərin dinamikliyini, iqtisadi sistemlərin inkişafındakı təsadüfilik və qeyri-müəyyənliyi, iqtisadi sistemlərdə baş verən prosesləri ətraf mühitdən təcrid edilərək xalis şəkildə tədqiq etməyin qeyri-mümkünlüyü, iqtisadi sistemlərin ətraf mühitdə yaranan yeni "status-kvo" ya aktiv reaksiya verməsini də aid etmək olar.

Əmək bazarının modelləşdirilməsində əsasən ekonometrik və imitasiya modelləşdirilməsi metodlarından istifadəyə üstünlük verilir. Əmək bazarının proqnozlaşdırılmasının mərkəzi problemi olaraq isə, proqnozların qiymətləndirilməsi və dəqiqliyinin artırılması çıxış edir. Əmək bazarı üzrə ehtibarlı və dəqiq proqnozun əldə edilməsi üçün bir-birini tamamlayan metodlar kombinasiyasından istifadə etmək lazımdır. Belə kombinə edilmiş modelləşdirmə metodlarından biri də əmək bazarının proqnozlaşdırılmasının analitik-imitasiya modelidir. Belə bir modelin yaradılması çoxvariantlı istifadə əsasında budcə vəsaitlərinin və investisiyalarının səmərəli bölüşdürülməsi hesabına əmək ehtiyatlarının tənzimlənməsi üzrə təkliflər verməyə imkan yaradacaqdır.

Əmək bazarının analitik-imitasiya modelləşdirilməsində analitik metodlardan istifadə bu bazarın fəaliyyəti prosesini əks etdirən təkliflərin analitik həllinə əsaslanır. Bu zaman bir dəyişənin digər dəyişənlərdən asılılığını təsvir edən riyazi modellər qurulur. Sərbəst dəyişən olaraq idarə edilməsi mümkün olan kəmiyyətlər seçilir. Riyazi modelin qurulmasının son məqsədi isə əmək bazarının proqnozlaşdırılmasının əsas səmərəlilik göstəricisi olaraq seçilmiş asılı dəyişənin optimal qiymətinin əldə edilməsidir.

Öz mahiyyətinə görə imitasiya dedikdə tədqiqat obyektinin gələcək fəaliyyətini təsvir edən modellərlə kompüter eksperimentlərinin aparılması başa düşülür. Bu tip modelləşdirmənin fərqləndirici cəhəti odur ki, model vasitəsi ilə təsvir olunan hadisələrin məntiqi strukturu, idarəedici və idarə olunan parametrlər arasındakı qarşılıqlı əlaqələr gözlənilir. Başqa sözlə desək, imitasiya modeli ənənəvi sxem üzrə (analitik) həll edilmir, əksinə, məhz eksperiment aparılır, yəni modelin "hər üzü" yoxlanılır, onun real şəraitə adekvatlığı artırılır.

Əmək bazarının proqnozlaşdırılmasının analitik - imitasiya modelində işsizlər axınının intensivliyi müəyyən edilir və bu axının Puasonun eksponensial paylanma qanununa uyğun olması haqqında hipoteza yoxlanılır. Bu zaman işsizlər axınının intensivliyinin iqtisadi faktorlardan asılılığı modelləşdirilir.

Proqnozlaşdırmada analitik-imitasiya modelindən istifadənin məqsədəuyğunluğu aşağıdakı

şərtlərlə müəyyən edilir:

• idarəetmə məsələsini sonlu şəkildə riyazi qoyuluşda ifadə etmək mümkün deyil və ya modelin analitik həll alqoritmi yaradılmamışdır;

• modelin analitik həll metodu mövcud olsa da, onun strukturu o dərəcədə mürəkkəbdir ki, imitasiya modelindən istifadə etmək daha sərfəlidir;

• məsələnin qoyuluşunda iştirak edən idarə olunan parametrlərin qiymətlərinin tapılması ilə yanaşı, həm də müəyyən t zaman parçasında prosesin gedişini izləməyə ehtiyac yaranmışdır;

• əmək bazarının real fəaliyyəti şəraitində eksperimentlərin aparılması və hadisələrin müşahidəsi çətinliklərlə müşayiət olunan hallarda analitik-imitasiya modeli obyektiv reallığı dərk etmənin yeganə mümkün vasitəsi kimi çıxış edir;

• analitik-imitasiya modeli kompüter modelləşdirilməsinin avtomatlaşdırılması hesabına proqnozlaşdırma müddətlərini xeyli qısaldır.

Təklif olunan modelləşdirmə metodunun müsbət momenti ondan ibarətdir ki, bu metod əmək bazarının fəaliyyətinin statistik xarakterini nəzərə alır. Lakin bu metodun bir sıra qüsurlu cəhətləri də vardır və bu qüsurlar onlardan əmək bazarının operativ proqnozlaşdırılmasında istifadə etməyə imkan vermir. Bu metod imitasiya modelləşdirilməsi metodu ilə müqayisədə daha çox formalizə olunmuş hesab edilir və "qara qutu" prinsipinə daha çox cavab verərək, öyrənilən prosesin strukturunu açmadan son nəticələri qeyd etməyə imkan yaradır.

Əmək bazarının proqnozlaşdırılması metodları

İqtisadi və sosial proqnozlaşdırma sistemi dedikdə, proqramların hazırlanması metodologiyası, təşkilinin və işlənib hazırlanmasının müəyyən bir vahidliyi, onların əlaqəsinin və kəsilməzliyinin təmin edilməsi başa düşülür. [4, s. 10]

Müasir dövrdə əmək bazarının proqnozlaşdırılması üçün çoxsaylı metodlardan istifadə edilir. Bu metodların çoxsaylı olması üzündən onların tədqiqatının obyekti və predmeti baxımından təsnifləşdirmək zəruriliyi yaranır.

Ümumilikdə, əmək bazarının proqnozlaşdırılması metodlarını 2 böyük alt qrupa ayırmaq olar:

• məntiqli-evristik metodlar və ya keyfiyyət metodları;

• modelləşdirməyə əsaslanan metodlar və ya kəmiyyət metodları.

Proqramlaşdırmanın keyfiyyət metodlarına çox zaman ekspert metodları da deyilir. Bu metodların əsasını proqnozların verilməsində müvafiq sahə mütəxəssislərinin, ekspertlərin rəylərinə əsaslanmaq təşkil edir. [3, s. 416]

Daha doğrusu, məntiqi-evristik metodların (formal məntiq metodları, ekspert qiymətlər metodu, xüsusi evristik metodları) əsasını məntiqi və evristikanın "həqiqəti aşkar etmək bacarığı" kimi müəyyən olunan mahiyyəti təşkil edir. Bu qrup metodların əsas fərqli cəhəti odur ki, onlar bir qayda olaraq təhlilin keyfiyyət tərəfini, məntiqi, mülahizələri, mütəxəssislərin fikirlərini, bəzən də onların intuisiyasını əsas götürürlər.

Proqramlaşdırmanın kəmiyyət metodları isə vəziyyəti xarakterizə edən ədədi məlumat massivlərinin işlənməsinə əsaslanır. [3, s. 416] Daha doğrusu, modelləşdirmə metodları (ekstropolyasiya metodu, normativ-məqsədli və imitasiya) isə riyazi, kəmiyyət və statistik tədqiqatları, iqtisadi sistemlərin davranışında formal asılılıqları və inkişaf meyillərini əsas götürürlər. Bu tip tədqiqatın əsas məqsədi proqnoztik modellərin qurulması və onların əsasında kompüter eksperimentlərinin aparılmasıdır.

Müasir dövrdə əmək bazarının göstəricilərinin proqnozlaşdırılmasında istifadə olunan metodların bir çoxunda fərz edilir ki, əmək komponentləri üzrə keçmişdə müşahidə olunan əsas faktorlar, meyillər və asılılıqlar saxlanılır və ya proqnozlaşdırma diapazonunda onların dəyişməsi istiqamətlərini öncə görmək və ya müəyyən etmək olar, əmək proseslərinin inkişafı hamar traektoriya vasitəsi ilə təsvir edilə bilər, yəni bu inkişafda müəyyən ətalətlilik vardır və nəhayət, əmək bazarında iqtisadi proseslər ehtimallı xarakterə malikdir, tədqiq olunan obyektin inkişafı isə qanunauyğun-

luqların və təsadüfiliklərin additivliyi təsiri ilə müəyyən edilir.

Elmi axtarışların nəticələri belə bir qənaətə gəlməyə imkan verir ki, əmək bazarı üzrə proqnozların hazırlanmasında bu metodların məntiqi - evristik və modelləşdirmə metodlarından birgə istifadəsi daha yaxşı nəticələr verir.

Əmək bazarının proqnozlaşdırılmasının əsas problemlərindən biri bu iqtisadi sistem üzrə verilən proqnozların qiymətləndirilməsi və dəqiqliyinin artırılmasıdır. Bu problemin həlli yolu da məhz proqnozlaşdırmanın yuxarıda qeyd etdiyimiz iki yanaşmasının kombinasiyasıdır, daha doğrusu, bir-birini tamamlayan bir neçə proqnozlaşdırma metodundan istifadədir. Belə ki, metodların sintezi onların hər birinə ayrı-ayrılıqda xas olan qüsurları və məhdudiyyətləri neytrallaşdırmağa imkan verir.

Əmək bazarının riyazi modelləşdirilməsi və proqnozlaşdırılmasında bir çox iqtisadi sistemlərə xas olan mövsümi döyüntüləri nəzərə almaq lazım gəlir. Məlumdur ki, mövsümilik məhdud vaxt intervalı daxilində təbii - iqlim şəraitinin dəyişməsi ilə bağlıdır. Əmək bazarına nəzərən bu mövsümilik aqrar sektorda, emal sənayesində, turizm sferasında işləyənlərin sayının aylar üzrə kəskin dəyişməsi şəklində təzahür edir. Lakin qeyd edək ki, mövsümiliyi yalnız təbii-iqlim şərtləri deyil, öyrənilən iqtisadi sistemin başqa özəllikləri da doğura bilər.

Tədqiqatlar göstərir ki, mövsümiliyi doğuran faktorların heç də hamısına idarə olunmayan faktorlar kimi yanaşmaq olmaz və onlar əsasən idarə olunurlar. Lakin bu faktorların əmək bazarında gedən proseslərə təsirinin nəzərə alınması idarəetmə proseslərinin səmərəli təşkili üçün zəruridir.

Məlum olduğu kimi, iqtisadi sistemdə gedən prosesin müşahidələrinin zamana görə nizamlanmış ardıcıllığına zaman sırası deyilir. Əgər prosesdə mövsümi döyüntülər müşahidə edilirsə, onda müvafiq zaman sırası trend-mövsümi zaman sırası xarakterini alır. Bu tip sıraların tədqiqi ilə bağlı bəzi məqamları açıqlayaq.

Mövsümiliyin tədqiqi zamanı qarşıya çıxan əsas problem mövsümi döyüntülərin məhz özlərinin tədqiqi və bu mövsümiliyi yaradan səbəblərin öyrənilməsidir. İqtisadi sistemlə bağlı mövsümi döyüntüləri onları yaradan səbəblərdən kənar tədqiq etmək üçün zaman sırasından mövsümi komponenti təcrid etmək, sonra isə onun dinamikasını öyrənmək lazımdır. Zaman sırasından mövsümü təcrid etmək üçün tətbiq edilən üsulların bir çoxunda əvvəlcə trendin müəyyən edilməsindən, sonra isə mövsümi komponentin aşkar edilməsindən istifadə edilir. Qeyd edək ki, mövsümi komponentdən təmizlənmiş xalis ternd mövsümi dalğanın dinamikasının təhlili üçün istifadə oluna bilər.

Bəzən mövsümi xarakterli iqtisadi prosesləri tədqiq edən zaman fərz edilir ki, mövsümi dalğa zamana görə stabil xarakterdədir. Həqiqətdə isə əmək bazarında bu yanaşma özünü doğrultmur və mövsümi dalğanın həm ölçülərinin, həm də formasının zamana görə dəyişməsi müşahidə olunur. Odur ki, mövsümi dalğanın dəyişməsinin də proqnozlaşdırılması zəruriliyi yaranır.

Əmək bazarında mövsümi zaman sıralarının tədqiqi zamanı bir sıra məsələlər qarşıya çıxır. Bu məsələlərə misal olaraq əmək proseslərini əks etdirən zaman sıralarında trendlərin mövcudluğunu və bu trendin hamarlıq səviyyəsinin müəyyən edilməsini, zaman sırasında mövsümi döyüntülərin mövcudluğunun aşkar edilməsini, zaman sırasının komponentlərinin filtrasiyasını, mövsümi dalğanın dinamikasının təhlilini, bu mövsümiliyi və döyüntüləri doğuran səbəblərin aşkar edilməsini və nəhayət, əmək bazarında trend - mövsümi proseslərin proqnozlaşdırılmasını göstərmək olar.

Nəticə

Məqalədə aşağıdakı nəticələr alınmışdır:

1. Əmək bazarı mürəkkəb, iqtisadi- kibernetik sistemlər üçün xarakterik olan bütün xarakteristikalara – mürəkkəblik, dinamiklik və emercentlik xassələrinə malik olan bir sistem kimi çıxış edir və onun optimal idarə edilməsi problemləri riyazi modelləşdirmə metodu əsasında həll etmək

mümkündür;

2. Tədqiqatlar göstərir ki, əmək bazarının öyrənilməsində əsasən ekonometrik, imitasiya modelləşdirilməsi metodlarından istifadəyə üstünlük verilmişdir. Belə ki, bu metodlar əmək bazarı sisteminə xas olan cəhətləri daha adekvat nəzərə almağa imkan verir;

3. Məqalədə müəyyən edilmişdir ki, əmək bazarının proqnozlaşdırılmasında iki tip metodlardan, yəni məntiqi evristik metodlardan və modelləşdirməyə əsaslanan kəmiyyət metodlarından istifadə etmək əlverişlidir.

ƏDƏBİYYAT

1. Hacızalov Y.İ., Zeynalov M.Y. İqtisadi kibernetika. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2012.
2. Hacızalov Y.İ., Sadıqov Ş.M. İqtisadi sistemlərin riyazi modelləşdirilməsi. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2015.
3.Hacızalov Y.İ., Kərimova Y.R., Hüseynova L.N. Ekonometrika. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2013.
4. Şıxəliyev N.Ş. İqtisadi - riyazi proqnozlaşdırma metodları. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2014.

Лейла Низамеддин гызы Гусейнова
Азербайджанский Государственный
Экономический Университет

Постановка задачи математического моделирования и прогнозирования рынка труда

Резюме

В статье выявлены теоретико-методологические аспекты моделирования рынка труда. Выявлены системные характеристики рынка труда. Обосновано что основными математическими инструментариями анализа и прогнозирования рынка труда являются методы эконометрического и имитационного моделирования.

Ключевые слова: экономическая система, рынок труда, прогнозирование, структурный вектор, черный ящик, моделирование, адекватность, эконометрика, имитационное моделирование.

Leyla Nizameddin Huseynova
Azerbaijan State Economic University

Problem definition of mathematical modeling and forecasting of labor market

Summary

The article has been reviewed the modeling of theoretical-methodical aspects of labor market, it has been determined the system characteristics of labor market. Econometric and imitation methods of modeling diagnostics and imitation have been proved as main mathematical instruments.

Key words: economic system, labor market, forecasting, structural vector, black box, modeling, adequacy, econometrics, imitating modeling.

UOT 334.017

Cavid Əjdər oğlu İSMAYILOV
Elm və Təhsil Mərkəzi
"Təfəkkür" Universitetinin müəllimi

SAHİBKARLIĞIN FORMALAŞMASINA VƏ İNKİŞAFINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

Xülasə

Məqalədə göstərilir ki, sahibkarlığın inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. İqtisadi və sosial problemlərin həllində də bu amil mühüm əhəmiyyət kəsb edir.

Sahibkarliğin inkişafına isə vergi siyasəti və onun qanunvericilik bazasının təkmilləşdirilməsi, əlverişli vergi mühitinin yaradılması ciddi təsir göstərir. Məqalədə bununla bağlı məsələlər nəzərə çatdırılmışdır.

Açar sözlər: sahibkarlıq, iqtisadi sistem, islahatlar, vergi sistemi, fəaliyyət, qanunvericilik, amillər, bazar iqtisadiyyatı.

Giriş

Müstəqillik illərində Azərbaycanda həyata keçirilən səmərəli və uğurlu iqtisadi siyasət nəticəsində ölkədə dayanıqlı və sabit iqtisadi sistem formalaşmış, iqtisadiyyatın bütün sahələrində yüksək nailiyyətlər əldə edilmiş, özəl sektorun xüsusi çəkisi, sahibkarlığın rolu əhəmiyyətli dərəcədə yüksəlmişdir. Sahibkarğın inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri olmaqla, ölkədə iqtisadi və sosial problemlərin həllinin, cəmiyyətdə sabitliyin möhkəmləndirilməsinin mühüm amili hesab olunur. Sahibkarlığın inkişafı üçün vacib olan olan qanunvericilik bazası yaradılmış, onların hüquqi və qanuni mənafelərinin müdafiəsini, sahibkalıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşməsini, sahibkarlıq mühitinin sağlamlaşdırılmasını təmin edən müvafiq normativ hüquqi aktlar qəbul edilmişdir. Ölkəmizdə son onilliklərdə aparılan iqtisadi islahatlar sahibkarlığın formalaşmasına, onun iqtisadiyyatdakı rolunun daha da artmasına, sosial-iqtisadi problemlərin həllində fəal mövqe nümayiş etdirməsinə geniş imkanlar açmışdır.

Sahibkarlığın inkişafı və rəqabət mühütinin formalaşması

Sahibkarlığın inkişafı və rəqabət mühütinin formalaşması bazar iqtisadiyyatının əsas məsələlərindəndir. İqtisadiyyatın inkişafına yönəldilmiş tədbirlər kompleksində azad təsərrüfat subyektləri kimi müəssisələrin real müstəqilliyi və iqtisadi məsuliyyətinin yüksəldilməsi əsasında mövcud tələbə uyğun məhsul istehsalı həcminin artırılması ön planda durur. Azad rəqabətə əsaslanan sahibkarlığın təşəkkülü və inkişafı istehsalçıları öz fəaliyyətlərini istehlakçı hesabına deyil, keyfiyyətli məhsul istehsalı yolu ilə təmin etməyə istiqamətləndirir. Təsərrüfat mexanizminin yenidən qurulması ilə bağlı olan sahibkarlığın inkişafı mülkiyyətin daha səmərəli iqtisadi reallaşmasına imkan verəcəkdir. Nəticədə müəssisələr elə bir şəraitdə fəaliyyət göstərəcəklər ki, onların rəqabətə dözümlülüyü və inkişafı məhsul istehsalı həcminin artırılmasından, onun satışının genişləndirilməindən, istehsal xərclərinin aşağı salınmasından asılı olacaqdır.

Respublikamızda sahibkarlıq fəaliyyətinin inkişafınn təkmilləşdirilməsi və stimullaşdırılması məsələlərinin həlli üçün sahibkarlıq münasibətlərinin nəzəri aspektlərini ümumiləşdirməklə, münasibətlərin təkmiləşdirilməsi nəticəsində cəmiyyətin inkişafının əsas amili hesab olunan milli sahibkarlığın formalaşdırılması mühüm əhəmiyyət daşıyır. Bu gün ölkə iqtisadiyyatı qarşısında duran ən mühüm vəzifə sahibkarlığın inkişafına nail olmaq üçün sahibkarlıq münasibətləri tədqiq edilməli və təkmilləşdirilməlidir. [3]

Sahibkarlıq fəaliyyətinin əsas subyekti olan sahibkar mənfəət əldə etmək və rəqabətdə qalib

gəlmək üçün iqtisadi resurslardan səmərəli və qənaətlə istifadə əsasında günün tələblərinə cavab verən, rəqabətə davamlı və əhalinin ehtiyaclarını özündə dolğun əks etdirən məhsul istehsalının və xidmətlər göstərilməsinin təşkilinə çalışır. Bu isə məhsul və xidmətlər bolluğunu yaratmaqla daxili bazarın formalaşması və dolayı yolla dövlət büdcəsinin gəlir hissəsinin artmasına səbəb olur, əhalinin məşğulluğunun yüksəldilməsinə,həyat səviyyəsinin yaxşılaşdırılmasına və milli iqtisadiyyatın formalaşmasına zəmin yaradır.Bazar iqtisadiyyatının artıq ümumibəşəri dəyər kimi qəbul edildiyi bir dövrdə dövlətin qüdrəti onun iqtisadi inkişaf səviyyəsi ilə müəyyən edilir ki, bu məqsədin də reallaşmasının başlıca yolu sahibkarlığın inkişafı və yaranan müasibətlərin düzgün tənzimlənməsidir. Bazar mexanizminin hərəkətverici qüvvəsi olan sahibkarlıq münasibətlərinin tənzimlənməsi bazar iqtisadiyyatını bərqərar etməyə çalışan ölkələrin sosial-iqtisadi sisteminin yenidən qurulmasının mühüm amilidir.

Azərbaycan Respublikası Konstitusiyasında ölkədə sahibkarlıq fəaliyyəti hüququ vətəndaşların konstitusional, fundamental hüquqlarının tərkib hissəsi kimi təsbit olunmuş, iqtisadi konstitusiya hesab olunan "Mülki Məcəllə"nin qəbul edilməsi respublikamızda sahibkarlıq fəaliyyətinin mülki əlaqələr sisteminin tərkib hissəsi kimi qanunvericilik bazasını formalaşdırmış və sahibkarlıq hüququnun gerçəkləşməsinin əməli fəaliyyət müstəvisinə gətirilməsi üçün qanunvericilikdə olduqca vacib fundamental yaratmışdır. Bu özünü sahibkarlıq strukturları, sahibkarlarla dövlət və dövlət strukturları arasında münasibətlərinin qanunvericilik bazasının formalaşmasında da göstərmişdir. Sahibkarlığın inkişafı üzrə qəbul edilmiş Dövlət Proqramları bu sahənin inkişafı istiqamətində tədbirlərin vahid strategiyasının həyata keçirilməsinə yönəldilmişdir.

Sahibkarlıq münasibətlərinin tənzimlənməsi sahəsində dövlət siyasətinin reallaşdırılması, bazarın tam formalaşdırılması bir sıra nəzəri, praktiki-təşkilati idarəetmə məsələlərinin həllinin zəruri etdiyindən sahibkarlıq fəaliyyətinin mahiyyətinin araşdırılması,onun yaranma mənbələrinin və onlara təsir göstərən iqtisadi amillərin təhlili, habelə inkişafının təkmilləşdirilməsi məsələləri tədqiqat obyekti kimi mühüm əhəmiyyət kəsb edir. Respublikamızda sahibkarlıq münasibətlərinin təkmilləşdirilməsi yollarının və mövcud resurslardan səmərəli istifadə edilməsi istiqamətlərinin müəyyən edilməsi öncül məsələlərdən biridir. [4]

Ümumiyyətlə, sahibkarlığı iqtisadi kateqoriya, təsərrüfatçılıq metodu və iqtisadi təfəkkür tipi kimi istiqamətlərdə şərh etmək olar.

Sahibkarlığı iqtisadi kateqoriya kimi şərh edərkən ilk növbədə onun subyekt və obyektinin müəyyən edilməsidir. Sahibkarlığın subyekti ilk növbədə xüsusi şəxslərdir: fərdi istehsal və xidməti təşkil edənlər; ailə təsərrüfatçılığı təşkil edənlər; kollektiv təsərrüfatçılığı təşkil edənlər; iri və ya dövlət təsərrüfatçılığını təşkil edənlər.

Belə sahibkarlıq fəaliyyəti, ya şəxsi əməyə, ya da muzdlu əməyə əsaslanır. Sahibkarlıq fəaliyyəti həm də müqavilə və iqtisadi mənafeyləri baxımından əlaqəli olan insan qrupları tərəfindən həyata keçirilə bilər. Kollektiv sahibkarlığının subyekti, səhmdar cəmiyyətlər, icarədar kollektivlər, kooperativlər və s. ola bilər. Sahibkarlığın subyektinə daxil olan dövlət isə ayrı-ayrı müvafiq orqanları timsalında çıxış edir. Beləliklə də biz görürük ki,bazar iqtisadiyyatında sahibkarlıq fəaliyyəti üç formada fəaliyyət göstərir və təsərrüfatçılıqda özünəməxsus yer tutur: xüsusi sahibkarlıq; kollektiv sahibkarlıq; dövlət sahibkarlığı.

Sahibkarlığı təsərüfatçılıq metodu kimi xarakterizə edərkən qeyd etmək lazımdır ki, burada əsas yeri təsərrüfat subyektinin müstəqilliyi və asılı vəziyyətdə olması tutur. Daha doğrusu sahibkar fəaliyyət növünün seçimində hüquqi cəhətdən sərbəst olmalıdırlar. Sahibkarın timsalında həm yenilikçilik, həm hüquqi sərbəstlik, həm də iqtisadi azadlıq qarşılıqlı əlaqəli şəkildə birləşərək: sahibkarlıq fəaliyyəti növünün seçimində; istehsal proqramının müəyyənləşdirilməsində; maliyyə mənbələrinin seçilməsində; resursların əldə olunmasında; məhsulların satışında və qiymət qoyulmasında sərbəstlikdə; əldə olunan mənfəətə sərəncam verməsində və s. özünü əks etdirməlidir. [5]

Sahibkarlığın müstəqilliyi dedikdə o vəziyyət nəzərdə tutulur ki, ona rəhbərlik edən və ya göstəriş verən orqan yoxdur. Onun nə istehsal etməsini, necə istehsal etməsini, nə qədər, hansı qiymətə və kimin üçün istehsal etməsini göstərişlər deyil, bazar qaydaları müəyyən edir. Bazardakı oyun qaydaları, tələb və təklifin dinamikası, qiymət səviyyəsi, rəqabət mühiti, inhisarçı vəziyyət bilavasitə sahibkarlıq fəaliyyətinə təsir göstərir.

Sahibkarlıq fəaliyyətində müstəqilliklə yanaşı məsuliyyət daşımaq da xüsusi rol oynayır. Yəni, hər cür təsərrüfatçılıq qərarlarının qəbulunda sahibkar məsuliyyət daşıyır. Çünki, qərarların qəbulu qeyri - müəyyənliklər əsasında, risk etməklə əlaqədar olduğundan, sahibkar öz fəaliyyətinin nəticəsini hər dəfə hesablamaq, düşünmək, vəziyyəti qiymətləndirmək, istiqamətində məsuliyyət daşıyır.

Sahibkarlığı iqtisadi təfəkkürün xüsusi tipi kimi xarakterizə edərkən ilk növbədə onun praktikada reallaşdıra biləcəyi original ideyalarının məcmusu başa düşülür. Daha doğrusu sahibkarın mövqeyindən, təşəbbüskarlığından, zirəkliyindən irəli gələn şəxsi fəllığı nəzərdə tutulur. Sahibkarlıq məşğuliyyət növü olmayıb, başqalarının görə bilmədiyi işi görə bilmək bacarığıdır.

Sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsinin mövcud vəziyyəti.

Sahibkarlığın hüquqi cəhətdən tənzimlənməsi iqtisadiyyatın çox vacib bu bölməsinin fəaliyyət göstərməsi və sosial iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün əlverişli şərait yaradılmasına yönəldilmişdir. Bununla əlaqədar olaraq kiçik və orta sahibkarlığın inkişaf meyillərini və bu sahədə hüquqi tənzimlənmə sistemini nəzərdən keçirmək lazımdır.

Sahibkarlıq istehsalın xüsusi innovasiya formasıdır. O, müəyyən tarixi və sosial-iqtisadi şəraitdə həlledici üstünlüyə malik olur və bütün ictimai təkrar istehsalın dinamik inkişafını təmin edir. Biznesin xüsusi növü olan sahibkarlığın məqsədi ümumiyyətlə mənfəət deyil, əlavə mənfəət, başqa sözlə, sahibkar gəliri əldə etməkdir.

Kiçik və orta sahibkarlığın hüquqi tənzimlənməsi dedikdə, onların səmərəli fəaliyyət göstərmələri və sabit inkişaf etdirilməsi üçün iqtisadi, hüquqi və təşkilati mühitin yaradılması nəzərdə tutulur. Bu sistemə respublika, region və yerli səviyyədə müxtəlif qanunverici, icraedici və məhkəmə hakimiyyəti strukturları daxildir.

Sahibkarlığa münasibətdə dövləti qarşısında aşağıdakı vəzifələr durur:

- iqtisadiyyatda rəqabət mühitinin qorunub saxlanması və inkişaf etdirilməsi. Yeni kiçik orta firmaların meydana gəlməsi üçün dövlət tərəfindən əlverişli şərait yaradıldıqca rəqabət, iqtisadiyyatın bütün seqmentlərinə bir o qədər sürətlə yayılmış olur;
- özəl biznes üçün məsuliyyəti üzərinə götürən hər bir təşəbbüskar şəxsin bu sahədə fəaliyyətinin bərabərşanslı olması;
- məşğulluq probleminin həllinə təsir göstərilməsi. Dinamik inkişaf edən kiçik və orta biznesdə əlavə iş yerlərinin yaradılması sosial sabitliyin, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsinin əsasıdır;

Bu ümumi məqsədlərlə yanaşı kiçik və orta sahibkarlığın xüsusiyyətləri ilə müəyyən olunan bir sıra xüsusi məqsədlərdə vardır ki, bunlar da aşağıdakılardan ibarətdir.

- kiçik və orta sahibkarlığın fəaliyyət göstərməsi üçün ümumi əlverişli şəraitin yaradılması. Bunlara kiçik və ya orta sahibkarların hüquqlarının müəyyən edilməsi, qeydiyyatdan keçirilməsi, lisenziya verilməsi, vergiyə cəlb olunması, hakimiyyət orqanları tərəfindən rəqabətdə onlara qarşı ayrı-seçkililiyə yol verilməməsi, resurslardan bərabərhüquqlu subyekt kimi istifadə etmək imkanlarının təmin olunması, xüsusi infrastrukturun yaradılması və qorunub saxlanması (kadrların hazırlanması, hüquqi xidmət göstərilməsi və s);
- yeni fəaliyyətə başlayan kiçik və orta müəssisələrin müdafiə olunması;
- regionlarda və sahələrdə aşağı inkişaf səviyyəsi ilə fərqlənən, yaxud da üzərinə ağır sosial yük düşən kiçik və orta biznesin müdafiə edilməsi;
- kiçik və orta biznesin bazarda çətinliklə satın aldığı resursların onlar tərəfindən əldə edilməsinə

şərait yaradılması (məsələn, kredit verilməsi, sahələrin icarəyə götürülməsi və s). [5]

Müasir dövrdə sahibkarlığın müdafiəsi üçün istifadə olunan hüquqi tənzimlənmənin hamı tərəfindən qəbul olunan forma və metodları vardır. Lakin hər bir ölkənin spesfik xüsusiyyətlərindən, konkret tarixi amillərin müxtəlifliyindən asılı olaraq bu metodların tərkibi və strukturu dəyişə bilər.

Ümumiyyətlə, sahibkarlığın hüquqi cəhətdən müdafiə edilməsi mexanizminə aşağıdakılar daxildir:

Qanunvericilik və normativ hüquqi bazanın yaradılması, inzibati maneələrin aradan qaldırılması, sahibkarlığın kredit maliyyə və investisiya sahələrində müdafiə olunması, qanunazidd hallardan müdafiəsi və təhlükəsizliyinin təşkilində informasiya təminatının olması.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər üçün başlıca tələb onların hüquq qabiliyyətli olmasıdır. Bu zaman həm fiziki şəxslər, həm də hüquqi şəxslər öz hərəkətləri ilə mülki hüquqlar əldə edir, həyata keçirir, özü üçün mülki vəzifələr yaratmaq və icra etmək qabiliyyətinə malik olurlar. Sahibkarlıq fəaliyyətinin subyektlərinin hüquq subyektliliyi dövlət tərəfindən tanınan sahibkarlıq sahəsində mövcud olan hüquq və vəzifələrə malik olmaq və onları şəxsən həyata keçirmək qabiliyyəti, eləcədə də sahibkarlıq sahəsində hüquq pozuntularına görə müstəqil surətdə hüquqi məsuliyyət daşımq qabiliyyətidir.

Sahibkarlıq fəaliyyətinin elə növləri vardır ki, bu sahədə mütləq nəzərdə tutulmuş qaydada lisenziya, xüsusi icazə tələb edilir. Bu sahədə mövcud olan münasibətlər Azərbaycan Respublikası Prezidentinin "Xüsusi razılıq tələb olunan fəaliyyət növlərinin siyahısı haqqında" 2 sentyabır 2002-ci il tarixli fərmanı ilə tənzimlənir.

Fəliyyət qabiliyətli fiziki şəxslər isə sahibkarlıq fəaliyyəti ilə qanunvericilikdə müəyyən olunmuş qaydada dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs yaratmadan və ya təkbaşına, yaxud başqaları ilə birlikdə hüquqi şəxs yaratmaqla məşğul olurlar.

Mülki qanunvericiliyin demək olar ki, bütün prinsipləri sahibkarlıq fəaliyyətinin müstəqilliyinin təminə yönəlmişdir. Belə ki, mülki hüquq subyektlərinin bərabərliyi, mülki hüquq subyektlərinin iradə sərbəstliyi, mülki dövriyyə iştirakçılarının əmlak müstəqilliyi, mülkiyyətin toxunulmazlığı, müqavilələr azadlığı, mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması, pozulmuş hüquqların bərpasının təmin edilməsi, mülki hüquqların məhkəmə müdafiəsi prinsiplərinin hər biri bu və ya digər formada hüquqi və fiziki şəxslərin sahibkarlıq fəaliyyətini müstəqil surətdə həyata keçirilməsini təmin edir, mülki dövriyyədə sahibkarlıq fəaliyyətinin dəstəklənməsinin hüquqi tənzimlənmə mexanizmini müəyyənləşdirir və sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaradır. [4]

Fiziki və hüquqi şəxslər mülki hüquqları öz mənafelərini gerçəkləşdirmək üçün iradələrinə uyğun olaraq əldə edir və həyata keçirirlər. Onlar müqavilə əsasında öz hüquq və vəzifələrini müəyyənləşdirməkdə və qanunvericiliyə zidd olmayan hər hansı müqavilə şərtləri qoymaqda sərbəstdirlər (MM-in 6-cı maddəsi).

Sahibkarlar öz fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikası qanunvericiliyinə əməl etməklə, istənilən müəssisələr yaratmaq, onların idarəetmə orqanlarında vəzifə tutmaq və bu orqanların işində iştirak etmək, dövlət və digər mülkiyyət formalarına əsaslanan müəssisələrin əmlakının, başqa əmlakı və əmlak hüquqlarını tamamilə və qismən əldə etmək, təsərrüfat-maliyyə fəaliyyətini müstəqil həyata keçirmək, məhsul göndərənləri və istehsal olunan məhsulun istehsalçılarını seçmək, öz məhsulları üçün qiymətlər müəyyənləşdirmək, pul vəsaitinin saxlanması, hesblaşma, kredit və kassa əməliyyatlarının bütün növlərinin həyata keçirilməsi üçün banklarda hesablar açmaq, sahibkalıq fəaliyyətində əldə edilən mənfəətdən vergilər və digər icbari ödənişlərdən sonra onun qalan hissəsindən sərbəst istifadə etmək, məbləğinə məhdudiyyət qoyulmayan şəxsi gəlir əldə etmək, xarici iqtisadi münasibətlərdə iştirak etmək, valyuta əməliyyatarı aparmaq və "Saibkarlıq fəaliyyəti haqqında" Qanunun 6-cı maddəsində nəzərdə

tutulmuş və sahibkarların müstəqilliyini təmin edən digər hüquqlara malikdirlər.

Lakin sahibkarların müstəqilliyini, fəaliyyət azadlığını, özbaşnalıq, hüquqlardan sui - istifadə kimi başa düşmək düzgün olmazdı. Belə ki, mülki qanunvericiliyin tələblərinə əsasən, fiziki və hüquqi şəxslərin yalnız və yalnız başqa şəxslərə ziyan vurmaq niyyətilə həyata keçirdikləri hərəkətlərə, habelə hüquqdan digər formada suiistifadə edilməsinə yol verilmir.

Mülki hüquqlardan rəqabti məhdudlaşdırmaq məqsədi ilə istifadə edilməsinə, habelə bazarda hakim mövqedən sui-istifadə olunmasına yol verilmir (MM-nin 16-cı maddəsi).

Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 22 aprel tarixli, 802 saylı qərarı ilə təsdiq edilmiş “Qanunvericilik sahələrinin ümumhüquqi təsnifatı”na əsasən müəyyənləşdirilmiş 45 qanunvericilik sahəsi içərisində “Müəssisələr və sahibkarlıq fəaliyyəti haqqında qanunvericiliyə” xüsusi təsnifat qrupu kimi ayrıca yer ayrılmışdır.

Həmin ümumhüquqi təsnifata əsasən sahibkarlıq fəaliyyətini tənzimləyən hüquq normaları aşağıdakı kimi sistemləşdirilmişdir:

- təsərrüfat fəaliyyəti subyektlərinin hüquqi vəziyyəti;
- təsərrüfat fəaliyyətinin qeydə alınması qaydası və təminatları, o cümlədən təşkili (yaranması), ləğvi, çevrilməsi, yenidən təşkili, müəssisə, təşkilat və idarələrin qeydiyyatı, müəssiəslərin dövlət reyestri, ayrı-ayrı fəaliyyət növlərinə lisenziya verilməsi;
- sahibkarlıq fəaliyyətinə dövlət yardımı, yardım fondları;
- sərbəst sahibkarlıq zonaları, sərbəst iqtisadi zonalar;
- kommersiya sirri;
- müəssisələrin və sahibkarların müflisləşməsi və iflası;
- nümayəndəliklər, filiallar, agentliklər;
- müəssisələrin təşkilati-hüquqi formaları, o cümlədən dövlət müəssisələri, bələdiyyə müəssisələri, xüsusi müəssisələr və sahibkarlar, ortaqlıqlar və onların növləri, səhmdar cəmiyyətləri, məhdud məsuliyyətli ortaqlıqları, icarə müəssisələri, təsərrüfat birlikləri, xarici investisiyalı müəssisələr, birgə müəssisələr, xarici firmalar, istehlak, istehsal və ticarət kooperativləri;
- birjalar (əmtəə, fond).

Bütün bu sadaladığlarımızı ümumiləşdirərək sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsi həyata keçirilməsində məqsəd ölkəmizdə sahibkarlıq fəaliyyətinin daha da sürətli inkişfına nail olmaq və sahibkarların hüquq və mənafeylərinin qorunmasına xidmət etməkdən ibarətdir.

Vergi siyasəti və səmərəli vergi sisteminin formalaşdırılması

Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkədə dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində geniş miqyaslı islahatlar aparılmışdır. Bu islahatlar içərisində vergi sisteminin inkişafı ilə bağlı görülən işlər diqqəti daha çox cəlb edir. Çünki SSRİ dövründə tamamilə başqa bir sistem fəaliyyət göstərirdi. Müstəqillik illərində isə vergi siyasəti və səmərəli vergi sisteminin formalaş-dırılması, onun qanunvericilik bazasının təkmilləşdirilməsi, vergi orqanları əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması, ölkədə əlverişli vergi mühitinin və vergi mədəniyyətinin yaradılması sahəsində əhəmiyyətli işlər görülmüşdür.

Öz suverenliyini əldə edən respublikamız qarşısında duran ən mühüm vəzifələrdən biri Azərbaycanda vergi sisteminin təşəkkülü, onun sahibkarlığın formalaşmasına və inkişafına təsirinin artırılması, eləcə də sosial-iqtisadi inkişafıdır.

Müstəqillikdən keçən 24 il ərzində Azərbaycanda bu istiqamətdə xeyli uğurlu addımlar atılmışdır. Belə ki, bu müddətdə mühüm nailiyyətlər əldə olunmuşdur.

İqtisadi proseslərin idarə olunmasında, iqtisadi münasibətlərin formalaşmasında, xüsusilə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsində vergi sistemi aparıcı yer tutur. Vergi sistemi dövlətin mövcudluğunun, onun təhlükəsizliyinin təmin edilməsinin, əhalinin sosial müdafiəsinin və dövlət gəlirlərinin formalaşmasının əsasını təşkil edir. Çünki, bazar münasibətləri şəraitində iqti-

sadiyyatın tənzimlənməsi, dövlət büdcəsinin gəlirlərinin təmin edilməsi, sahibkarlıq fəaliyyətinin inkişafı məhz vergi sistemi vasitəsilə həyata keçirilir. Deməli vergi sistemi dövlət büdcəsinin gəlirlərinin formalaşmasının və bu əsasdan da dövlətin sosial - iqtisadi öhdəliklərinin başlıca mənbəyidir. Mövcud vergi sisteminin uğurlu inkişafı bir tərəfdən vergi orqanlarının işinin səmərəliliyinin yüksəldilməsindən, digər tərəfdən də verginin ödənilməsinin ölkənin sosial - iqtisadi inkişafında rolu və əhəmiyyətini dərk edən, vətəndaş məsuliyyəti olan müxtəlif vergi işçiləri və ödəyiciləri kateqoriyasının formalaşdırılmasından asılıdır. [6]

Bildiyimiz kimi, bazar münasibətlərinin tələblərinə cavab verən vergi xidmətinin yaradılması prosesinə keçən əsrin 90-cı illərinin əvvəllərindən başlanmışdır. Belə ki, vergi qanunvericiliyinə və qiymət intizamına riayət olunmasına dövlət nəzarətinin təmin edilməsi məqsədilə 1990-cı ilin iyul ayında Respublika Maliyyə Nazirliyinin tərkibində Vergi Müfəttişliyi yaradılmışdır. Bir müddət Maliyyə Nazirliyinin orqanı kimi fəaliyyət göstərdikdən sonra 1991-ci ilin oktyabrında vergi qanunvericiliyinə və dövlət qiymət intizamına riayət olunmasına nəzarət sisteminin təkmilləşdirilməsi, bu sahədə dövlət vergi xidmətinin rolunun gücləndirilməsi, onun müstəqil fəaliyyətinin və nəzarət işlərinin obyektivliyinin təmin edilməsi məqsədi ilə bu xidmət Maliyyə Nazirliyinin tərkibindən çıxarılaraq müstəqil orqan olan Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyi yaradılmış və bu qurum 2000-ci ilə qədər fəaliyyət göstərmişdir. Azərbaycan Respublikası Prezidenti, ümummilli lider Heydər Əliyevin 11 fevral 2000-ci il tarixli Fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyi ləğv edilmiş, onun bazasında Vergilər Nazirliyi yaradılmışdır. Hazırda bu nazirlik dövlətin vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən , həmçinin sahibkarlığın formalaşmasına və inkişafına təsir göstərən mərkəzi icra hakimiyyəti orqanıdır.

Sahibkarlığın formalaşmasına və inkişafına təsir göstərən vergi sistemi ilə yanaşı Dövlət Gömrük Komitəsi, Dövlət Sosial Müdafiə Fondu da bəzi vergi və rüsumların yığılmasına cavabdehlik daşıyır. Bu orqanların fəaliyyəti vergi və gömrük qanunvericiliyinə söykənir və bunun əsasında da onların fəaliyyət prinsipləri müəyyən edilir. Vergi orqanlarının fəaliyyət prinsiplərinə: sistemin vahidliyi, stabilliyi, müstəqilliyi, operativliyi (çevikliyi), qanunun aliliyi, fəaliyyətdə məqsədyönlülük və s. daxildir. Sözsüz ki, bütün bunlar insan əməyi, insanın bilik və bacarığı, öz peşəsinə və onun nəticələrinə cavabdehliyi ilə formalaşır və inkişaf edir.

Vergi orqanlarının və bu orqanlarda çalışan insanların əsas vəzifəsi və məqsədi vergi qanunvericiliyinə əməl olunmasına nəzarət etməkdir. Bunlara: vergi ödəyicilərinin uçotu; vergi hüquq münasibətlərinin iştirakçıları tərəfindən qanunvericiliyə əməl olunmasına nəzarət; vergi ödəyicisi tərəfindən büdcəyə ödənilməli olan vergilərin məbləğinin müəyyən edilməsi; vergi məbləğinin mühasibat uçotunu aparmaq; vergi qanunvericiliyinin tətbiqi qaydaları haqqında vergi ödəyicilərini məlumatlandırmaq; vergi qanunvericiliyini pozan şəxslərə qarşı məsuliyyət tədbirləri görmək; vergi borclarını, cərimə və faizləri tələb etmək və s. bu kimi vəzifələr daxil edilir.

Yerli vergi orqanlarından fərqli olaraq Azərbaycan Respublikası Vergilər Nazirliyi aşağı vergi orqanlarının fəaliyyətinin təşkili, əlaqələndirmə və onlara nəzarət, analitik və statistik fəaliyyət, vergi qanunvericiliyinin tətbiqinə dair təlimat və metodiki göstərişlərin işlənib hazırlanması və nəşri, dövlətin vergi siyasətinin işlənib hazırlanmasında, vergiqoyulmaya dair qanunvericilik aktlarının, beynəlxalq müqavilələrin işlənib hazırlanmasında iştirak etmə, vergiqoyma sahəsində başqa dövlətlərlə əməkdaşlıq və s. kimi funksiyaları yerinə yetirir. [7]

Vergi sistemində inzibatçılığının modernləşdirilməsinin mühüm istiqamətlərindən biri də onun təşkilati strukturunun təkmilləşdirilməsidir. Hazırda dünyada gedən inkişaf və tənəzzül prosesləri vergi sistemində təşkilati-idarəetmə mexanizminin bu proseslərə uyğun həyata keçirilməsini tələb edir. Bunun üçün hər şeydən əvvəl cəmiyyətdə baş verən dəyişiklikləri duyan və buna müvafiq tədbirlər həyata keçirməyi bacaran kadrların olmasını tələb olunur. Bu dövrün tələblərinə uyğun

büdcə-vergi siyasətinin həyata keçirilməsində vacib amildir. Çünki büdcə-vergi siyasətini istiqamətləndirən makroiqtisadi göstəricilər daha sürətli iqtisadi artımın əldə edilməsini, büdcəyə əlavə daxilolma mənbələrinin müəyyən edilməsini, iqtisadiyyatın tənzimlənməsində büdcənin birbaşa iştirakının və təsirinin artırılmasını, maliyyə intizamının gücləndirilməsi və şəffaflığının təmin edilməsini, yoxsulluğun azaldılmasını, ünvanlı sosial yardımın tətbiqinin təkmilləşdirilməsini, sahibkarlığın və regionların inkişafı üçün maliyyə imkanlarının yaradılmasını özündə əks etdirir.

Vergi sistemi iqtisadiyyatın tənzimlənməsində mühüm rol oynadığı kimi, investisiyaların təşviqi prosesinin də tərkib hissəsi kimi çıxış edir. Bazar iqtisadiyyatına və bununla əlaqədar yeni istehsal mülkiyyət münasibətlərinə keçid şəraitində iqtisadi təhsilin tərkib hissəsi olan vergi təhsilinin əhəmiyyəti durmadan artır. Bu günün reallıqları əhalinin vergi təhsilinin bu və ya digər forması ilə əhatə olunmasını, onun vergi savadının artırılmasını, vergi məsələləri üzrə maarifləndirilməsini, əhalidə vergi mədəniyyətinin, təfəkkürünün formalaşmasını labüd edir. Digər amil peşəkar kadr resurslarına tələbin durmadan artması ixtisasa və müxtəlif kateqoriyalı mütəxəssislərə tələbin dəyişməsi vergi sisteminin özünün inkişafı ilə nəticələnir. [6]

Sahibkarlığın formalaşmasına və inkişafına təsir göstərən vergi sistemində son illərdə təşkilati-idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində təqdirəlayiq işlər görülmüşdür.

Artıq Azərbaycanda iqtisadiyyatın güclü inkişafı prosesinin baş verməsi, ümmumi daxili məhsulda ciddin artımın olması kimi müsbət irəliləyişləri kiçik və orta sahibkarlığın nəticəsi hesab etmək olar. Respublikamızda bazar iqtisadiyyatı möhkəmləndikcə sahibkarlığın məzmununda, strukturunda və tələblərində əsaslı dəyişikliklər baş verir və yeni meyillər əmələ gəlir. Müstəqilliyin ilk illərində respublikamizda sahibkarlıq fəaliyyəti kiçik sahibkarlıq formasında qərarlaşmışdırsa, hazırda onun daha mürəkkəb və geniş formaları meydana gəlmişdir. Xüsusilə, respublikamızda sahibkarlıq fəaliyyətinin genişlənməsi “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunnu əsasında nizamlanır. Deməli, bu qanun Azərbaycanda 1990-cı ildən sonra sahibkarlıq fəaliyyətinə geniş şərait yaradan və ona hüquqi baza təminatı verən bir sənəddir. Eyni zamanda bu qanunun qəbul edilməsi dövrünü respublikamızda sahibkarlığın inkişafının ikinci mərhələsi hesab etmək olar.

Nəticə

Azərbaycanda “Sahibkarlıq fəaliyyəti haqqında” qanunun tələblərinə və prinsiplərinə uyğun olaraq mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi və fiziki şəxslər müxtəlif fəaliyyət növləri ilə məşğul ola bilərlər. Artıq sahibkarlıq fəaliyyətini müdafiyə edən və ona hüquqi baza yaradan möhkəm qanunlar paketi qəbul edilmişdir.

İstənilən halda vergi sisteminin sivil qaydada inkişafı sahibkarliğin formalaşmasına və inkişafına əsaslı şəkildə təsir göstərən mühüm amildir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. 2013-cü il yanvarın 15-dək edilmiş əlavə və dəyişikliklərlə. Bakı, “Hüquq ədəbiyyatı”, 2013, 308 s.
2. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu.
3. Azərbaycanda kiçik sahibkarlıq. Statistik məcmuə. DSK, Bakı, 2009.
4. Allahverdiyev H., Qafarov K., Əhmədov Ə. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, “Nasir”, 2002, s. 447.
5. Xankişiyev A. Büdcə - vergi siyasəti. Bakı, MBM, 2010, 84 s.
6. Musayev A. F. Vergi siyasətinin iqtisadi problemləri. Bakı, “Elm”, 2004, 792 s.
7. www.economy.gov.az

Джавид Аждар оглы Исмаилов
предподаватель Университета
Наука и образование центр "Тафаккур"

Факторы, влияющие на формирование и развитие предпринимательства

Резюме

В статье показывается, что развитие предпринимательства является одним из основных направлений экономической политики Азербайджанского Государства.

Этот фактор имеет особое значение в решении экономических и социальных проблем.

На развитие предпринимательства оказывает серьезное влияние создание выгодной налоговой сферы, налоговая политика и совершенствование его законодательной базы. В статье последовательно даны связанные с этим задачи.

Ключевые слова: предпринимательство, экономическая система, реформы, налоговая система, деятельность, законодательство, фактор, рыночная экономика.

Javid Ajdar İsmayilov
teacher of the
Science and education center "Tafakkur" University

Business impact formation and development factors

Summary

Financial statemends identification forms, financial statemends, composition, balance sheet, the information to be presented in the balance sheet.

Key wodrs: factors, development, records, information, statements.

UOT 338.45

Ramil Teyyub oğlu ƏLİYEV
AMEA-nın İqtisadiyyat İnstitutunun böyük elmi işçisi,
iqtisad üzrə fəlsəfə doktoru

İSTEHSAL SAHİBKARLIĞININ İNNOVASİYA TƏMİNATI

Xülasə

Məqalədə sahibkarlığın formalaşmasına təsir edən amillər, istehsal sahibkarlığının innovasiya təminatının mahiyyəti və mərhələləri, innovasiyanın növləri və yeni məhsulun səmərəliliyinin qiymətləndirilməsi metodları, innovasiya prosesinin idarə edilməsi və tənzimlənməsi mexanizmi şərh edilir. Məqalədə həmçinin ölkə iqtisadiyyatının inkişafı üçün istehsal sahibkarlığının innovasiya təminatının həyata keçirilməsin zəruriliyi barədə müvafiq nəticələr çıxarılır.

Açar sözlər: istehsal sahibkarlığı, amillər, innovasiya, təşkil, təminat, metodlar, idarəetmə, tənzimləmə.

Giriş

Sahibkarlıq fəaliyyətinin əsas, aparıcı növü istehsal sahibkarlığıdır. İstehsal sahibkarlığı əsasən yeni maddi dəyərlər yaradılması ilə bağlıdır. Sahibkarlığın inkişaf tarixinin təhlili göstərir ki, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi bir çox amillərdən asılıdır və bu fəaliyyətin formalaşması aşağıdakı elementlərin mövcudluğunu tələb edir:

- sahibkarın özünün;
- sahibkarlaq ideyasının, hər hansı bir (bir neçə) sahibkarlıq növü ilə məşğul olmaq istəyinin;
- ilkin kapital yığımının;
- sahibkarlıq fəaliyyəti növünə (növlərinə) uyğun texnika və texnologiyanın, texniki elementlərin, xammal, material və müvafiq işçi qüvvəsinin [1, s. 8-9].

Qeyd edilən elementlərin mövcudluğu sahibkarlıq fəaliyyətinin, eləcə də onun bir növü olan istehsal sahibkarlığının formalaşmasının ilkin şərtləridir. Bunlarla yanaşı, sahibkarlıq fəaliyyətinin, xüsusilə də istehsal sahibkarlığının uzun müddət sabit, səmərəli fəaliyyət göstərməsi, rəqabət mübarizəsində qalib gəlməsi fəaliyyət sahəsinə aid yeniliklərin - innovasiyanın - mütəmadi olaraq tətbiq edilməsini tələb edir.

İstehsal sahibkarlığının innovasiya təminatının mahiyyəti və mərhələləri

İnnovasiya- yeni texnoloji ideyaların, təkliflərin, elmi- texniki qərarların praktiki tətbiq edilməsi və həyata keçirilməsidir.

Təbiidir ki, innovasiyanın tətbiq edilməsi istehsalla bilavasitə məşğul olan sahibkardan asılıdır. Y.Şumpeter qeyd edirdi ki, "Sahibkarların vəzifəsi-ixtiraların tətbiq edilməsi yolu ilə istehsal üsullarının islahatını aparmaqdan və inqilabiləşdirməkdən, daha geniş mənada isə-yeni xammal mənbələri və ya yeni hazır məhsulların yeni bazarlarını kəşf etməklə - əvvəl mövcud olan sənaye sahəsini yenidən qurmağa və yenisini yaratmağa qədər-yeni texnologiyalardan istifadə edərək yeni növ əmtəələri, yaxud, əvvəlki əmtəələri yeni metodlarla istehsal etməkdən ibarətdir." [5, s. 51]

İnnovasiyanın istehsala tətbiqi bir neçə mərhələ üzrə həyata keçirilə bilər. Hər bir konkret halda ən səmərəli yol seçilməli və bu zaman texnologiyanın xarakteri, satış bazarlarının mövcud vəziyyəti, müəssisənin, firmanın potensialı, mövcud iqtisadi mühit nəzərə alınmalıdır.

Qabaqcıl müəssisələrin təcrübəsi göstərir ki, innovasiya prosesini aşağıdakı mərhələlər üzrə həyata keçirmək məqsədəuyğundur.

İlk olaraq innovasiyanın tətbiq edilməsinə dair daxil olmuş ideyalar sistemləşdirilməlidir. Bu ideyalar bazardakı texnoloji dəyişikliklər haqqında müəssisənin elmi-texniki bölməsindən, istehsal şöbələrinin marketinq xidmətindən, satış aparatından, ticarət vasitəçilərindən, son istehlakçılardan

daxil ola bilər. Bunlarla yanaşı, yeni məhsulun işlənib hazırlanması və mənimsənilməsi, meydana çıxa biləcək riskin dərəcəsi və ölçüsünün müəyyənləşdirilməsi, yeni məhsul istehsalının həyata keçirilməsi üçün müəssisənin potensial imkanları, məqsədli bazarlar və onların inkişafının uzun müddətli meyilləri haqqında da informasiya toplanmalıdır.

İkinci mərhələdə ideyaların imkanları və praktiki olaraq reallaşdırılmasının mümkünlüyü müəyyən edilməli, yeni və ənənəvi əmtəələrin texnoloji ümumilik dərəcəsi aydınlaşdırılmalı, yeni məhsulun müəssisənin imicinə və strateji inkişafına uyğunluğu müəyyənləşdirilməli, müvafiq ideyalar seçilməli və yeni məhsul ideyası işlənib hazırlanmalıdır.

Bundan sonra yeni məhsulun iqtisadi səmərəliliyi təhlil edilməli və bu məqsədlə müəssisənin marketinq proqramı işlənib hazırlanmalıdır. Marketinq proqramı aşağıdakıları əhatə etməlidir:

-ideyanın konkret layihə şəklini aldığı halda məhsulun texniki cəhətinin işlənib hazırlanmasını;

- məhsulun texniki-iqtisadi xarakteristikasının müəyyən edilməsini, onun keyfiyyət və istehlak xüsusiyyətlərinin qiymətləndirilməsini;

- potensial bazar tələbatının və satışın həcminin qiymətləndirilməsini;

- yeni məhsulun yaradılmasına və mənimsənilməsinə sərf edilən investisiyaların (texnologiyanın, maşın və avadanlıqların, xammal və materialların alınmasına, kadr heyətinin saxlanmasına və s.çəkiləcək xərclərin) və onların ödənilmə müddətinin müəyyən edilməsini;

- yeni məhsulun mənimsənilməsi və onun bazara çıxması müddətinin müəyyən edilməsini;

- yeni məhsul istehsalının rentabelliyinin qiymətləndirilməsini.

İnnovasiyanın tətbiq edilməsinə və yeni məhsul yaradılmasına dair konkret qərar qəbul edildikdən sonra aşağıdakı işlər həyata keçirilməlidir:

- müəssisənin müvafiq bölmələri üzrə vəzifələr bölüşdürülməli, yeni məhsulun konkret inkişaf proqamı işlənib hazırlanmalıdır;

- yeni məhsulun nümunəsi yaradılmalı və texniki sınağı keçirilməlidir;

- məhsulun adı müəyyənləşdirilməli, onun əmtəə nişanı tərtib edilməli, qablaşdırılması, markalaşdırılması müəyyən edilməlidir.

İnnovasiyanın tətbiq edilməsinin əsas şərtlərindən biri yeni istehsal ediləcək məhsulun reallaşdırılması imkanlarının müəyyən edilməsindən ibarətdir. Ona görə də sonrakı mərhələdə:

- yeni məhsulun ilkin qiyməti və digər kommersiya şərtləri müəyyənləşdirilməli;

- optimal satış kanalları seçilməli;

- reklam vasitələri və metodları seçilməli;

- servis xidməti təşkil edilməlidir.

Yeni məhsulun bazarda uğur qazanacağı halda- axırıncı mərhələdə - onun seriyalı və ya kütləvi istehsalı haqqında qərar qəbul edilə bilər. Bu mərhələdə aşağıdakılar müəyyən edilməlidir:

-müəssisənin maliyyə imkanları: seriyalı və ya kütləvi istehsala və satışa sərf ediləcək maliyyənin ümumi məbləği, maliyyələşdirmənin mənbələri;

- istehsalın və satışın həcmi, məhsulun rentabelliyi;

- tələb və tələbatın ödənilməsi səviyyəsi;

- satış kanalları və metodları;

- müəssisənin bazardakı seqmenti və imici;

- müəssisənin alıcılar və istehlakçılarla olan əlaqələrinin sabitlik dərəcəsi;

- müəssisənin istehsal potensialı: mövcud güclərdən istifadə edilməsi imkanları, resurslarla, ixtisaslı heyətlə təmin olunma səviyyəsi;

- yeni məhsulun normativ göstəricilərə - standartlara, ölkədə məhsul satılmasını nəzərdə tutan dövlət normalarına uyğunluğu;

- yeniliyin patent müdafiəsinin təmin edilməsi.

İnnovasiyanın növləri və yeni məhsulun səmərəliliyinin qiymətləndirilməsi metodları

İstehsal sahibkarlığının inkişafı qarşısında duran məqsədlərdən və sahibkarın maliyyə imkan-

larından asılı olaraq innovasiya fəaliyyətinin beş növünə rast gəlinir:

Birinci, böyük innovasiya. Böyük innovasiyanın tətbiqi istehsal prosesində inqilabi yeniliklərin həyata keçirilməsinə şərait yaradır, istehsalın strukturunun, idarəetmənin və iqtisadi inkişafın sürətini kökündən dəyişir.

İkinci, radikal innovasiya. Radikal innovasiya yeni elmi ideyalar və ixtiralarla nəticələnir ki, bunların da əsasında texnoloji sistemlərin keyfiyyətinin kökündən dəyişdirilməsi və yeni istehsal sahələrinin yaradılması mümkün olur.

Üçüncü, prinsipial innovasiya. Prinsipial innovasiya əhəmiyyətli ixtiralar və elmi - texniki təkliflərlə nəticələnir və onların bazasında texnikanın yenisi ilə əvəz edilməsi şərti ilə yeni texnologiya yaranır.

Dördüncü, təkmilləşdirilmiş innovasiya. Təkmilləşdirilmiş innovasiya mövcud texnologiyanın, obyektlərin, məhsulun və texnikanın təkmilləşdirilməsinə, modernləşdirilməsinə imkan yaradır.

Beşinci, sadə innovasiya. Sadə innovasiyanın tətbiqi nəticəsində istehsalda istifadə edilən texnika və texnologiyanın texniki - iqtisadi parametrlərinin bir müddət saxlanmasına nail olunur.

İnnovasiyanın qeyd edilən növlərinin fərqli xüsusiyyətləri olsa da, onların istehsala tətbiq edilməsi elm və texnikadan müəyyən dərəcədə istifadə edilməsinə, yeni texnologiyanın tətbiqinə, məhsulun keyfiyyətinin yüksəldilməsinə, yaradıcılıq axtarışlarına və yeniliklərə, idarəetmədə yeni mütərəqqi formaların tətbiqi əsasında istehlakçıların tələbatının ödənilməsinə və beləliklə də, iqtisadi artımın əldə edilməsinə imkan yaradır. İnnovasiya yeni ideyaların yaradılması və tətbiqi hesabına müəssisənin iqtisadi və ya sosial potensialında məzmunlu, məqsədyönlü dəyişikliklər həyata keçirmək cəhdidir. İnnovasiyanı mövcud uyğunsuzluqların, məhsullara və proseslərə tələbatın, ayrıca sahədə və bütövlükdə bazarda dəyişikliklərin və yeni biliklərin nəticəsi kimi də xarakterizə etmək olar.

Təbiidir ki, innovasiyanın istehsala tətbiqində əsas məqsəd yeni məhsul istehsal etmək və ya mövcud məhsulun keyfiyyətini yüksəltməklə sahibkarlıq strukturunun mənfəətini artırmaqdan ibarətdir. Ona görə də, istehsalı nəzərdə tutulan yeni məhsulun səmərəliliyinin qiymətləndirilməsi vacib məsələlərdən biridir. Təcrübədə yeni məhsulun səmərəliliyinin qiymətləndirilməsinin aşağıdakı metodlarından istifadə edilir:

- ekspert metodu. Bu metod yeni məhsulun səmərəliliyi haqqında ekspert qiymətləndirilməsinə əsaslanır. Təbiidir ki, belə qiymətləndirmə üçün onu həyata keçirən şəxs müvafiq bilik və təcrübəyə malik olmalıdır;
- gözlənilən mənfəət normasının müəyyən edilməsi;
- ehtimal yanaşma.

Bu metod yeni məhsulun iqtisadi səmərəliliyinin mühəndis-iqtisadi hesablamalarla müəyyən edilməsinin qeyri-mümkünlüyü halında tətbiq edilir;

- gözlənilən mənfəətin dinamikasının qiymətləndirilməsi;
- çoxölçülü qiymət meyarı.

Bu metodun tətbiqi sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi sahənin cazibədarlığını, ona rəqiblərin nüfuz etmə imkanlarını, sahənin rəqabət qabiliyyətinə yeni məhsulun və bütövlükdə müəssisənin təsirini, istehsal edilən əmtəələrin təkmilləşdirilməsi üçün işlənib hazırlanmış layihələrdən isitifadə edilməsi imkanlarını, yeni məhsulların istehsalı və satışının müəssisənin maliyyə vəziyyətinə təsirini qiymətləndirməyə imkan verir.

Yeni məhsulun istehsala hazırlanması prosesində artıq vəsait və vaxt sərf edilməməsi üçün səmərəsiz ideyalardan ilkin mərhələdəcə yaxa qurtarmaq lazımdır. Yeni məhsulların hazırlanması, tətbiq edilməsi və istehsalatda sınaqdan çıxarılması müəssisənin rəqabət qabiliyyətini və mənfəətini artırmaq vasitəsi kimi mühüm əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, müasir dövrdə məhsulların yeniləşdirilməsi son dərəcədə yüksək templə gedir. İstehsalatda innovasiyanın tətbiq edilməsi müəssisənin bu prosesdən kənarda qalmamasına şərait yaradır.

İnnovasiyanın istehsala tətbiq edilməsində müəssisənin müxtəlif struktur bölmələrinin iştirak dərəcəsi onun fəaliyyət sferası və istehsal etdiyi məhsulun xarakteri ilə müəyyən edilir. Beynəlxalq təcrübədə istehlak əmtəələri istehsal olunan müəssisələrdə yeni məhsullara münasibətdə müəssisənin siyasətinin müəyyən edilməsində başlıca rol marketinq üzrə mütəxəssislərə ayrılır. İstehsal təyinatlı məhsullar istehsalı üzrə ixtisaslaşan müəssisələrdə isə innovasiya siyasətinin müəyyən edilməsində elmi-texniki və layihə-konstruktor bölmələri daha mühüm əhəmiyyət kəsb edir.

Adətən yeni məhsulun istehsalı məqsədi ilə innovasiyanın tətbiq edilməsi təşəbbüsünün marketinq fəaliyyəti üzrə mütəxəssisdən daxil olması marketinq tədqiqatlarının nəticələrinə əsaslanır. Belə ki, marketinq tədqiqatları nəticəsində bazardakı tələb və təklif haqqında, bazara analoji məhsullar çıxaran rəqiblər haqqında, müəssisənin texnoloji tələbatları və imkanları haqqında informasiyalar əldə edilir.

Yeni məhsulların işlənib hazırlanması ideyası müəssisənin elmi-texniki və layihə-konstruktor bölməsindən daxil olursa, bu, yeni ideyaların toplanması və yığılması üzrə məqsədyönlü tədqiqatlar aparılmasının, hər hansı bir konkret ideya və perspektivli məhsul haqqında daxil olan informasiyanın müntəzəm olaraq öyrənilməsinin, bu sahədə tədqiqatlar aparılmasının nəticəsi kimi qəbul edilməlidir.

İnnovasiya prosesinin idarə edilməsi və tənzimlənməsi

İnnovasiyanın gözlənilən iqtisadi səmərəliliyinin təmin edilməsi üçün onun istehsala tətbiq edilməsi prosesi ciddi şəkildə təşkil və idarə edilməlidir. İnnovasiya prosesinin təşkili və idarə edilməsi məzmunca aşağıdakı məsələləri əhatə etməlidir:

- yeni məhsulların istehsalı üzrə fəaliyyətin təşkilini və proqnozlaşdırılmasını;
- yeni məhsulların istehsalı üçün materialların, resursların seçilməsini;
- yeni məhsullar üzrə xərclərin, istehsalın həcminin müəyyənləşdirilməsini;
- yeni məhsulların satışının nəzərdə tutulduğu bazarının tədqiqini;
- yeni məhsulların bazar tutumunun müəyyən edilməsini;
- yeni məhsulların satış formalarının təşkilini (vasitəçilərin, sifarişçilərin seçilməsini, pərakəndə, topdansatış ticarəti və s.);
- satış qiymətlərinin kompleks təhlilini, satış qiymətinin son həddinin müəyyənləşdirilməsini.

İnnovasiya prosesinin idarə edilməsi aşağıdakı fəaliyyət növlərilə bilavasitə bağlı olur:

- beynəlxalq miqyasda və ölkə daxilində meydana çıxan yeni ideyaların, texnologiyaların, yeniliklər haqqında informasiyaların toplanması, öyrənilməsi və sistemləşdirilməsilə;
- aşkara çıxarılmış yeni ideyaların seçilməsi, onların həyata keçirilməsinin mümkünlüyünün müəyyən edilməsilə;
- yeni məhsula potensial bazar tələbatının öyrənilməsilə (uzunmüddətli mal ala biləcək tərəfdaşların müəyyən edilməsilə);
- yeni məhsulun istehsalı prosesinin təşkil edilməsilə;
- innovasiya prosesinin idarə edilməsinin təşkilati formalarının təkmilləşdirilməsilə;
- yeni məhsulun istehsalatda tətbiqi haqqında qərarın qəbul edilməsilə.

Bütövlükdə müəssisə miqyasında yeni ideyaları irəli sürmək, onları nəzarətdə saxlamaq və alınmış nəticələri qiymətləndirmək innovasiya prosesinin idarə olunmasının əsas məqsədidir. İnnovasiyaların idarə olunmasının əsasında yenilikçilərin, ixtiraçıların və müəssisənin fəaliyyətinin nəticələri üçün məsuliyyət daşıyanların mütəmadi əməkdaşlığı dayanır. İnnovasiya prosesinin idarə edilməsi ilə məşğul olan menecerlər yaradıcılıq proseslərinin səmərəli idarə olunması üçün ona mane olan halları tapmalı və aradan qaldırmalı, motivasiyanı təmin etməli, müəssisədə şəxsi və qrup innovasiya təşəbbüskarlığını dəstəkləyəcək münasibətləri formalaşdırmalıdır. Ancaq nəzərə almaq lazımdır ki, yalnız uzunmüddətli perspektivdə yaradıcı işçilər və onların fəaliyyətinin nəticələri qiymətləndirilə bilər. Ona görə də, innovasiya fəaliyyətini idarə edən menecerlər sərt,

müfəssəl nəzarətə bel bağlamamalıdırlar. Təkrarlanan əməliyyatlar üçün tətbiq edilə bilən metodlar yaradıcılıq fəaliyyətinə nəzarət zamanı tamamilə qeyri-adekvat ola bilər. İnnovasiya prosesinin həyata keçirilməsinə nəzarətin mahiyyətini bu prinsiplə ifadə etmək olar - yaradıcılığa kömək göstərin, ona mane olan hər şeyi aradan qaldırın.

İnkişaf etmiş ölkələrin qabaqcıl müəssisələrinin, şirkətlərinin təcrübəsi göstərir ki, innovasiya fəaliyyəti bir qayda olaraq yüksək risklə bağlıdır. Ona görə də bir çox sahibkarlar innovasiyaların istehsalata tətbiqində tərəddüd edirlər. Bu isə bütövlükdə ölkə iqtisadiyyatının inkişafının ləngiməsinə səbəb olur. Ona görə də innovasiyaların istehsalata tətbiq edilməsi prosesinin dövlət tənzimlənməsinə ehtiyac vardır. Dövlətin tənzimləmə mexanizmi bazar iqtisadiyyatı şəraitinə uyğunlaşa bilən innovasiya biznesinin yaranmasının stimullaşdırılmasını, istehsalın yenidən qurulması və elmi təşkilatların fəaliyyət istiqamətlərinin məqsədyönlü, adekvat dəyişilməsini və elmi-texniki kompleksin təşkilati strukturunun yenidən qurulmasını əhatə etməlidir. Bunlarla yanaşı, innovasiyaların istehsalata tətbiq edilməsi prosesinin dövlət tənzimlənməsi mexanizmi, eləcə də, aşağıdakıları nəzərdə tutmalıdır:

- innovasiyaların tətbiqi üçün ölkədə əlverişli iqtisadi şəraitin yaradılmasını, maliyyə vəsaitlərinin istehsalata cəlb edilməsi prosesinin stimullaşdırılmasını təmin edən əlverişli maliyyə-kredit siyasətinin yeridilməsini;
- istehsal sahibkarlığı sferasında rəqabəti təmin edən qanunvericilik sisteminin yaradılmasını;
- istehsal sahibkarlığı ilə məşğul olan təsərrüfat strukturlarının istehsal etdiyi yeni məhsullara dövlət sifarişləri sisteminin formalaşdırılmasını və bunun üçün məqsədli maliyyələşdirmənin tətbiqini;
- istehsal sahibkarlığı ilə məşğul olan təsərrüfat strukturları ilə elmi təşkilatların kooperasiyasının dəstəklənməsini;
- innovasiya fəaliyyətinə şərait yaradan investisiya iqliminin formalaşdırılmasını;
- innovasiyanı istehsalata tətbiq edən təsərrüfat subyektlərinə güzəştli kreditlərin verilməsi mexanizminin işlənib hazırlanmasını;
- elmi, elmi - texniki və innovasiya fəaliyyəti ilə məşğul olan müəssisələr şəbəkəsinin yaradılmasının stimullaşdırılmasını;
- innovasiyanı istehsalata tətbiq edən sahibkarlıq strukturlarının dövlət tərəfindən hüquqi qorunmasını və dəstəklənməsini;
- innovasiya prosesini həyata keçirən və istehsalla məşğul olan sahibkarlıq strukturlarına dövlət tərəfindən vergi, kredit, gömrük, amortizasiya, icarə güzəştlərinin verilməsini;
- innovasiya fəaliyyəti ilə məşğul olmaq istəyən sahibkarlıq strukturlarının dövlət tərəfindən zəruri informasiya ilə təmin edilməsini;
- yeni məhsulların sertifikasiyası, onların reklamı ilə bağlı işlərin aparılmasında sahibkarlara dövlət tərəfindən kömək göstərilməsini və s.

Nəticə

Bazar iqtisadiyyatı şəraitində ölkə iqtisadiyyatının inkişafı xeyli dərəcədə istehsal sahibkarlığının inkişafı ilə bağlıdır. Əmtəə bazarlarının istənilən məhsulla dolu olduğu indiki şəraitdə istehsal sahibkarlığı ilə məşğul olan təsərrüfat strukturları yalnız mütəmadi olaraq innovasiyanı istehsala tətbiq etməklə sabit, səmərəli fəaliyyət göstərə, rəqabət mübarizəsində qalib gələ və ölkə iqtisadiyyatının inkişafına öz töhfəsini verə bilər. Məhz buna görə də müasir şəraitdə istehsal sahibkarlığının innovasiya təminatı ölkə iqtisadiyyatının inkişafının zəruri şərtinə çevrilmişdir.

İnkişaf etmiş ölkələrin qabaqcıl müəssisələrinin, şirkətlərinin təcrübəsi göstərir ki, innovasiya fəaliyyəti bir qayda olaraq yüksək risklə bağlıdır. Ona görə də bir çox sahibkarlar innovasiyaların istehsalata tətbiqində tərəddüd edirlər. Bu sahədə sahibkarların tərəddüdlərinin aradan qaldırılması, innovasiyaların istehsala tətbiq edilməsində sahibkarlıq strukturlarının maraqlarının təmin

edilməsi üçün milli innovasiya sisteminin yaradılmasına və inkişafına nail olmaq lazımdır. Ancaq nəzərə alınmalıdır ki, milli innovasiya sisteminin yaranması və formalaşmasına mane olan bir sıra amillər də vardır ki, onları da aradan qaldırmadan bu sistemin yaranması mümkün deyil. Bu amillərdən biri innovasiya fəaliyyətinə dövlət dəstəyinin son dərəcə zəifliyidir. Bu amilin aradan qaldırılması üçün innovasiya fəaliyyəti dövlət tərəfindən dəstəklənməli və tənzimlənməlidir.

ƏDƏBİYYAT

1. Əliyev T.Q. İstehsal sahibkarlığının inkişafının sosial-iqtisadi problemləri. Bakı, "Elm", 2007.
2. Горфинкель М.Я. Предпринимательство. М.: ЮНИТИ, 2009.
3. Журавлев П.В. и др. Экономика предприятия и предпринимательской деятельности. М.: Экзамен, 2008.
4. Лапуста М.Г. Предпринимательство. М.: Инфра, 2008.
5. Шумпетер Й. Теория экономического развития. М.: Прогресс, 1982.

Рамил Тейюб оглы Алиев
д.ф.э., старший научный сотрудник ИЭ НАНА

Инновационное обеспечение производственного предпринимательства

Резюме

В статье рассматриваются факторы, влияющие на формирование предпринимательства, сущность и этапы инновационного обеспечения производственного предпринимательства, виды инновации и методы оценки эффективности нового продукта, механизм управления и регулирования инновационного процесса. В статье также приводятся соответствующие выводы о необходимости инновационного обеспечения производственного предпринимательства для развития экономики страны.

Ключевые слова: производственное предпринимательство, факторы, инновация, организация, обеспечение, методы, управление, регулирование.

Ramil Teyyub Aliyev
senior researsher of Eİ ANSA

Innovative maintenance of productive entrepreneurship

Summary

The article discusses the factors influencing the formation of entrepreneurship spirit and innovative steps to ensure productive entrepreneurship, innovation types and methods of evaluating the effectiveness of a new product, the mechanism of control and regulation of the innovation process. The article also provides the appropriate conclusions o the need to provide innovative industrial business for the economic development of the country.

Key words: industrial entrepreneurship, factors, innovation, organization, software, methods, management, regulation.

UOT 334.7

Nəbi Həbib oğlu VƏLİYEV
Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı

SAHİBKARLIQ FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASINDA VERGİ AMİLİNDƏN İSTİFADƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Xülasə

Məqalədə vergi səviyyəsinin sahibkarlıq fəaliyyətinə təsiri aşkara çıxarılmış və Azərbaycanda sahibkarlığın stimullaşdırılmasında vergi amilindən istifadənin təkmilləşdirilməsi yolları müəyyənləşdirilmişdir. Məqalədə həmçinin sahibkarlığın stimullaşdırılmasında vergi mexanizmindən istifadənin prioritet istiqamətləri əsaslandırılmışdır.

Açar sözlər: vergitutma amilləri, sahibkarlıq fəaliyyəti, vergi mexanizmi, vergi yükü, sahibkarlığın stimullaşdırılması, mənfəət vergisi, sadələşdirilmiş vergi, vergi güzəştləri.

Giriş

İqtisadi kateqoriya kimi, vergilər bir tərəfdən dövlətin əsas gəlir mənbəyi kimi, digər tərəfdən isə şəxsi gəliri azaldan və məcburi xarakter daşıyan bir ödəmə kimi çıxış edir. Bu zaman vergilər fiziki şəxslərin və təsərrüfat subyektlərinin gəlirlərinin müəyyən hissəsinin alınmasına səbəb olduğundan, vergilərin səviyyəsi onların fəaliyyətinə birbaşa təsir göstərir. Bu özünün bariz nümunəsini daha çox vergi amillərinin sahibkarlıq fəaliyyətinə təsirində göstərir. Odur ki, vergi amilləri ilə sahibkarlıq fəaliyyətinin qarşılıqlı əlaqəsinin məntiqi dialektikasının araşdırılması və müvafiq nəticələrin çıxarılması tədqiqatın əsas vəzifəsi kimi müəyyən edilmişdir.

Vergi səviyyəsinin sahibkarlıq fəaliyyətinə təsirinin nəzərə alınması zəruriliyi

Sahibkarlıq fəaliyyətinin inkişafı xeyli dərəcədə ölkədə vergi sisteminin düzgün qurulmasından asılıdır. Belə ki, əgər məhsul xaricdən gəlirsə, deməli, vergi ödənilməlidir. Hər bir ölkədə dövlətin həyata keçirdiyi idxal-ixrac siyasəti mövcuddur. Sahibkarlıq fəaliyyəti ilə yeni məşğul olmağa başlayanlar xaricdən məhsul idxal edilməsinin əleyhinədirlər. Nəzəri cəhətdən sübut olunmuşdur ki, gömrük rüsumunu artırmaqla, müəyyən məhsulların xaricdən gətirilməsini tənzimləmək mümkündür. Eyni zamanda, həmin məhsulların respublikada istehsalına resursların qoyulması yolu ilə stimul yaratmaq olar. Lakin unutmaq olmaz ki, əgər yeni məhsulun qiyməti aşağı düşürsə, xaricdən isə məhsul gətirilmirsə, onda inhisarçılıq meyilləri artacaqdır. Bu isə arzuolunmaz haldır. Çünki dövlət səy göstərir ki, ölkədə inhisarlar meydana gəlməsin, sahibkarlar arasında sağlam rəqabət olsun. Xarici ölkələrdən idxal olunan məhsullar müəyyən mənada rəqabəti tənzimləyir. Belə bir sual da meydana çıxır ki, ölkəyə əgər xaricdən keyfiyyətli məhsul gətirilirsə, niyə buna imkan yaradılmasın? Yerli sahibkarlar öz məhsullarının qiymətlərini aşağı sala bilmirlərsə, onda ölkə əhalisi əziyyət çəkir. Əgər ölkəyə idxal olunan məhsullar yüksək keyfiyyətlidirsə, vergidən yayınmırsa, halal yolla gətirilirsə, yerli məhsulla rəqabətə girirsə, qiyməti aşağı salırsa, onda bütün bunlar əhalinin həyat səviyyəsinə müsbət təsir göstərir, nəticə etibarilə, istehlakçıların hüquqları qorunur.

Ölkədə təkmil vergi sisteminin yaradılması əslində vergiyə cəlb olunan bazanı artırmaqdan, vergi dərəcəsini aşağı salmaqdan, vergi gəlirlərini yüksəltməkdən, nəticə etibarilə, sahibkarlığa stimul yaratmaqdan ibarətdir. Prof. Ə.Q.Əlirzayevin təbirincə desək, vergi yükü sahibkarlığın xüsusi vəsaitlərini artırır, onun qərar qəbulu üçün maliyyə imkanlarını təmin edir, müəyyən inkişaf həddinə qədər vergi yükü müsbət meyillərə səbəb olur, lakin sonrakı vergi yükünün artması üçün stimullarını ləngidir, təşəbbüskarlığı azaldır və inkişafın səmərəsizliyi amilinə çevrilir. [1, s.356]

Vergi yükü dövlətin həyata keçirdiyi vergi siyasətinin nəticəsi olmaqla, ictimai həyatda vergilərin rolunu xarakterizə edən və ümumi vergi daxilolmalarının ÜDM-ə nisbəti kimi hesablanan ümumiləşdirilmiş göstəricidir.

Onu da qeyd edək ki, ölkədə son illər vergi yükünün azaldılması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Belə ki, 2010-cu ildən etibarən mənfəət vergisi 20%-ə bərabər olmuşdur ki, bu da 2000-ci ildəki səviyyədən 7 faiz bəndi azdır. Müqayisə üçün deyək ki, hazırda Azərbaycanda mənfəət vergisinin dərəcəsi əksər inkişaf etmiş ölkələrdə olan səviyyədən aşağıdır. Belə ki, Fransada mənfəət vergisinin dərəcəsi 33,3%, Avstriyada 25%, İngiltərədə 28%, Belçikada 33% təşkil etmişdir.

Bütövlükdə sahibkarlığın vergi yükünün azaldılması məqsədilə mənfəət vergisinin hesablanmasının proqressiv üsulundan proporsional üsuluna keçilmiş və onun səviyyəsi tədricən 35%-dən 20%-ə endirilmiş, əlavə dəyər vergisi 28%-dən 18%-ə, fiziki şəxslərdən gəlir vergisinin dərəcəsinin yuxarı həddi 55%-dən 25%-ə, həmçinin hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin gəlir vergisinin dərəcəsi 35%-dən 20%-ə endirilmiş, həmçinin gəlir vergisi üzrə 14% dərəcə ilə vergiyə cəlb edilən aylıq gəlir məbləğinin maksimum həddi 2 min manatdan 2,5 min manatadək, illik gəlir məbləğinin maksimum həddi isə 24 min manatdan 30 min manatadək artırılmış, 2018-ci ilə qədər kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarlar torpaq vergisi istisna olmaqla digər vergilərdən, ödənişli məktəbəqədər müəssisələrin xidmətləri ƏDV-dən azad edilmiş, sosial sığorta ayırmaları 40%-dən 22%-dək aşağı salınmışdır. Bundan başqa, 2009-cu il yanvarın 1-dən 3 il müddətinə bankların, sığorta və təkrar sığorta şirkətlərinin mənfəətinin nizamnamə kapitalının artmasına yönəldilmiş hissəsi mənfəət vergisindən azad olunmuşdur. Eyni zamanda, ölkə prezidentinin 27 oktyabr 2009-cu il tarixli fərmanı ilə təsdiq edilmiş "Banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlərin gəlir vergisindən azad edilməsi haqqında" Qanuna əsasən, banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlər 2010-cu il yanvarın 1-dən 3 il müddətinə gəlir vergisindən azad edilmişdir.

Sahibkarlıq sahəsində investisiyaların cəlb olunmasının stimullaşdırılması və diplomatik xidmət əməkdaşlarının əmək haqlarının vergidən azad olunması məqsədi ilə 2013-cü ildə Vergi Məcəlləsində bir sıra dəyişikliklər edilmişdir.

Ümumiyyətlə, ölkəmizdə vergilərin sahibkarlıq fəaliyyətinə təsirinin təhlili zamanı respublika iqtisadiyyatının xüsusiyyətlərinin nəzərə alınması tövsiyə olunur. [2, s.142] Hesab olunur ki, orta vergi yükünün səviyyəsi ilə vacib vergi növləri üzrə vergi dərəcələrinin kəmiyyəti müqayisə edilməməli, vergi ödəyiciləri kateqoriyaları arasında paylanma səviyyəsi və vergiyə cəlb olunan bazanın spesifik xüsusiyyətləri araşdırılmalıdır.

Vergi mexanizminin sahibkarlıq fəaliyyətinə təsirinin əsas istiqamətləri

Hazırkı dövr ölkəmizdə iqtisadi və sosial inkişaf baxımından çətin, mürəkkəb və dəyişkən olduğundan vergi mexanizmi də çevik və dəyişkən olmalıdır. O, həm də bütövlükdə stimullaşdırıcı xarakterə malik olmalı və istehsalçıda, sahibkarlarda istehsalın nəticələrinə stimul yaratmalıdır. Yalnız bu əsasda ölkədə dinamik iqtisadi və sosial inkişafı təmin etmək olar. Bütün bu deyilənlər baxımından ölkədəki vergi siyasəti və bu əsasda formalaşan vergi mexanizminin təhlili göstərir ki, mövcud vergi siyasəti Azərbaycan reallıqlarına uyğun təkmilləşdirilməli və daha çevik olmalıdır. Belə ki, mövcud vergi siyasəti və mexanizmində müəyyən nöqsan və boşluqlar mövcuddur ki, bu da istər-istəməz iqtisadi və sosial inkişafa öz mənfi təsirini göstərir, ölkədə sahibkarlığın inkişafını ləngidir və investorlara investisiya qoyuluşunda müəyyən süni maneələr yaradır.

Bizim fikrimizcə, istehsal və xidmət sahələrinin xarakterindən asılı olaraq vergi dərəcələri və rüsumların səviyyəsi fərqləndirilməlidir. Xüsusilə də istehsal sahələri, o cümlədən əhalinin gündəlik həyati tələbatını təşkil edən məhsullar istehsalı, çox əmək tutumlu və ölkədə böyük tələbat olan məhsullar istehsalı sahələri, strateji və nisbətən zəhərli istehsal sahələri üzrə vergi dərəcələri və ödəmələrin səviyyəsi aşağı olmalı və əksinə, dövlət güzəştləri və kredit verilməsi sahəsində onlara müəyyən üstünlüklər verilməlidir. İnkişaf etmiş Avropa ölkələrində və ABŞ-da belə sahələrin inkişafı məhz dövlətin xüsusi nəzarətində olur və onların inkişafı üçün daim lazımi şərait yaradılır. Bu ölkələrdə hətta sahələr üzrə qiymətlərin və vergi ödəmələrinin dərəcələri elə müəyyənləşdirilir ki, ölkədə sosial qruplar üzrə gəlirlərin səviyyəsində elə güclü fərq olmasın. Xüsusilə

kənd əməkçilərinin (fermerlərin) iqtisadi və sosial vəziyyəti həmişə dövlətin nəzarətindədir. Məsələn, İsveçdə, Norveçdə, Fransada, Böyük Britaniyada və digər inkişaf etmiş Avropa ölkələrində kənd təsərrüfatı istehsalçılarına böyük güzəştlər edilir, onlar hər tərəfdən dövlət qayğısı ilə əhatə olunur və hətta bazarda məhsulların reallaşdırılmasında problem meydana çıxanda dövlət münasib qiymətlərlə həmin məhsulları alır və onları yaranmış böhran vəziyyətindən çıxarır. Azərbaycanda da, hesab edirik ki, belə bir yanaşmaya ehtiyac vardır.

Bunlardan əlavə, bizim fikrimizcə, bəzi vergi dərəcələri, o cümlədən əlavə dəyər vergisi, aksiz vergisi, mənfəətdən ayırmlar əhəmiyyətli dərəcədə aşağı salınmalıdır. Məsələn, ƏDV-nin hazırda 18%, aksizlərin bəzi hallarda 85-90% səviyyəsində olması, təbii ki, yüksəkdir və sahibkarlığın inkişafına lazımi şərait yaratmır. Sahibkarların maliyyə imkanlarını son dərəcə məhdudlaşdırır və gələcək inkişafa mənfi təsir göstərir. Maliyyə imkanlarının son dərəcə məhdud olduğu bir şəraitdə göstərilən vergi dərəcələri üzrə ödəmələr əksər sahibkarlar üçün böyük çətinliklər yaradır. Halbuki, sahibkarlara indiki mərhələdə, əksinə, geniş maliyyə yardımı lazımdır. Bu həm dövlət tərəfindən, həm də özəl maliyyə-kredit təşkilatları tərəfindən həyata keçirilməlidir. Belə ki, sahibkarlar ilkin mərhələdə öz təsərrüfatlarını qurmaq, müasir tələblərə uyğun istehsalı təşkil etmək üçün onların möhkəm maliyyə imkanları olmalıdır. İqtisadi inkişaf təmin edildikdən, sahibkarlar rəqabət aparmaq imkanlarına malik olduqdan sonra ümumi qaydada onlar vergi ödəmələrinə cəlb edilməli və fərdi güzəştlər götürülməlidir.

Hesab edirik ki, regional yanaşma təkcə mənfəət vergisinin tətbiqində yox, digər vergi növləri, o cümlədən ƏDV və aksizlərə də tətbiq edilməlidir. Məsələn, Bakıda fəaliyyət göstərən sahibkarlarla Gədəbəydə və yaxud Şəkidə fəaliyyət göstərən sahibkarlara eyni (18%) ƏDV-nin tətbiq edilməsi, bizim fikrimizcə düzgün deyil. Ətraf rayonlarda, xüsusilə də dağ və dağətəyi rayonlarında ƏDV-nin aşağı salınmasına ehtiyac vardır. Nəzərə alsaq ki, ƏDV-nin ölkədə sahibkarlığın inkişafına təsiri güclüdür və onların maliyyə imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır, onda bu labüddür. Onu qeyd etmək kifayətdir ki, hazırda Dövlət büdcə gəlirlərinin tərkibində ƏDV-nin xüsusi çəkisi 22%-dən yuxarıdır. Bu, yüksək göstəricidir və bir daha göstərir ki, ƏDV-nin gələcəkdə bir qədər aşağı salınması məqsədəuyğundur.

Kənd təsərrüfatı xammalı bazarında ƏDV-nin tətbiqi qiymətəmələgəlmə mexanizmi vasitəsilə vergi yükünün kənd təsərrüfatı müəssisələrinə ötürülməsinə gətirib çıxarır. Ona görə də hesab olunur ki, kənd təsərrüfatı xammalına və kənd təsərrüfatı istehsalında istifadə olunan maddi-texniki resurslara ƏDV-nin dərəcəsini aşağı salmaq məqsədəuyğundur[4,s.34].

Sahibkarlara kömək və iqtisadi inkişafa təkan baxımından vergi növlərindən biri olan sadələşdirilmiş vergi sisteminin də təkmilləşdirilməsinə ehtiyac vardır. Hazırda Vergi Məcəlləsinə uyğun olaraq sadələşdirilmiş vergi ödəyicilərinin rüblük dövriyyəsi artırılaraq 30 milyondan 125 milyon manata çatdırılmış və vergi dərəcəsi Bakı şəhəri üzrə 4%, digər regionlar üzrə isə 2% (dövriyyədən) müəyyənləşdirilmişdir. Yük və sərnişin nəqliyyatında isə bu sahənin spesifikliyi nəzərə alınaraq bu vergi dərəcəsi 10% nəzərdə tutulmuşdur. [3] Təbii ki, bu yeniliklər öz bəhrəsini verəcək və respublikada xırda və orta sahibkarlığın formalaşmasında böyük kömək olacaqdır. Bununla belə, bizim fikrimizcə, bu vergi növü üzrə də sahəvi xüsusiyyətlər nəzərə alınmalıdır.

Birinci növbədə isə istehsal və kommersiya fəaliyyətli vergi ödəyiciləri fərqləndirilməlidir. İstehsal xarakterli sahələrə üstünlük verilməlidir. Bu sahələrə üstünlük verilməsi və vergi güzəştlərinin tətbiqi təbii ki, bu sahələrdə sahibkarlığın inkişafına müsbət təsir göstərəcəkdir. Hazırda respublikada buna böyük ehtiyac vardır. İstehsal sahibkarlığına meyil gücləndirilməlidir. Bu məqsədlə, bizim fikrimizcə, istehsal xarakterli müəssisələr üzrə sadələşdirilmiş vergi tətbiqinin rüblük dövriyyə həddinin 200-250 milyon manata qədər yüksəldilməsi məqsədəuyğun olardı.

Sahibkarlığın stimullaşdırılmasında vergi amilindən istifadənin təkmilləşdirilməsi

Vergi Məcəlləsinə görə, hazırda respublikamızda 9 vergi növündən 6-sı üzrə azadolmalar və vergi güzəştləri vardır. Ancaq təəssüflər olsun ki, bu güzəştlərin əhatə sferası və mütləq həcmi o

qədər də geniş deyil. Ölkədə sahibkarlığın inkişafına və iqtisadiyyatın güclənməsinə elə böyük təsir göstərmir. Lakin, hesab edirik ki, bu müsbət addımdır və gələcəkdə ölkə iqtisadi inkişafının sürətlənməsinə və sahibkarlığa daha geniş miqyasda təsir göstərəcəkdir. İqtisadi baza gücləndikcə, sahibkarlıq daha geniş miqyas aldıqca, təbii ki, bu faktorun təsiri daha güclü olacaq. Eyni zamanda güzəşt dərəcələrinin artırlmasına da ehtiyac vardır. Çünki, mövcud güzəşt dərəcələri, yuxarıda qeyd edildiyi kimi, o qədər də əsaslı stimul yarada bilmir. Düzdür, güzəştlərin artırılması ilk mərhələdə müəyyən qədər vergi ödəyicilərinin və yığılan vergi həcmlərinin azalmasına səbəb olacaq. Lakin hesab edirik ki, bu müvəqqəti haldır və iqtisadi bazanın gücləndiyi və istehsal həcminin əsaslı surətdə genişlənməsi şəraitində hətta nisbətən aşağı vergi dərəcələri və güzəştlərlə yığılan vergilərin həcmi əvvəlkindən çox olacaqdır. Yəni azdan çox vergi almaqdansa, çoxdan az vergi almaq daha məqsədəuyğundur. Təcrübə göstərir ki, bu daha səmərəli yoldur və son nəticədə bunun effekti daha böyükdür.

İqtisadi inkişafda ən vacib məsələlərdən biri də ölkədə vergi mədəniyyətinin yüksəldilməsi və qanunçuluğa müvafiq vergi ödəyicilərinin vergiyə cəlb edilməsidir. Təəssüflər olsun ki, hazırda bu sahədə nöqsanlar çoxdur. Çoxlu vergidən yayınma halları mövcuddur. Çox vaxt bilərəkdən az vergi ödəmək məqsədilə müəssisələr öz dövriyyələrini həddən artıq kiçildir və büdcəyə lazımi vergi məbləğini ödəmirlər. Bəzən də ümumiyyətlə vergilərdən tamamilə yayınır və yaxud bir yerdə qeydiyyatda olub digər yerdə fəaliyyət göstərirlər. Məsələn, kənd rayonlarında, xüsusilə ucqar rayonlarda qeydiyyatda olub, Bakı, Sumqayıt, Gəncə şəhərlərində fəaliyyət göstərən müəssisələr çox aşağı tariflərlə vergi ödəyirlər və bununla da vergi ödəmələrinin əksər hissəsindən yayınırlar. Bütün bunlar, yuxarıda deyildiyi kimi, hələ ölkədə vergi mədəniyyətinin nisbətən aşağı olması və vergi məsuliyyətini gücləndirmək sahəsində qanunvericilikdə müəyyən boşluqların olması ilə əlaqədardır. Bu baxımdan sərt vergi qanunvericiliyi olmalıdır. Hamı birdəfəlik bilməlidir ki, fəaliyyəti müqabilində mövcud tariflərə müvafiq vergi ödəməlidir və əks təqdirdə möhkəm cəzalandırılacaqdır. Bu işdə heç bir güzəştə və ayrı-seçkiliyə yol verilməməlidir. Düzgün vergi ödənişi hər bir sahibkar üçün mütləq zərurətə çevrilməlidir.

Vergi sisteminin düzgün qurulması və təkmilləşdirilməsində ən vacib məsələlərdən biri də xarici investisiyaların respublikaya gəlişini təmin etmək, onların fəaliyyətinə əlverişli şərait yaratmaqdan ibarətdir. Təbii ki, bu sahədə respublikada xeyli işlər görülmüşdür. Ölkəmiz xarici investisiyaların həcminə görə MDB və Şərqi Avropa ölkələri arasında ən qabaqcıl yerlərdən birini tutur. Burada, bizim fikrimizcə, 2 məsələyə xüsusi diqqət yetirilməlidir. Əvvəla, çalışmaq lazımdır ki, investisiyalar əsasən istehsal sahələrinə cəlb edilsin, xüsusilə də dağ və sərhəd rayonlarının iqtisadi – sosial potensialını hərəkətə gətirmək üçün bu rayonlara axın gücləndirilsin, ikincisi, milli iqtisadiyyatımızın kompleks inkişafı məqsədilə mümkün qədər investisiyalar qeyri-neft sahələrinə yönəldilsin. İndiki şəraitdə respublikada buna böyük ehtiyac vardır.

Hazırda respublikamızda 3000-ə yaxın xarici hüquqi vergi ödəyiciləri vardır. Təbii ki, bu müsbət haldır. Lakin onlara əlavə vergi güzəştləri və kapital yatırımları üçün daha əlverişli şərait yaradılarsa, onların sayı və qoyulan kapitalın həcmi daha da artar və müvafiq olaraq büdcə gəlirlərinin artmasına səbəb olardı. Ümumiyyətlə, vergi mexanizmi istər xarici, istərsə də daxili investorlar üçün geniş stimullaşdırıcı xarakterə malik olmalı, iqtisadi-sosial fəaliyyət üçün geniş şərait yaratmalıdır.

Beləliklə, hazırda ölkə qanunvericiliyinə görə, respublikada iki cür vergi sistemi tətbiq edilir: 1) əsasən orta və iri sahibkarlar üçün mövcud vergi sistemi; 2) əsasən kiçik sahibkarlar üçün sadələşdirilmiş vergi və uçot sistemi.

Sadələşdirilmiş vergi sisteminin tətbiqi nəticəsində yalnız bu sistemə keçənlər üçün mənfəətdən verginin səviyyəsi aşağı salınır, bu sistemə keçməyən sahibkarlıq subyektlərinə isə vergi güzəştləri, demək olar ki, tətbiq edilmir. Vergi sistemində güzəşt sistemi ilə bağlı edilmiş bəzi dəyişikliklərə baxmayaraq, hazırda Azərbaycanda fəaliyyət göstərən vergi sisteminin çatışmamazlıqları qalmaqdadır və onun səmərəsi lazım olan səviyyədən aşağıdır. Burada əsas səbəblərdən

biri odur ki, hələ də dövlət səviyyəsində vergilərə onun digər funksiyalarına nisbətən sərt fiskal siyasətin aparılmasının zəruri şərti kimi yanaşılır.

Hesab edirik ki, vergi sistemi sahibkarlığın formalaşması və inkişafına fəal xidmət etməli, milli iqtisadiyyatın formalaşması xüsusiyyətlərinə uyğunlaşdırılmalı, bütövlükdə ölkədə və onun ayrı-ayrı regionlarında mövcud olan iqtisadi və sosial şərait nəzərə alınmalıdır. Başqa sözlə desək, respublikadakı mövcud vergi sisteminin sahibkarlıq üçün səmərəsi, həvəsləndirici, qoruyucu, istiqamətləndirici rolu və sosial funksiyası son dərəcə yüksəldilməlidir.

Tədqiqatlar göstərir ki, vergi sistemində köklü islahatların aparılması, hər şeydən əvvəl, sahibkarlıq üçün vergi güzəştlərinin tətbiqini, mövcud dərəcələrin təkmilləşdirilməsini nəzərdə tutmalıdır. Eyni zamanda, bu və ya digər təsərrüfat subyektlərinə, iqtisadi fəaliyyətin həvəsləndirilməsi nəzərdə tutulan bu və ya digər sahələrə münasibətdə dünya ölkələrinin vergi güzəştləri üzrə mövcud olan bütün formaları aşağıdakı kimi konkretləşdirmək olar:

- bəzi vergilərin (xüsusən də mənfəət vergisinin və ƏDV-nin) dərəcələrinin daha da aşağı salınması imkanlarının tapılması;
- iqtisadi fəaliyyətin həvəsləndirilməsi nəzərdə tutulan real sektor sahələrində çalışan müəssisələrin fəaliyyətinin əsasən ilk dövrlərində müxtəlif vergi güzəştlərinin tətbiqi, habelə vergilərdən azadetmə;
- respublikanın iqtisadi regionlarının inkişafının sürətləndirilməsi məqsədilə burada sahibkarlıq subyektlərindən toplanılan vergilərin bir hissəsinin yerli icra hakimiyyəti orqanlarının sərəncamında saxlanılması;
- respublikanın zəif inkişaf etmiş, habelə strateji əhəmiyyətli regionlarına sahibkarlar tərəfindən yönəldilmiş investisiyalara güzəştli vergi tətbiqi;
- vergi yoxlamalarının seçmə qaydasında və bunun üçün əsaslı səbəb olduğu zaman aparılması və s.

Bununla yanaşı, inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə dövlət tərəfindən kiçik sahibkarlığa kömək edən bir çox iqtisadi subyektlər üçün, o cümlədən kiçik sahibkarlığa kömək fondları, investisiya və lizinq şirkətləri, kredit və sığorta təşkilatları, reklam və informasiya müəssisələri və s. üçün də bir sıra vergi güzəştləri həyata keçirilir. Hesab edirik ki, dünya ölkələrinin vergi siyasəti sahəsində bu təcrübəsi də diqqətdə saxlanılmalıdır.

Lakin onu qeyd edək ki, beynəlxalq təcrübənin hər hansı formasından istifadə zamanı onları kor-koranə tətbiq etmək, olduğu kimi təkrarlamaq düzgün olmazdı və gözlənilən səmərəni verməzdi. Ona görə hesab edirik ki, konkret olaraq vergi güzəştləri sahəsində dünya ölkələrinin təcrübəsi hökmən iqtisadi inkişafımızın hazırkı mərhələsinin tələbləri, qarşıya qoyulan vəzifələrin xarakteri və reallaşdırma istiqamətləri ilə üzvi şəkildə əlaqələndirilməlidir. Bu güzəştlərə fəaliyyətinin ilk dövrlərində istehsalla məşğul olan, iqtisadiyyatın inkişaf etdirilməsi zəruri olan sahələr, iqtisadi regionlar və fəaliyyət növləri üçün aşağı və fərqli vergilərin tətbiqi, müəyyən müddətə vergidən azadetmə və s. daxildir.

Nəticə

İqtisadi islahatlar dövründə Azərbaycan Respublikasında vergitutmanın baza prinsiplərini və sistemini təhlil etməklə belə qənaətə gəlmək olar ki, hazırda vergi siyasətini aparmaq üçün başlıca olaraq, vergilərin fiskal və tənzimləmə funksiyaları arasında optimal nisbətə nail olmaq lazımdır. Onu da qeyd edək ki, müxtəlif sahə müəssisələrinin maliyyə və investisiya siyasəti göstəricilərinin əsasında vergi qanunvericiliyindəki dəyişikliklərin mənfəətdən vergi üzrə vergi bazasının formalaşmasına təsiri üzrə informasiya modelinin işlənib hazırlanması xüsusi əhəmiyyətə malikdir.

Mənfəət vergisi dərəcəsinin aşağı salınması əsasən ümumstimullaşdırıcı təsir göstərir, vergi tənzimlənməsinin digər aləti olan vergi güzəştləri təsərrüfat subyektlərinin investisiya fəaliyyətinə məqsədyönlü təsir göstərir. Bu zaman güzəştin konkret tərkibi və dərəcənin ölçüsü ölkənin maliyyə vəziyyətindən, vergi siyasətinin məqsədlərindən asılıdır ki, bu da sənaye ölkələrində mən-

fəət vergitutmasının təkamülü ilə də təsdiq olunur. Dərəcənin aşağı salınması iki mövqedən - sahibkarlığın fəal stimullaşdırılması və vergi daxilolmalarının azaldılması mövqelərindən nəzərdən keçirilməlidir. İnvestisiya həcminin artırılması üçün vergi dərəcəsini büdcə fondunun optimal formalaşdırılması üçün tələb olunan səviyyədən aşağı, daha doğrusu, 24% aşağı müəyyən etmək lazımdır. Bundan başqa, iqtisadiyyatın müxtəlif sahələrində müəssisə mənfəətinin vergitutmasında diferensiasiya tətbiq etmək vacibdir. Ona görə ki, vahid verginin tətbiqi onları qeyri - bərabər təsərrüfat şəraitinə salır ki, bu da ədalətlilik prinsipinin pozulmasına gətirib çıxarır.

Diferensiallaşdırılmış dərəcənin üstünlüyü sahibkarın iqtisadi fəaliyyətinə təsir göstərən müxtəlif obyektiv amillərin nəzərə alınması mümkünlüyü, nöqsanı isə vergi inzibatçılığının mürəkkəbləşməsi sayılır.

ƏDƏBİYYAT

1. Əlirzayev Ə.Q. İslahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri: təcrübə, meyillər və perspektiv istiqamətlər. Bakı, "Adiloğlu" nəşriyyatı, 2005, 538 s.
2. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənizmlənməsi problemləri (Monoqrafiya). Bakı, "Elm", 2005.
3. Azərbaycan Respublikasının Vergi Məcəlləsi (2009), Bakı: "Qanun" nəşriyyatı, 415 s.
4. Провалова Л.П., Понкратов В.В. Отдельные аспекты совершенствования налоговой политики// Финансы, № 4, 2010.

Наби Габиб оглы Велиев
диссертант Азербайджанского Государственного Экономического Университета

Совершенствование использования налогового фактора в стимулировании предпринимательской деятельности

Резюме

В данной статье выявлено воздействие налогового уровня на предпринимательскую деятельность и определены пути совершенствования использования налогового фактора в стимулировании предпринимательской деятельности в Азербайджане. Вместе с тем, в статье обоснованы приоритетные направления использования налогового механизма в стимулировании предпринимательства.

Ключевые слова: налогооблагаемые факторы, предпринимательская деятельность, налоговый механизм, налоговое бремя, стимулирования предпринимательства, налог на прибыль, упрощенный налог, налоговые льготы.

Nabi Habib Valiyev
Dissertant of Azerbaijan State Economy University

Improving the use of the taxation factors in stimulation of entrepreneurship activity

Summary

The article were revealed the tax effect of the level of entrepreneurial activity and determined ways to improve was the use of the tax factor in entrepreneurship of promotion in Azerbaijan. Also in an article, were substantiated the priority areas of the use tax mechanism in stimulation of entrepreneurship

Key words: taxation factors, entrepreneurial activity, tax mechanism, the tax burden, stimulation of entrepreneurship, income tax, simplified tax, tax breaks.

V BÖLMƏ
KEYFİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ, İQTİSADİ İNTEQRASİYA VƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ

UOT 338.43

Vilayət Abbas oğlu ƏLİYEV
Azərbaycan Kooperasiya Universiteti
"Əmtəəşünaslıq və ekspetiza" kafedrasının
müdiri, professor

ƏTİN KEYFİYYƏT SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Keyfiyyətin xarakterizə edilməsində əmtəəşünaslıq elminin əsas problemi keyfiyyətin ölçülməsi və miqdarca qiymətləndirilməsindən ibarətdir. Məhsulun keyfiyyət qiymətləndirilməsi məhsulun keyfiyyətinin planlaşdırılması və idarə edilməsi ilə sıx əlaqədardır. Bu gün demək olar ki, bu məsələ ilə əlaqəli ədəbiyyatlarda heç bir məlumat yoxdur.

Açar sözlər: keyfiyyətin səviyyəsi, qiymətləndirmə metodu, ətin standartı, ətin orqanoleptiki təhlili, laboratoriya təhlili, ətin baza göstəriciləri, kvalimetriya.

Giriş

Məlumdur ki, məhsulların keyfiyyəti orqanoleptiki, fiziki-kimyəvi, ekspress metodlarla müəyyənləşdirilir. Bu metodlar məhsulun keyfiyyətinin ümumi vəziyyətini xarakterizə edir. Lakin keyfiyyətin qiymətləndirilməsi, ətin keyfiyyət səviyyəsinin yüksəldilməsində təsirli vasitədir və nəticə etibarı ilə istehlakçıların yüksək keyfiyyətli mallara olan tələbinin ödənilməsinə xidmət edir. Məhz bu baxımdan ətin keyfiyyət səviyyəsinin qiymətləndirilməsi qaydalarının araşdırılmasının elmi və təcrübi əhəmiyyəti böyükdür.

Keyfiyyətin araşdırılmasına aid əmtəəşünaslıq elminin əsas tələbi keyfiyyətin ölçülməsi və miqdarca qiymətləndirilməsi problemindən ibarətdir. Məhsulun keyfiyyətinin qiymətləndirilməsi, məhsulun keyfiyyətinin planlaşdırılması və idarə edilməsi ilə sıx əlaqəlidir. Müasir şəraitdə ətin keyfiyyət səviyyəsinin qiymətləndirilməsi prosesində sənayenin və ticarətin, standartlaşdırmanın və texniki estetikanın yaxşılaşdırılması ətin keyfiyyət səviyyəsinin yüksəldilməsinə təsirli vasitədir. O, nəticə etibarı ilə istehlakçıların yüksək keyfiyyətli mallara olan tələbinin ödənilməsinə xidmət edir. Malların keyfiyyətinin miqdarca qiymətləndirilməsi haqqında elm kvalimetriya adlanır. Kvalimetriya elminin predmetini, məhsulun keyfiyyət səviyyəsinin ölçülməsinin elmi metodu və miqdarca qiymətləndirilməsi təşkil edir. Məhsulun keyfiyyətinin dövlət tərəfindən idarə edilməsi sisteminin vacib elementi, məhsulun istehlak xassəsinin qiymətləndirilməsindən ibarətdir. Məhsulun keyfiyyətinin idarə edilməsi prosesində dövlət müxtəlif yollarla keyfiyyətin səviyyəsinin formalaşmasına təsir göstərir. Belə təsir vasitələrinə normativ - texniki sənədlər, standartlar, texniki şərtlər, keyfiyyətə nəzarət edən qanuni qüvvəyə malik sənədlər aiddir.

Başqa məhsullarda olduğu kimi, ətin keyfiyyət göstəricilərinin müvafiq baza göstəriciləri ilə müqayisə edilməsi yolu ilə alınmış nisbi xarakteristika onun keyfiyyət səviyyəsi adlanır. Ətin keyfiyyət göstəricilərinin baza göstəriciləri ilə müqayisəsi zamanı nisbi göstəricilərdən istifadə olunur. Ətin keyfiyyət səviyyəsinin standartla qiymətləndirilməsi konkret və dəqiq metoddur.

Ətin keyfiyyət səviyyəsinin qiymətləndirilməsinin mürəkkəbliyi ondan ibarətdir ki, burada

keyfiyyəti hər hansı bir və ya bir neçə göstərici ilə qiymətləndirmək mümkün olmur. Ət istehlakçının tələbini bir göstərici ilə ödəyə bilər, ancaq başqa göstərici üzrə və ya bir neçə başqa əlamətlərə görə yararsız ola bilər Məsələn, ətin xarici görünüşü, təzəliyi, iyi, dadı kənar qarışıqları ört-basdır edə bilməz. Eyni zamanda vaxtdan asılı olaraq ətin eyni bir göstəricisi müxtəlif keyfiyyət səviyyəsini əks etdirə bilər. Məsələn, ərzaq qıtlığı dövründə əhalinin yağa, ətə və piyə olan tələbi yüksək idi. Həmçinin yağlılığı yüksək olan ət yaxşı keyfiyyətli hesab edilirdi. Lakin sonralar aparılan elmi tədqiqat nəticəsində müəyyən edildi ki, təkcə ətin yağlı olması orqanizmin tələbini ödəmir. Digər tərəfdən ət istehsalının yüksək templə inkişafı ətin yağlılıq göstəricisinin əhəmiyyətini azaltdı. Hətta qardaş Türkiyədə və respublikamızda aterskrolizin qarşızını almaq üçün yağdan minimum dərəcədə istifadə edilir. Respublikada ət istehsalının daha da inkişaf etdirildiyi indiki dövrdə yağlılığı az olan ətə daha çox üstünlük verilir.

Yeyinti məhsullarının keyfiyyət səviyyəsinin qiymətləndirilməsi zamanı keyfiyyətin və keyfiyyət göstəricilərinin nomenklaturasının təyini reseptdən, onun mürəkkəblik dərəcəsindən və məhsulun təyinatından asılı olaraq həyata keçirilir. Bu zaman istehlakçıların tələbindən asılı olaraq konyunktura xüsusiyyətləri nəzərə alınır. Ətin keyfiyyətinin planlaşdırılması ilə əlaqədar, belə qiymətləndirmə vacibdir.

Ət və ət məhsullarının keyfiyyət səviyyəsinin qiymətləndirilməsi kompleks prosesdir. Buraya ayrı-ayrı ət məmulatlarının keyfiyyətinin təhlili, istehsalın bütün mərhələlərində və hazır məhsulun buraxılması dövründə keyfiyyətə nəzarət daxil edilir. Ətin keyfiyyət səviyyəsinin qiymətləndirilməsində diferensial, kompleks və ya qarışıq metodlar tətbiq edilir.

Diferensial metodla keyfiyyətin səviyyəsinin qiymətləndirilməsi zamanı nisbi göstəricilərin kəmiyyəti (Q) aşağıdakı düsturla hesablanır:

$$1.\ Q = \frac{P_i}{P_{i\ baza}} \qquad 2.\ Q = \frac{P_{i\ baza}}{P_i}$$

Burada Pi qiymətləndirilən məhsulun keyfiyyəti göstəricisinin kəmiyyəti;

$P_{i\ baza}$ –baza göstəricisinin kəmiyyəti;

i- göstəricilərin sayıdır.

Məhsulun qiymətləndirilən göstəricisindən asılı olaraq 1-ci və ya 2-ci düsturlardan istifadə edilir. Yəni hesablama əməliyyatı apararkən, məmulatın keyfiyyətinin yaxşılaşmasına səbəb olan düsturlardan istifadə olunur. Məsələn, ətin dadının, iyinin nisbi göstəricisi 1-ci düsturla hesablanır. Burada fərdi göstəricilərin kəmiyyət sayının artması, keyfiyyətin yaxşılaşmasını göstərdiyi konservlərdə ağır metal duzlarının nisbi göstəricisi isə 2-ci düsturla hesablanır.

Çünki, burada fərdi göstəricilərin sayının azalması ilə keyfiyyət yaxşılaşır. Ət və ət məhsullarının keyfiyyət səviyyəsinin qiymətləndirilməsi üçün fərdi göstəricilərin nomenklaturası, qiymətləndirilməsinin məqsədindən asılı olaraq sahə metodikalarına da verilir. Qiymətləndirilən malın göstəriciləri normativ-texniki sənədlərin göstəriciləri ilə müqayisə edilərkən, keyfiyyətin ayrı-ayrı göstəriciləri vahiddən çox və ya ona bərabər olmalıdır. Ancaq belə olduqda ətin keyfiyyət səviyyəsini kifayətləndirici hesab etmək olar. Diferensial metodla keyfiyyət səviyyəsinin qiymətləndirilməsinin üstünlükləri vardır. Diferensial metodla qiymətləndirilən ətin hansı göstəriciləri üzrə geri qalmasını dəqiq müəyyən etmək olar. Diferensial metodun nöqsanları da vardır. Bu da ilk növbədə keyfiyyət üzrə vahid göstərici almağın mümkün olmamasıdır. Bundan başqa bəzən elə olur ki, nisbi göstəricilərin bir hissəsi vahiddən çox, digərləri isə vahiddən az olur. Ona görə də məhsulun keyfiyyət səviyyəsinə aid ümumi nəticə çıxarmaq olmur. Ətin keyfiyyət səviyyəsinin diferensial metodla qiymətləndirilməsi nəticəsində belə nəticələr qəbul edilir.

Qiymətləndirilən məhsulun keyfiyyət səviyyəsi, baza nümunəsinin keyfiyyət səviyyəsindən aşağıdır.

Son vaxtlara kimi əmtəəşünaslıqda malın keyfiyyəti ancaq orqanoleptiki və fiziki-kimyəvi me-

todlarla qiymətləndirilir. Eyni zamanda ətin əsas keyfiyyət göstəricisi olan ətin təzəliyinin, rənginin və konsistensiyasının qiymətləndirilməsi orqanoleptiki metodla başa çatdırılırdı. Lakin keyfiyyətin qiymətləndirilməsi metodlarının təkmilləşdirilməsi ilə əlaqədar, malın keyfiyyətinin kompleks qiymətləndirilməsinə ehtiyac artmışdır. Məhz bu baxımdan ətin keyfiyyət səviyyəsinin qiymətləndirilməsinin kompleks metodunun tətbiq edilməsinin elmi və təcrübi əhəmiyyəti vardır. Ətin keyfiyyət səviyyəsinin kompleks qiymətləndirilməsi ətin hərtərəfli xarakterizə edilməsi üçün əhəmiyyətlidir. Belə ki, ətin keyfiyyət səviyyəsinin ümumiləşdirilmiş bir göstəricisi ilə qiymətləndirməyə ehtiyac olduqda keyfiyyət səviyyəsinin kompleks qiymətləndirilməsi metodundan istifadə edilməlidir. Bu ümumiləşdirilmiş göstərici, keyfiyyətin fərdi göstəriciləri vasitəsini ümumiləşdirilmiş halda yerinə yetirir. Ümumiləşdirilmiş göstərici baş göstərici kimi də təzahür edə bilər. Məhsulun qidalılıq dəyəri göstəricisi də buna misal ola bilər.

Ətin keyfiyyətinin kompleks qiymətləndirilməsinə məhsulun təhlilindən və keyfiyyətin fərdi göstəricilərinin seçilməsindən başlanır. Bundan sonra bu fərdi göstəriciləri müqayisə etmək üçün baza göstəricilərinin sanballıq əmsalı hesablanır. Yəni ətin keyfiyyətinin ümumi quruluşundan hər bir göstəricinin əhəmiyyəti aydınlaşdırılır. Sonda keyfiyyətin fərdi göstəricilərinin bütün kəmiyyətləri onların vaciblik əmsalı ilə birlikdə kompleks kəmiyyət halında birləşdirilir. Bu metod ətin keyfiyyət səviyyəsinin orqanoleptiki qiymətləndirilməsi zamanı daha çox tətbiq olunur. Ətin keyfiyyət səviyyəsinin kompleks göstəriciləri aşağıdakı düsturla hesablanır.

$$K= \{ m_i Q_i \quad (t=1 \text{ to } n)$$

burada: m_i - keyfiyyətin göstəriciləri üçün sanballıq əmsalı;

Q_i - ətin keyfiyyətinin nisbi göstəricisidir (ballar).

Keyfiyyətin səviyyəsinin qiymətləndirilməsində qarışıq metodundan da istifadə edilir. Məlumdur ki, ərzaq mallarının keyfiyyətinin səviyyəsini ancaq bir və iki metoddan istifadə etməklə qiymətləndirmək olmur. Belə hallarda ətin keyfiyyətinin səviyyəsini qiymətləndirmək üçün qarışıq metoddan istifadə edilir. Bu zaman keyfiyyətin bəzi göstəriciləri (kimyəvi və texnoloji) diferensial metodla, digərləri isə (orqanoleptiki göstəricilər) kompleks metodla qiymətləndirilir.

Ətin keyfiyyət səviyyəsi qarışıq metodla, ətin xassələrinin qrup göstəricisi kopleks metodla hesablanır. Sonra isə qiymətləndirilən malın keyfiyyətinin qrup göstəriciləri müvafiq baza göstəricilərinə aid edilir və diferensial metodla qiymətləndirilir, hesablanır. Keyfiyyət səviyyəsini qarışıq metodla qiymətləndirərkən hansı qrup göstəriciləri üzrə etalon nümunədən ətin pis və yaxşı olmasını aydın göstərmək olar. Ticarətdə ərzaq mallarının keyfiyyətinin idarə edilməsi sistemlərinin öyrənilməsinin təcrübi əhəmiyyəti vardır. Respublikada əhaliyə ticarət xidmətinin yaxşılaşdırılması ilə əlaqədar geniş tədbirlər planı hazırlanır və tətbiq edilmək üçün həyata vəsiqə alır. Ticarət xidmətinin yaxşılaşdırılması yollarını müəyyən etmək sahəsində aparılan tədqiqatlar nəticəsində ticarət xidməti keyfiyyətinin idarə edilməsinin kompleks sistemləri hazırlanmış və tətbiq olunur. Belə təhlili kompleks göstəricilər əsasında aparmaq mümkün deyil. Bu təhlil özünü orta böyüklükdə təsəvvür etdirir və orta böyüklük düsturu ilə hesablanır. Düsturun forması aşağıdakı kimidir.

$$Q=\sum_{i-1}^{r} m_1 \frac{P1}{P_{1baza}}$$

burada m_1- xassənin sanballıq əmsalı;

P_1- qiymətləndirilən məmulatın riyazi qiymət göstəricisi;

P_{1baza} - baza göstəricisinin riyazi qiymətidir.

İqtisadi baxımdan malların inteqral keyfiyyət göstəricisinin təyin edilməsinin mühüm əhəmiyyəti vardır. Burada ətin qida üçün yararlılığı müəyyənləşdirilir. Geniş mənada ətin istehlak dəyərinin onun dəyərinə olan nisbətidir. Bunun nəticəsində keyfiyyət səviyyəsinin qiyməti üçün

qərar qəbul edilir. Qəbul edilən keyfiyyət səviyyəsinin idarə edilməsi vasitəsindən asılıdır.

Ətin keyfiyyətinin qiymətləndirilməsində ekspert metodlarının tətbiqi metodikasına görə ekspertlərin rəyinin razılığını variasiya əmsalı Y=0,10 yüksək; Y=0,11÷0,15 yüksək orta; Y=0,16÷0,25 orta; Y=0,26÷0,35 olduqda aşağı orta; Y>0,35 olduqda aşağı hesab edilir.

Nəticə

Məlumdur ki, məhsulun keyfiyyətinin idarə edilməsi və keyfiyyətin idarə edilməsində kompleks sitemin tətbiq edilməsi daha əhəmiyyətli hesab edilir. Malların keyfiyyətinin kompleks qiymətləndirilməsində tətbiq edilən bu metodlar məhsulun iki və daha çox xassələrini xarakterizə edir. Mal keyfiyyətinin belə göstəicisi bir neçə xassədən ibarət olan bir mürəkkəb xassəni xarakterizə edir. Ərzaq mallarının keyfiyyətlilik əlamətlərinə onların texniki istehlak və istismar xassələri aid edilir. Ümumiyyətlə, məhsulun xassələrinə onların istehsalı və istehlakı xassələri aid edilir. Ərzaq mallarının xassələri sadə və mürəkkəb olur. Sadə xassələr elə xassələrdir ki, onlar məhsulun keyfiyyətinin səviyyəsi qiymətləndirilərkən daha xırda hissələrə ayrıla bilməz. Məsələn, ətin nəmliyi, yağlılığı və mineral maddələr sadə xassələrdir.

Keyfiyyətin araşdırılmasına aid əmtəəşünaslıq elminin əsas tələbi keyfiyyətin ölçülməsi və miqdarca qiymətləndirilməsi problemindən ibarətdir. Malların keyfiyyətinin miqdarca qiymətləndirilməsi haqqında elm kvalimetriya adlanır. Kvalimetriya elminin predmetini məhsulun keyfiyyət səviyyəsinin elmi metodu və miqdarca qiymətləndirilməsi təşkil edir.

Ətin keyfiyyət səviyyəsinin qiymətləndirilməsinin mürəkkəbliyi ondan ibarətdir ki, burada keyfiyyəti hər hansı bir və bir neçə göstəricisi ilə qiymətləndirmək mümkün olmur.

Ətin keyfiyyət səviyyəsinin qiymətləndirilməsində diferensial, kompleks və ya qarışıq metodlar tətbiq edilir.

Diferensial metodla ətin keyfiyyətinin qiymətləndirilməsində aşağıdakı kimi nəticə alınır:

- qiymətləndirilən ətin keyfiyyət səviyyəsi baza nümunəsinin keyfiyyət səviyyəsindən yüksəkdir və ya ona bərabərdir;
- qiymətləndirilən ətin keyfiyyət səviyyəsi, baza nümunəsinin keyfiyyət səviyyəsindən aşağıdır.

Keyfiyyətin kompleks qiymətləndirilməsində məhsulun təhlili və kompleks qiymətləndirilməsi ətin keyfiyyət səviyyəsinin orqanoleptiki metodla təyininə nisbətən daha çox tətbiq edilir.

Qarışıq metodla ətin xassələrinin qrup göstəricisi kompleks metodla hesablanır, sonra isə qiymətləndirilən ətin keyfiyyətinin qrup göstəriciləri müvafiq baza göstəricilərinə aid edilir və diferensial metodla hesablanır.

ƏDƏBİYYAT

1. V.A.Əliyev. Qida kimyası. Türkiyə,1998.
2. V.A.Əliyev. Ət ürünlərinin təbii rənginin qorunması. "Standart" bitki yayımı. Türkiyə, Ankara,1996.
3. V.A.Əliyev. Qida ürünlərinin kalitesinin araşdırma metodları. "Standart" bitki yayımı. Türkiyə, Malatiya,1998.
4. V.A.Əliyev. Ərzaq mallarının əmtəəşünaslığı, ekspertizası və sertifikatlaşdırılmasının nəzəri əsasları. Bakı, "Maarif ", 1999.
5. V.A.Əliyev. Ət və balıq məhsulları əmtəəşünaslığı praktikumu. Bakı, "Maarif", 1991.
6. V.A.Əliyev, Ş.A.Yusifova. İstehlak mallarının keyfiyyət ekspertizası. "Kooperasiya" nəşriyyatı, 2006.

Вилаят Аббас оглы Алиев
зав. кафедра, профессор Азербайджанского
Университета Кооперации

Оценка качественного уровень мяса

Резюме

Характеристика качества товаров является основной проблемой товароведной наукой. Также измерение качества и колочественной оценка печене является проблема товароведения.

В современном этапе выше изложены и вопросы изичено не достаточно.

Ключевые слова: уровень качества, метод оценки, стандартный мясо, органолептикий анализ мясо, лабораторный анализ, базовый показатель мясо, квалиметрия.

Vilayat Abbas Aliyev
professor of the
Azerbaijan Cooperation University

Pricinq the qualiticate lovel of meat

Summary

The quality characterestecs of foods is the main problem of qoodsmanagement science. At the same time, measurinq the quality and quantity, evaluation is the problem of qoodsmanagement.

İn cultural stage matters remained above are researched hot sufficiently.

Key words: lovel quality, evaluated methods, standart meat, orqonoleptik analys of meat, basic data of meat and kvalimetriya.

UOT 339.924

Müslimat Allahverdi qızı ALLAHVERDİYEVA
i.e.n., dosent
Azərbaycan Dövlət İqtisad Universiteti

İNTEQRASİYA PROSESLƏRİ ŞƏRAİTİNDƏ TRANSMİLLİ BİZNESİN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

Xülasə

İnteqrasiya prosesləri şəraitində transmilli korporasiyaların fərqli inkişaf xüsusiyyətləri müəyyən edilmişdir. Onlara aşağıdakıları aid etmək olar: dünya təsərrüfatında aparıcı mövqelərin əldə edilməsinə istiqamətlənmiş ümumdünya qlobal strategiya çərçivəsində fəaliyyət göstərilir; istehsalın milliləşdirilməsi prosesi də daxil olmaqla, qlobal istehsal amillərini daha aktiv olaraq qəbul edirlər; qlobal beynəlxalq istehsalın kompleks strukturunu işləyib hazırlayırlar. İqtisadi nəzəriyyə sistemində transmilli biznesin anlayış-kateqoriya aparatının tədqiqi göstərmişdir ki, transmilli korporasiyalar transmilli biznesin inkişafının generatorları və aparıcı qüvvəsidirlər. Müəyyən edilmişdir ki, müasir şəraitdə transmilli şirkətlər aşağıdakı əsas istiqamətlər üzrə inkişaf edirlər: üfüqi inteqrasiya olunmuş TMK; şaquli inteqrasiya olunmuş TMK və fərqli diferensiasiya olunmuş TMK-lar.

Açar sözlər: transmilli biznes, transmilliləşmə indeksi, dünya təsərrüfatı, iqtisadi inteqrasiya, qlobal strategiya.

Giriş

İqtisadi nəzəriyyə sistemində transmilli biznesin anlayış-kateqoriya aparatının tədqiqi özündə bir neçə məsələni birləşdirir və onların həlli mərhələli şəkildə aparılmalıdır. Belə yanaşma, ilk növbədə, transmilli biznes anlayışının özünün mürəkkəb olması ilə izah edilir.

Yaxşı məlumdur ki, transmilli biznesin yaranmasının ilkin şərtlərindən biri – kapitalist istehsalının formalaşması dövründə yaranan və müxtəlif ölkələrdə yerləşən müəssisələr arasında işgüzar əlaqələrin mövcud olmasını nəzərdə tutan istehsal beynəlmiləlləşməsidir. İlkin mərhələlərdə o, faktiki olaraq, sahələrarası beynəlxalq ixtisaslaşma kimi inkişaf etmiş və beynəlxalq əmək bölgüsü ilə bağlı idi. Onun sonrakı dərinləşməsi sahələrarası ixtisaslaşmanın müxtəlif formalarının yaranması ilə şərtlənir. Müasir şəraitdə, bütövlükdə transmilli biznes sistemində üstünlük təşkil edən transmilli korporasiyalar (TMK) beynəlxalq şirkətlər kimi çıxış edirlər.

Transmilli korporasiyaların öz inkişafında keçdiyi mərhələlər

Transmilli korporasiyalar öz inkişafında bir neçə mərhələdən keçmişdir və buna görə də, onları şərti olaraq beş mərhələyə bölmək olar.

I mərhələ TMK-lar (XIX əsrin sonlarından - Birinci Dünya müharibəsinə qədər (1914-1948)) əsasən, Asiya, Afrika, Latın Amerikası ölkələrində olan koloniyalarda xammal resurslarının hasilatı ilə məşğul olmuş, metropoliyalarda isə bu xammalı emal etmişdirlər. Forma etibarı ilə bu TMK-lar kartellər və sindikatlar kimi fəaliyyət göstərmişdirlər.

II mərhələ TMK-lar iki dünya müharibəsi arasında olan dövr ərzində (1918-1939-cu illər) inkişaf etmiş və daha gəlirli olan hərbi texnika və döyüş sursatı istehsalı ilə məşğul olmuşdurlar. İstehsal edilən hərbi texnika və döyüş sursatı Avropanın, Amerikanın və Yaponiyanın aparıcı ölkələrinin hərbi tələbatlarının ödənilməsinə istiqamətlənmişdir. Bu TMK-lar milli şirkət və müəssisələri öz strukturlarına cəlb edərək, trestlər kimi formalaşmış və beynəlxalq biznesin daha səmərəli aparılması üçün beynəlxalq korporasiyalar yaratmışlar.

III mərhələ TMK-lar İkinci Dünya müharibəsindən (1945-ci il) və xüsusilə də bütün imperiyaların və onların kolonial sistemlərinin dağılmasından (1950-1960-cı illər) sonra qurulmağa baş-

lamışlar. Üçüncü nəsil TMK-lar elmin və sənayenin ən yeni sahələrində elmi - texniki nailiyyətlərin generatorları və yayıcıları idilər. Onların əsas təşkilati formaları, bəzən öz məhsulunun satış bazarları uğrunda sərt rəqabət mübarizəsində öz mövqelərini möhkəmləndirmək üçün strateji alyanslara qoşulan konsern və konqlomeratlar oldu.

IV mərhələ Tədricən, 1970 -1980-ci illərdə TMK-lar elmi-texniki tərəqqi və dünya təsərrüfat əlaqələrinin sürətli inkişafı şəraitində formalaşmağa başladılar. Həmin dövrdə dünya bazarında rəqabət artaraq, sülh yolu ilə bölgünü təhlükə altına alırdı. Məhz həmin dövrdə iri beynəlxalq biznesin daha uğurla inkişaf etməsinə şərait yaradan, kapitalın və istehsalın konsentrasiyasına təkan verən birləşmə və udma prosesi tezləşmişdir.

V mərhələ TMK-lar XXI əsrin əvvəllərində regional iqtisadi inteqrasiya proseslərinin tezləşməsi şəraitində yaranır və məqsədyönlü inkişaf etməyə başlayırlar. Dünyada inteqrasiya birliklərinin mövcud olması və onların regional vahid iqtisadi məkan yaratması TMK tərəfindən bütün qitələrdə beynəlxalq biznes aparmaq üçün geniş imkanlar açır.

Müasir TMK-lar arasında daim artan və dərinləşən ticari - iqtisadi, maliyyə - valyuta, elmi - texniki və istehsalat əlaqələri onların biznesinin qlobal xarakterli olmasından xəbər verir. Yeni (beşinci) nəsil TMK-lar daha çox müasir elm və innovasiya biznesinə, yeni yüksək texnologiyalara söykənirlər ki, bu da onları elmi ideyaların və konsepsiyaların əsas generatoru və paylayıcısı edir.

Transmilli korporasiya deyəndə, öz təsərrüfat fəaliyyətində beynəlxalq yanaşmadan istifadə edən və baza ölkəsində beynəlxalq istehsal-satış, ticarət və maliyyə kompleksinin formalaşmasını və inkişafını nəzərdə tutan, digər ölkələrdə nümayəndəlikləri və törəmə şirkətləri olan iri birlik nəzərdə tutulur. TMK-ların xüsusiyyəti ondan ibarətdir ki, burada mərkəzləşmiş rəhbərlik, müəyyən dərəcədə bu birliyə daxil olan və müxtəlif ölkələrdə yerləşən hüquqi şəxslər və struktur bölmələrin müstəqilliyi ilə müşayiət edilir. TMK-nın beynəlxalq yanaşması, onların iqtisadi fəaliyyətində xarici əməliyyatların oynadığı rolla müəyyən edilir. Əgər ilkin mərhələlərdə xarici istehsal epizodik xarakterə malik idisə, sonradan o, TMK üçün müəyyənedici amil olmuşdur. Bundan əlavə, bəzi müasir TMK üçün xarici əməliyyatlar onların istehsalat-satış fəaliyyətinin 90%-dən çoxunu təşkil edir. [1]

Transmilli korporasiyaların müasir inkişaf mərhələsi 80-ci illərdən başlayır və bu günə kimi davam edir. Bu dövr özünün yeni inkişaf forması ilə fərqlənir. Bu qlobal keyfiyyət fərqləri özlərini aşağıdakı kimi büruzə verir:

- artıq dünya bazarının ayrı-ayrı seqmentlərinin fəthinə deyil, məhsulun istehsalı və satışında dünya təsərrüfatının aparıcı mövqelərinə istiqamətlənmiş ümumdünya qlobal strategiya çərçivəsində fəaliyyət göstərmə. İstehsal, ETTKİ, korporativ idarəetmə, yeni növ məhsulların və xidmətlərin istehsalı, qlobal marketinq və satışdan sonrakı xidmət, istehlakçı ilə daimi əlaqə bu strategiyanın sərəncamındadır;
- kapital, iş qüvvəsi, təbii resurslar, sahibkarlıq qabiliyyəti daxil olmaqla, qlobal istehsal amillərini aktiv şəkildə tətbiq edirlər;
- dünya ölkələri üzrə bölüşdürülən qlobal beynəlxalq istehsalın kompleks strukturunu işləyib hazırlayırlar.

Beynəlxalq korporasiyaların müasir inkişaf dövrü yalnız qlobal korporasiyaların yaranması ilə deyil, onların fəaliyyətinin təşkilində keyfiyyət dəyişiklikləri ilə xarakterizə edilir. [2, s.11-18]

Beləliklə, transmilli korporasiyalar fəaliyyət sahəsi üzrə beynəlmiləl olan nəhəng sənaye-maliyyə birlikləridir. Onlar dünya miqyasında mərkəzi planlaşdırma və idarəetmə prinsipi üzrə qurulublar. Bu korporasiyalar dünya ticarəti, kapital investisiyası, texnologiya mübadiləsi, istehsalat və elmi-texniki əməkdaşlıq, iş qüvvəsinin miqrasiyası prosesində aktiv olaraq iştirak edirlər. Bütün bunlar beynəlxalq əmək bölgüsünün obyektiv meyillərindən səmərəli və tam şəkildə istifadə edir, istehsalın beynəlmiləlləşdirilməsi prosesini gücləndirir və dünya üzrə əmək bölgüsündə yeni yanaşmaların əmələ gəlməsinə öz töhfəsini verir.

Transmilli korporasiyaların mahiyyətini açıqlayan anlayışlar

Hal-hazırda transmilli korporasiyaların mahiyyətini açıqlayan çoxlu sayda anlayışlar var. Bəzi hallarda onlar bir-birinə ziddir, digər hallarda isə mənaca üst-üstə düşürlər. Müxtəlif ensiklopedik nəşrlərdə əks olunan anlayışlardan bəzilərini misal gətirək. [3]

Transmilli korporasiyalar - BMT-nın verdiyi tərifə görə, yarandığı ölkədən asılı olmayan, və iki və daha çox ölkədə qərar qəbulu sisteminə müvafiq olaraq fəaliyyət göstərən özəl, dövlət və ya qarışıq müəssisələrdir… (Hüquqi lüğət); Transmilli korporasiyalar - sənaye cəhətdən inkişaf etmiş ölkələrin xarici aktivləri olan beynəlxalq şirkətləri, milli trestləri və konsernləri. İkinci Dünya müharibəsindən sonra geniş yayılmışdırlar. TMK və ən öncə amerikan TMK-rı, bir çox istehsal sahələrinə nəzarət edirlər… (Böyük ensiklopedik lüğət); Transmilli korporasiyalar - xarici aktivləri olan milli trestlər və konsernlərdir. İkinci Dünya müharibəsindən sonra geniş yayılmışdırlar. TMK dünya iqtisadiyyatının bir çox istehsal sahələrinə nəzarət edirlər: onların payına… (Ensiklopedik lüğət).

Transmilli korporasiyalar - BMT-nın verdiyi tərifə görə, yarandığı ölkədən asılı olmayan və iki və daha çox ölkədə fəaliyyət göstərən özəl, dövlət və ya qarışıq müəssisələrdir. Qərar qəbulu sisteminə müvafiq olaraq fəaliyyət göstərirlər (Böyük Hüquqi lüğət); Transmilli korporasiyalar - kapitalının mahiyyəti üzrə milli, lakin özlərinin fəaliyyət sahəsinə görə, xaricə kapital axını əsasında beynəlxalq kompaniyalara çevrilmiş iri şirkətlərdir. Bir qayda olaraq, TMK istehsal fəaliyyətinin 1/4-i əsas ölkə hüdudlarından kənarda həyata keçirilir. (Xarici İqtisadi Fəaliyyətin İzahlı Lüğəti); Transmilli korporasiyalar - dünya təsərrüfatının kommunikasiya çərçivəsini təşkil edən beynəlxalq sahibkar birlikləri. İstehsal və ticarət əlaqələrinin beynəlmiləlləşdirilməsi, hər şeydən əvvəl, TMK hesabına baş verir (geoiqtisadi lüğət); Transmilli korporasiyalar - bir neçə ölkədə istehsal bölmələrinə malik olan korporasiyalardır. Bu gün TMK-lar dünya bazarlarında və ictimai münasibətlərdə üstünlük təşkil edən əsas iqtisadi agentlərdir. TMK-ların əmələ gəlməsi kapitalizmin inkişafında qanunauyğun mərhələ olmuşdur (Böyük Aktual Siyasi Ensiklopediya); Transmilli kompaniyalar - elmi və siyasi leksikona, o cümlədən BMT-nın leksikonuna İkinci Dünya müharibəsindən sonra daxil olmuş və çoxşaxəli istehsal sahələrini əhatə edən iri milli şirkətləri özündə birləşdirən böyük beynəlxalq monopoliyaları ifadə edir (Hüquqşünasın Ensiklopediyası). Transmilli banklar - kapitalın beynəlxalq hərəkətində əsas vasitəçi olan, dünya bazarında valyuta və kredit əməliyyatlarına nəzarət edən, geniş xarici filiallar şəbəkəsinə, şöbələrinə, nümayəndəliklərinə, agentliklərinə malik olan universal tipli iri kredit-maliyyə kompleksləri (İqtisadiyyat və Hüquq üzrə Ensiklopedik lüğət).

Transmilli biznesin əsas tənzimləmə elementləri

Transmilli biznesin əsas tənzimləmə elementlərinə aşağıdakılar aiddir: transmilli korporasiyalar qəbul edən dövlətin daxili işlərinə qarışmamalı, xarici mülkiyyəti milliləşdirməməli, müsadirə etməməli və heç kimə ötürməməlidirlər.

Bu göstərilən xartiyanın rolu ABŞ -ın təşəbbüsü nəticəsində tədricən azalırdı. 1987-ci ildə BMT Baş Assambleyası "Beynəlxalq iqtisadi təhlükəsizlik Konsepsiyası"nı müzakirə etdi. Öz məqsədlərinə görə bu konsepsiya "Dövlətlərin iqtisadi hüquqları və öhdəlikləri Xartiyası"na yaxın idi, lakin, o, dövlətlərin iqtisadi hüquq və öhdəlikləri sistemi şəklində reallaşması üçün lazım olan bazis aparata malik deyildi və buna görə də həyata keçirilə bilməzdi. [3] Dünya ictimaiyyəti TMK fəaliyyətinin tənzimlənməsi cəhdlərindən əl çəkmirdi. Lakin bu cəhdlər uğurla nəticələnmirdi. Bundan başqa, artıq əldə edilən nailiyyətlər də tədricən itirilir.

1992-ci ildə BMT xartiyanı reallıqlara uyğunlaşdırır. Nəticədə o, artıq praktiki olaraq dünya birliyi ölkələrinin qarşılıqlı fəaliyyəti və birgə mövcudluğunu tənzimləyən əsas və təməl beynəlxalq sənəd deyil, TMK-lar isə özlərinin iqtisadi fəaliyyəti üçün lazım olan tam azadlığı əldə edirlər. 1993-cü ildə BMT nəzdində TMK-lar üzrə Mərkəz də öz fəaliyyətini dayandırmışdır. O, YUNKTAD çərçivəsində fəaliyyət göstərən TMK və birbaşa xarici investisiyalar Departamentinə

çevrilmişdir. 1990-cı illərin əvvəllərində TMK və qəbul edən ölkələr arasında bir kompromis yaranmışdır: TMK-ları və xarici kapital qoyuluşlarını qəbul edən ölkələr TMK-ların fəaliyyətinə nəzarəti azaltmağa, birbaşa xarici investisiyalara əlverişli şərait yaratmağa razılıq vermişdirlər: daha çox təminat və stimul, birbaşa xarici investisiyaların qəbulu prosedurlarının liberallaşması və xarici sahibkar üçün onların iqtisadiyyatın sektorlarında tənzimlənməsi. TMK-ların baza ölkələri, qəbul edən ölkələrin iqtisadiyyatlarına daxil olmaq üçün korporasiyanın təməl əlaməti olan kapitalın birmilliliyi prinsipindən geri çəkilmiş və qəbul edən ölkənin kapitalının iştirakı ilə orada, öz rəhbərlikləri altında fəaliyyət göstərən filialların və ya həmin ölkənin milli TMK-rın (əksər hallarda kiçik və ya orta) yaradılmasına getmişdirlər. Sonradan bu kompromis, qəbul edən ölkədə və baza ölkəsində kapitalların qarşılıqlı iştirakı ilə birgə müəssisələrin yaradılmasına gətirib çıxartmışdır.

TMK fəaliyyətinin sosial aspektlərinin tənzimlənməsi cəhdləri daha uğurlu olmuşdur. Hal-hazırda onlar qəbul edən ölkələrdə "Çoxmilli müəssisələrə və sosial siyasətə aid olan prinsiplərin üçtərəfli Deklorasiyası" ilə tənzimlənirlər. Bu Deklorasiya 1977-ci ildə BMT-nin himayəsi altında qəbul edilmişdir. Deklorasiyada işə qəbul, təhsil, əmək və yaşam şəraiti, istehsalat münasibətlərinə aid məsələlərdə mövcud olan standartlar qeyd edilmişdir. 1980-ci ildə BMT-nın Baş Assambleyası qadağan edən işgüzar praktikaya nəzarət üçün çoxtərəfli razılaşdırılmış ədalətli qayda və prinsiplər sistemini təsdiq etmişdir; 1994-cü ildə EKOSOS transmilli korporasiyaların fəaliyyətini daha şəffaf edən qeydiyyat və hesabat məsələləri üzrə icmal dərc etmişdir. İki və daha çox korporasiyanın istehsal fəaliyyətinin kooperasiyası haqqında razılaşmalar TMK fəaliyyətini əhəmiyyətli dərəcədə dəyişdirdi. 1982-ci ildə 151 ən iri korporasiya arasında beynəlxalq kooperasiya haqqında razılaşmalar imzalandı. TMK fəaliyyətinin hüquqi təminatının, onun səmərəliliyinin artırılmasının bu forması öz aralarında razılaşan TMK-lar üçün daha səmərəli idi. TMK-lar arasında kooperasiya razılaşmaları nəinki istehsal prosesində uğuru təmin edir, həmçinin bazarda birgə iştirak etmə imkanlarını yaxşılaşdırır. TMK-ların fəaliyyətinin ayrı-ayrı aspektləri, QATT/ÜTT -nin Uruqvay raundu (1994-cü il) tərəfindən qəbul edilən TRİMS (İnvestisiya tədbirlərinin ticarət aspektləri haqqında Razılaşma) və TRİPS (İntellektual mülkiyyət hüququnun ticarət aspektləri üzrə Razılaşma) razılaşmaları ilə tənzimlənə bilər.

2003-cü ilin iyulunda İnsan hüquqları üzrə Komissiya "Transmilli korporasiyaların məsuliyyət normaları" Konvensiyasının layihəsini təsdiq etmişdir. Bu konvensiyada dövlətlərin üzərinə qoyulan öhdəliklər TMK-ların üzərinə də qoyulmuşdur. Konvensiyaya uyğun olaraq, TMK-lar ətraf mühitin çirklənməsindən və insan haqlarının pozulmasından çəkinməli, biznesdə, marketinq və reklam fəaliyyətində dürüst olmalı, istehlakçıların təhlükəsizliyini və təklif edilən malların və xidmətlərin keyfiyyətini, həmçinin təhlükəsiz və sağlam iş şəraitini təmin etməlidirlər. Lakin, bu layihənin hüquqi əsasları yoxdur.

Hal-hazırda yeni kompromis kimi "biznesin sosial məsuliyyəti" anlayışını müəyyənləşdirmək cəhdləri edilir. Onun tərəfdarları bundan irəli gəlirlər ki, belə mövqe iri biznesin maraqlarına uyğundur, belə ki, sosial məsuliyyətə etinasız yanaşdıqda TMK-lar maliyyə itkilərinə məruz qalırlar. Buna görə də, həmin konsepsiyanın tərəfdarları biznesin sosial məsuliyyətini təmin edən proqrama korporasiyanın risklərini idarə edən strategiyanın tərkib hissəsi kimi baxırlar.

İndiki dövrdə TMK-ların fəaliyyətinin tənzimlənməsində əsas rolu, özlərinin iqtisadiyyatında birbaşa xarici investisiyaların fəaliyyətini tənzimləyən və onlara şərait yaradan milli qanunvericilik sistemləri yerinə yetirir. Bunu başa düşmək olar, belə ki, məhz BXİ-lar inkişaf etməkdə olan ölkələrə maliyyə resursları axınlarının yarıdan çoxunu təmin edirlər ki, bu da inkişaf məqsədi ilə ayrılan rəsmi yardımın həcmindən dəfələrlə çoxdur. Bir sözlə, transmilli biznesdə əhəmiyyətli rol oynayan transmilli korporasiyaların inkişaf etməsinə baxmayaraq, hal - hazırda TMK vahid hüquqi fəaliyyət normaları işlənib hazırlanmamışdır.

Buna baxmayaraq, müasir TMK-da, əsasən mərkəzləşmiş idarə sisteminə malik olan müəyyən təşkilati struktur dəqiq təsdiqlənmişdir.

Milli şirkətlərdə idarəetmənin qeyri - mərkəzləşməsi prosesləri gücləndikcə, transmilli korporasiyalar da yeni idarəetmə metodlarından istifadə etməyə çalışır və özlərinin, xüsusən operativ idarəetmə sahəsində olan yüksək səviyyəli səlahiyyətlərini xarici bölmələrə verirlər. Qeyri - mərkəzləşmiş transmilli korporasiyalarda əsas təsərrüfat bölməsi - gəlir mərkəzləri və ya müxtar bölmələr olurlar. Bu bölmələr müstəqil olaraq sərf edilən xərclərin və məhsul, əmtəə və xidmətlərdən əldə edilən gəlirin qeydiyyatını aparırlar. Bir sıra hallarda idarəetmə strukturunun təsərrüfat mərkəzləri üzrə bölüşdürülməsi aparılır. Bu mərkəzlərdə bazarın, məhsulun rəqabətqabiliyyətinin, marketinq tədqiqatlarının dinamikasının təhlili nəzərə alınmaqla, həmin bölmənin inkişafının strateji planlaşdırılması aparılır. [4]

Yeni təsərrüfat şəraitinə adaptasiya prosesində transmilli korporasiyaların təşkilati idarəetmə formaları dəyişir.

İqtisadi ədəbiyyatda transmilli korporasiyaların tənzimlənməsi sahəsində müxtəlif təsnifatlar mövcuddur. (bax cədvəl 1.)

Cədvəl 1.

Transmilli korporasiyaların təsnifatlaşdırılması

TMK növü	Mahiyyəti
Ölkələrarası	Maliyyə siyasəti formalaşır, TMK törəmə strukturları isə müstəqil olaraq idarəetmə sistemini işləyib hazırlayır
Ümumdünya və ya qlobal	TMK, xarici-iqtisadi, strateji siyasəti dünya səviyyəsində cəmləyirlər
Beynəlxalq	TMK siyasətə, maliyyəyə nəzarəti öz əllərində saxlayır, məhsul buraxılışı üzərində çevik tənzimləməni həyata keçirir
TMK səviyyəsində	TMK ölkələrarası, ümumdünya və beynəlxalq səviyyədə qarşılıqlı əlaqələri qurur

Transmilli korporasiya xaricdəki fəaliyyətinin genişlənməsi haqqında qərar qəbul etdikdə, o, konkret ölkəni və regionu aşağıdakı amillər əsasında seçir: bazar şəraiti; istehsal amilləri və iş qüvvəsi; məsrəflər və kadrların ixtisaslaşması; kommunikasiyalar və digər infrastruktur sistemlər, kommunal xidmətlər; iqtisadi və maliyyə şəraiti; mədəniyyətin qavranması; siyasi risklər də daxil olmaqla, risk vəziyyətləri.

Əksər ölkələr xarici investisiyaların cəlb edilməsində maraqlıdır və bunu stimullaşdırır. Stimullaşdırmaya tipik misal olaraq, xarici şirkətlərin fəaliyyətinin ilk mərhələsində vergi güzəştləri və endirimlərinin verilməsi, ölkənin ən az inkişaf etmiş rayonlarında yerləşdirilməsinin həvəsləndirilməsi, müsadirədən müdafiə, qanunların tətbiqində ayrı-seçkilikdən təminatlanma. Bəzi xarici şirkətlərin fəaliyyətinə yerli hakimiyyət orqanları qadağa qoya bilərlər. Bu, beynəlxalq nüfuzu aşağı olan, ölkə iqtisadiyyatına böyük maliyyə vəsaiti qoymaq istəməyən, onun inkişafına təhlükə yaradan şirkətlərə aiddir. Transmilli korporasiyadan aşağıdakılar tələb olunur: yerli sahələrə kapital qoyuluşlarını investisiya etmək və (və ya) yerli partnyorlarla ümumi layihələrdə iştirak etmək; yerli işçiləri rəhbər vəzifələrə qoymaq; texnologiyaları ötürmək; yerli bazarların inkişafına yardım etmək; əhalinin məşğulluğunu və işçilərin təlimatlanmasını təmin etmək.

Əgər xarici şirkətin törəmə təşkilatı özünün ilkin öhdəliklərini yerinə yetirə bilmirsə, o, dövlət tərəfindən dəstəklənmir. Digər tərəfdən, bir çox hallarda törəmə şirkət müəssisənin aksioner kapitalında yerli vətəndaşların kifayət qədər iştirakını təmin edə bilmir, yüksək rəhbər vəzifələrdə işləmək üçün yerli icraçı direktorları işə götürmür, milli qanunlara və əmək ənənələrinə hörmətlə yanaşmır. Belə hallarda hökumət orqanları törəmə təşkilatın fəaliyyətinin məhdudlaşdırılması üçün müəyyən tədbirlər görür.

Transmilli biznesin özəyini əmələ gətirən institutların fəaliyyət miqyasının artması ilə yanaşı, kiçik və orta biznesin internasionalizasiyası meyilləri də güclənir. Bunun üçün stimul olaraq, vençur kapitalının inkişafı həyata keçirilir. Vençur kapitalı - yeniliklərin tətbiqi və yeni malların bu-

raxılışının təşkili mərhələsində innovasiya fəaliyyətinin maliyyələşdirmə mənbəyidir.

Transmilli biznesin qarşılıqlı əlaqədə olan digər sahələrinə aşağıdakılar aiddir: milli dövlətlər - iqtisadiyyatın və xarici-iqtisadi əlaqələrin təmin edilməsinə dair müxtəlif ölkələrin hakimiyyət orqanlarının fəaliyyəti. Dövlət özü istehsal vasitələrinin mülkiyyətçisi ola bilər və bu keyfiyyətdə bilavasitə təsərrüfat subyekti kimi çıxış edə bilər. Xüsusi yeri mərkəzi banklar tutur və onlar ölkənin emissiya, kredit və hesablaşma mərkəzləri funksiyasını yerinə yetirirlər. Bu sahədə yenilik - onlara verilən daha çox azadlıqlar, ilk üstmilli bank olan Avropa Mərkəzi Bankının yaradılmasıdır; müstəqil dövlət olmayan müxtəlif ərazilər beynəlxalq təşkilatlar tərəfindən ayrıca subyektlər kimi baxılır; sub-müstəqil qurumlar - dünya bazarına çıxan, beynəlxalq kapitallar bazarında vəsaitləri cəmləyən regional və yerli hakimiyyət orqanları; vəzifələrinə peşəkar fəaliyyət şəraitinin təmin edilməsi, müştərilərin maraqlarının müdafiəsi, peşəkar etika standartlarına riayət etmək daxil olan qeyri-kommersiya təşkilatları - müxtəlif maliyyə bazarlarının və qiymətli kağızlar bazarlarının peşəkar iştirakçılarının özünütənzimləyən təşkilatları; sahibkarlar birlikləri - hakimiyyət orqanlarında öz maraqlarının təmsil edilməsi və beynəlxalq fəaliyyətlərinin təşkilində onlara yardım edilməsi məqsədi ilə yaranan birliklər. Müxtəlif ölkələrin milli sahəvi ittifaqlarını birləşdirən beynəlxalq sahibkarlar assosiasiyaları geniş yayılmışdır; ticarət palataları - ticarət və satışın inkişafına dəstək məqsədi ilə yaradılmış özəl sahibkarlar birlikləri. Onlar yerli, milli, xarici, bir ölkənin digər ölkənin ərazisində yaratdığı, qarışıq - öz aralarında ticarətin və iqtisadi münasibətlərin inkişaf etdirilməsi məqsədi ilə bir və ya bir neçə ölkənin milli təşkilatları tərəfindən yaradılan qurumlar və s.

TMK sahəsinə, ənənəvi olaraq, ən iri və müasir müəssisələr daxildir. Onlar yalnız daxili deyil, eləcə də dünya bazarlarına “işləyir”, müvafiq istehsal sahələrində inhisarçıdırlar, lakin bu onların vacib xüsusiyyətlərinə aid olmaya da bilər. Bu şərt, sözsüz ki, TMK fəaliyyət göstərdiyi ölkənin iqtisadi problemlərini dərinləşdirir. Buna görə də, əgər TMK-ların fəaliyyətinə nəzarət etmək çox çətindirsə, deməli zəif ölkələrdə, keçid iqtisadiyyatlı ölkələrdə, eləcə də inkişafda olan ölkələrdə onlara səmərəli nəzarət etmək heç mümkün deyil. Emal sənayesi, hasilat sənayesi, neftkimya və neft-qaz sənayesində, elektronikada, maşınqayırma sənayesinin müxtəlif sahələrində fəaliyyət göstərən güclü TMK-lar bütün qitələrə səpələnən müəssisələrində istehsalı və satışı əlaqələndirir, koordinasiya edir, qlobal miqyasda beynəlxalq koopersiya və ixtisaslaşma proseslərini idarə edirlər. [5]

Bundan əlavə, transmilli korporasiyaların aşağıdakı əlamətlər üzrə digər bir təsnifatını da vermək olar: [6, s. 34-36]

A. Üfüqi inteqrasiya olunmuş TMK-lar - məhsulun böyük bir hissəsini buraxan (istehsal edən) müəssisələrə malik şirkətlər, müxtəlif ölkələrdə yerləşən bölmələri idarə edirlər, eyni və ya oxşar məhsulları istehsal edirlər.

B. Şaquli inteqrasiya olunmuş TMK-lar - bir sahibkar və vahid nəzarət altında son məhsulun bütün əhəmiyyətli istehsal mərhələlərini birləşdirərək, müəyyən ölkədə yerləşən bölmələri idarə edirlər və digər ölkələrdəki bölmələrə özlərinin istehsal etdiyi məhsulu göndərirlər.

C. Fərqli diferensiasiya olunmuş TMK. Ayrı-ayrı TMK-lara - şaquli və ya üfüqi birləşməyən (əlaqələri olmayan), müxtəlif ölkələrdə yerləşən bölmələri idarə edən, ərzaq, kosmetika istehsal edən, şərab satışı və s. məşğul olan müəssisələr daxildir.

Buradan belə nəticəyə gəlmək olar ki, TMK aşağıdakı xüsusiyyətlərlə xarakterizə edilir: beynəlxalq əmək bölgüsü proseslərində, dünya təsərrüfatının inkişafında aktiv iştirakçıdır; ona, milli sərhədlər çərçivəsində baş verən proseslərdən kapital hərəkətinin nisbətən asılı olmamağı xarakterikdir; dünya təsərrüfat münasibətlərini obyektiv surətdə tənzimləyir, yüksək gəlir əldə etmək məqsədi ilə öz əməliyyatlarını həyata keçirir.

Nəticə

Bir çox Qərb tədqiqatçıları transmilli korporasiyaların aşağıdakı xüsusiyyətlərini göstərirlər: iki və daha çox ölkədə özünün istehsal etdiyi məhsulu satır; iki və daha çox ölkədə törəmə müəssisələri və filialları var; müxtəlif ölkələrin rezidentləri arasında korporativ mülkiyyətin bölüşdürülməsi; çoxmillətli tərkibli heyət. Burada ən əhəmiyyətlisi birinci əlamətdir. Son illərdə korporasiyanın beynəlxalq statusu haqqında xəbər verən əlamətlər aşağıdakı göstəricilərlə tamamlanmışdır: ana şirkətin yerləşdiyi ölkənin hüdudlarından kənarda satılan malların satış faizi (ümumi satışda xüsusi payı - %-lə); digər dövlətlərin ərazilərində yerləşən aktivlərin payı; ali rəhbərliyin tərkibi və s. Əslində, transmilli korporasiyalar kateqoriyasına düşmək üçün, real olaraq fəaliyyət göstərən şirkətlər adı çəkilən əlamətlərin heç olmasa birinə cavab versələr, kifayətdir. Lakin əksər TMK-lar bütün əlamətlərə eyni zamanda malikdirlər. Beləliklə, TMK - xarici aktivlərlə inteqrasiya olunmuş iri korporasiyalar və ya müxtəlif milli mənsubiyyətə aid şirkətlər birliyidir. Onlar iqtisadiyyatın bir və ya bir neçə sahəsində üstünlüyə və ya baza ölkəsində və onun hüdudlarından kənarda ciddi imkanlara və iqtisadi təsirə malikdirlər.

ƏDƏBİYYAT

1. www.ekonomitotay. ru (раздел I).
2. Шагурин С.В., Шимко Г.Д. Экономика транснационального предприятия. SPb; QPU; 2008,-335s,/www.gup. ru/files|m664.pdf/
3. wwwdis.akademik.ru
4. www.bibliotekar.ru
5. www.biblifond.ru/view.aspx/
6. Голипова Ю.А.Транснациональные корпорации:определение сущностьи характеристика и деятельности в современных условиях.\\вестник НГУ.Серия :Социально - экономические науки. Т.10, вып., 4, 2010.

Муслимат Аллахверди гызы Аллахвердиева
доц., к.э.н. АГЭУ

Теоретико-методологические основы регулирование транснационального бизнеса в условиях интеграционных процессов

Резюме

Исследование понятийно-категориального аппарата транснационального бизнеса в системе экономической теории показали, что транснациональные корпорации являются генераторами и движущей силой развития транснационального бизнеса. Выявлено, что в современных условиях транснациональные корпорации развиваются по следующим основным направлениям: горизонтально интегрированные ТНК; вертикально интегрированные ТНК и раздельно-дифференцированные ТНК. В условиях интеграционных процессов определены отличительные особенности развития транснациональных корпораций, к числу которых могут быть отнесены: функционирование в рамках общемировой глобальной стратегии, направленное направленное на завоевание ведущих мирохозяйственных позиций; активнее принимают глобальные факторы производства, включая процесс интернационализации производства; разрабатывают комплексную структуру глобального международного производства.

Ключевые слова: международный бизнес, индекс транснационализации, международные организации.

Muslimat Allahverdi Allahverdiyeva
ass. prof., ASEU

The conceptual and categorial device of transnational business in system of the economic theory

Summary

Research of the conceptual and categorial device of transnational business in system of the economic theory was shown that multinational corporations are generators and a driving force of development of transnational business. It is revealed that in modern conditions multinational corporations develop in the following main directions: horizontally integrated multinational corporations; vertically integrated multinational corporations and the separate differentiated multinational corporations.In the conditions of integration processes distinctive features of development of multinational corporations to which number can be carried are defined: the functioning within universal global strategy directed on a gain of the leading world economic positions; accept global factors of production, including production internationalization process more actively; develop complex structure of global international production.

Key words: international business, transnationalization index, international organizations.

UOT 330.341

İlqar Rauf oğlu SULTANLI
"Odlar Yurdu" Universiteti

ƏRZAQ TƏHLÜKƏSİZLİYİ VƏ ƏRZAQ BAZARININ VƏZİYYƏTİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Xülasə

Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün ərzaq bazarındakı mövcud vəziyyət, qiymətlərin səviyyəsinin sabitliyi və bütövlükdə cəmiyyətdə olan sosial- iqtisadi dayanıqlılığın yüksəlməsi vacibdir. Azərbaycan dövləti əhalinin ərzaqla etibarlı təminatına dair çoxsaylı tədbirlər həyata keçirir və ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində müxtəlif proqramlar qəbul edir.

Açar sözlər: ərzaq təhlükəsizliyi, ərzaq bazarı, qiymətlərin səviyyəsinin sabitliyi, sosial - iqtisadi dayanıqlılıq.

Giriş

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi heyvandarlıq məhsullarının istehsalından, eləcə də heyvandarlıq məhsulları üzrə istehsal edilən məhsulların istehlakçılara daha dolğun və səmərəli çatdırılmasından, heyvandarlıq məhsulları üzrə istehlakın həcminin artırılmasından da bilavasitə asılıdır. Aparılan araşdırmalardan belə qənaətə gəlmək olar ki, istər bitkiçilik məhsulları və istərsə də heyvandarlıq məhsulları üzrə özünütəminetmə səviyyəsini qiymətləndirmək və bütövlükdə idxaldan asılılıq səviyyəsini müəyyənləşdirmək mümkündür. Qeyd etmək lazımdır ki, istər bitkiçilik məhsulları üzrə, istərsə də heyvandarlıq məhsulları üzrə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, son nəticədə idxaldan asılılıq səviyyəsinin aşağı salınmasında əhəmiyyətli rol oynayır. Ölkədə aparılan islahatlar və eləcə də ərzaq təhlükəsizliyi üzrə qəbul edilən davamlı dövlət proqramlarının icrası ilə əlaqədar olaraq əldə edilmiş müvəffəqiyyətlər, son nəticədə idxaldan asılılıq səviyyəsinin nəzərəçarpacaq dərəcədə aşağı salınmasına gətirib çıxarır.

Heyvandarlıq və bitkiçilik məhsulları üzrə özünütəminetmə səviyyəsinin dinamikası. Təbii ki, bütün bunlar son nəticədə heyvandarlıq məhsulları üzrə özünütəminetmə səviyyəsinə də nəzərəçarpacaq dərəcədə təsir göstərir. Bu baxımdan heyvandarlıq məhsulları üzrə özünütəminetmə səviyyəsinin dinamikası aşağıdakı cədvəldə öz əksini tapmışdır.

Cədvəl 1.

Heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi, faizlə

	2007	2008	2009	2010	2011	2012
Bütün növ mal-qara və quş əti	85,2	86,3	84,2	88,0	87,6	92,1
mal əti və ət məhsulları	94,4	94,0	95,8	95,5	88,1	92,6
qoyun (keçi) əti və ət məhsulları	99,7	99,8	98,7	99,7	99,8	98,7
donuz əti və ət məhsulları	19,9	21,4	13,9	19,7	14,7	25,7
quş əti və ət məhsulları	70,0	72,6	66,2	71,5	80,6	88,2
Süd və süd məhsulları	87,8	89,5	70,1	70,4	71,3	72,8
Yumurta	97,9	98,9	98,5	97,9	77,4	96,2
Balıq və balıq məhsulları	72,6	62,5	77,6	76,6	72,4	72,1

Cədvəldən göründüyü kimi, 2007-2012-ci illərdə heyvandarlıq məhsulları üzrə özünütəminetmə səviyyəsinin dinamikasında bu və ya digər şəkildə dəyişiklik müşahidə edilmişdir. Belə ki, bütün növ mal-qara və quş əti üzrə özünütəminetmə səviyyəsi 2012-ci ildə 92,1% təşkil etmişdirsə, bu göstərici 2007-ci il ilə müqayisədə demək olar ki, 7% artmışdır. Xüsusilə mal əti və ət məhsulları üzrə bu göstərici 92,6%, qoyun əti və ət məhsulları üzrə 98,7%, donuz əti və ət

məhsulları üzrə 25,7%, quş əti və ət məhsulları üzrə 88,2%-ə bərabər olmuşdur. Süd və süd məhsulları üzrə özünütəminetmə səviyyəsi 72,8%, yumurta üzrə 96,2%, balıq və balıq məhsulları üzrə isə bu göstərici 72,1 faizə bərabər olmuşdur. Cədvəlin təhlili belə qənaətə gəlməyə əsas verir ki, 2007-ci illə müqayisədə 2012-ci ildə süd və süd məhsulları üzrə özünütəminetmə səviyyəsinin 15%-ə qədər azalması müşahidə edilmişdir.

Bu baxımdan bitkiçilik məhsulları üzrə özünütəminetmə səviyyəsini qiymətləndirərək belə qənaətə gəlmək olar ki, 2012-ci ildə respublikamızda dənli və dənli paxlalılar üzrə idxaldan asılılıq səviyyəsi 35,7%, kartof üzrə 7,8%, bütün növ tərəvəz məhsulları üzrə 5,7%, meyvə və giləmeyvə üzrə 10,1%, üzüm üzrə 5,9% olmuşdur. Ümumiyyətlə, ərzaq məhsulları üzrə idxaldan asılılıq səviyyəsinin təhlükəsizlik normalarından uzaq olmaması, daha doğrusu ölkənin ərzaq təhlükəsizliyi baxımından xarici təhdid faktoru doğurmaması, təbii ki, müvəffəqiyyətli göstərici hesab olunmalıdır. Bu baxımdan respublikamızda bitkiçilik məhsullarından olan dənlilər üzrə 35,7%, o cümlədən buğda üzrə idxaldan asılılığın 43,2% hədlərində olması, bu və digər şəkildə ölkənin taxıl və taxıl məhsullarına olan tələbatının ödənilməsində idxal kanallarının təxminən yarı-yarıya mövcud olmasını göstərir. Bu isə beynəlxalq bazar konyunkturundan asılılığın mövcudluğunu şərtləndirən amil kimi xarakterizə edilir. Məhz bütün bunları nəzərə alaraq ölkəmizdə dənli paxlalılar üzrə, o cümlədən buğda istehsalının artırılması istiqamətində intensivləşdirilmə tədbirlərinin həyata keçirilməsinə kəskin ehtiyac olduğunu şərtləndirir. Kifayət qədər müsbət göstərici hesab olunmalıdır ki, respublikamız bir sıra ərzaq məhsulları üzrə təhlükəsizlik hədlərindən, demək olar ki, nəzərəçarpacaq dərəcədə uzaqlaşmışdır. Belə ki, kartof üzrə nəinki respublikamız demək olar ki, özünün ərzaq təhlükəsizliyini təmin edir, eləcə də 7,8% hədlərində idxaldan asılılıq səviyyəsinin mövcudluğu o qədər də təhlükəli göstərici hesab edilə bilməz. Tərəvəz məhsulları üzrə bu göstərici nəzərəçarpacaq dərəcədə aşağıdır, bostan məhsulları üzrə asılılıq, demək olar ki, mövcud deyil, meyvə-giləmeyvə üzrə bu göstəricinin 10,1% hədlərində, üzüm üzrə isə 5,9% hədlərində olması, demək olar ki, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından o qədər də kritik sayıla bilməz.

Təbii ki, həyata keçirilən islahatlar və o cümlədən heyvandarlığın inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər, "Aqrolizinq" ASC vasitəsilə ölkəyə gətirilən cins damazlıq heyvanların rayonlaşdırılması və digər bu kimi amillər heyvandarlıq məhsulları ilə təminatda da xarici ticarətdən, daha doğrusu, idxaldan asılılığın aşağı salınmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Heyvandarlıq məhsulları ilə özünütəminat səviyyəsini qiymətləndirdikdən sonra, təbii ki, heyvandarlıq məhsulları üzrə idxaldan asılılıq səviyyəsini müəyyən etmək mümkün ola bilir. Bu baxımdan qeyd etmək lazımdır ki, 2012-ci ildə bütövlükdə ət və ət məhsulları üzrə idxaldan asılılıq səviyyəsi 8,5%, xüsusilə mal əti məhsulları üzrə 8,8%, qoyun əti və ət məhsulları üzrə 1,3%, donuz əti və ət məhsulları üzrə 74,3%, quş əti və quş əti məhsulları üzrə 11,8%, süd və süd məhsulları üzrə 27,2%, yumurta üzrə 4,2%, balıq və balıq məhsulları üzrə 27,9% olmuşdur. Ümumiyyətlə, 2007-ci illə müqayisədə qeyd etmək lazımdır ki, ət və ət məhsulları üzrə idxaldan asılılıq səviyyəsi demək olar ki, yarı-yarıya qədər aşağı düşmüşdür. Belə ki, 2007-ci ildə bu göstərici 15,4% olmuşdursa, 2012-ci ildə bu göstərici 8,5%-ə bərabər olmuşdur. Lakin süd və süd məhsulları üzrə idxaldan asılılıq faktoru, demək olar ki, iki dəfəyə qədər yüksəlmişdir. Belə ki, bu göstərici 2007-ci ildə 12,5% hədlərindən 2012-ci ildə 27,2%-ə, yumurta üzrə 2,2% idxal faktorunun mövcudluğu 2012-ci ildə 4,2%-ə qədər yüksəlmişdir. Balıq məhsulları üzrə bu göstərici 30,3-27,9% hədlərində dəyərləndirilir. Ümumiyyətlə, balıq məhsulları üzrə özünütəminat səviyyəsinin digər məhsullarla müqayisədə aşağı olması və eləcə də xarici ticarətdən asılılığın bu və ya digər şəkildə yüksək olması ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından da kritik sayıla bilməz, çünki bütövlükdə əhali daha çox mal-qara, qoyun əti və quş ətinə üstünlük verir, donuz əti və donuz ətindən hazırlanan məhsullar isə Azərbaycanda o qədər də çox istifadə edilmədiyindən bu göstərici üzrə idxaldan asılılıq faktorunun 80,1-74,3% hədlərində mövcud olması, fikrimizcə, təhlükəli tendensiya deyildir.

Yuxarıda qeyd etdiyimiz kimi, ölkənin ərzaq bazarı nəinki kənd təsərrüfatı məhsulları, o cümlədən bitkiçilik və heyvandarlıq məhsulları ilə təmin edilir. Ərzaq bazarının formalaşması və inkişafı bitkiçilik və heyvandarlıq məhsullarının təklifi ilə yanaşı, eyni zamanda həmin məhsulların emalı nəticəsində hazırlanmış əsas növ qida məhsulları sənayesinin istehsalının artırılmasından da bilavasitə asılıdır. Daha doğrusu, ərzaq bazarı həm emal olunmamış formada ərzaq məhsullarının təklifindən və eyni zamanda emal mərhələsi keçmiş qida sənayesi məhsullarının təklifindən formalaşır.

Qida sənayesi məhsulları üzrə özünütəminetmə səviyyəsinin dinamikası.

Məhz bütün bunları nəzərə alaraq əsas növ qida sənayesi məhsulları üzrə özünütəminetmə səviyyəsinin dinamikasına diqqət yetirilməsi vacibdir (Cədvəl 2.).

Cədvəl 2

Əsas növ sənaye məhsulları üzrə özünütəminetmə səviyyəsi, %

	2007	2008	2009	2010	2011	2012
Təmizlənmiş düyü	18,8	12,0	14,0	13,0	13,2	12,7
Un (bütün növləri)	96,8	90,8	94,6	95,1	84,1	94,1
Yarmalar (bütün növləri)	53,7	24,4	20,3	9,2	1,3	13,9
Tərkibində sirop, yumurta, pendir və ya meyvə cemi olmayan təzə çörək	99,99	99,99	99,99	99,99	99,99	99,98
Tortlar və şirniyyat məmulatları, şirinləşdirici maddələr qatılmış sair çörək-bulka məmulatları	80,0	78,1	72,5	70,6	60,6	61,4
Suxarı və peçenye istehsalı, uzun müddət saxlanan qənnadı məmulatları	23,3	26,6	14,9	22,2	21,3	30,4
Şəkərli-unlu qənnadı məmulatları	23,6	23,9	21,4	22,9	27,3	23,1
Makaron məmulatları	42,2	66,1	71,3	72,7	63,6	70,2
Bitki yağları	39,5	38,0	38,9	37,8	35,1	42,6
Marqarin	95,3	97,4	98,6	108,2	99,7	98,9
Meyvə və tərəvəz şirələri	96,3	176,9	124,3	134,1	119,8	100,8
Meyvə və tərəvəz konservləri	87,7	87,4	90,8	92,3	87,9	91,0
Yağlılığı 1-6 faiz olan süd və qaymaq	98,2	98,2	99,2	98,4	97,7	98,7
Yağlılığı 6 faizdən çox olan süd və qaymaq	85,4	88,8	88,8	87,7	88,6	94,6
Kərə yağı	76,6	84,2	52,2	50,0	50,2	50,5
Bütün növ pendirlər	91,6	91,4	87,7	85,7	86,5	88,6
Qatıq, qaymaq, yoqurt və s. məhsullar	94,9	93,8	93,6	93,5	89,5	92,2
Şəkər istehsalı üçün xammal	2,7	6,2	4,1	2,4	4,1	3,1
Şəkər və şəkərdən hazırlanan məhsullar	619,1	186,2	164,7	154,2	182,7	173,7
Çay	56,2	54,7	66,2	63,2	62,1	65,6
Duz	11,6	9,9	13,7	32,9	47,2	70,4
Şirinləşdirilməmiş mineral və qazlı sular	87,6	79,8	83,9	89,1	89,4	96,5
Şirinləşdirilmiş mineral və qazlı sular	97,1	95,6	91,6	90,8	90,3	92,4

Cədvəldən göründüyü kimi, 2007-2012-ci illərdə bir sıra əsas növ qida məhsulları üzrə özünütəminetmə səviyyəsinin dinamikasında bu və ya digər şəkildə dəyişikliklər baş vermişdir. Belə ki, 2012-ci ildə düyü üzrə özünütəminetmə səviyyəsi 12,7%, un məhsulları üzrə 94,1%, eləcə də şəkər və qənnadı məhsulları üzrə özünütəminetmə səviyyəsi 23,1%, makaron məmulatları üzrə 70,2%, bitki yağları üzrə 42,6%, marqarin üzrə 98,9%, meyvə və tərəvəz şirələri üzrə 100,8%, meyvə-tərəvəz konservləri üzrə 91%, qaymaq 97,8%, kərə yağı 50,5%, pendir 86,8%, şəkər istehsalı üçün xammal 173,7%, çay 65%, duz 70,4%, mineral və qazlı sular 96,5%, şirinləşdirilmiş mineral və qazlı sular 92,4% təşkil etmişdir. Cədvəldən göründüyü kimi, un məhsulları üzrə özünütəminetmə səviyyəsi 2007-ci illə müqayisədə 2012-ci ildə təxminən 2,7% azalsa da, digər məhsul

növləri üzrə özünütəminetmə səviyyəsinin yüksəlməsi tendensiyası müşahidə edilmişdir. Belə ki, makaron məmulatları ilə özünütəminetmə səviyyəsi əgər 2007-ci ildə 42,2% təşkil etmişdirsə, bu göstərici 2012-ci ildə 70,2%-ə, bitki yağları üzrə müqayisə olunan dövrdən 39,5%-dən 42,6%-ə, marqarin 95,3%-dən 98,9%-ə, meyvə-tərəvəz şirələri 96,3%-dən 100,8%-ə, meyvə-tərəvəz konservləri 87,7%-dən 91%-ə, çay 56,2%-dən 65,6%-ə, mineral qazlı sular 87,6%-dən 96,5%-ə qalxmışdır. Bu isə onu göstərir ki, respublikamızda qəbul olunmuş dövlət proqramları və eləcə də aqrar sahədə həyata keçirilən islahatlar özünün müsbət nəticələrini verir. Daha doğrusu, əgər 2000-ci illərin əvvəllərində respublikamızda emal məhsulları üzrə idxaldan asılılıq faktoru nəzərəçarpacaq dərəcədə yüksək idisə, artıq regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində qəbul edilmiş silsilə proqramların icrası nəticəsində bu göstəricinin artımı müşahidə edilmişdir.

Nəticə

Ümumiyyətlə, ərzaq bazarının mövcud vəziyyətinin təhlili belə qənaətə gəlməyə əsas verir ki, ərzaq bazarındakı mövcud vəziyyət beynəlxalq bazar konyunkturundan asılılığın səviyyəsini müəyyənləşdirməyə, eləcə də əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi səviyyəsini qiymətləndirməyə əsas verir və bu baxımdan ərzaq bazarındakı mövcud vəziyyətin sabitləşdirilməsi, qiymətlərin səviyyəsinin sabitləşdirilməsi, bütövlükdə cəmiyyətdə sosial-iqtisadi dayanıqlılığın yüksəldilməsinin başlıca şərtlərindən və təzahür göstəricilərindən biri hesab edilir. Bu baxımdan ərzaq bazarının mövcud vəziyyətini daim məqbul səviyyədə saxlamaq dövlətin sosial-iqtisadi siyasətinin qarşısında duran mühüm vəzifələrdən biri hesab edilir.

ƏDƏBİYYAT

1. Abbasov A.F. Sosial bazar iqtisadiyyatı. Bakı, 1998, 316 s.
2. Əhmədov A.T., Sadıqov N.Ə., Əmirova F.Ş. Bazar münasibətləri şəraitində kəndin əmək potensialından səmərəli istifadə edilməsi. Bakı, 1996, 165 s.
3. Əlirzayev Ə.Q. İslahatlar və sürətləndirmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri: Təcrübə, meyillər və perspektiv istiqamətlər. Bakı, 2005, 538 s.
4. Богомолов В.А. Экономическая безопасность. Москва, 2006, 303 с.

Ильгар Рауф оглы Султанлы
Университет “Одлар Юрду”

Продовольственная безопасность и факторы обуславливающие состояние рынка

Резюме

Для обеспечения продовольственной безопасности населения требуется устойчивая ситуация на рынке продовольствия, уровня цен, так же необходимо повышение устойчивости социально-экономической стабильности и в обществе в целом.

Ilqar Rauf Sultanli
University “Odlar Yurdu”

Food security and factors that contribute to the state of the market

Summary

Existing condition in food market, price stability and enhancement of socio - economic sustainability in the whole society are essential in order to provide food safety of population.

Key words: food security, food market, the level of price stability, socio - economic stability, ociety are essential in order to provide food safety of population.

Çapa imzalanmışdır: 20.09.2015
Format: 60x84, 1/8
Fiziki çap vərəqi: 22,5
Tirajı: 300 nüsxə
Jurnal Azərbaycan Kooperasiya Universitetinin
nəşriyyat-poliqrafiya şöbəsində yığılıb səhifələnmiş
və mətbəəsində çap edilmişdir.

Ünvan: Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi 93.